ƏNVƏR SEYİDOV

# HEYDƏR ƏLİYEV
# və
# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

Dərs vəsaiti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02 fevral 2009–cu il tarixli əmri ilə ali məktəb tələbələri üçün dərs vəsaiti kimi təsdiq edilmişdir

UniPrint

Bakı - 2009

Rəyçilər: Akademik **Z.Ə.Səmədzadə**

AMEA-nın müxbir üzvü, professor **Y.Ə.Məmmədov**

AMEA-nın müxbir üzvü, professor **N.M.Quliyev**

Tarix elmləri doktoru, professor **A.H.Paşazadə**

Hüquq elmləri doktoru, professor **A.M.Qasımov**

Hüquq elmləri doktoru, professor **İ.İ.İsmayılov**

Hüquq elmləri doktoru, professor **Ə.İ.Əliyev**

Tarix elmləri doktoru, professor **O.B.Sultanov**

İqtisad elmləri doktoru, professor **Ə.S.Allahverdiyev**

Baş redaktor: Hüquq elmləri doktoru **H.S.Qurbanov**

Redaktor: **Z.S.Nağıyev**

ISBN 978-9952-440-42-3

© Ə.C. Seyidov, 2009

## MÜNDƏRİCAT

Ön söz ..... 4
İstedadlı rəhbər, görkəmli dövlət xadimi və mahir diplomat Heydər Əliyevin tərcümeyi-halı ..... 7
Azərbaycan yeni inkişaf mərhələsində ..... 11
İdeoloji yürüş ..... 17
Qurtuluşa gedən yol ..... 22
Azərbaycan Konstitusiyasının tarixi haqqında qısa məlumat ..... 34
Konstitusiya elə bir sənəddir ki ..... 37
Konstitusiyada din ..... 43
Dil ən böyük sərvətdir ..... 49
Konstitusiyada beynəlxalq siyasət ..... 55
Heydər Əliyev və insan hüquq və azadlıqları siyasəti ..... 61
Müstəqil Azərbaycan dövlətinin inkişaf strategiyasına elmi-fəlsəfi baxış ..... 71
Konstitusiyada seçki sistemi ..... 78
İqtisadi durum və Konstitusiya ..... 82
1978-ci ildə Azərbaycanda siyasi durum və Konstitusiya ..... 89
Konstitusiyada ədalət mühakiməsi ..... 96
1921-ci il Konstitusiyası ..... 100
1937-ci il Konstitusiyası ..... 121
1978-ci il Konstitusiyası ..... 145
1995-ci il Konstitusiyası ..... 185
Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ..... 235

## *ÖN SÖZ*

*Ulu öndərin ən böyük xidmətlərindən biri və mühümü Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlaması və ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etməsi olmuşdur. Xalqımızın dahi oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 30 ildə onu ən sivil və çiçəklənən bir ölkəyə çevirmişdir. Ulu öndərə xas olan istedadlı rəhbər, görkəmli dövlət xadimi və mahir diplomat keyfiyyətləri dünya dövlətləri ilə əlaqələrin yaranmasında mühüm rol oynamışdır.*

*Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikada dövlət quruculuğu prosesini təşkil etmək idi ki, Heydər Əliyev bunu uğurla həyata keçirdi.*

*Azərbaycanda insan, söz və din azadlığı, dil və vicdan azadlığı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir ki, müstəqil Azərbaycan dövlətində məhz 1993-cü ildən başlayaraq bu prinsiplər bərqərar olmağa başladı. Ulu öndərin hakimiyyətə gəlişi ilə insan hüquqlarının qorunması üçün bütün təminatlar yaradıldı.*

*Heydər Əliyev, and içdiyi kimi, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı oldu. Demokratik cəmiyyət qurmaq dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunarkən çox asan və tez bir zamanda nail olunacaq bir hədəf kimi görünürdü. Lakin bu proses 1995-ci il noyabrın 12-də yeni Konstitusiyanın ümumxalq səsverməsi vasitəsilə qəbul edilməsindən sonra sürət götürdü.*

*Azərbaycan Respublikasının Konstitusiyası insan hüquqlarının təsbitində paternalizm konsepsiyasından qətiyyətlə imtina etdi. Burada insan hüquq və azadlıqları dövlət hakimiyyəti iradəsinin təzahürü kimi insanın mövcudluq faktı, insanın təbiəti ilə şərtlənən azadlıq ölçüsü kimi götürülməklə, insan hüquqlarının təsbiti və müdafiəsi, təbii hüquq norması üzərində quruldu.*



*Həm tarixi keçmişinin, həm də bu gününün olduğu kimi bütün dünyada tanınması gənc, müstəqil dövlətimizin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün mühüm vasitə olmalı idi. Heydər Əliyev məhz bunu bacardı.*

*Heydər Əliyevin hakimiyyətə yenidən gəldiyi gündən gördüyü işlərə nəzər saldıqda çox əhəmiyyətli bir inkişaf dialektikasının şahidi oluruq: öncə dövlət, sonra möhlət, daha sonra sərvət. Yəni, əvvəl dövləti yaratmaq, sonra şəxsiyyətin ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar hüquqlarına təminat verilməsi Konstitusiyanın mühüm müddəalarından biridir. Bu müddəa hüquqi yardım almaq, məhkəmədə müdafiə olunmaq, müdafiəçinin köməyindən istifadə etmək, məhkəmə qərarından şikayət vermək, təqsirsizlik prezumpsiyası hüququnu və başqa hüquqları əhatə edir. Bundan əlavə, Əsas Qanun məhkəmə aidiyyətinin dəyişdirilməsinə, eyni cinayət üstündə təkrar məhkum edilməyə, habelə qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol vermir. Konstitusiyaya görə, hər bir şəxsin cinayət, hakimiyyətdən sui-istifadə, yaxud dövlət orqanlarının və ya vəzifəli şəxslərin qanuna zidd hərəkətləri nəticəsində ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.*

*Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan 48 maddədən ibarət III fəslinin bütün mətni insana, insan ləyaqətinə, insan hüquqlarına hörmət ruhunda yazıldı. Bəşər sivilizasiyasının iki mütərəqqi ideyasının - konstitusionalizm və insan hüquqlarının müdafiəsi ideyalarının üzvü bağlılığı Azərbaycan Respublikasının Konstitusiyasında özünün layiqli ifadəsini tapdı.*

*İnsan hüquqları sahəsində atılan ən mühüm addımlardan biri, şübhəsiz ki, ölüm cəzasının ləğvidir. 1993-cü ildən Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyduğu müstəsna cəza növü, 10 fevral 1998-ci il tarixli qanunla tamamilə ləğv edildi. Azərbaycan Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın II Protokoluna qoşuldu. Milli liderimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Heydər Əliyevin hakimiyyəti illərinə düşən 1996-2003-cü illər ərzində 7 amnistiya aktı qəbul edilmişdir. Bu müddət ərzində amnistiya aktları 36.428 şəxsə tətbiq edilib ki, onlardan 31.584 nəfəri azadlıqdan məhrumetmə yerlərindən azad olunub. Əfv qaydasında 3.091 şəxs müxtəlif cəzalardan azad edilib. Onlardan 36-sı yeniyetmə, 64-ü qadın, 139 nəfəri əlil, xəstə və qocalardır.*

*Qeyd edək ki, Azərbaycanda insan hüquq və azadlıqlarının səmərəli təmin edilməsinin konstitusion əsasları ölkəmizdə məhz Heydər Əliyevin təşəbbüsü ilə 24 avqust 2002-ci il tarixdə keçirilmiş*

*referendum neticesinde daha da tekmilleşdirildi ve ilk defe olaraq Azerbaycan Respublikasının İnsan huquqları üzre Müvekkili tesisatının yaradılması ile bağlı müddealar tesbit edildi. 2002-ci ilin avqustunda qebul olunmuş "Azerbaycan Respublikasında insan hüquq ve azadlıqlarının heyata keçirilmesinin tenzimlenmesi haqqında" Konstitusiya Qanunu tenzim etdiyi meselelerin dairesine göre çox mühüm ehemiyyet kesb edir. Bu Qanun Azerbaycanda insan hüquq ve azadlıqlarının heyata keçirilmesini "İnsan hüquq ve azadlıqlarının müdafiesi haqqında" Konvensiyaya uyğunlaşdırmaq meqsedi daşıyır.*

*Azerbaycanda demokratikleşme ve insan hüquqlarına riayet istiqametinde aparılan meqsedyonlu siyasetin mentiqi neticesi olaraq, ölkemiz 2001-ci il yanvarın 25-de Avropa Şurasına tamhüquqlu üzv qebul edildi.*

*Milli Meclisin 90 illik yubileyi münasibetile keçirilen xüsusi iclasda nitq söyleyen Prezident İlham Əliyevin dövletimizin süretli inkişafını yüksek qiymetlendirerek, "Men çox şadam ki, bizim ölkemizin inkişafı üçün hakimiyyetin bütün qolları öz töhfelerini verirler" demesi ölkenin diger sahelerinde olduğu kimi hüquq siyasetinde de nailiyyetler elde edildiyini bir daha subut edir.*

*Ulu önderin hakimiyyetde olduğu illerde gosterdiyi fealiyyet Azerbaycan dövletinin inkişafının esasını teşkil etdiyine göre sözügeden derslik – «Heydər Əliyev və Azərbaycan Konstitusiyası» zeruri bilik menbeyi kimi ali mekteb telebeleri üçün nezerde tutulub.*

***A.M.Qasımov***

***Huquq elmleri doktoru, professor***



İSTEDADLI RƏHBƏR,

GÖRKƏMLİ DÖVLƏT XADİMİ VƏ MAHİR DİPLOMAT

# HEYDƏR ƏLİYEVİN

## TƏRCÜMEYİ-HALI

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur.

1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

II Dünya Müharibəsi başlanandan sonra – 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə mudiri vəzifəsində çalışmışdır.

1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir.

Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil alan Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini,

1967-ci ildən isə həmin komitənin sədri vəzifəsində işləmiş və general-mayor rütbəsinə qədər yüksəlmişdir.

1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur.

Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmiş, Azərbaycan xalqına törədilmiş faciə ilə bağlı başsağlığı teleqramı göndərmişdir.

1991-ci ilin iyulunda Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, sonra Azərbaycan Respublikası Ali Məclisinin sədri olmuşdur.

1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.



1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

2003-cü il dekabrın 12-də Azərbaycanın ümummilli lideri, Prezident Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Heydər Əliyev bir çox dövlət mükafatlarına – orden və medallara, beynəlxalq mükafatlara layiq görülmüş, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru seçilmişdir.

Heydər Əliyev Sovet Sosialist Respublikaları İttifaqı dövründə ölkənin ən yüksək mükafatı olan Lenin ordeninə dörd dəfə, Sosialist Əməyi Qəhrəmanı adına iki dəfə layiq görülmüşdür. O cümlədən, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, bir çox xarici dövlətlərin orden və medallarına layiq görülmüşdür.

Azərbaycan müstəqillik qazanandan sonra ölkənin prezidenti seçilən Milli liderimiz qonşu ölkələr tərəfindən mükafatlandırılmışdır.

27 mart 1997-ci ildə Kiyevdə Azərbaycanın dövlət başçısına Ukraynanın ali mükafatı olan "Yaroslav Mudrı" ordeni təqdim edilmişdir.

13 aprel 1999-cu ildə Prezident Heydər Əliyev Türkiyənin ən nüfuzlu mükafatı – "Atatürk Sülh Mükafatına" layiq görülmüşdür.

20 yanvar 2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Moskva Dövlət Universitetinin "Fəxri professoru" adı verilmişdir.

3 aprel 2003-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Huquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü seçilmiş, Y.V.Andropov adına mükafata layiq görülmüşdür.

10 may 2003-cü ildə isə Rusiyanın yüksək mukafatı – Müqəddəs Apostol Andrey Pervozvannı ordeni ilə təltif olunması barədə Fərman imzalanmışdır.

Ulu öndər Heydər Əliyevin ən böyük mükafatı isə Azərbaycan xalqının ona bəslədiyi sonsuz inam və sevgi idi.

Bu inam iki dəfə Ulu öndəri ölkənin rəhbəri kürsüsünə əyləşdirmişdir.

Bütün həyatı və fəaliyyəti boyu öz liderinə ümumxalq sevgisinin dəfələrlə şahidi olmuş dünya 2003-cü ilin müdhiş dekabr gecəsi bu inanılmaz sevginin bir daha şahidi oldu.

12 dekabr 2003-cü ildə Ulu öndərin vəfatı xəbərini alan Azərbaycan ayağa qalxdı. Və üç gün lideri gətirilənə, Vətən torpağına əmanət edilənə qədər Azərbaycan uyumadı. Üç gün Azərbaycanda gecə ilə gündüzün sərhəddi itdi. Rəhbərin çalışdığı binanın – Prezident Aparatı binasının pillələrini gül-çiçəyə qərq etdi. Vətən qarşısında övladlıq borcunu yerinə yetirib ömrünü məşələ çevirmiş Ulu rəhbərin xatirəsinə şam yandırdı. Və nəhayət, bütün dünya xalqın rəhbərinə olan sevgisinin ən pik nöqtəsinin şahidi oldu. Xalq öz rəhbərini bu böyük və sönməz sevginin ağuşunda torpağa tapşırdı.



## AZƏRBAYCAN YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Azərbaycan Respublikasının tarixi bir çox önəmli hadisələrlə zəngindir. Ancaq mənə elə gəlir ki, bu hadisələrin içərisində Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi bu tarixi hadisələrin içərisində xüsusi yer tutur.

**1969-cu il iyul ayının 14-də** dünya şöhrətli siyasətçi ilk dəfə respublikanın rəhbəri seçildi. Onun ikinci dəfə Azərbaycan Respublikasının – artıq müstəqilliyini elan etmiş bir dövlətin prezidentliyini təhvil alması, Azərbaycan tarixində artıq böyük Qayıdış bayramı kimi qeyd olunan ikinci dövr dövlətimizin suverenliyinin və bütövlüyünün təcəssümü oldu.

Yeni Konstitusiyanın, yəni Əsas Qanun qəbul etmə zərurətini meydana çıxaracaq çox mühüm faktorlardan biri də dinamik inkişaf edən, xalqın həyatını dəyişdirən sabit iqtisadiyyatın inkişafı idi.

Heydər Əliyevin uzaqgörən siyasəti öz bəhrəsini verdi. Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi tarixi zərurətə çevrildi.

**1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının yeni, sayca üçüncü Konstitusiyası – Əsas Qanunu qəbul edildi.**

Xalq hakimiyyəti prosesi olmaq etibarilə, o dövrün tələbi olan sosialist demokratiyasının genişləndirilməsinə və dərinləşməsinə mühüm yer verən sənəd, eyni zamanda, cəmiyyətimizin inkişafının baş perspektivini müəyyən edirdi. Bununla yanaşı, elmi-texniki tərəqqi əsasında iqtisadiyyatın inkişafı, xalqın rifahının yüksəldilməsi, cəmiyyətin formalaşması kimi aktual problemləri də özündə əks etdirirdi. Beynəlxalq fəaliyyət sahəsində isə ən əvvəl sosialist ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirmək, bütün dünyada sülhü möhkəmləndirmək sahəsində böyük və mürəkkəb vəzifələr həyata keçirmək kimi mühüm amillərin reallaşması üçün böyük perspektivlər vəd edirdi. Dövlət və cəmiyyət işlərinin idarə olunmasında zəhmətkeşlərin getdikcə daha geniş miqyasda iştirak etməsi, dövlət aparatının təkmilləşdirilməsi, ictimai təşkilatların fəallığının yüksəldilməsi, xalq nəzarətinin gücləndirilməsi, aşkarlığın genişləndirilməsi və ictimai rəyin

daim nəzərə alınması da Əsas Qanunun müddəalarında öz əksini tapırdı.

Respublikanın Konstitusiya praktikasında ilk dəfə olaraq Ali Sovetin daimi komissiyalarının statusu müəyyən edildi. Ali Sovetin səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilib hazırlanmasına, qanunvericilik aktlarının həyata keçirilməsinə, habelə dövlət orqanlarının və təşkilatlarının fəaliyyətinə nəzarət qoyulmasına kömək göstərilməsində bu komissiyalara mühüm yer verilirdi.

Azərbaycan SSR-nin yeni Konstitusiyasında şəxsiyyətin hüquqi statusuna, vətəndaşların əsas hüquq və azadlıqlarına həsr olunmuş bölmə başlıca yer tuturdu.

Dövlətimizin inkişafının müasir səviyyəsi nəzərə alınmaqla qadınlarla kişilərin hüquq bərabərliyinin təmin edilməsinə dair Konstitusiya prinsipi daha dolğun şəkildə göstərilirdi. **Konstitusiyanın 33-cü maddəsində** deyilirdi ki, Azərbaycan SSR-də qadın və kişi bərabər hüquqlara malikdirlər. Qeyd etmək çox vacibdir ki, Azərbaycan Sovet dövlətinin tərkibində olmasına baxmayaraq, məhz qadın hüquqları məsələsində dünyanın bir çox aparıcı və demokratik ölkələrini üstələmişdi. Məsələn, nəhəng Şərq dövləti olan Türkiyə Respublikasında qadın hüquqları ilə bağlı bu məsələ az qala Azərbaycandan yarım əsr sonra həll edildi. Bir çox Avropa dövlətlərində qadınların səsvermə hüququ rəsmi olaraq II Dünya Müharibəsindən sonra tanındı. Bu sahədə Azərbaycanın qazandığı uğur ən böyük nailiyyətlərimizdən biri idi.

Keçmişdə məzlum və hüquqsuz olmuş azərbaycanlı qadın əsrlər boyu sosial və dini əsarətin rəmzi kimi gəzdirdiyi çadranı atmış, ictimai və mənəvi həyata qoşulmuşdu. Yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycan qadınının həyatında daha bir dönüş baş verdi. Qeyd edək ki, həmin dövrdə xalq təsərrüfatında işləyənlərin 40, həkimlərin 60, müəllimlərin və mədəni-maarif müəssisələri işçilərinin 56 faizindən çoxunu qadınlar təşkil edirdi.

Cəmiyyətdə demokratiyanın inkişafı, vətəndaşların hüquqlarının mühafizəsi və qanunçuluğun möhkəmlənməsi bir-birinə qarşı durmur, əksinə, bir-birini tamamlayır, xalqın, dövlətin və şəxsiyyətin mənafeyinin vəhdətini təmin edirdi.

Konstitusiyada mühüm yer tutan Azərbaycan SSR-in milli-dövlət və inzibati-ərazi quruluşu məsələləri xüsusi bölməni əhatə edirdi.

Əməkdaşlıq və qarşılıqlı yardım prinsipi əsasında əlaqələrin inkişafına təkan verəcək bu məsələlərdə uzaqgörən siyasətçi Heydər Əliyev Azərbaycan Rusiyaya tabe edilsə də, bu əlaqələrdən və ta-



beçilikdən respublikanın xeyrinə maksimum istifadə etməyə çalışır və buna nail olurdu.

Konstitusiya deputatların ümumi sayını müəyyən etmir, yalnız nümayəndəlik normasını nəzərdə tuturdu. Azərbaycan Respublikasının doqquzuncu çağırışı zamanı Ali Sovetə 400 deputat seçilmişdi. Konstitusiyada nəzərdə tutulurdu ki, Azərbaycan SSR Ali Soveti 450 deputatdan ibarətdir və onlar əhalisinin sayı bərabər olan seçki dairələrindən seçilirlər. SSRİ Konstitusiyasında da qəbul olunduğu kimi, respublikada Ali Sovetin vəkalət müddəti beş il müəyyən edilmişdi.

Konstitusiyada Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin hüquqi vəziyyəti geniş müəyyən olunmuş, Ali Sovetin Rəyasət Heyətinin tərkibində bəzi dəyişikliklər edilmiş, rəyasət heyətində üç müavin və 16 üzv olması nəzərdə tutulmuşdur.

1978-ci il Konstitusiyası respublikamıza SSRİ Ali Sovetində, SSRİ Ali Sovetinin Rəyasət Heyətində, SSRİ hökumətində və SSR İttifaqının başqa orqanlarında SSR İttifaqının səlahiyyətinə aid məsələlərin həllində iştirak etmək hüququ verirdi. Öz səlahiyyətinə aid məsələlərdə Azərbaycan SSR ittifaq tabeliyində olub, respublikanın ərazisində yerləşən müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətini əlaqələndirir və ona nəzarət edirdi. Bu müddəa ümumdövlət məsələlərinin həllində bütün müttəfiq respublikalar kimi, Azərbaycan SSR-in də rolunun yüksəlməsinə səbəb olmuşdur.

Çoxmillətli respublikamızda bütün xalqların nümayəndələri Əsas Qanunun tənzimlədiyi şəkildə vahid, mehriban ailə kimi yaşayırdı. Konstitusiya respublikanın hər bir vətəndaşına təhsil almaqda, seçdiyi ixtisas üzrə işləməkdə bərabər hüquqlar və təminatlar verir, hərtərəfli, ahəngdar inkişaf üçün hər cür şərait yaradırdı.

Qeyd etmək vacibdir ki, respublikamızın Əsas Qanununun mətninə ilk dəfə olaraq xarici siyasət fəaliyyəti və torpaqlarımızın müdafiəsi haqqında fəsil də daxil edilmişdi. Bu fəsildə Azərbaycan SSR-nin öz xarici siyasət fəaliyyətində məqsəd, vəzifə və prinsipləri əks olunmuşdu.

Dil məsələsi isə əsas prinsiplərdən biri idi. Ulu öndər Konstitusiyanı hazırlayan komissiyanın sədri idi və bu işlərə şəxsən rəhbərlik edirdi. Əsas Qanuna Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddəyə əlavə dəyişiklik edildi.

Moskva bu dəyişikliyi böyük etirazla qarşıladı. Digər qardaş respublikaları Azərbaycan rəhbərinə misal gətirir və onlardan nümunə götürməyə çağırırdılar. Rəsmi Moskva ilə Heydər Əliyevin danışıqları çox gərgin keçirdi. Azərbaycan rəhbərliyi sübut etməyə çalışırdı ki, dövlət olaraq milli dilin dövlət dili olduğunu öz konstitusiyasına yaz-

malıdır və buna nail olacaq.

Moskva Azərbaycanın bu məsələsini dəfələrlə müzakirə etsə də, Heydər Əliyevi fikrindən döndərə bilmədi. 1978-ci ildə Azərbaycanın Konstitusiyası həmin dəyişikliklə qəbul edildi.

**Konstitusiyanın 73-cü maddəsində yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir.** «Xatirimdədir, o vaxt başqa respublikanın rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O, buna çox etiraz edirdi. Belə əsaslandırırdı ki, siz belə yazdığınız halda gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu». Heydər Əliyev həmin gərgin vaxtları sonralar belə xatırlayırdı.

1978-ci ildə qəbul edilmiş Azərbaycan Konstitusiyasında dövlət dili haqqında maddə yer alanda köhnə sovetlər ittifaqının on beş respublikasından yalnız ikisində – Gürcüstan və Ermənistanın konstitusiyalarında dövlət dili haqqında maddə var idi. Qalan respublikaların heç birinin konstitusiyasında dövlət dili haqqında maddə nəzərdə tutulmamışdı. Hətta həmişə millətçi hesab edilən Baltikyanı respublikaların konstitusiyalarında belə dövlət dili haqqında maddə yazılmamışdı. Baxmayaraq ki, bu respublikalar öz milli ənənələrini başqalarına nisbətən daha çox qoruyub saxlamağa çalışırdılar.

Bir sözlə, Milli liderimizin səyləri nəticəsində "Azərbaycan SSR-in milli-dövlət və inzibati-ərazi quruluşu" fəslinə dil haqqında xüsusi maddə əlavə etmək məqsədəuyğun sayıldı. 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olundu: «Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif və digər sahələrdə Azərbaycan dilinin işlədilməsi təmin edilir və hərtərəfli inkişafına dövlət qayğısı göstərilir.

Azərbaycan SSR-də rus dilinin, habelə əhalinin danışdığı başqa dillərin bütün bu orqanlarda və idarələrdə hüquq bərabərliyi əsasında azad surətdə işlədilməsi təmin edilir.

Bu və ya başqa dillərin işlədilməsində heç bir imtiyaza və ya məhdudiyyətə yol verilmir».

Bu, həmin o millətçi damğasından məharətlə yayınmaq və Azərbaycanda demokratik prinsiplərə layiqincə əməl etməyin göstəricisi idi.



**1978-ci il aprelin 21-də Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) qəbul olunması haqqında bəyannamə verildi.**

Bu sənədin qəbul edilməsi Azərbaycan Respublikasının Ulu öndər Heydər Əliyevin timsalında o dövr üçün əldə etdiyi ən böyük nailiyyət idi.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti iqtisadi, mədəni və siyasi inkişafda çox böyük müvəffəqiyyətlər qazanması da birbaşa Heydər Əliyevin adı ilə bağlıdır.

Hər bir muxtariyyət öz iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirməklə Sovet çoxmillətli dövlətinin ümumi vəzifələrinin yerinə yetirilməsinə böyük kömək göstərir. Buna görə də Kommunist Partiyası sovet muxtariyyətinin bütün növlərindən tamamilə istifadə etmək və onları təkmilləşdirmək vəzifəsini qarşıya qoyur. Buna müvafiq olaraq, Azərbaycan SSR-in Naxçıvan Muxtar Sovet Sosialist Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti statusunun əsaslarını müəyyən edən iki fəsil vardır.

Azərbaycan SSR-in yeni Konstitusiyasında nəzərə alınırdı ki, Naxçıvan MSSR Konstitusiyasında və Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında qanunda bunlar daha da inkişaf etdiriləcək və hüquqi cəhətdən konkret şəkildə nizama salınacaqdır.

Azərbaycan SSR-in yeni Konstitusiyası bir sıra mühüm qanunvericilik aktlarının işlənib hazırlanmasını, ən əvvəl Naxçıvan MSSR Konstitusiyasının qəbul edilməsini nəzərdə tuturdu. Respublika Ali Sovetinə və yerli xalq deputatları Sovetlərinə seçkilər haqqında yeni qanunların layihələri, Ali Sovetin reqlamentinin, respublika Nazirlər Soveti haqqında Qanunun, Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Qanunun layihələri işlənib ali dövlət hakimiyyəti orqanının müzakirəsinə verildi.

SSRİ Konstitusiyasına uyğun surətdə respublikanın Əsas Qanununun mətninə ilk dəfə olaraq xarici siyasət fəaliyyəti və sosialist Vətəninin müdafiəsi haqqında fəsil daxil edildi.

Burada deyilirdi ki, Azərbaycan SSR öz xarici siyasət fəaliyyətində SSRİ Konstitusiyasının müəyyən etdiyi xarici siyasət məqsədlərini, vəzifələrini və prinsiplərini rəhbər tutur.

**Komissiyanın müzakirəsinə 4.443 təklif verilmişdi. Təkliflər çox böyük diqqətlə və ən ciddi şəkildə nəzərdən keçirilmiş, alimlərin, mütəxəssislərin cəlb edildiyi komissiya layihənin 67 maddəsində dəyişiklik etmək və layihəyə 5 yeni maddə artırmağı**

**meqsedeuyğun saymışdır.**

Azərbaycan SSR iqtisadiyyatı SSRİ ərazisində ictimai istehsalın, bölgünün və mübadilənin bütün sahələrini əhatə edən vahid xalq təsərrüfatı kompleksinin tərkib hissəsi olduğundan ona uyğunlaşdırılmaqla, sahə və ərazi prinsipləri nəzərə alınır, dövlət iqtisadi və sosial inkişaf planları əsasında həyata keçirilirdi.

Konstitusiyada Azərbaycan SSR-in dövlət iqtisadi və sosial inkişaf planları iqtisadiyyat və sosial-mədəni quruculuq sahəsində vəzifələri müəyyən edilirdi. Azərbaycan SSR ərazisində xalq təsərrüfatı sahələrinin və iqtisadi rayonların məqsədli kompleks inkişaf proqramları planauyğun əhatə edilərək, ona Naxçıvan MSSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin, respublika tabeliyində olan rayonların və şəhərlərin iqtisadi və sosial inkişafı planları da daxil olunmuşdur.

**Respublika Dövlət büdcəsi də hərtərəfli işlənib hazırlanmış və respublikanın inkişaf istiqamətləri əks olunmaqla 161-ci maddəyə salınmışdır. Maddədə göstərilirdi ki, Azərbaycan SSR Dövlət büdcəsi SSRİ və Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planları və SSRİ Dövlət büdcəsi əsasında Azərbaycan SSR Nazirlər Soveti tərəfindən işlənib hazırlanır, Azərbaycan SSR Nazirlər Sovetinin məruzəsi və Azərbaycan SSR Ali Sovetinin plan-büdcə və başqa daimi komissiyalarının rəyi əsasında Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilir.**

O dövrdə xalq deputatları Sovetlərinin icraiyyə komitələri ikiqat tabelikdə, yəni, icraiyyə komitələri onları seçən Sovetin, habelə yuxarı icra və sərəncam orqanlarının bilavasitə nəzarəti altında olmaqla onlara hesabat verirdilər.

Belə ikiqat tabelik mərkəzin mənafeyini nəzərə almağa, onu yerli şəraitlə, yerli xüsusiyyətlərlə əlaqələndirməyə imkan verən demokratik mərkəziyyət prinsipinin ifadə formalarından biri idi.



## İDEOLOJİ YÜRÜŞ

**"Milli ideologiyamızın yaranması və formalaşmasında mədəni irsimiz böyük xəzinədir"**

**Heydər Əliyev**

**«Azərbaycan xalqı üçüncü minilliyə də Heydər Əliyevin adı ilə qədəm qoymuşdur. Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsindən ibarət olmuşdur.»**

**Ramiz Mehdiyev**

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın rəhbərliyində təmsil olunması bütün sahələrdə olduğu kimi ictimai-mədəni həyatımızda da dönüş yaratdı. Böyük öndərin keçdiyi mübarizə yolu iki etapdan – 1969-83-cü və respublikamız müstəqillik qazandıqdan sonra gərgin və ağır zəhmət müqabilində qazanılmış uğurlar erası 1993-2003-cü illəri əhatə edir.

1993-cü ildə milli dövlətçiliyinə və ərazi bütövlüyünə böyük zərbələr vurulmuş Azərbaycan Heydər Əliyevin rəhbərlik etdiyi illərdə ictimai-siyasi, sosial-iqtisadi proseslər dövrünə qədəm qoydu. **Milli ideologiyanın formalaşması məhz mədəni irsimizin öyrənilməsi və təbliğ edilməsi istiqamətində quruldu. Bu strategiya Ulu öndərin uğurla həyata keçirdiyi siyasətin tərkib hissəsiydi.**

1994-cü ildən – prezident seçiləndən az sonra milli ideologiyanın formalaşması yolunda siyasi yürüşə başlayan Ulu öndərin ilk işlərindən biri xalqın maarifçi və ictimai xadimlərinin xatirə muzeylərinin yaradılması üçün verdiyi sərəncam oldu. Vurğulamaq vacibdir ki, Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri Heydər Əliyevin göstərişi və xüsusi tapşırığı ilə 70-ci illərin əvvəllərində Bakıda və respublikanın müxtəlif regionlarında xalqımızın böyük şəxsiyyətlərinin ev-muzeylərinin yaradılmasına başlanılmış, ilk belə muzey böyük bəstəkarımız Üzeyir Hacıbəyovun ev-muzeyi, bu siyahıya 1976-cı ildə böyük şairimiz Səməd Vurğunun ev-muzeyi əlavə edilmişdir.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldiyi gündən Azərbaycan klassiklərinin yaradıcılığına xususi diqqət ayırırdı. Yubileylərin qeyd olunması kimi sadə görünən bir mərasimdən başlanan diqqət və qayğı, nəhayət, analoqu olmayan siyasi aktla nəticələnirdi.

1982-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi münasibəti ilə Ulu öndər onun cənazəsinin Azərbaycana gətirilməsi haqqında qərar qəbul etdi.

Heydər Əliyevin sərəncamından sonra Hüseyn Cavidin anadan olmasının 100 illiyi münasibətilə 1982-ci ilin oktyabr-noyabr aylarında Bakı və Moskvada təntənəli gecələr təşkil olundu. Bakı və Naxçıvanda Hüseyn Cavidə abidələr qoyuldu, xatirə muzeyləri yaradıldı. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının ikinci səhnəsi kimi «Hüseyn Cavid poeziyası teatrı» yaradıldı.

Mövcud hakimiyyətin – Sovet rejiminin repressiya maşınının qurbanı olmuş bir insanın məzarının qürbətdən Vətənə köçürülməsi isə milli yaddaşın intibahı kimi ictimai şüura həkk olundu. 1982-ci ildə bu gerçək intibah, mənəvi üsyan Azərbaycanın rəhbəri Heydər Əliyevin ənənəvi vassal psixologiyasına qarşı siyasi qiyamı kimi qəbul olundu...

Nəhəng repressiya maşınının üyüdüb itirdiklərindən, Sibirin buzlu torpaqlarına gömdüyü insanlardan biri də Azərbaycanın dahi oğlu Hüseyn Cavid idi. Bütöv millətin "Əfəndim" deyib xitab etdiyi bir insan türkçülük ideyasına görə sürgün edilmişdi.

1982-ci ildə Hüseyn Cavidin cənazəsini Uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Böyük iradə və cəsarət tələb edən bu işdə Heydər Əliyevə xalqına, millətinə, tarixinə olan sədaqəti bütün təhlükə və çətinlikləri yenməyə yardımçı oldu.

Sovet rejiminin repressiya maşınını durdurmağa yalnız Heydər Əliyev cəsarət edə bilərdi. Əslində, bu maşın dağıldığı vaxta qədər öz işində olub. Vaxtı keçmiş və lüzumsuz bəraətlər veriləndən sonra da bu repressiya davam etmiş, millətin ziyalıları sovetin qanlı maşınında məhv edilmişdir.

Rejimin amansızlığıyla pərən-pərən düşmüş ailənin üzvləri – Cavid əfəndi, Muşkinaz xanım, övladları Ərtoğrul və Turan xanım Naxçıvan torpağında dəfn olundu. Bu tarixə gəlib yetişməyə uzun, yaşanası bir ömür vardı və Ulu öndər Heydər Əliyevin cəsarəti ömür dolayının birində Hüseyn Cavidin Azərbaycana qaytarılmasını reallaşdırdı...

Bu repressiyanın caynaqlarını ilk dəfə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev sındırmış, 1937-1945-ci illərdə repressiya qurbanlarının cinayət işlərinin nəticələri Azərbaycan SSR Mərkəzi



Komitəsində geniş müzakirə edilərək, Ali Məhkəmənin hakimləri tərəfindən yenidən yoxlanmasına sərəncam vermiş və bir çox günahsız insanlar bəraət almışdır. Heydər Əliyev Azərbaycanın timsalında sovet rejiminə üsyan edib, "bəsdir" demişdir.

**Ümummilli lider Heydər Əliyev bildirirdi: «Bu, mənim qərarım idi ki, cənazə Naxçıvana gətirilsin. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Ona görə də Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa verilməsi, həm Hüseyn Cavidin ruhuna olan hörmət idi, həm də Azərbaycanın ayrılmaz hissəsi, müqəddəs guşəsi olan Naxçıvana hörmət və ehtiramın əlaməti idi». Ulu öndər bununla da Naxçıvanın Azərbaycandan ayrılmaz olduğunu elan etdi.**

**Dövlət başçısı Heydər Əliyev torpağından ayrılmış ulu Cavidi Vətənə gətirməklə, Azərbaycan xalqının böyüklüyünü bir daha isbatladı. Və eyni zamanda, bütün cavidsevərlərin – hər bir azərbaycanlının qəlbində özünə heykəl ucaltdı.**

Heydər Əliyevin Moskvaya – SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsinə çağırılması ilə Azərbaycanda vüsət götürmüş ideoloji yürüş yarımçıq qaldı.

Onun respublikadan getməsi ilə bütün bu işlər donduruldu.

Heydər Əliyev hər bir mədəniyyət mərkəzinin, muzeylərin mədəni irsimizi, tariximizi təbliğ etməklə yanaşı, böyük tərbiyə ocaqları olduğundan onların sistemli şəkildə təşkilinə ciddi fikir verirdi. O, milli ideologiyanın formalaşması ilə yanaşı, millətinin mənəvi tərbiyəsinin də qayğısına qalırdı. Məhz yaradıcılıq və fəaliyyətləri milli oyanışda və dirçəlişdə əvəzsiz rol oynayan insanların irsinə xüsusi diqqət xalqın mənəvi saflığı və müstəqillik yolunda mübarizəsinə yardımçı ola bilərdi. Müstəqilliyini əldə etmiş bir dövlətin milli ideologiyasını yenidən yaratmaq və təkmilləşdirmək üçün Azərbaycanın tarixi keçmişini, milli-mənəvi sərvətlərini bu gün və gələcəklə ilhaq etmək mütləq idi.

Bu məqsədlə də Heydər Əliyevin xüsusi sərəncamı ilə 1996-cı ildə Məhəmməd Füzulinin 500 illik yubileyi münasibəti ilə geniş tədbirlər planı üç ili əhatə edən silsilə şəklində həyata keçirildi. Təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində və şəhərlərində – Türkiyədə, Ankarada, İstanbulda, Rusiyada, İraqda, Kərbəlada, Kərkükdə, İranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda, Dərbənddə, Mahaçqalada, Parisdə, YUNESKO-nun baş qərargahında yubiley münasibəti ilə bağlı mərasimlər reallaşdı.

Bununla da Ulu öndər Füzuli irsini bütün türкdilli dövlətlərin diqqət mərкəzinə gətirdi.

Ulu öndər öz yubiley çıxışlarında birliкdən, bütün Türк dünyasını birləşdirən qədim tariximizdən və ənənələrimizdən söhbət açırdı. Bu birliк dünyanın düzəninin yeni mərhələsində bütün türк dövlətləri üçün çox vacib bir faкtor idi.

Respubliкamız müstəqilliк yoluna qədəm qoyandan sonra tariximizi bir də yenidən vərəqləməк və dünyaya nümayiş etdirməк məqsədi ilə кeçirilən mərasimləri sırasında 1999-cu ilin iyun ayında reallaşan "Dədə Qorqud" dastanı yubileyi önəmli yer tutur.

Həmin tarixdə Baкıda türкdilli dövlətlərin başçılarının ənənəvi zirvə görüşünə "Dədə Qorqud" dastanı yubileyinin zirvə mərasimi də daxil idi. Ulu öndər bu yubileyə xüsusi önəm verirdi: "Onlar "Dədə Qorqud" dastanının yubileyini öz xalqlarının da yubileyləri кimi qəbul edirlər." Bu isə türкdilli xalqların bir araya gəlməsi, yenidən birləşməsi üçün gözəl fürsət idi. Füzulinin 500 illiк yubileyi zamanı da Azərbaycan Prezidentinin siyasəti qonşularımızı heyrətləndirmişdi. **"Gürcüstan parlamentinin sədri Zurab Cvaniya həmin tədbirdə iştiraк edirdi. Biz "Gülüstan" sarayında axşam mərasimindəydiк. O mənim yanımda oturmuşdu, heyranlıqla söyləyirdi кi, "Baxın, Azərbaycan nə edir. Azərbaycan bütün türк dünyasını bura yığıbdır. Görün, türк dünyası nədən ibarətdir". Zurab Cvaniya o qədər heyran olmuşdu кi, bunu gizlədə bilmirdi."** Bu sətirlər Heydər Əliyevin öz çıxışından götürülüb.

"Dədə Qorqud" dastanı yubileyinin belə təntənəli кeçirilməsinin daha bir məqsədi vardı.

Heydər Əliyev yeni bir sərvətin, heç vaxt tüкənməyəcəк, bitməyəcəк bir sərvətin sorağındaydı. Bütün çətinliкlərə, ərazilərimizin işğal olunmasına, bir milyon soydaşımızın qaçqın və кöçкün düşməsindən yaranan problemlərə baxmayaraq, həmin sərvəti əldə etməyi bacardı. **«Çünкi hər bir belə yubiley tədbiri bizim mədəniyyətimizi, tariximizi, millətimizin milliliyini təbliğ edir.**

**Müstəqil dövlət кimi xalqımızın milli кöкlərini, tarixini, qədim mədəniyyətini, böyüкlüyünü öz vətəndaşlarımıza da, bütün dünyaya da göstərməliyiк, təbliğ etməliyiк.»** Ümummilli liderin uzaqgörən siyasəti məhz bunu tələb edirdi. "Azərbaycan xalqının dərin кöкü, tarixi yoxdur", "onlar кeçmişi olmayan кöçəri xalqdır" – deyə bütün dünyada əleyhimizə aparılan təbliğatın qarşısında beynəlxalq mədəniyyət tədbirlərinin кeçirilməsindən gözəl və tutarlı faкtımız yox-



dur. Ulu öndər tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyinə diqqət yetirir, eyni zamanda, tarixi кöкlərimizin dərinliyini xatırladır, hələ 1300 il bundan əvvəlкi dövrdə xalqımızın böyüк bir eposu olduğunu vurğulayırdı.

Elə siyasi xətt tutmaq lazım idi кi, milli strategiyanı maкsimum həyata кeçirməк mümкün olsun, eyni zamanda, respubliкa rəhbərliyində çalışanlara millətçi yarlığı ilə işdən uzaqlaşdırmasınlar. Artıq Azərbaycan bir dəfə bu acı təcrübəni yaşamışdı. 1969-83-cü illərdə həyata кeçirilən tədbirlərdə bu кriteriyalar gözlənirdi. Əкs halda, Azərbaycan Qazaxıstanın aqibətinə duçar ola bilərdi. Qorbaçov haкimiyyətində Qazaxıstanda respubliкanın rəhbərliyində təmsil olunmağa milli кadr "tapılmırdı."

Ulu öndər Azərbaycan tarixinin həm də Milli кinomuzda təmsil olunmasına çalışırdı. Çünкi eкran əsəri dünyaya çıxış üçün ən yaxşı vasitə idi. "Dədə Qorqud" filminin eкranlara çıxması 1300 il əvvəl xalqımızın böyüк bir eposu olduğunu sərgiləyirdi. Məhz Heydər Əliyevin haкimiyyətdə olduğu birinci dövrdə "Dədə Qorqud" filmi yaradıldı. Qədim tariximizi əкs etdirən və indinin özünə qədər də birinciliyini qoruyub saxlayan film, həm də Azərbaycanın "məlumat кitabçası" кimi eкrana çıxdı.

"Dədə Qorqud" yubileyinin кeçirilməsi türк dünyasına türк xalqları və onların ümumi кöкləri, müştərəк mədəniyyəti, tarixi haqqında birliкdə müzaкirələr və fiкir mübadiləsi aparmaq imкanı yaradırdı. Belə imкan qırğız eposu "Manas"ın 1000 illiк yubileyində də yaranmışdı. **"Dədə Qorqud" dastanının yubileyi bu baxımdan böyüк siyasi əhəmiyyət daşıyırdı.**

Türкün кöкü və mədəniyyəti eynidir. O cümlədən tariximizin bir кöкdən boy verərəк haçalandığı dövrlər olub. "Dədə Qorqud" dastanı həmin dövrün qan yaddaşına açılan qapıdır. Heydər Əliyev dühası həmin dünyanı yenidən birləşdirməк üçün, bir araya gətirməк və bir araya gəlmiş türк dünyasına "gəlin birləşəк, bir olaq" deməк üçün "Kitabi-Dədə Qorqud"u vasitə etdi. Qırğızıstanda "Manas"ın, Qazaxıstanda Abayın yubileyləri qeyd edildi. Özbəкistanda Əmir Teymur, Azərbaycanda "Dədə Qorqud" ev sahibliyi etdi. Onlar həm qırğızın, həm qazaxın, həm özbəyin, həm Azərbaycanın, bir sözlə, bütün türкdilli dövlətlərindir. Nəhayət, uzun ayrılıqdan sonra böyüк Türк dünyası öz tarixinin işığına yığışdı.

## QURTULUŞA GEDƏN YOL

Müasir tariximizin ən əlamətdar hadisəsi 15 İyun - Qurtuluş Günü Azərbaycanda hakimiyyət dəyişikliyinin əsasının qoyulduğu - görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtdığı gündür

Ulu öndər hakimiyyətə gəlməsəydi, Azərbaycan müstəqilliyini qoruyub saxlaya biləcəkdimi? Dünya şöhrətli siyasətçi Azərbaycan dövlətçiliyinin əsaslarını sarsıtmış 4 iyun qiyamının və separatçı hərəkətlərin qarşısını necə ala bildi? Azərbaycanın ən yeni tarixinə Gəncə qiyamı adı ilə düşən hadisələrin ağır sosial-iqtisadi, siyasi-diplomatik nəticələrini nəzərdən keçirərkən ən əvvəl o zamankı daxili ictimai-siyasi durumun özünəməxsus xüsusiyyətlərinə diqqət yetirmək lazımdır Bir illik AXC hakimiyyəti ərzində ölkədə radikal siyasi güclərlə bərabər, dağıdıcı hərbi dırnaqarası müxalifət də formalaşa bilmişdi Bu iki qüvvənin liderleri arasındakı sıx əməkdaşlıq isə birbaşa hakimiyyəti ələ keçirməyə xidmət edirdi

Yaranmış tarixi vəziyyətdən istifadə edərək Azərbaycanı parçalamaq istəyən xarici qüvvələrin fəallaşması nəticəsində cəlb olunduğu Qarabağ müharibəsində bir-birinin ardınca ərazilərini itirən respublika dunya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı.

Hadisələrin sürətli inkişafı 1993-cü ilin 4 iyun tarixini də ölkəmizin taleyinə yazdı

Həmin gün səhər açılar-açılmaz respublikanın ikinci böyük şəhəri Gəncədə AXC-Müsavat iqtidarı tərəfindən əvvəlcədən hazırlanan əməliyyat həyata keçirildi, ağlı və peşəkarlığı son dərəcə aşağı olan şəxslərin atdığı addımlar qardaş qırğınına səbəb oldu, günahsız insanların qanının tökülməsi ilə nəticələndi. Hakimiyyətdə onların qorxaqlığından və fərsizliyindən istifadə edən Surət Hüseynov əks-hücuma keçərək qısa zaman ərzində Gəncə şəhərini nəzarətə götürə bildi Şəhərdə fəaliyyət göstərən dövlət strukturlarının qiyamçıların nəzarətinə keçməsi mövcud vəziyyət barədə dəqiq məlumat almaq imkanından məhrum olan respublika rəhbərliyini təşvişə saldı və iradəsini tamamilə itirən AXC-Müsavat iqtidarı əlaqəsiz, məntiqdən uzaq addımlar atmağa başladı. Baş vermiş hadisəyə ilkin reaksiya olaraq qanlı əməliyyatı davam etdirmək, Gəncəyə yeni hərbi qüvvələr göndərmək qərara alındı Lakin qorxaqlıq yenə üstün gəldi. Və dinc vasitələrlə böhranı aradan qaldırmaq istiqamətində fəaliyyət başlandı. Böhran anında hakimiyyətin tərəddüd etməsi, qəti mövqe tutmaması, əlaqəsiz addımlar atması qiyamçıların ümidlərini artırdı, onları daha fəal hərəkətlər etməyə ürəkləndirdi.



İlk anlar qorxu qarışıq təşviş içərisində olan və vəziyyətdən bir təhər çıxmaq üçün yollar axtaran qiyamçılar hakimiyyəti ələ keçirməyin mümkünlüyünü hiss edərək ətraf rayonları da nəzarətə götürməyə başladılar Hadisələrin bu istiqamətdə inkişafı xarici qüvvələri daha da fəallaşdırdı. Və onlar da öz məqsədlərinə nail olmaq üçün qəti hərəkətə keçdilər

Məlumatsızlıq şəraitində Gəncədə baş vermiş dəhşətli hadisə barədə ölkədə dolaşan müxtəlif şayiələr şişirdilərək əhali arasında vahiməni artırdı. Səhih məlumat almaq isə mümkün deyildi Həm hakimiyyət və onun nəzarətində olan Kütləvi İnformasiya Vasitələri, həm də əks-cəbhədə dayanan qüvvələr susurdu. Son dərəcə ağır vəziyyət yaranmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı olan qədim Gəncə şəhərində faciə baş vermiş, xeyli insan həlak olmuş, yaralanmış və girov götürülmüşdü Əməliyyatın keçirilməsi üçün Gəncəyə gəlmiş respublikanın baş prokuroru İxtiyar Şirinov, milli təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbərov, daxili işlər nazirinin birinci müavini Qabil Məmmədov və digərlər dövlət rəsmiləri girov götürülənlər arasında idi

Beləliklə, AXC-Müsavat iqtidarı **4 iyun 1993-cü il** tarixdə uzun müddət hazırladığı əməliyyatı həyata keçirərkən sarsıdıcı məğlubiyyətə uğradı və Surət Hüseynovun dəstələri elə həmin gün Gəncəni ələ keçirdi. Sonradan bütün mübahisələr əməliyyatın olub-olmaması (əməLiyyatın hazırlanmasını ilk günlər iqtidar mənsubları inkar etsələr də, sonralar hamı bunu etiraf etdi) barədə deyil, həmin əməliyyatın adının «Tufan» olub-olmaması ətrafında getdi

Araşdırmalar zamanı Gəncədə keçirilən əməliyyatın adı müəyyən olunmasa da, üzərində «Tufan» yazılmış paketlərin Mudafiə Nazirliyi tərəfindən hazırlanaraq, müəyyən strukturlara paylanması aydınlaşdı. O da müəyyən edildi ki, həmin paketlər sabiq daxili işlər naziri İsgəndər Həmidovun Bakıda keçirmək istədiyi mitinqlə əlaqədar hazırlanıb və «Tufan» deyilən əməliyyat, olsa-olsa, müxalifəti əzməyə və ölkədə hərbi polis rejimi yaratmağa yönəlmiş dəhşətli əməliyyatın yalnız bir hissəsidir Həmin əməliyyatın adının necə olmasından asılı olmayaraq AXC-Müsavat iqtidarının fərsizliyi və xəyanəti uzundən 709 nömrəli briqadanı ləğv etmək planı facıə ilə nəticələndi Heç bir təqsiri olmayan insanlar qətlə yetirildilər, yaralandılar, əsir duşərək təhqir olundular.

Yenicə müstəqilliyə qovuşmuş Azərbaycanda vətəndaş müharibəsi başlandı və ermənilərin elan edilməmiş müharibəsi də vəziyyəti ağır olan olan dövlətimizi daha dərin böhran girdabına saldı

Facıənin ilk günlərində ölkə rəhbərliyinin kobud səhvləri isə böhranın durmadan dərinləşməsinə və fəlakət həddinə gəlib çıxmasına səbəb oldu. İqtidarın çaşqınlığından və səriştəsizliyindən istifadə edən Surət Hüseynovun dəstələri artıq ətraf rayonlarda hakimiyyəti ələ alıb Bakıya doğru irəliləməyə başladı.

Digər tərəfdən, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədov yaranmış vəziyyətdən bəhrələnmək üçün müəyyən addımlar atmağa cəhd göstərdi. İqtidarın ağır vəziyyətdə olduğu günlərdə dövlət müşaviri Arif Hacıyevlə hakimiyyəti bölüşmək barədə danışıqlar aparan Etibar Məmmədovun iyunun 6-sı axşam AMİP rayon şöbələrinə hakimiyyəti ələ almaq barədə əmr verməsi haqqında məlumat yayıldı.

İyunun 7-də səhər isə o, mətbuat konfransı keçirib iqtidarı qardaş qanı tökməkdə və digər cinayətlərdə günahlandırdı, vətəndaş itaətsizliyinə keçdiklərini bəyan etdi. Baxmayaraq ki, AMİP faktiki olaraq heç bir rayonda hakimiyyəti ələ almağa nail olmadı. Respublikada siyasi sabitliyin pozulması başlandı və qiyamın sonrakı uğurlarında bunun həlledici rolu oldu.

Azərbaycanın son dərəcə faciəli durumda olduğu həmin günlərdə bir neçə ambisiyalı avantüristdən başqa respublikada hamı, hətta AXC-Musavat liderləri dərk edirdilər ki, ölkənin məhv olunmasının, parçalanmasının qarşısını almağa yalnız bir nəfər qadirdir. O, xalqın sonsuz inamını və məhəbbətini qazanmış böyük dövlət xadimi, Ulu öndər Heydər Əliyev idi.

Surət Huseynov Gəncəni ələ keçirdikdən sonra qorxuya düşən iqtidar numayəndələri təcili Naxçıvanla əlaqə saxlayıb Heydər Əliyevdən xahiş etdilər ki, prezidenti müdafiə etməsi barədə bəyanat versin. Gəncədə nə baş verdiyindən xalqın əksəriyyətinin, hətta ölkə rəhbərliyinin məlumatsız olduğu bir vaxtda Heydər Əliyev kimi təcrübəli dövlət xadimi birtərəfli mövqe tutub kiməsə müdafiə etdiyini söyləyə bilməzdi. Vəziyyəti aydınlaşdırmadan, baş vermiş hadisəni öyrənmədən qəti fikir söyləmək mümkün deyildi.

Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti Rəyasət Heyətinin birgə iclasını keçirərək, Gəncə faciəsini muzakirə etdi. Elə həmin gün - 7 iyun 1993-cü il tarixində bəyanat qəbul edildi. Bəyanatda Gəncədə baş vermiş hadisə qardaş qırğını kimi qiymətləndirilir, hamı birliyə, vətəndaş həmrəyliyinə çağırılırdı.

Vəziyyətin get-gedə ağırlaşdığını görən hakimiyyət nümayəndələri isə dalbadal Naxçıvana telefon zəngləri edir və Heydər Əliyevdən kömək istəyirdilər. Xalqın Heydər Əliyevin hakimiyyətə gətirilməsini tələb etməsinə baxmayaraq, naşı iqtidar hər vəchlə hakimiyyət



kürsüsünü əlində saxlamağa çalışır və bunun üçün böyük siyasətçidən kömək umurdu. Qəribə idi ki, bir neçə ay əvvəl, 1992-ci ilin oktyabrında Naxçıvanda dövlət çevrilişi edərək, Heydər Əliyevi məhv etmək istəyənlər indi yalvararaq ondan kömək diləyirdilər.

Ümumiyyətlə, həmin böhran günlərində AXC-Müsavat iqtidarının davranışını izləmək çox maraqlı və ibrətamizdir.

İyun ayının 5-də, böhranın ilk anlarında, Heydər Əliyevə zəng edib ondan iqtidarı dəstəkləmək barədə bəyanat verməsini xahiş edənlər vəziyyət mürəkkəbləşdikcə ondan Bakıya gəlməsini və hakimiyyətə kömək göstərməsini xahiş edirdilər. Böhran isə dərinləşməkdə davam edirdi. Bir tərəfdən, Surət Hüsyenovun dəstələrinin Bakıya doğru irəliləməsi, digər tərəfdən, Etibar Məmmədovun öz tərəfdarlarına rayonlarda hakimiyyəti ələ almaq barədə göstəriş verməsi vəziyyəti son dərəcə ağırlaşdırmışdı və AXC-Müsavat iqtidarının əsas simaları Naxçıvana xüsusi təyyarə göndərərək, acizanə şəkildə telefonla Heydər Əliyevə yalvarmaqda davam edirdilər.

Üzləşdiyi xəyanətlərdən, ədalətsizliklərdən sonra Bakıya gəlmək istəməyən və blokada şəraitində olan Naxçıvanın təslim olmaması üçün mübarizə aparan Heydər Əliyev muxtar respublikadan çıxmaq istəmirdi və buna görə də bütün xahişlərə qətiyyətlə «yox» deyir və paytaxtda heç bir vəzifə tutmaq fikrində olmadığını bildirirdi. Məhz bu səbəbləri nəzərə alaraq AXC-Müsavat iqtidarının xəyanətkar mahiyyətinə yaxşı bələd olan Heydər Əliyev iyunun 7-də və 8-də onun üçün göndərilən xüsusi prezident təyyarəsini geriyə boş qaytarmaqla, «şok» vəziyyətində olan iqtidarın xahişlərini rədd etdi.

Həmin günlərdə, əvvəlcə Prezident Aparatında, sonra isə Milli Məclisdə müzakirələr keçirən AXC-Müsavat iqtidarı qorxaq, naşı hərəkətləri ilə vəziyyəti daha da ağırlaşdırdı. Böhran dərinləşməkdə və Surət Hüseynovun dəstələri Bakıya yaxınlaşmaqda davam edirdi. Azərbaycan tamamilə idarə olunmaz vəziyyətə düşür və müxtəlif regionlarda separatçı ünsürlər baş qaldırırdı. Dövlətimizin parçalanması prosesi sürətlənirdi.

Nəhayət, vəziyyəti düzəldəcəklərinə bütün umidlərini itirmiş AXC-Müsavat liderləri iyunun 9-da növbə ilə Heydər Əliyevə zəng edərək, «Azərbaycan məhv olur! Bu cür davam edərsə, müstəqilliyimiz əldən gedəcək» dedilər.

Bütün həyatını həsr etdiyi, canından artıq sevdiyi Azərbaycanın məhv olmaq təhlükəsi qarşısında qaldığını görən dahi siyasətçi qətiyyətlə öz hökmünü verdi: «Hazırlaşın, 10 dəqiqədən sonra Bakıya yola düşürəm!»

Böyük xilaskarı Bakıya gətirən təyyarə 9 iyun 1993-cü ildə saat 15.00-da Bakı şəhərinin hava limanına endi. Bu gəlişdən xəbər tutanlar onu böyük sevinc və məhəbbətlə qarşıladılar. «Heydər baba, xalqı bu bəladan qurtar» şüarını tutan həmvətənimiz isə Ulu öndərə xalqımızın ürəyində olan məhəbbəti və bağladığı ümidləri olduqca dəqiq ifadə edirdi.

Bir qədər sonra «Heydər Əliyev Bakıdadır» xəbəri bütün respublikaya yayıldı. Bu xəbəri eşidən həmvətənlərimiz bir-birini təbrik edir, gözaydınlığı verirdilər. Onlar yaxşı bilirdilər ki, əgər böyük siyasətçi gəlibsə, deməli, bu anarxiyaya, özbaşınalığa son qoyulacaq, cəzasızlıqdan bütün hüdudları keçən, azğınlaşan insanlar öz yerlərinə oturdulacaq, dövlətimiz və xalqımız üçün yaranmış böyük təhlükə aradan qaldırılacaq.

Bakıya gələn kimi ilk görüşlərindən birini Elmlər Akademiyası Rəyasət Heyətinin binasında tanınmış alim və ziyalılarla keçirən Heydər Əliyevin birinci bəyanatı müstəqilliyimizi hədəf götürənlərə müraciətlə dediyi sözlər oldu: **«Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm. Buna heç kəsin şübhəsi olmasın. Mən heç bir vəchlə bir daha Azərbaycanın başqa bir dövlətin tərkibinə daxil olmasına öz imkanlarım daxilində yol verməyəcəyəm və Sovetlər İttifaqının bir daha bərpa olunması xülyadır, o, heç vaxt bərpa oluna bilməz. Bunu mən sizə deyirəm – vaxtilə Sovetlər İttifaqının başında duran bir adam kimi. Mən bir siyasi xadim kimi Sovetlər İttifaqının bərpa olunmasına razılıq verə bilmərəm».**

1993-cü ilin iyununda Azərbaycan çıxılmaz, ümidsiz vəziyyətdə idi. Gəncədə törədilən qardaş qırğını nəticəsində yenicə müstəqilliyə qovuşmuş Azərbaycan vətəndaş müharibəsinə düçar olmuş, müxtəlif regionlarda başlayan separatizm meylləri ölkəni parçalanmaq həddinə çatdırmışdı. Vətənimiz uçurum kənarında dayanmışdı. Bu vəziyyətdə heç kim cəsarət edib məsuliyyəti öz üzərinə götürməz və həyatını təhlükəyə atmazdı. Söhbət qırğın törədib sonradan yalnız öz canının hayına qalan AXC-Müsavat liderlərindən getmir. Siyasətdə təsadüfi olan bu adamlar sanki xalqa fəlakət gətirmək üçün hakimiyyətə gəlmişdilər. Öz işlərini gördükdən sonra onları faciə içərisində qoyaraq çətin anda qaçıb aradan çıxdılar.

Onların birillik «fəaliyyəti» nəticəsində elə bir fəlakətli vəziyyət yaranmışdı ki, hətta böyük siyasi xadimlər də 1993-cü ilin iyununda olduqca ağır vəziyyətə gətirilmiş Azərbaycan kimi ölkədə hakimiyyət



yükünün altına girməyə cəsarət etməzdilər. Çünki xilas şansı, demək olar ki, yox idi. Vəziyyət son dərəcə ağır, mürəkkəb idi.

**«Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsi qarşısındadır».**

**«Bu proseslərin qarşısı alınmasa müstəqilliyimizm bir daha itirəcəyik və Azərbaycan yenə də müstəmləkəyə çevriləcək».**

**«Bu gün Azərbaycan olum-ölüm sualı qarşısında, fəlakətin bir addımlığındadır».**

**«Ölkəmiz çox ciddi, aylarla uzana biləcək vətəndaş müharibəsi təhlükəsi qarşısındadır. Zəruri tədbirlər görülməsə Azərbaycan Yuqoslaviya kimi parçalanacaq, minlərlə insan qırılacaq».**

Azərbaycanın 1993-cü ilin yayında üzləşdiyi fəlakətli vəziyyəti çox yaxşı xarakterizə edən yuxarıdakı fikirlər insanların dilindən düşmürdü. Cəmiyyətdə çox ağır və üzüntülü bir əhval-ruhiyyə, psixoz vəziyyət yaranmışdı. Belə fəlakətli vəziyyətdə parlamentin **15 iyun 1993-cü il** tarixli iclasında respublika Ali Sovetinin sədri seçilən Ulu öndər Azərbaycan dövlətçiliyi və xalqı naminə ağır və müqəddəs mübarizəyə başladı. Həmin iclasda Milli Məclisin üzvü İbrahim İbrahimlinin «Sizin Ali Sovetin sədri olmağınız vəziyyətdən çıxmaq üçün bizə – bir millət vəkili kimi mənə və mənim yoldaşlarıma bütünlüklə Azərbaycan xalqına qarantiya verə bilərmi?» - sualına cavab olaraq Heydər Əliyev dedi: «... Əgər mən bu işə, bir də qeyd edirəm, öz vicdanımın tələbi ilə və ən çox Azərbaycan Respublikasının əhalisinin cürbəcür təbəqələrinin nümayəndələrinin təkidi və tələbi ilə, Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin xahişi ilə cəlb olunmuşamsa, demək mən burda bu işlərin həll olunması üçün bütün imkanlarımdan istifadə edəcəyəm. Bu barədə heç kəsin şübhəsi olmasın. Burada bu məsələnin müzakirəsində cürbəcür sözlər deyib, bu məsələnin ayrı-ayrı istiqamətlərə yönəldilməsi məndə çox ciddi narazılıq doğurur. Mən Naxçıvandan bura özüm gəlməmişəm. Məni bura dəvət eləyiblər, məndən dəfələrlə İsa Qəmbər, Pənah Hüseynov və Azərbaycan Prezidenti Əbülfəz Elçibəy xahiş eləyiblər ki, gəlib burda bir vəzifə tutum, bərabər bu məsələlərin həll olunmasında iştirak edim. Neçə gündür ki, mənimlə danışıqlar gedir. Mən bu vəzifələrdən imtina etmişəm. Bu gün də imtina edirəm. Ona görə də mən hiddətlənirəm ki, bəzi adamlar, on gündür ki, Azərbaycan bu vəziyyətdədir, barmaq barmağa vurmayıblar. Azərbaycandan kənarda gəzirlər, kabinetlərdə cürbəcür işlərlə məşğul olurlar, indi də başlayırlar, işarə verməyə ki, kimsə kreslo tutmaq istəyir. Mən heç bir kreslo tutmaq istəmirəm, heç bir vəzifə tutmaq istəmirəm. 1991-ci ilin fevral

ayında bu salonda, bu tribunadan çıxış edərkən demişdim. Mən xalqımla bir yerdə olmaq və xalqımın bu ağır günündə ona kömək olmaq üçün respublikaya qayıtmışam. Onda məni qəbul etmədilər. Ondan sonra da dəfələrlə demişəm. Mən heç bir vəzifə tutmaq iddiasında deyiləm. Bu gün də deyirəm. Bu dəqiqə burdan çıxıb gedə bilərəm. Ancaq bəzi adamların heç bir iş görmədən zalda oturub, bu ağır vəziyyətdə məsələni mürəkkəbləşdirməsi məni hiddətləndirir. Mən heç bir kəsə heç bir qarantiya vermirəm, mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün vətəndaş kimi Ali Sovetin sədrinin müavini kimi, əgər etimad göstərsəniz, baxmayaraq ki, mən bunu istəmirəm, Ali Sovetin sədri kimi fəaliyyət göstərməyə hazıram. Mən bu yola xalqı ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur. Burda danışan adamların bəziləri ancaq məqsəd üçün bura gəliblər. Ona görə də mən heç kəsə heç bir qarantiya vermirəm. Ancaq hesab edirəm ki, Azərbaycan xalqı müdrik xalqdır. Millətimizdə böyük potensial var. Hamını birləşdirib, bu vəziyyətdən çıxmaq olar».

Göründüyü kimi iqtidar deputatlarının etdikləri təkidlərə baxmayaraq, Ulu öndər heç bir vəd vermədən xalqın mənafeyi naminə çalışacağını bəyan edirdi. Buna baxmayaraq, böhtan, şər söyləmək şakərindən əl çəkə bilməyən cəbhəçilər sonralar guya həmin iclasda Heydər Əliyevin Qarabağın qısa müddətə azad ediləcəyi və digər mühüm məsələlər barədə vədlər verdiyini iddia etdilər. Lakin böyük dövlət xadiminin əsas fərqi onda idi ki, o, hətta reallaşması mümkün olan məsələlər barədə də öhdəliklər götürmədi və heç bir konkret vəd vermədən parlament sədri seçildi.

Son dərəcə mürəkkəb şəraitdə xalqın möcüzələrə ümid etməsi olduqca təhlükəli idi və Ulu öndər bu təhlükəni əvvəlcədən görüb, «mən peyğəmbər deyiləm»- deyərək xəbərdarlıq edirdi. Bununla da qarşıda xalqımızı gözləyən çətinliklərə hamını hazırlamağa çalışırdı. Böyük xilaskarın bəyanatından sonra respublika əhalisi uzun illər üzləşdiyi sıxıntılara səbrlə dözərək Azərbaycanın dərin böhrandan çıxarılması naminə apardığı mübarizədə öz dahi liderinə dəstək verdi.

Deputat-istintaq komissiyasının hərtərəfli araşdırmalarından sonra Gəncə şəhərində baş verən qanlı qardaş qırğınının günahkarları müəyyənləşdirildi və verilən rəy əsasında Milli Məclis Gəncə hadisələri barədə qərar qəbul etdi.

Lakin bütün bunlar hələ dərin dövlət böhranının sona çatması demək deyildi. Bir tərəfdən hakimiyyət kürsüsünü atıb qaçan AXC-



Müsavat iqtidarının nümayəndələri, digər tərəfdən qəsb etdikləri hakimiyyətin əllərindən çıxdıqlarını görən qiyamçılar Heydər Əliyevə qarşı müxtəlif təxribatlar hazırlayaraq onu xalqın dəstəyindən məhrum etməklə hakimiyyəti ələ keçirməyə çalışır və mövcud böhranı daha da dərinləşdirirdilər. Azərbaycan dövlətini xilas etmək üçün iqtidar tərəfindən Bakıya dəvət olunan və özlərinin də etiraf etdikləri kimi, «dövlətçiliyi xilas edən» böyük Heydər Əliyevə qarşı onu yalvararaq çağıranların düşmən mövqeyinə keçməsi nə qədər anlaşılmaz olsa da, qiyamçıların və onları dəstəkləyənlərin davranışı gözlənilən idi.

AXC-Müsavat iqtidarının xəyanətkar fəaliyyəti nəticəsində çox böyük hərbi potensialı nəzarətə götürmüş Surət Hüseynov-Rəhim Qazıyev cütlüyünü onlara verilən baş nazir və onun müavini vəzifələri qətiyyən razı sala bilməzdi. Çünki qiyam qaldırmaqda onların əsas məqsədi və hədəfi prezident kürsüsünə sahiblənmək idi. Nəyin bahasına olur-olsun, Azərbaycandakı böhrandan bəhrələnərək öz məqsədlərinə çatmaq istəyən cinayətkar cütlüyə sonradan bir müddət ehtiyatda saxlanılan Əlikram Hümbətov da əlavə edildi. Həmin günlərdə bütün qüvvələrini səfərbər edən cinayətkarlar, bir yandan «Talış Muğan Respublikası» yaratdıqlarını bəyan edir, eyni zamanda da, rayonların ermənilər tərəfindən işğalına şərait yaradırdılar.

Qeyd olunduğu kimi, izah edilməsi qeyri-mümkün olan ən dəhşətli məqam ondan ibarət idi ki, Heydər Əliyevi israrlı xahişlərlə Bakıya dəvət edərək Azərbaycan dövlətçiliyini xilasını Ulu öndərin ixtiyarına buraxmaqdan qeyri çıxış yolları olmayanlar onların hakimiyyətini devirən dünənki qiyamçı düşmənlərinə qoşulub Ümummilli liderə qarşı müxalifətdə olduqlarını bəyan edirdilər.

Daha acınacaqlısı o idi ki, böhranın ən kəskin anında – Azərbaycanın cənubunda qondarma «Talış Muğan Respublikası»nın yaradıldığı elan olunarkən və orada yerləşən diviziya qiyam qaldırarkən müxalifət nümayəndələri susqunluqla bu hadisəni seyr edir, Heydər Əliyevin belə çətin durumdan çıxa bilməyəcəyinə ümid edirdilər.

Vəziyyət həqiqətən də son dərəcə ağırlaşmış və böhran son həddə çatmışdı. Bir tərəfdən Surət Hüseynovun və Rəhim Qazıyevin, digər tərəfdən Əlikram Hümbətovun nəzarətində olan silahlı qüvvələr azğınlaşaraq hakimiyyətə və dövlətə meydan oxuyurdular. Dövlətimizin bu faciəli günlərində qiyamçılar, hakimiyyətini itirmiş, yaxud istədiyi vəzifəni ala bilməmiş qüvvələr bayram edirdilər. Onlar əmin idilər ki, Heydər Əliyev bu qədər böyük hərbi qüvvənin qarşısında dayana bilməyəcək və vəzifəsindən istefa verib geriyə, Naxçıvana qayıtmağa məcbur olacaq.

Gözlərini hakimiyyət ehtirası örtmüş xəyanətkar insanlar Heydər Əliyevin gücünü qiymətləndirmək iqtidarında deyildilər. Onlar inana bilmirdilər ki, belə dərin böhrandan çıxmaq, bu qədər hərbi gücün qarşısında yalın əllə dayanmaq mümkün ola bilər. Tarix bir daha sübut etdi ki, xalqın qiymətləndirdiyi, candan artıq sevdiyi dahi şəxsiyyətlər ən ağır vəziyyətlərdən çıxmağa, xalqı, dövləti xilas etməyə qadirdirlər.

1993-cü il avqustun 23-də, böhranın ən ağır məqamında böyük xilaskar birbaşa xalqa müraciət etdi: **«Ayağa qalxın, Azərbaycanı dağıtmaq, məhv etmək istəyirlər».**

Ümummilli liderimizin bu çağırışına səs verən insanlar ayağa qalxdılar və «mənim silahım avtomatımdır» - deyən Əlikram Hümbətovun silahlı dəstələrini darmadağın etdilər. Bununla da Surət Hüseynov-Rəhim Qazıyev-Əlikram Hümbətov üçlüyünün məğlubedilməzliyi barədə AXC-Müsavat iqtidarı tərəfindən yaradılmış mif darmadağın edildi. Həmin səriştəsiz və qorxaq iqtidarın xəyanətkar fəaliyyəti nəticəsində əhalinin böyük bir hissəsində belə bir fikir yaranmışdı ki, arxasında silahlı dəstələrin və xarici qüvvələrin durduğu bu cinayətkarları zərərsizləşdirmək mümkün deyil. Heydər Əliyev Əlikram Hümbətovun silahlı dəstələrini darmadağın etməklə onun müttəfiqlərini – Surət Hüseynov və Rəhim Qazıyevin də üzərində ilk növbədə mənəvi qələbə çaldı. Bu isə müasir Azərbaycan dövlətinin əsasının qoyulması demək idi. Qarşıda hələ çox sınaqlar, çox mübarizələr dursa da, əsas döyüş udulmuşdu. Prezident kürsüsü uğrunda Azərbaycanın torpaqlarını satışa çıxaran daxili, bu ölkənin ərazi bütövlüyünə təhlükə yaradan xarici qüvvələr artıq dərk etmişdilər ki, Heydər Əliyevlə mübarizə aparmaq, onun siyasətinə qarşı çıxmaq qeyri-mümkündür.

Əlikram Hümbətovun hərbi qüvvələrinin darmadağın edilməsinin ertəsi günü Milli Məclisdə keçirilən müşavirədə hadisələr barədə məlumat verən Heydər Əliyev dövlətçilik yolunda şəhid olmuş üç nəfərin – Soltan Bayramovun, Paşa Təhməzovun və Etibar Əliyevin Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldüyünü bildirərkən əziz övladını itirmiş ata kimi göz yaşlarını saxlaya bilmədi və fəryad dolu səslə «Vətən qan içindədir» - dedi. Dünənə qədər ona inanmayanları, geri çəkiləcəyini düşünənləri Milli Məclisin iclas zalına toplayıb danışan Heydər Əliyevin hər sözü xəyanətkarlara güllə kimi dəyirdi. Böyük xilaskar danışırdı və sanki Azərbaycanı dağıtmaq istəyənlərə müraciətlə: - «Nə qədər ki, mən varam, arzularınız gözünüzdə qalacaq» - deyirdi.



Bəşər tarixində silinməz izlər qoymuş və sonrakı nəsillər üçün örnək olan siyasi xadimlər, böyük dövlət adamları az olmayıb. Ancaq bu böyük siyasətçilər içərisində yalnız bir neçəsi tarixə öz xalqının və dövlətinin xilaskarı kimi düşüb. Bu xilaskarlar içərisində həm də yeni dövlətin qurucusu və banisi olanlar isə tək-tək idir. Allahın seçdiyi bu fövqəl insanlar adilərdən və hətta böyük şəxsiyyətlərdən onunla fərqlənir ki, vəziyyətin tamamilə ümidsiz olduğu və dövlətin xilas edilməsi üçün heç bir şansın qalmadığı məqamda özünü fəlakətin, odun içərisinə ataraq həmvətənlərini ən ümidsiz vəziyyətlərdən çıxarmağı bacarırlar.

Gəncə faciəsindən xeyli keçməsinə baxmayaraq, hələ də zərrə qədər də dəyişməyən bəzi siyasətbazlar Ulu öndərin ünvanına şər və böhtan söyləməkdən çəkinmir və iddia edirdilər ki, Heydər Əliyev ilk növbədə dövləti, xalqı deyil, onların hakimiyyətini xilas etməli olduğu halda bunu etməyib və deməli, Surət Hüseynovla birləşib. Bu iddianı uzun illər səsləndirməkdən yorulmayanlar hələ də anlamaq istəmirlər ki, böyük xilaskar üçün həm Surət Hüseynov, həm də AXC-Müsavat hakimiyyətinin liderləri eyni mahiyyətə malik insanlar idilər və bir-birindən heç nə ilə fərqlənmirdilər. Qədim Gəncə şəhərində törədilən qanlı faciə də, ondan sonra Azərbaycanda başlayan vətəndaş müharibəsi də, üzləşdiyimiz digər fəlakətlər də bu xəyanətkarların birgə fəaliyyətinin nəticəsi idi. Naxçıvanda olarkən bütün bu prosesləri ürək ağrısı ilə müşahidə edən Heydər Əliyev Bakıya tarixi bir missiyanı-Azərbaycanı xilas etmək üçün gəlmişdi.

Yalnız dövlətçiliyi məhv olmaq təhlükəsindən xilas etmək istəyi dahi siyasətçiyə belə fəlakətli məqamda **«ömrümün qalan hissəsini xalqıma bağışlamışam»** sözlərini dedirdə bilərdi.

Faciənin törədilməsində günahkar olan hər iki tərəf – həm AXC-Müsavat iqtidarı, həm də onların keçmiş sərkərdəsi Surət Hüseynov Heydər Əliyevə düşmən münasibəti bəsləyirdilər.

Əgər bu münasibəti heç vaxt gizlətməyən cəbhəçilər 1992-ci ilin oktyabrında Naxçıvanda dövlət çevrilişi edib Ulu öndəri məhv etmək istəmişdilərsə, böyük xilaskarın iqtidarın israrlı xahişlərindən sonra Bakıya gəldiyini eşidən qiyamçı polkovnik ona zəng vuraraq geriyə – Naxçıvana qayıtmasını tələb etmişdi. Bu məqsədlərinə nail ola bilməyən qiyamçılar sonradan Gəncəyə gələn böyük dövlət xadimini öldürmək istəmiş, lakin buna cəsarət etməmişdilər. Dərk etmişdilər ki, Heydər Əliyevə qəsd edənləri heç bir ordu və silahlı qüvvə xalqın qəzəbindən qoruya bilməz.

Xalqının çox böyük sarsıntı içərisində olduğu məqamda təkbaşına Bakıya gəlmək məcburiyyətində qalan böyük xilaskar son dərəcə ağır və təhlükəli vəziyyətdə fəaliyyətə başlamalı oldu. Ən böyük çətinlik onunla bağlı idi ki, ətrafı təpədən dırnağa silahlanmış düşmənlərlə dolu olan Ulu öndərin «xalqın içərisində çox böyük nüfuza malik olmasına baxmayaraq arxasında digərlərindən, ilk növbədə E.Məmmədovdan fərqli olaraq silahlı qüvvələr dayanmırdı» (Pənah Hüsyenov). Siyasi rəqiblər və düşmənlər əhatəsində Azərbaycanı vətəndaş müharibəsindən və parçalanmaqdan qorumaq son dərəcə çətin idi Nəhəng siyasətçi yalnız öz xırda maraqlarını düşünən tərfələrin arasında manevr edərək birləşməsinə imkan vermədi və onları bir-bir zərərsizləşdirməyi bacardı.

İlk olaraq Surət Hüseynovun Bakıya daxil olacağından çəkinən və hakimiyyətini xilas etməyin mümkünsüzlüyünü dərk edən Əbülfəz Elçibəy iqamətgahını tərk edərək Naxçıvanın Kələki kəndinə getdi. Kəndə çatan məqamdan başlayaraq Heydər Əliyevin əleyhinə bəyanatlar verən sabiq prezident vəziyyəti bir az da mürəkkəbləşdirdi. Bu şəraitdə qiyamçı polkovniki Gəncədən, silahlı dəstələrindən ayırmaq və xalqa daha yaxşı tanıtdırmaq istəyən Ulu öndər onu Baş nazir təyin etdi Yeri gəlmişkən, bu vəzifəni könülsüz götürən Surət Hüseynov prezident olmaq məqsədini heç kimdən gizlətmirdi. Qısa müddət ərzində həm Surət Hüseynova, həm də digər «liderlərin» nəyə qadir olduğunu göstərən heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən və parçalanmaqdan xilas etdi.

Müstəqilliyini yenicə qazanmış dövlətimiz davamlı inkişaf və yüksəliş yoluna qədəm qoydu.

Böyük mütəfəkkir Can-Lametri deyirdi ki, «tarixi yaratmaqda bütün insanlar iştirak edir, deməli, bizim hər birimiz lap cüzi miqdarda da olsa, tarixin gözəlliyinə kömək etməyə, onun eybəcərləşdirilməsinə imkan verməməyə borcluyuq».

Tariximizin ən şərəfli səhifələrini təhrif etmək, bu tarixi istənilən şəkildə yozmaqla gələcək nəsillərə təqdim etmək heç zaman mümkün olmayacaq İqtisadi inkişafın ən yüksək pilləsinə qədəm qoymaqla dünyanın qabaqcıl dövlətinə çevrilən və sabitlik, əmin-amanlıq şəraitində böyük sürətlə irəliləyən Azərbaycan müqəddəs Qurtuluş Günü – 15 İyun 1993-cü il ərəfəsində vətəndaş müharibəsi və parçalanmaq təhlükəsi ilə nəfəs-nəfəsə dayanan, iqtisadiyyatı günbəgün tənəzzül edən zəif bir dövlət idi. Yalnız «mən ömrümün qalan hissəsini xalqıma bağışlamışam» deyən Ulu öndərin müdrikliyi, fədakarlığı, cəsarəti və dəyanəti sayəsində son dərəcə fəlakətli durumda olan dövlətimizi xilas etmək mümkün oldu.



Bu böyük həqiqəti heç kim, ilk növbədə Azərbaycanın gələcək inkişafının bütün məsuliyyətini öz çiyinlərinə götürməli olan gəncliyimiz yaddaşında əbədi saxlayacaq.

Görkəmli mütəfəkkir İ.Herderin «Tarix onun üçün yazılıb ki, bütün bu qarışıqlıqlardan sonra insan, nəhayət, öyrənib bilsin ki, onun xoşbəxtliyi özbaşınalıq üzərində deyil, varlığının mayasını təşkil edən keyfiyyətlər – ağıl, cəsarət və ədalət üzərində qurulmuşdur» - sözləri keçmiş, indiki və gələcək tariximizdə öz əksini tapacaq.

## AZƏRBAYCAN KONSTİTUSİYASININ TARİXİ HAQQINDA QISA MƏLUMAT

Azərbaycanın tarixində ilk Konstitusiya – Əsas Qanun 1921-ci ildə qəbul edildi. SSRİ təşkil olunduqdan sonra Azərbaycan Respublikasının Konstitusiyası 1925-ci il martın 14-də Ümumazərbaycan Sovetlər Qurultayının IV çağırışında qəbul edilmiş əlavə və dəyişikliklərlə təkmilləşdirildi. Sosializm tam bərqərar olduqdan sonra Azərbaycan Respublikasının Konstitusiyası 1937-ci ildə yenidən qəbul edildi.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsi ilə yeni inkişaf dövrünə qədəm qoyan respublikanın ikinci beşilliyində yeni Konstitusiyanın qəbul edilməsi tarixi zərurəti yarandı.

Dördüncü Konstitusiya Azərbaycan Respublikasının həyatında çox mühüm rol oynadı. Belə ki, 1995-ci ildə qəbul edilən Əsas Qanun Azərbaycanın müstəqillik tarixində ən böyük hadisə oldu.

Bir əsrdən bir qədər artıq dövrü əhatə edən zaman kəsiyində qəbul olunmuş konstitusiyaların hər biri Azərbaycan xalqının, respublikanın bütün həyatında müəyyən tarixi mərhələdə öz inkişaf və tərəqqi missiyasını başa vurdu. Onların hər biri qazanılmış müvəffəqiyyətləri və nailiyyətləri əks etdirməklə yanaşı, bu hadisələri təsbit edərək, cəmiyyətimizin quruculuğunda yeni mərhələyə keçildiyini göstərir, sosial-iqtisadi, siyasi və mədəni tərəqqinin zirvələrinin ardıcıl yüksəlişində pillə rolunu oynayırdı.

Azərbaycan SSR-in 1921-ci ildə qəbul edilmiş Konstitusiyası Azərbaycan xalqının tarixi müqəddəratında çox böyük bir faktı, Azərbaycanda proletariat diktatuRasının qurulması və Azərbaycan xalqının öz sosialist milli dövlətini – Azərbaycan Sovet Sosialist Respublikasını yaratması faktını qanunvericiliklə təsbit edib. İlk Konstitusiya, eyni zamanda, rus xalqı və Sovet Sosialist Respublikaları İttifaqının tərkibində birləşən bütün respublikaların xalqları ilə dostluq və əməkdaşlığın yaranmasında və möhkəmlənməsində qüdrətli vasitə olub.

**Bir fakt hökmən qeyd edilməlidir ki, Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası Şərqdə ilk qəbul olunmuş Əsas Qanun idi.**

Konstitusiya SSRİ tərkibində olan respublikaların hər biri üçün əsas istiqamətverici proqram rolunu oynamaqla, onun hüquqi vəziyyətini də əks etdirmək zərurətini yaradırdı.

Zaqafqaziya Federasiyasının tərkibində Azərbaycan SSR-in sovet respublikaları ilə vahid ittifaq dövlətində birləşməsi 1925-ci ilin



martında dördüncü Ümumazərbaycan Sovetlər qurultayının qəbul etdiyi Konstitusiyaya əlavə və dəyişikliklərlə möhkəmləndirildi.
Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası qırx ildən artıq bir müddət ərzində sosialist ictimai münasibətlərinin möhkəmlənməsində və təkmilləşdirilməsində, Azərbaycan xalqının dövlət quruluşunun inkişafında mühüm rol oynadı.

1956-cı ildə Azərbaycan Respublikasının Ali Sovetinin iclasında 1937-ci ildə qəbul olunmuş konstitusiyaya Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə edildi.

Həmin dövrdə bu maddənin qəbul edilməsi müəyyən mübahisələr doğurdu ki, bu da respublikamızı çətin vəziyyətə salmaqla, rəhbərliyin dəyişilməsi ilə nəticələndi.

1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsinə baxmayaraq, sovet dövründə yaradılmış və 1978-ci ildə qəbul edilmiş Əsas Qanun müəyyən düzəliş və dəyişikliklərlə həmin tarixə qədər qüvvədə qalıb. Təbiidir ki, müstəqillik, suverenlik anlayışlarına zidd olan bu hal qətiyyən normal sayıla bilməzdi. İndiyədək Azərbaycanın yeni konstitusiyasının hazırlanmasına müəyyən cəhdlər göstərilsə də, bütün bunlar təşəbbüs olaraq qalmışdır. Hələ 1991-ci ilin fevralında respublika Ali Soveti tərəfindən konstitusiya komissiyası yaradılmışdı. Həmin komissiya 75 üzvdən ibarət olsa da, təqribən iki il müddətində fəaliyyətsizlik göstərmiş, heç bir layihə variantını işləyib ortaya çıxarmamışdır. Yalnız 1993-cü ilin axırlarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis yeni komissiya yaratmış, 1994-cü ilin yayında onun tərkibi genişləndirilmiş, peşəkar hüquqçular hesabına möhkəmləndirilmişdir.

Həmin ilin avqustunda Respublika Prezidenti Aparatının qanunvericilik və hüquq ekspertizası şöbəsinə yeni konstitusiyanın ilkin layihəsinin hazırlanması haqqında respublika prezidenti tərəfindən tapşırıq verilmişdir. Nəticədə 1995-ci ilin fevralında layihə üzərində iş başa çatdırılmış və rəsmən respublika prezidentinə təqdim olunmuşdur. Layihəni hazırlayarkən qabaqcıl dövlətlərin konstitusiya quruculuğunun prinsipləri, bu sahədə topladıqları mütərəqqi təcrübə də əsas götürülmüşdür. Tamamilə orijinal olan bu sənəd Azərbaycan dövlətinin gerçəkliyinə, Azərbaycan xalqının milli xüsusiyyətlərinə uyğun olaraq hazırlanıb və hətta bəzi qabaqcıl dövlətlərin əsas qanunlarından da mütərəqqi və demokratikdir.

Sənəddə təkcə Azərbaycanın bugünkü reallığı üçün deyil, gələcəkdə də vacib olan maddələr daxil edilmişdir. Bu sənəd hüquq elminin yüksək tələblərinə cavab verməklə yanaşı, həm də mütərəqqi

dövlətlərin konstitusiya quruculuğu şərtlərinə, beynəlxalq hüquq normalarına tamamilə uyğundur.

**Noyabrın 12-də Azərbaycan xalqı öz müstəqil dövlətinin Milli Məclisinə demokratik şəraitdə keçirilən ilk seçkilərdə, ilk demokratik konstitusiyanın qəbul olunması üçün ümumxalq səsverməsində – referendumda iştirak etdi.**

**RESPUBLİKA PREZİDENTİ HEYDƏR ƏLİYEV 28 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN 17 NÖMRƏLİ SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERDİ.**

Əsrlər boyu böyük tarixi mərhələlərdən keçən Azərbaycan xalqı, nəhayət, öz dövlət müstəqilliyinə, milli azadlığına nail olduqdan sonra ilk dəfə 1995-ci ildə sərbəst, müstəqil, heç bir mərkəzin diktəsi olmadan öz konstitusiyasını yaratdı. Dövlətin təsisatlarını yaratmaqla yanaşı, vətəndaşlarının hüquq və azadlıqlarını təmin etmək və müstəqil dövlətin dövlətçiliyinin qorunub saxlanması, möhkəmlənməsi və inkişafına zəmin yaradan çox mühüm, tarixi bir sənədə imza atdı.

## KONSTİTUSİYA ELƏ BİR SƏNƏDDİR Kİ

**«Konstitusiya elə bir sənəddir ki, o gərək uzun müddət yaşasın. Onun ömrü uzun olmalıdır. Konstitusiya tez-tez dəyişilə bilməz. Əgər konstitusiya doğrudan da həm bu günü, həm də gələcəyi tamamilə əks etdirə bilirsə, o, uzunömürlü ola bilər, gələcəkdə ona dəyişikliklər etməyə ehtiyac olmaz və ya çox cüzi dəyişikliklər aparıla bilər.»**

**Heydər Əliyev, 1995-ci il**

Konstitusiya elə bir sənəddir ki, o dövlətin təməl dirəklərindən birini təşkil etməklə yanaşı, uzunmüddətli proseslərə təsir gücünə malik olaraq həm bu günü, həm də gələcəyi tamamilə əks etdirə bilməlidir. Əsas Qanun kitabı tətbiq edildiyi ölkənin bu gününə və perspektivlərinə hesablanmış bir şəkildə işlənib hazırlanıbsa, onda bütün hallarda böyük dəyişikliklər etməyə ehtiyac olmaz və ya çox cüzi dəyişikliklərlə yenidən tətbiq edilə bilər. Bu tarixi təcrübə Azərbaycanın timsalında özünü bir daha təsdiq etdi.

Azərbaycan Respublikası Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olarkən 1978-ci ildə qəbul etdiyi Konstitusiyası ölkənin siyasi quruluşu dəyişdiyindən yenidən nəzərdən keçirildi. Məhz müstəqillik qazanmış ölkənin yeni Konstitusiyası Ulu öndərin uzaqgörən, ölkənin perspektivinə hesablanmış siyasət apardığını bir daha sərgilədi.

Tale elə gətirib ki, Azərbaycan dövlətinin Konstitusiyasının hazırlanması prosesinin ikisi dahi şəxsiyyət, Milli liderimiz Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilib. Təbii ki, hər bir qanun toplusu zamanın tələbinə görə dəyişir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının hələ uzun müddət ölkəmizin həyatında dəyişilməz qalacağı göz qabağındadır. Ulu öndər Heydər Əliyevin uzun və gərgin əməyinin nəticəsi olan bu qanunlar toplusu bütün detalları və xırdalıqlarına qədər uzaqgörən bir dəqiqliklə işlənib hazırlanmış, ümumxalq müzakirəsinə verilmişdi.

Dövlət az qala bir əsr işlənib bərkimiş qanunlarla idarə olunmaqla, tamamilə fərqli bir quruluşun içində yaşadığı üçün Azərbaycanın Əsas Qanununun işlənib hazırlanması çox məsuliyyətli bir iş idi. Ulu öndər yekun çıxışında bir daha bu məsələyə çox ciddi yanaşdığını

vurğuladı. **«Ona görə də komissiyanın son iclasında layihəni ümumxalq müzakirəsinə verərkən mən Ramiz Mehdiyevə tapşırdım ki, bu məsələ xüsusi müzakirə olunsun».** Bunu komissiyanın son iclası zamanı milli liderimiz söyləmişdi. Çünki ölkədə sabitlik yaransa da, xarici qüvvələrin ələ aldığı ölkədaxili bəzi qurumlar və onların rəhbərləri öz məqsədlərini həyata keçirəcəklərinə ümid edərək, hələ də quruculuq işlərinə, siyasi proseslərə mane olmaq istəyir və bunun üçün çalışırdılar.

**Belə bir vaxtda Ulu öndər ölkənin müstəqilliyinin qorunub saxlanılması və suverenliyinin təmin edilməsi üçün Əsas Qanun kimi mühüm sənədlərin qəbul olunmasında yalnız Ramiz Mehdiyev kimi Sarsılmaz əqidəyə malik yaxın silahdaşlarına arxalana bilərdi. Şübhəsiz ki, əmək müəssisələrində konstitusiya layihəsinin ayrı-ayrı bəndlərini xüsusi müzakirə etməyə ehtiyac yox idi. Təbii ki, Konstitusiya layihəsinin təkmilləşdirilməsi üçün xalqın ümumi rəyi öyrənilir, təkliflər müzakirə edilirdi. Layihə xüsusi dairələrdə, elmi müəssisələrdə və institutlarda müzakirə edilir, nəticələr İşçi Qrupunun rəhbərinin sərəncamına verilirdi.**

Konstitusiyanın qəbulu prosesini diqqətlə izləyəndə bu məsələdə Milli liderimizin ən çox inandığı bir şəxsə - aparatın rəhbərinə etibar etdiyinin şahidi oluruq: «Konstitusiya komissiyası yaranarkən yeni konstitusiya layihəsinin bir çox müddəaları, demək olar ki, işlənib hazırlanmışdı. Konstitusiya komissiyası yarandı, onun işçi qrupu təşkil edildi. Həmin qrup gərgin işlədi və layihə konstitusiya komissiyasında bir neçə dəfə müzakirə ediləndən sonra ümumxalq müzakirəsinə verildi.»

Proseslər göstərirdi ki, milli lidermiiz bu məsələyə həddindən artıq məsuliyyətlə yanaşır. Komissiyanın iclası zamanı da Heydər Əliyev dəfələrlə vurğulayırdı ki, bu mühüm sənədin qəbul olunması üçün gələcək nəsillərin qarşısında cavabdehlik onun üzərinə çox böyük məsuliyyət qoyur: «Mən konstitusiya komissiyasının sədri kimi konstitusiya layihəsinin hazırlınması dövründə, bu günə qədər çalışmışam ki, layihənin hazırlanmasında bu sahədə biliyi, elmi, təcrübəsi olan bütün alimlər, mütəxəssislər, hüquqşünaslar, dövlət xadimləri, ictimai-siyasi xadimlər, mədəniyyət xadimləri iştirak etsinlər»

İşçi Qrupu bu sahədə bilikli, təcrübəli, bacarıqlı adamlarla müzakirələr aparmaq, həmin müzakirələrin nəticələrini bir yerə toplamaq və ortaq bir rəy hazırlamaq kimi çətin və məsuliyyətli işin öhdəsindən layiqincə gəlirdi. Hər bir vətəndaşın və ziyalının konstitusiyanın hazırlanmasını və qəbul olunmasını öz şəxsi işi kimi, taleyi kimi qəbul etməsinə çalışırdı. Azərbaycanın müstəqilliyini təmin edən, vətəndaşlarımızın hüquqlarını qoruya bilən, ölkəmizin dövlətçiliyini möhkəmləndirən və respublikamızın müstəqil bir dövlət kimi yaşaması üçün əsas olan qanun kitabı – Konstitusiya bu şəraitdə qəbul edildi.

**Milli liderimiz tarixilik, o cümlədən, bu gün və gələcəyin nöqteyi-nəzərindən doğru olanı qəbul etmək və xalqın iradəsini əks etdirən bir qanun kitabı hazırlamağı qarşısına məqsəd qoymuşdu. Bu işdə Ulu öndərə Konstitusiya Komissiyasının İşçi Qrupu yaxından kömək edirdi. İşçi Qrupunun rəhbəri Ramiz Mehdiyev xalqın iradəsinin ən yüksək səviyyədə əks olunması üçün müxtəlif elm sahəsində fəaliyyət göstərən ziyalıları – alimləri, ədəbiyyat və hüquq sahəsində çalışan mütəxəssisləri cəlb etmişdi. İşçi Qrupu məhz cəmiyyətin bu kəsimi ilə müzakirələr aparır, ən dəyərli təklif və tövsiyələri Konstitusiya Komissiyasına təqdim edirdi.**

**Ulu öndərin sədrlik etdiyi Konstitusiya Komissiyasının iclaslarında Heydər Əliyevin və İşçi Qrupunun rəhbərinin çıxışları bir daha qəbul olunacaq sənədin üzərində necə dəqiqliklə və ən xırda detallarına qədər işləndiyini sərgiləyir. İşçi Qrupunun rəhbəri Ramiz Mehdiyev çıxış edərək bildirdi ki, Azərbaycan Respublikasının dövlət dili haqqında konstitusiyanın maddəsinin müzakirəsi müxtəlif təklif və tövsiyələrin verilməsi ilə nəticələnib. Xalqın ziyalıları və ictimai xadimləri tərəfindən 1400 təklif, dəyişiklik irəli sürülüb ki, bunlardan da ən vacibi dövlət dili ilə bağlıdır. İşçi Qrupu tərəfindən təhlil olunan və qiymətləndirilən təkliflər Konstitusiya komissiyasına təqdim edilir və sonuncu instansiya olaraq nəticə elan olunurdu.**

Xatırladaq ki, Konstitusiya layihəsinin qəbulu zamanı Azərbaycan dili, insan hüquq və azadlıqlarını təsbit edən bölmələr daha çox müzakirə olunurdu.

Konstitusiya layihəsinin 23-cü maddəsi – Azərbaycan dövlət dili haqqında Qanun xüsusi əhəmiyyət kəsb etdiyinə və bu barədə bəzi dəyişik fikirlər də səsləndiyinə görə bu maddə geniş müzakirə olundu. Ümumxalq müzakirəsindən sonra 23-cü maddə bir dəfə elm müəssisələrinin, yaradıcılıq təşkilatlarının, universitetlərin nümayəndələrinin, ictimaiyyətin digər təbəqələrinin – ziyalıların iştirakı ilə Elmlər

Akademiyasında müzakirə edildi. İşçi Qrupu həmin müzakirənin nəticələrini Konstitusiya Komissiyasına təqdim edəndən sonra yenidən müzakirə edildi.

Konstitusiya komissiyasında layihə müzakirə olunarkən komissiyanın üzvlərindən üç nəfər – şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Əfəndiyev təklif etdi ki, Konstitusiyaya "dövlət dili Azərbaycan türk dilidir" yazılsın. Ulu öndər Heydər Əliyev bu təkliflərin müzakirəsindən sonra tarixi arayış verərək bildirdi ki, 1931 və 1937-ci illərdə qəbul edilmiş Azərbaycan Konstitusiyasında dövlət dili haqqında heç bir maddə olmayıb. Yalnız 1956-cı ildə Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə 1937-ci ildə qəbul olunmuş konstitusiyaya Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə edilib. Həmin dövrdə bu maddənin qəbul edilməsi respublikada gərginlik yaranmasına səbəb olub. Bəzi adamların özlərini həddindən çox vətənpərvər, millətçi kimi göstərmələri qarışıqlığa səbəb oldu. Bütün idarələrdə, təşkilatlarda yazışmaların yalnız Azərbaycan dilində getməsinə rəsmi göstəriş verildi ki, bu proses əhalinin ziyalı kəsimini konkret olaraq iflic vəziyyətinə saldı. Kadr sahəsindəki qüsurlar respublikanın bütün sahələrində problemə səbəb oldu. Respublikada gedən proseslərin nəticəsi olaraq 1959-cu ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi Azərbaycanda millətçilik olması barədə qərar qəbul etdi, milli kadrlar rəhbərlikdən uzaqlaşdırıldı.

1977-ci ildə Sovetlər İttifaqının yeni Konstitusiyası, 1978-ci ildə isə ona uyğun olaraq SSRİ-nin tərkibində olan Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi.

1977-ci ildə Sovetlər İttifaqında yeni Konstitusiya qəbul olunarkən Ulu öndər, Azərbaycan SSR-in birinci katibi işləyən Heydər Əliyev də Konstitusiya Komissiyasının üzvü idi və bu prosesdə yaxından iştirak edirdi. Cəmi bir il sonra o, Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün yaradılan komissiyanın sədri seçildi. Aydındır ki, Azərbaycan Respublikasının Əsas Qanunu Sovetlər İttifaqı Konstitusiyasının müddəalarına uyğun olaraq yazılmalı idi. Amma Ulu öndər respublikamızın bəzi xarakterik cəhətlərini özündə əks etdirən bir Qanun toplusunu qəbul etdirməyə nail oldu.

1978-ci ildə yeni Konstitusiya qəbul edilərkən respublikanın birinci katibi əsas məsələ kimi dövlət dilini diqqətdə saxladı. O, respublikanın Əsas Qanununda dövlət dilinin Azərbaycan dili olmasını əks etdirən maddənin salınmasına çalışırdı. Təbii ki, özündə 15 respublikanı birləşdirən rəsmi Moskva bu hadisəni çox böyük etirazla qarşıladı. Qeyd edək ki, həmin vaxt 15 respublikadan yalnız Ermənistan və Gürcüstanın konstitusiyalarında dil haqqında maddə öz əksini tapmışdı. Ulu öndər o dövrü belə xatırlayırdı: **«O vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq.**

**Moskvada bir neçə dəfə müzakirələr oldu. Cürbəcür fikirlər səsləndi və həmin fikirlərin əksəriyyəti ondan ibarət idi ki, belə olmamalıdır. Ancaq biz buna nail olduq və 1978-ci ildə səhv etmirəmsə, aprel ayında biz konstitusiyanı qəbul etdik. Həmin konstitusiyada yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir».**

1995-ci ildə yeni konstitusiya layihəsi müzakirəyə çıxarılana qədər 1978-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsi – «Azərbaycanın dövlət dili Azərbaycan dilidir» maddəsi qüvvədə idi.

Şübhəsiz ki, ondan sonrakı dövrdə Azərbaycanın müstəqil dövlət olması ilə əlaqədar həmin konstitusiyaya müəyyən əlavələr olunmuşdu. 1992-ci ilin dekabr ayında Azərbaycanın Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdi, və nəticədə qərar qəbul olunmuşdu ki, Azərbaycanın dövlət dili türk dilidir. Bu işdə Ulu öndərə Konstitusiya Komissiyasının İşçi Qrupu yaxından kömək edirdi. Həmin müzakirənin stenoqramı bütövlükdə Ulu öndərə təqdim edildi. Məlum oldu ki, 1978-ci ilin aprel ayında qəbul edilmiş Konstitusiyaya dil haqqında dəyişiklik edilərkən özbaşınalığa və volyuntarizmə yol verilib. Dövlət dili haqqında maddə konstitusiya qanunu olduğundan ümumxalq müzakirəsinə verilməli, eyni zamanda, hüquqi prosedurların tələb etdiyi şəkildə qəbul edilməli idi. 1992-ci ildə Azərbaycan dövlət dili haqqında konstitusiya qanunu Milli Məclisdə müzakirə edilərkən həmin iclasda 50 deputatdan 39-u iştirak etmişdi. Onların 26-sı dövlət dilinin türk dili kimi qəbul olunmasına, 8-i əleyhinə səs vermiş, qalanları isə bitərəf olmuşdu. Beləliklə də, Azərbaycanın dövlət dilinin adı dəyişdirilib «türk dili» yazılmışdı.

Dövlət dili haqqında tarixi bir qərar Azərbaycan xalqının istəyi nəzərə alınmadan 26 nəfərin iradəsinə uyğun qəbul edildiyindən 1995-ci il Konstitusiyası qəbul edilərkən bu məsələ layihədə ətraflı müzakirə olundu və Azərbaycan xalqının iradəsini özündə əks etdirdi.

Qeyd edək ki, Azərbaycan Respublikasının qəbul etdiyi dörd Konstitusiyanın ikisi məhz Ulu öndərin rəhbərliyi dövründə qəbul

edilmişdi. Və bu dörd əsas sənəddən hər ikisi – 1978-ci ildə və Azərbaycanın müstəqillik dövründə qəbul edilən konstitusiyalar respublikanın həyatında çox mühüm rol oynadı.

Azərbaycanın mövcudluğu boyu qəbul edilən konstitusiyaların hər biri xalqın və respublikanın həyatında müəyyən tarixi mərhələyə uyğun gəlir. Hər iki Konstitusiya qazanılmış müvəffəqiyyətləri və nailiyyətləri əks etdirməklə, onları təsbit edərək, cəmiyyətimizin quruculuğunda yeni mərhələyə keçildiyini göstərməklə yanaşı, sosial-iqtisadi, siyasi və mədəni tərəqqinin zirvələrinə ardıcıl yüksəlişdə bir pillə olub.

Azərbaycan Respublikasının SSRİ-nin tərkibinə daxil olduğu vaxt xalq üçün ən vacib faktorlardan biri olan dövlət dili haqqında qanunun və ikinci mərhələdə bu maddənin qəbulu məhz Ulu öndərin adı ilə bağlıdır. Bu xalqın qarşısında tarixi xidmətlərinin əvəzi kimi tale Ulu öndərə həm də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını, tam müstəqil, heç bir dövlətdən, heç bir mərkəzdən, heç bir kəsdən asılı olmayaraq qəbul etmək qədər məsuliyyətli və şərəfli bir vəzifəni də ona qismət etdi.



## KONSTİTUSİYADA DİN

**«Mənəvi dəyərlərə malik İslam dini bəşəriyyətə barış, səadət və sülh aşılayıb»**

**Heydər Əliyev**

**"İslam dini çoxəsrlik tarixi boyu özündə elə gözəl xüsusiyyətlər formalaşdırmışdır ki, bizim üçün müqəddəs olan Qurani-Kərim, həzrəti Məhəmməd Peyğəmbərin müsəlmanlara göstərdiyi yol və verdiyi tövsiyələr insanların daxili mənəviyyatına o qədər uyğun olmuşdur, insanlar üçün o qədər faydalı olmuşdur və insanların həyatında o qədər müsbət rol oynamışdır, insanları o qədər səadətə çatdırmışdır ki, bu adət-ənənələr, bu dini qanun-qaydalar nəsildən-nəslə yaşamış və heç bir məhdudiyyət bunun qarşısını ala bilməmişdir"**

**Heydər Əliyev**

Azərbaycan müstəqillik dövrünə qədəm qoyandan sonra hər kəsin vətəndaş hüquqları, vicdan azadlığı və dini etiqad sərbəstliyi tam təmin olundu. Sözügedən azadlıqlar Azərbaycanın başlıca hüquqi-siyası sənədi olan Konstitusiyada öz əksini tapdı.

Dini-mənəvi dəyərlərlə müasirliyin əlaqəsi, üzvi bağlılığı, müasir tərəqqi prosesində onların rolu, problemləri dövrümüzün ən aktual məsələlərindən biridir. Dini dəyərlərin cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırması da inkar oluna bilməz.

Sovet İttifaqı dağılandan, Azərbaycan öz müstəqilliyini elan edəndən sonra yaranmış vəziyyət, eyni zamanda dövrün mürəkkəb və ziddiyyətli xarakteri dini-mənəvi dəyərlərə münasibətdə dəqiq, aydın və perspektivli bir mövqenin işlənib hazırlanmasını aktuallaşdırırdı. Həmin mövqe xalqımızın əsrlərlə formalaşdırdığı zəngin mədəni və dini-mənəvi irsdən bəhrələnməklə yanaşı, zamanın ruhu və tələbləri ilə səsləşən prinsipləri özündə əks etdirməyi bacarmalı idi.

Azərbaycanın ən ağır günündə nicat əlini uzadan Ulu öndər məhz bu mövqeyi nümayiş etdirdi. Zamanın tələbləri baxımından uğurlu bir siyasət həyata keçirməklə yanaşı, xalqın sahibi olduğu milli-mənəvi dəyərlərin qiymətləndirilməsinə, bu irsin qorunub saxlanmasına və gələcək nəsillərə ötürülməsinə vasitə oldu.

1998-ci ildə Azərbaycanın paytaxtı Bakıda "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda beynəlxalq konfrans düzənləndi. Elə həmin günlərdə Qafqaz müsəlmanlarının X qurultayı da qeyd edildi. Müsəlman alim və din xadimlərinin İslam dininin aktual problemlərini müzakirə etməsi sırf elmi-dini əhəmiyyət daşımaqla yanaşı, müsəlman dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, İslam həmrəyliyinin daha da möhkəmlənməsinə xidmət edirdi. Dünyanın bir çox yerlərində İslam dininin əsaslarına və müsəlman ölkələrinə qarşı qərəzli mövqelərin nümayiş etdirildiyi bir zamanda bu, xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Ona görə də, beynəlxalq konfrans İslam aləmində tarixi bir hadisəyə çevrildi.

Konfransda müzakirə olunan məsələlər siyasi müstəqillik əldə etdikdən sonra keçid dövrünün bir çox çətinlikləri, o cümlədən, milli və dini dəyərlərin bərpası problemləri ilə də üzləşmiş respublikamız üçün olduqca aktual bir məsələ idi. Ulu öndərin İslam dininə yanaşması Azərbaycan xalqının milli liderinin insan mənəviyyatının saflaşmasına xidmət edən dini-mənəvi dəyərlərimizin bərqərar olması işinə yönəldilmiş fəaliyyətini də şərtləndirirdi.

XX əsrin sonunda bəşəriyyət böyük təhlükələr, qanlı münaqişələr və ağlagəlməz çətinliklərlə üz-üzə qaldı. Dünyada gedən ictimai-siyasi proseslər, əksər ölkələrdə demokratiyanın inkişafı, insanlara bütün azadlıqların verilməsi və insan haqlarının qorunması sahəsində qəbul edilən beynəlxalq qərarlarla nəticələndi.

Dünyanın təzədən düzənlənməsi, 70 il Kommunist ideologiyası altında tərbiyələndiyindən dinin bəxş etdiyi mənəvi dəyərlərdən məhrum olan, lakin müstəqil dövlət kimi yeni yaşam tərzinə başlayan ölkələr üçün, öz dininə varmaq, tapınmaq kimi çox böyük imkanlar yaradırdı. Azərbaycan, məhz belə ölkələrin sırasında idi. Bu tarix onu göstərirdi ki, din və o cümlədən bizim mənsub olduğumuz İslam dini o qədər qüdrətə, o qədər gücə malikdir ki, heç bir ideologiya, heç bir hakimiyyət ona qarşı mübarizə apara bilməz.

Ulu öndər Azərbaycanın müqəddəs məkanlarına, İslam dininə inancı və ehtiramı özündə ehtiva edən ocaqlara hökumət qayğısını sərgiləməklə Azərbaycanın, o cümlədən özünün İslam dininə münasibətini nümayiş etdirdi.

Bibiheybət məscidində yenidənqurma və əsaslı təmir işləri başlandı. Dünyanın bir çox yerlərindən gələn müsəlmanların ziyarətgahına çevrilmiş məscid sovet əsgərləri tərəfindən 1933-cü ildə partladılıb dağıdılmışdı.



1996-cı ildə Heydər Əliyev Eduard Şevardnadze ilə birlikdə bəyanat verdi: "Qafqazda sülh". Onlar Qafqazda mövcud olan digər dövlətlərin də bu bəyanata qoşulmalarını arzulayırdılar.

Qafqaz tarixən bir-biri ilə bağlı olan dövlətlərin, ölkələrin, xalqların ümumi evi kimi mövcud olub. Dünyanın heç bir guşəsində, heç bir regionunda Qafqaz kimi çoxmillətli, çoxdinli və rəngarəng bir region, bir bölgə tapmaq mümkün deyil. Ərazi cəhətdən kiçik olan bu məkanın özəl xüsusiyyəti bir də ondan ibarətdir ki, burada əsrlər boyu müxtəlif millətlərə və dillərə mənsub olan insanlar bir ailə kimi mehriban, dostluq və qardaşlıq şəraitində yaşayıblar.

Bu xalqların və millətlərin əksəriyyəti İslam dininə mənsubdur və bu din Qafqazda böyük mənəvi gücə və nüfuza malikdir. XX əsrin son onilliyində Qafqaz – Qarabağ, Abxaziya, Cənubi Osetiya münaqişələr və qaynar nöqtələr məkanına çevrildi.

Amma bu münaqişələr dini fərqlərdən qaynaqlanmırdı. Əsrlər boyu xristian dininə mənsub Gürcüstanla İslam dininə iman gətirən Azərbaycanın dostluğu dünya xalqlarına nümunə kimi göstərilə bilərdi. Gürcüstanda yarım milyon azərbaycanlı müsəlman yaşayırdı. O cümlədən, Azərbaycanda yaşayan gürcülər respublikamızın bərabərhüquqlu vətəndaşlarıdır. Münaqişə zonalarında sülhün bərqərar olması, Şimali Qafqazda ictimai-siyasi və daxili vəziyyətin sabitliyi, ümumən Qafqazda sülh, əmin-amanlıq olmasının əsasını təşkil edir. Qafqazda sülh və əmin-amanlığın bərqərar olması üçün bu ölkələrin Rusiya və bu ölkənin müsəlmanları ilə dostluq əlaqələrinin inkişaf etməsi vacib faktorlardan biri idi. Heydər Əliyev bu sahəyə xüsusi diqqət ayırırdı: "Rusiyada 20 milyon müsəlman yaşayır. Bunu bilmək lazımdır və Rusiyanın hakim dairələri bununla hesablaşmalı və öz siyasətində bunu nəzərə almalıdırlar."

Azərbaycanda və Orta Asiyada, Rusiyada muxtar respublikaların, bütövlükdə Şimali Qafqazın özündə əksəriyyət İslam dininə etiqad edirdi. Bununla belə, Qafqaz elə bir məkandır ki, ayrıca bir kənd də özünün müstəqil dili, müstəqil adət-ənənələri və qədim tarixi ilə seçilir. Kommunist ideologiyası sovet xalqı – yeni tarixi birlik ideyası ilə çıxış etdiyindən həmin xalqlara çox böyük ziyan dəydi. Adət-ənənələr ləğv edildi, unuduldu, insanlar tapındıqları müqəddəsliklərdən ayrı düşdülər.

Bu baxımdan Qafqaz müsəlmanlarının X qurultayı böyük tarixi hadisə idi.

Qafqaz Müsəlmanları İdarəsi hələ sovet vaxtında yaranmışdı. O vaxtlar SSRİ-də din qadağan olunsa da, İkinci Dünya müharibəsindən sonra xalqlara dini məhdud azadlıqlar verildi. Rusiyanın və

Gürcüstanın patriarxına, o cümlədən Orta Asiya və Qafqaz müsəlmanlarına təşkilatlanmaq imkanı yaradıldı. Amma bu, formal xarakter daşıyırdı. İmperiya dağılandan, Qafqaz müstəqillik əldə edəndən sonra isə, xalqların Ali Dini Şurası çox böyük, güclü və səlahiyyətli bir təşkilata çevrildi.

Rus provaslav kilsəsi müstəqil Bakı-Xəzəryanı yeparxiyasının yenidən yaradılması rus və Azərbaycan xalqları arasında münasibətlərin daha da inkişaf etməsinə səbəb oldu.

Əslində, Bakı-Xəzəryanı yeparxiya 1934-cü ilə qədər mövcud idi. Onun yenidən dirçəldilməsi regionda Provaslav xristianların mənəvi dirçəlişinə də kömək demək idi. **Bu, həm də Azərbaycan hökumətinin xristian dinindən olan öz vətəndaşlarına qayğısını da sübut edirdi.** Bakı-Xəzəryanı yeparxiyasının tərkibinə Azərbaycan ərazisindəki provaslav kilsələri ilə yanaşı, Dağıstan və Çeçenistan respublikalarının provaslav kilsələrinin də daxil olması bu sahədə əldə olunan nailiyyətlərimizin bir çox ölkələr üçün örnəyə çevrildiyini sübut edirdi. Min illər ərzində Şərqdə İslamla xristianlıq həmişə qonşu olaraq, dinc yanaşı yaşamağın ən sivil yollarını arayıb tətbiq etmişdilər.

"Mən hətta belə düşünürəm ki, müstəqil Bakı-Xəzəryanı yeparxiyasının təsis edilməsi Azərbaycan dövlətinin suverenliyinin tanınmasına daha bir sübutdur. Belə ki, suveren dövlətdə onun daha çox yayılmış konfessiyaları üçün müstəqil dini idarə də olmalıdır. Buna görə də, Bakı-Xəzəryanı yeparxiyasının təsis olunması təsdiq edir ki, Azərbaycan suveren dövlətdir".

Xəzəryanı ölkələri, o cümlədən Dağıstanı və Çeçenistanı əhatə edən Yeparxiyanın yaradılması həm də suverenliyimizin bütün istiqamətlərdə, o cümlədən rus Pravoslav kilsəsi tərəfindən tanınıb təsdiq edilməsinin göstəricisi idi. Yeparxiyanın yenidən dirçəldilməsi qonşu ölkələrdə rusdilli əhalinin maraqlarını qorumağın zəruriliyi barədə Rusiya Federasiyasında tez-tez səslənən fikrə də cavab idi. İslam dövlətçiliyini qoruyub saxlamaq istəyən qüvvələr həmişə sübut etməyə çalışıblar ki, guya dünyəvilik İslam dininə ziddir.

Azərbaycan dövlətinin əsas prinsiplərindən biri, milli-mənəvi ideologiyanı və dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirməkdən, sintez etməkdən ibarət olub. İslam dini uzun tarix boyu Azərbaycanın mənəvi mənbəyi rolunu oynayıb. Daha doğrusu, bu xalqın mənəviyyatını formalaşdırıb.

Tarixə qısa bir nəzər salaq. **700 il ömür sürən Osmanlı imperiyası dağılan zaman böyük tarixi hadisə baş verdi: müsəlman aləmində, türk dünyasında dünyəvi bir dövlət quruldu. "Dünyəvi bir cümhuriyyət qurmaqla həqiqətən İslam dininin demokratiya ilə əlaqəliliyini və heç də bundan kənara çıxmadığını sübut etdiyini, eyni zamanda, islam dininin etibarını yüksəltdi və bütün İslam dünyasına nümayiş etdirib, göstəribdir ki, İslam dinindən imtina etmədən, İslam dinini xalqın mənəvi dəyərləri hesab edərək, dünyəvi bir dövlət qurmaq olar."** Bu, Ulu **öndərin Türkiyə Cümhuriyyətinin yaranma tarixinə verdiyi qiymət idi.**

Hazırda Türkiyə ilə bir sırada dayanan Azərbaycandan başqa bütün İslam dünyasında, Pakıstandan İndoneziyaya qədər ərazidə və ərəb ölkələrinin heç birində belə bir tolerant və dünyəvi bir ölkə mövcud deyil. Sovet hakimiyyəti qurulandan sonra dinin tamamilə yasaq olunduğu, ateizm siyasəti yeridilən ölkəmizdə 70 il ərzində dini məhv edə bilmədilər. Ulu öndərin hakimiyyətə gəlişinin ikinci mərhələsi tarix baxımından qısa zaman kəsiyini əhatə etsə də, dünyəvi dövlət kimi mühüm uğurlara imza atdı. Azərbaycanın İslam dininə etiqad edən dünyəvi bir dövlət olaraq qazandığı ən böyük uğurlardan biri qadın haqları – qadın hüquq və azadlıqları sahəsində atılan addımlardır. Bu gün hətta yaranış tarixi 1923-cü ildən hesablanan Türkiyə dövləti bu sahədə Azərbaycanla rəqabətə girə bilməz.

Öz sıralarında vətəndaşlarımızı birləşdirən bütün milli-mədəni təşkilatlar, vətəndaş təsisatları, dini qurumlar və konfessiyalar o cümlədən rus Pravoslav kilsəsi cəmiyyətin mənəvi-əxlaqi saflaşması, insanlar arasında mehribanlıq, xeyirxahlıq, dostluq və qardaşlıq, həmrəylik hisslərinin yaranması, bir-birinə qayğı ilə yanaşması yolunda fəaliyyətə rəvac verdilər. Yəhudi xalqının soyqırımı günü Azərbaycanın yəhudi icmasına müraciət edən Ulu öndər dünyanın bütün mütərəqqi qüvvələrini insanlığa zidd olan hər cür zorakılığa, milli, dini və irqi ayrı-seçkiliyə qarşı mübarizəyə səslədi.

Tarixdə bir neçə dəfə yəhudilərin kütləvi qırğınları baş verib. Təkcə İkinci Dünya müharibəsində altı milyon mülki əhali yalnız yəhudi xalqına mənsub olduğuna görə qətlə yetirilib. Dünyanın müxtəlif ölkələrində baş verən bu qırğınlardan fərqli olaraq, Azərbaycanda formalaşan yəhudi icması heç vaxt yerli xalqın təzyiqinə məruz qalmayıb və dinc qonşuluq şəraitində yaşayıb. Yaşadıqları oxşar tale və düçar edildikləri faciəli müsibətlər yəhudi və Azərbaycan xalqlarını bir-birinə daha da yaxınlaşdırıb.

Tarixən müxtəlif xalqların mehriban bir ailə kimi dinc yanaşı yaşadığı, milli adətlərin, dini-mənəvi dəyərlərin qorunub saxlandığı bir

ölkə olan Azərbaycan yenidən öz tarixi missiyasını bərpa etməyi bacardı. Ulu öndər bir daha bu missiyanın tarixən Azərbaycanın boynuna düşdüyünü vurğuladı: "Bizim siyasətimiz sülhsevər siyasətdir. Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

Ölkəmiz demokratiya yolu ilə gedir. Ölkəmiz bütün dünya üçün açıqdır. Dövlətimiz, ölkəmiz öz milli, mənəvi, dini dayaqları üzərində qurulub və bundan sonra da yaşayacaqdır. Amma bunların hamısını təmin etmək üçün gərək hər bir vətəndaşımız öz vətəndaşlıq borcunu yerinə yetirsin, öz vətəndaşlıq məsuliyyətini dərk etsin. Əgər hər bir vətəndaş, hər bir azərbaycanlı dərk edə bilsə ki, müstəqil Azərbaycanın yaşaması, qalib gəlməsi və gələcəyə uğurla getməsi onun kiçik fəaliyyətindən də asılıdır, o bunu edəcəkdir.

**Allah da belə buyurub, Qurani-Kərim də bunu bizdən tələb edir. Dinimizin əsasını qoyan və mənim bu günlərdə məbədini ziyarət etdiyim Həzrəti Məhəmməd Peyğəmbər də bizə bu yolu göstərir".**

Ümummilli lider Heydər Əliyevin siyasəti bu gün də ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müasir cəmiyyətin inkişafında mühüm amil hesab edilən dini dözümlülük Azərbaycanda ən yüksək səviyyədədir. Respublikamızda müxtəlif dinlərin nümayəndələri mehriban və qardaşlıq şəraitində yaşayırlar.

Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksi Azərbaycanda səfərdə olarkən ölkəmizdə bərqərar olan tam qarşılıqlı anlaşma və milli həmrəyliyi digər dövlətlərə nümunə ola biləcəyini gizlətmədi.

Həqiqət belədir ki, əsrlər boyu sülh və qarşılıqlı anlaşma şəraitində yaşayan Azərbaycanda dini və milli zəmində tolerantlıq hökm sürür, bütün xalqlar bir ailə kimi yaşayır.



## DİL ƏN BÖYÜK SƏRVƏTDİR

**«Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Şəxsən mən bu dili sevirəm.»**

**Heydər Əliyev**

**Azərbaycan Respublikasının 1995-ci ildən qəbul edilmiş Konstitusiyasının 23-cü maddəsi Azərbaycan dilinin dövlət dili olmasını özündə əks etdirir.**

**«Ana dilini bilməyən tarixini də bilməz»**

**Heydər Əliyev**

Azərbaycan dövləti uzun, keşməkeşli tarixi dövrləri arxada qoyandan sonra Sovet İttifaqı tərkibində sosialist respublikası kimi formalaşmağa başladı. Və sosialist Azərbaycanının ilk Konstitusiyası – dövlətin Əsas Qanunu 1921-ci ildə qəbul olundu. Əsas Qanuna dövlət dili haqqında maddə daxil edilmədi. Həmin dövrdə Azərbaycan proletariatın ən qaynar ərazisi idi və bu çox millətli kontingent, yerli ziyalılar da daxil olmaqla, əsasən rus dilindən istifadə edirdi.

Azərbaycanın Konstitusiyası ikinci dəfə 1937-ci ildə qəbul edildi və bu yeni Konstitusiyada da dil haqqında heç bir müddəa nəzərdə tutulmadı. 20 il ərzində respublikada bütün kargüzarlıq işləri rus dilində aparıldı. Hətta kadrların seçilib təyin edilməsində onların rus dilini bilmələri ilə yanaşı, rus ailələri ilə yaxın qohum olmalarına da diqqət yetirilirdi.

1956-cı ildə Azərbaycan Respublikasının Ali Sovetində 1937-ci ildə qəbul olunmuş Konstitusiyaya yenidən baxıldı. Konstitusiyaya Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə edildi.

İlk baxışdan alqışlanası addım təsiri bağışlasa da, bu səriştəsizlik sonda Azərbaycana millətçi damğası vurulması ilə nəticələndi.

Dövlət dili haqqında maddənin qəbul olunmasından sonra həyata keçirilən tədbirlər mübahisələr və narazılıqlarla müşayiət olunmağa başladı. Respublika çətin vəziyyətə düşdü. Çünki dil haqqında maddə qəbul edilən kimi özlərini həddindən artıq vətənpərvər, millətini sevən kimi göstərmək istəyən bir sıra səlahiyyətli şəxslər bütün idarə və təşkilatlarda yazışmaların yalnız Azərbaycan dilində getməsi göstərişini verdi. Ziyalıların və mütəxəssislərin əksəriyyəti rusdilli olduğundan, kargüzarlıq işlərində, katiblikdə, yazışmalarda rus dili üstünlük

təşkil etdiyindən respublikanın idarəçiliyi ilə bağlı olan işlər az qala iflic vəziyyətinə düşdü. Uzun illərin formalaşdırdığı peşəkar kadrlar fəaliyyətlərini demək olar ki, itirdilər. Rusdilli kontingentin kütləvi işdən çıxarılması böyük narazılıq doğurdu. 1959-cu ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosunda Azərbaycanda millətçilik olması barədə qərar qəbul edildi. Sov İKP MK-nın qərarı Azərbaycanda rəhbər dəyişikliyi ilə nəticələndi.

Ulu öndər Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələndən sonra Azərbaycan çiçəklənmə dövrünə qədəm qoydu. Bütün sahələrdə olduğu kimi dövlətin Əsas Qanununa da yenidən nəzər salmaq zərurəti meydana gəldi. 1977-78-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən yeni Konstitusiyada dil məsələsi əsas prinsiplərdən oldu. Ulu öndər Konstitusiyanı hazırlayan komissiyanın sədri olmaqla bu işlərə şəxsən özü rəhbərlik edirdi. Dillə bağlı məsələ ortaya çıxarkən bu, böyük mübahisələrə səbəb oldu.

Moskva da bu dəyişikliyi böyük etirazla qarşıladı. Rəsmi Moskva ilə Heydər Əliyevin danışıqları çox gərgin keçirdi. Azərbaycan rəhbərliyi sübut etməyə çalışırdı ki, milli dil dövlət dili kimi konstitusiyada öz əksini tapmalıdır.

Moskva Azərbaycanın bu məsələsini dəfələrlə müzakirə etsə də, Heydər Əliyevi fikrindən döndərə bilmədi. 1978-ci ildə Azərbaycanın Konstitusiyası həmin dəyişikliklə qəbul edildi. Milli liderimizin səyləri nəticəsində "Azərbaycan SSR-in milli-dövlət və inzibati-ərazi quruluşu" fəslinə dil haqqında xüsusi maddə əlavə etmək məqsədəuyğun sayıldı. 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olundu: **«Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.»**

Aprel ayında Şəhriyar (köhnə Dzerjinski adına klub) adına sarayda keçirilən böyük iclasda Heydər Əliyev tribunaya çıxana qədər zalda tam gərginlik hökm sürürdü. Ulu öndər iri və qəti addımlarla tribunaya çıxarkən hamının diqqət və nəzəri onun simasında idi. Heydər Əliyev tələsmədən nitqə başladı. Əvvəlcə konstitusiya ilə bağlı ümumiləşdirilmiş rəy sorğuları barədə fikirlərini açıqladı. O, Konstitusiyanın maddələrini təhlil edərək 73-cü maddənin üzərində dayandı. Zalda tam sakitlik hökm sürdü. Heydər Əliyev dedi: **«Azərbaycan dili rəsmi dövlət dili kimi Konstitusiyanın 73-cü maddəsində öz əksini tapmışdır. Azərbaycan dili var və olacaqdır.»** Bütün zal bir nəfər kimi ayağa qalxdı və salonu sürəkli alqışlar bürüdü.

1978-ci ildə qəbul edilmiş Azərbaycan Konstitusiyasında dövlət



dili haqqında maddə yer alanda köhnə sovetlər ittifaqının on beş respublikasından yalnız ikisində – Gürcüstan və Ermənistanın konstitusiyalarında dövlət dili haqqında maddə var idi.

Azərbaycan Respublikası, əslində, həmin dövrdə digər on respublikanın – Ukrayna, Latviya, Litva, Estoniya, Belorusiya, Özbəkistan, Qırğızıstan, Tacikstan, Türkmənistan, Qazaxıstan respublikalarında da ana dillərini öz konstitusiyalarında qəbul etməyə yol açdı.

Azərbaycan SSR-in dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif və digər sahələrdə Azərbaycan dilinin işlədilməsi təmin edilir və hərtərəfli inkişafına dövlət qayğısı göstərilirdi.

Azərbaycan SSR-də, eyni zamanda, rus dilinin, habelə əhalinin danışdığı başqa dillərin bütün bu orqanlarda və idarələrdə hüquq bərabərliyi əsasında azad surətdə işlədilməsi təmin edilirdi. Bu və ya başqa dillərin işlədilməsində heç bir imtiyaza və ya məhdudiyyətə yol verilmirdi. Bu, həmin o millətçi damğasından məharətlə yayınmaq və Azərbaycanda demokratik prinsiplərə layiqincə əməl etməyin göstəricisi idi.

1992-ci ildə Milli Məclisdə dövlət dili haqqında məsələ müzakirə edilərək Azərbaycanın dövlət dilinin türk dili olması haqqında qərar qəbul etmişdi.

1992-ci ildə Konstitusiya qanunu qəbul etmək əvəzinə, birbaşa Milli Məclisdə heç bir yetərsaya əməl edilmədən bir günün içində qəbul olunmuş bu adi qanunla şübhəsiz ki, Konstitusiyada dəyişiklik edilə bilməzdi. Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında «Azərbaycanın dövlət dili Azərbaycan dilidir» yazılması da həmin vaxt nəzərə alınmamışdı. 1992-ci ildə dövlət dili haqqında qanun Milli Məclisdə qəbul olunanda cəmi 26 parlamentarinin səs verməsi Azərbaycanın dövlət dilinin türk dili olması üçün yetərli hesab edilmişdi. Həmin qanunun quvvəyə minməsi üçünsə 1978-ci ildə qəbul olunmuş konstitusiya qanunauyğun şəkildə ləğv olunmalıydı. Şübhəsiz ki, konstitusiya yenidən müzakirəyə çıxarılmasa, bu, mümkün deyildi. 1978-ci ildə qəbul edilmiş qanun qüvvədə qala-qala yeni qanunun qüvvəyə minməsi təbii ki, qeyri-qanuni idi. Bu, qanunçuluq nöqteyi-nəzərindən çox böyük qüsur hesab olunurdu.

Məsələnin digər tərəfi 1992-ci ildəki rəhbərliyin olduqca ciddi məsələyə məsuliyyətsiz yanaşması nəticəsində yaranmışdı. Bu məsələ 1992-ci ilin parlamentində zorla həyata keçirilmişdi. İştirak edən 39 nəfər üzvdən bu məsələyə 26 nəfər səs vermişdi. Milli Məclisin 50 üzvündən yalnız 39-u qanunun qəbul olunduğu iclasda

iştirak edirdi. Prosedur qaydalar isə belə ciddi bir qanunun qəbul edilməsi üçün Milli Məclis üzvlərinin üçdə ikisinin səsini tələb edirdi.

Bu qanunun qəbulu üçün ən azı referendum keçirmək tələb olunurdu. Referendumun keçirilməsi bir tərəfə qalsın, həmin tarixdə parlament çərçivəsində qanun kobud şəkildə pozulmuşdu. Yəni dil haqqında qanun yetərsay olmadan qəbul edilmişdi.

«Mən hesab etmirəm ki, bu, təcrübəsizlikdən olub. Mən hesab edirəm ki, o insanlar – o vaxt Azərbaycana rəhbərlik edən adamlar təcrübəsizliyindən də çox, böyük iddialarla yaşayırdılar. Onların hər biri hesab edirdi ki, bütün bu alçaq dağları onlar yaradıblar, başqaları yaratmayıblar. Bax, belə iddialara görə onlar bu işləri ediblər. Əgər bu iddialar olmasaydı, buna heç böyük təcrübə də lazım deyildi. Dünya təcrübəsi, adi bir təcrübə var ki, hər şeyi müzakirə etmək olar». Bu sətirlər Heydər Əliyevin 1995-ci ildə dövlət dili haqqında maddəyə yenidən baxılarkən etdiyi çıxışların birindən götürülüb. Həmin müzakirələr zamanı komissiyada üç nəfərin fərqli təklifi maddənin yenidən ümumxalq müzakirəsinə verilməsinə səbəb oldu.

Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan Konstitusiyası yenidən – 1995-ci ildə müzakirəyə çıxarıldı. Konstitusiya layihəsinin Azərbaycanın dövlət dili haqqında olan maddəsini ayrıca müzakirə etməyin vacibliyini vurğulayan dövlət başçısı komissiyanın sədri və Azərbaycanın prezidenti kimi bu məsələyə xüsusi fikir verirdi.

Heydər Əliyevin tapşırığı ilə məsələni yazıçı və jurnalist birlikləri, eyni zamanda, dilçilik və ədəbiyyat institutları ayrıca müzakirə etməyə başladılar. Dilçi mütəxəssislər da ayrıca olaraq dil haqqında qanunu müzakirə edərək, nəticələri konstitusiya komissiyasına təqdim etdilər.

Heydər Əliyev 1995-ci il oktyabrın 30-da İşçi Qrupun iclasını çağırdı. Ertəsi gün isə Elmlər Akademiyasının böyük salonunda yeni konstitusiya layihəsində dövlət dili ilə bağlı maddənin geniş müzakirəsi keçirildi.

Ümumxalq müzakirəsindən sonra konstitusiya layihəsinə 1400 təklif, düzəlişlər və əlavələr təqdim olunmuşdu. Həmin təkliflərin 18-i dövlət dili ilə bağlı idi.

**«Həmin təkliflərdə dövlət dilini cürbəcür formalarda – ya türk dili, yaxud da ki, Azərbaycan türkcəsi yazmaq təklif edilir. Əgər bu işə yenə də mexaniki münasibət göstərilsə, – ümumxalq müzakirəsi olubdur. 18 təklifə baxardıq, layihədə olan maddəni də qəbul edərdik. Amma hesab etdim ki, bu yolla getmək lazım deyil. Oktyabrın 31-də ziyalılarla xüsusi görüş keçirdim, ondan**



**sonra orada olan çıxışlar haqqında mənə məlumat verdilər. Həmin məlumatları alandan sonra mən belə bir qərar qəbul etdim ki, bu cür məsələ komissiyanın iclasında xüsusi müzakirə olunsun»** – deyən Heydər Əliyev bu taleyüklü və tarixi aktla bağlı, yüz ölçüb bir biçmək istəyirdi. **«Bu məsələni hissiyyata qapılmaqla, emosiyalarla həll etmək olmaz. Xalqın taleyi həll edilən halda, xalqın taleyi ilə əlaqədar olan məsələlərin həllinə gərək hər kəs çox böyük məsuliyyət hissi ilə yanaşsın.**

**Bizim mənəvi dəyərlərimiz bəşəridir. Bizim keçmişimizdə konyunkturluğa, bəzən subyektivliyə, volyuntarizmə görə başımıza çox iş gəlib. Gəlin, bundan sonra bu səhvləri buraxmayaq.»**

Yeni konstitusiya layihəsində dillə bağlı 23-cü maddənin müzakirəsi çox gərgin keçdi. Xatırladaq ki, 1978-ci ildə də həmin maddənin konstitusiyaya yazılması uzun müzakirə və mübarizə yolu keçmişdi. «Bu, o demək deyildi ki, bizim aramızda «Dövlət dilimiz Azərbaycan dili olmalıdır» fikrinə şübhə edənlər olmuşdur. Ancaq o zaman biz müstəqil deyildik. Sovetlər İttifaqının tərkibində idik və Sovetlər İttifaqının, Kommunist Partiyasının rəhbərliyindən asılı idik. Ona görə də həm öz istəyimizi həyata keçirməli idik, həm də buna razılıq almalıydıq. Biz bundan ötrü müharibə etməyəcəkdik, üsyan qaldırmayacaqdıq. Əgər kimsə hesab edir ki, üsyan qaldırmaq olardı – bu, ağılsız fikirdir». Heydər Əliyev komissiyanın sədri kimi tarixə kiçik bir ekskurs etdi. Milli Məclisdə Azərbaycanın dövlət dili məsələsi müzakirə olunarkən məclis üzvlərindən bir qismi türk dili, bir qismi azəri türkcəsi, əksəriyyəti isə dövlət dilimizin Azərbaycan dili kimi qəbul edilməsini təklif edirdi. Bütün bu ziddiyyətli fikirlərə Ulu öndər bir sözlə yekun vurdu:

**«Mən danışdığımız dili – buna hansı dil deyirsiniz-deyin – çox gözəl dil hesab edirəm. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm».** Ulu öndər Azərbaycan dilinə münasibətini bu sözlərlə ifadə edirdi. **«Dilimizin 30-cu illərdəki vəziyyətini təsəvvür edin. Götürün, oxuyun 20-ci ildə yazılan kitabları. İndiki dilimizi götürün. Dilimiz nə qədər zənginləşib, nə qədər gözəlləşibdir, nə qədər cazibədar olubdur, nə qədər də şirindir. Bu, bizim dilimizdir. Amma adını nə qoyacaqsınız, o, sizin işinizdir».** Heydər Əliyev xalqının dilini necə adlandırmasını onun öz iradəsinə tapşırırdı.

Dil haqqında qanunun müzakirələri tarixin tələb etdiyi şəkildə

qəbul olunmuş qərarla başa çatdı. 1995-ci ildə 1978-ci ildə olduğu kimi Azərbaycan dövlətinin dili Əsas Qanun kitabına – Konstitusiyaya 23-cü maddə ilə möhürləndi.

Bu, Ulu öndər Heydər Əliyevin xalqı qarşısında verdiyi borclarından biri idi.



## KONSTİTUSİYADA BEYNƏLXALQ SİYASƏT

Ulu öndərə xas olan istedadlı rəhbər, görkəmli dövlət xadimi və mahir diplomat keyfiyyətləri dünya dövlətləri ilə əlaqələrin yaranmasında mühüm rol oynamışdır.

Həm tarixi keçmişinin, həm də bu gününün olduğu kimi bütün dünyada tanınması gənc, müstəqil dövlətimizin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün mühüm vasitə olmalı idi. Heydər Əliyev məhz bunu bacardı.

Böyük iqtisadi potensiala malik bir ölkə kimi dünya birliyinə qədəm qoyan Azərbaycan Respublikası BMT-nin bərabərhüquqlu üzvünə çevrildi.

1995-ci il tariximizə müstəqil Azərbaycan Respublikasının həyatında dövlətçilik prosesləri ilə əlaqədar böyük ictimai-siyası tədbirlər ili kimi yazıldı. Beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsi, respublikamızın dünya ictimaiyyəti arasında, beynəlxalq aləmdə və təşkilatlarda nüfuzunun artırılması öz nəticələrini verdi.

77 il Sovet Rusiyasının hakimiyyəti altında yaşayan Azərbaycan "Sülh naminə tərəfdaşlıq" haqqında NATO proqramını keçmiş Sovet İttifaqı respublikaları – indiki müstəqil dövlətlər arasında birincilər sırasında imzaladı. Heydər Əliyev Brüsselə – NATO-nun iqamətgahına getdi və Azərbaycan Respublikası adından həmin proqrama imza atdı.

**Qara Dəniz Hövzəsi Ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Buxarestdə İkinci Zirvə toplantısına qatılan Azərbaycan iqtisadi problemlərini həll etmək və əməkdaşlıq üçün geniş imkanlar qazandı.** Bu təşkilatın üzvü olan bir çox ölkələr kimi, Azərbaycan da çətin keçid dövrünü keçdi. Bununla bərabər sərbəst bazar münasibətləri yaradılması və bərabərhüquqlu tərəfdaş kimi dünya birliyi ilə iqtisadi inteqrasiyaya yönəldilmiş iqtisadi islahatların aparılması da sürətlə həyata keçirildi. **Azərbaycanın əldə etdiyi ən böyük nailiyyətlərdən biri 1994-cü il sentyabrın 20-də Böyük Neft Müqaviləsinin – "Əsrin müqaviləsi"nin imzalanması oldu.** Nəhəng dövlətlər tərəfindən Azərbaycan iqtisadiyyatına investisiya qoyulması respublikamızın beynəlxalq mövqeyini möhkəmlətməklə yanaşı, onun taleyüklü məsələlərinin həllinə yardımçı olmağa, dəstək verməyə zəmin yaradırdı. Ərazisinin 20 faizi işğal olunmuş, 1 milyon qaçqın və köçkün problemi ilə üzləşmiş Azərbaycan üçün bu, çox vacib faktor idi.

Azərbaycanın beynəlxalq arenada qazandığı nüfuz getdikcə güclənirdi Budapeşt Zirvə toplantısında ATƏT-in məlum qətnamələrinin qəbul edilməsi bunun bariz nümunəsi idi.

**Dünya birliyində artıq özünə layiqli yer tutmuş dövlətimiz beynəlxalq təşkilatların əksəriyyətinin üzvüdür və bu təşkilatlarda öz sülhsevər, eyni zamanda, mütərəqqi xarici siyasət həyata keçirir.**

Ulu öndərin məqsədyönlü və uzaqgörənliyi nəticəsində Azərbaycan müstəqil siyasət aparmaqla yanaşı, dünyanın əksər dövlətləriylə dostluq və qardaşlıq əlaqələri yaradır və inkişaf etdirirdi. Dünyanın böyük və əzəmətli dövləti, beynəlxalq aləmdə tutduğu yer və yeritdiyi siyasət ictimai-siyasi proseslərə birmənalı olaraq təsir edən Amerika Birləşmiş Ştatları ilə qurulmuş əməkdaşlıq və dostluq əlaqələrinin inkişafı üçün çox geniş üfüqlər açırdı. Ən iri neft şirkətlərinin konsorsiumu ilə "Əsrin müqaviləsi" imzalandıqdan sonra isə Xəzər dənizinin Azərbaycan sektorunda enerji ehtiyatlarının hasilatı sahəsində uzunmüddətli beynəlxalq əməkdaşlığa başlanması faydalı iqtisadi inteqrasiya üçün etibarlı bünövrə yaratmaqla yanaşı, XXI əsrdə dünya iqtisadiyyatında aparıcı rol oynamağa verirdi. Bu ölkənin respublikamızdakı bütün şirkətlərinin və burada olan bütün iş adamlarının fəaliyyətini tənzimləmək, onlara kömək etmək, istiqamət vermək, onlara müəyyən proqnozlar vermək üçün ABŞ Ticarət Palatası yaradıldı.

Dünya sivilizasiyasına görkəmli töhfə verməklə yanaşı, zəngin, çoxəsrlik tarixə malik, böyük nüfuza malik Rusiya ilə dinc qonşuluq münasibətlərinə nail olmaq Azərbaycan üçün çox vacib idi. Çünki Sovet İttifaqı parçalandıqdan sonra da Rusiya öz dövlətçiliyini bərpa edərək, daha da möhkəmləndirmiş və azad bazar iqtisadiyyatını inkişaf etdirmək üçün əsaslı tədbirlər görmüşdü. İri dövlətlərin təcrübəsini diqqətlə izləyən Heydər Əliyev müstəqil Azərbaycan Respublikasını da bu yolla aparır və Rusiya ilə dostluğu orada həyata keçirilən islahatlara istər iqtisadiyyat sahəsində, istərsə də dövlətlərarası münasibətlərimizin digər bütün sahələrində gələcək inteqrasiya üçün imkan kimi qiymətləndirirdi. **«Azərbaycanı və Rusiyanı zəngin tarixi olan dostluq telləri bağlayır. Bu tarix illərlə deyil, on illərlə, əsrlərlə hesablanır. Həmin dövr ərzində xalqlarımız arasında sıx qarşılıqlı münasibətlər, xalqlarımızın həyatının bütün sahələrində möhkəm dostluq əlaqələri yaranmışdır. Biz mədəniyyət, elm, təhsil sahəsində, sənayenin yaradılması, aqrar bölmədə quruculuq sahəsində, bütün sahələrdə Azərbaycana Rusiya vasitəsilə gətirilmiş nə varsa, hamısını yüksək qiymətləndiririk.»**



Ulu öndər hakimiyyətə gələndən sonra ilk olaraq Rusiya ilə də dostluq və əməkdaşlıq əlaqələrini bərpa etdi. Bu, birbaşa xalqımızın mənafeyinə, regionda sülh və sabitliyə xidmət edirdi.

Rusiya Azərbaycan üçün həm böyük şimal qonşusu və həm də dost ölkə olduğundan Heydər Əliyev fəaliyyətində belə qərara gəlmişdi ki, bu münasibətlər əvvəlki nəsillərin yaratdıqları baza əsasında inkişaf etdirilməli və möhkəmləndirilməlidir. Bu prinsip hazırda Ulu öndərin davamçısı, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Azərbaycanın dünya birliyində nüfuz qazanması üçün ölkədə insan haqları və azadlıqları ilə bağlı islahatlar aparılmalı, müxtəlif beynəlxalq layihələrin imzalanıb reallaşması üçün təxirəsalınmaz tədbirlər görülməli idi. Bütün bunlar yalnız sülh şəraitində mümkün idi. Ölkənin indiki vəziyyətində onun əsas dayağı olacaq ordu quruculuğu sahəsində də təxirəsalınmaz tədbirlər görülməli idi. 1 milyon qaçqın və məcburi köçkün problemi ilə üzləşmiş, torpaqlarının 20 faizi işğal olunmuş Azərbaycan sülh şəraitinə nail olmalı, nə olur-olsun məcburən cəlb olunduğu müharibəni dayandırmalı idi. Ulu öndər iki ölkə arasında atəşkəsə nail oldu. Və ərazi bütövlüyümüzün, sərhədlərimizin toxunulmazlığını, müstəqil Azərbaycan Respublikasının suverenliyinin təmin edilməsi şərti ilə Ermənistanla Azərbaycan arasında uzunmüddətli, möhkəm sülhü təmin edən Böyük Sülh Sazişi imzalananadək həmin atəşkəsin qorunub saxlanması Ulu öndərin böyük arzusu idi.

Sovet dönəmində bütün əlaqələri kəsilmiş olduğu Türkiyə və həmsərhəd İran İslam Respublikası ilə də qardaşlıq münasibətləri bərpa olundu. 1992-ci ildə Türkiyə Cümhuriyyəti Azərbaycanın iqtisadiyyatına 250 milyon dollar məbləğində kredit ayırdı. Blokada şəraitində olan Naxçıvana kömək məqsədi ilə "Ümid körpüsü" inşa olundu. O vaxtdan Azərbaycan Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa əlaqə saxlamaq imkanı qazandı.

Ulu öndərin hakimiyyətə gəlişindən sonra Avropa və Asiya ölkələri, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri ilə də siyasi və iqtisadi əlaqələr quruldu. Bu əlaqələrin nəticəsi olaraq Kasablankada İslam Konfransı Təşkilatının toplantısında Azərbaycanın vəziyyəti müzakirə olundu və respublikamıza hərbi təcavüzlə bağlı xüsusi qərar qəbul edildi. Həmin təşkilatın üzvü olan digər ölkələrlə yanaşı, Misir Ərəb Respublikasının prezidenti Hüsni Mübarək və bu dövlətin nümayəndə

heyəti də prinsipial mövqedən çıxış edərək, qərarın qəbul olunmasına səs verdilər.

Müstəqil ölkələr arasında əlaqələrini genişləndirən Azərbaycan Respublikasının mövqeyi Ukrayna Respublikası tərəfindən də beynəlxalq təşkilatlarda həmişə müdafiə edilib. Bu əlaqələr Ukrayna və Azərbaycan arasında iqtisadi, sosial və mədəni həyatın bütün sahələrində çoxillik əməkdaşlıqda əksini tapıb. 60-cı, 70-ci və 80-ci illər Ukrayna və Azərbaycan arasında əlaqələrin gur inkişafı ilə səciyyəvi olsa da, müstəqillik əldə ediləndən sonra dövlətlərarası münasibətlər prinsipcə fərqli xarakter aldı. Dünya praktikasında hamılıqla qəbul edilmiş prinsiplər tükənməyən iqtisadi, güclü elmi və intellektual potensial tələb edirdi ki, bu da yeni-yeni ənənələrin formalaşması üçün vacib idi. **«İstər Birləşmiş Millətlər Təşkilatında və ATƏT-də – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında, istər MDB-də, istərsə də digər beynəlxalq təşkilatlarda Ukrayna ilə fəal əməkdaşlıq edirik. Buna görə də bu gün qeyd etmək xoşdur ki, beynəlxalq sahədə, beynəlxalq təşkilatlarda əməkdaşlığımız əməli xarakter daşıyır, bir-birimizə xoş təsir bağışlayır və əsas yaradır ki, belə əməkdaşlıq gələcəkdə daha müvəffəqiyyətlə davam etdiriləcək. Ukrayna bizdən ötrü çox gərəkli tərəfdaşdır. Biz bunu qiymətləndiririk və münasibətlərimizin dərinləşməsi və inkişafı üçün hər şeyi edəcəyik.»** Ukrayna və Azərbaycanın neft-qaz kompleksləri, xüsusən neft kompleksləri çox qədim tarixə malik olduğundan, Heydər Əliyev bu komplekslərin gələcək normal mövcudluğunun hər iki ölkənin xeyrinə işləyəcəyini proqnozlaşdırırdı. Elə belə də oldu.

Sosialist quruluşundan və iqtisadi modelindən yeni formalara keçid dövrünə qədəm qoyan ölkələrin müştərək inkişafı əlaqələrin möhkəmlənməsinə və beynəlxalq arenada sülhün qorunub saxlanılmasına xidmət edirdi.

Azərbaycanın təbii sərvətlərinə, iqtisadi potensialına maraq göstərən dövlətlərdən biri də iqtisadi inkişafına görə Avropanın ən nəhəng dövləti sayılan və dünyada demokratiya nümunəsi olan Almaniya idi.

Fərqlər böyük idi. Nəhəng Almaniya ilə müqayisədə Azərbaycan kiçik bir dövlət idi. Almaniya böyük dövlətçilik tarixinə malik idi. Azərbaycan isə dövlət müstəqilliyinə yenicə nail olmuşdu. Bununla belə Azərbaycanın zəngin təbii sərvətlərinə, iqtisadi və elmi potensialına güvənərək, özünü beynəlxalq aləmdə mühüm coğrafi-siyasi əhəmiyyətə malik strateji tərəfdaş kimi tanıtmağa çalışırdı. **Azərbaycan artıq**



**Avropa Birliyi ilə əməkdaşlıq haqqında saziş imzalamış, Avropa Şurasına qəbul olunmuşdu.**

Bunlar hamısı Azərbaycanın Avropaya mənsub olduğunu, eyni zamanda, Azərbaycanda dövlət quruculuğunun, cəmiyyətimizin artıq Avropa standartlarına cavab verdiyini sərgiləyirdi. İki əsr əvvəl öz kapitalını Azərbaycanda realizə edən Almaniya yenidən Azərbaycanla bir araya gəldi: Heydər Əliyevin uğurlu siyasəti **Almaniya – Azərbaycan forumunun yaranması ilə nəticələndi.**

Ulu öndər bu forumun Azərbaycan üçün Almaniyada güclü bir lobbiyə çevriləcəyini zənn edirdi. Tarix göstərdi ki, hadisələr onun düşündüyü kimi də inkişaf edir: **«Azərbaycan ilə Almaniya arasında yaranmış əməkdaşlıq əlaqələri həm bizim üçün, həm də sizin üçün çox əhəmiyyətlidir.**

**Bizim yaşadığımız əsrdə, son illərdə alman xalqının əldə etdiyi nailiyyətlər də çox yüksək qiymətə layiqdir».** İkinci dünya müharibəsindən sonra alman xalqının yaşadığı çətin və ağrılı tarix Azərbaycanın həyatında təkrarlanırdı. Almaniyanın əldə etdiyi nailiyyətlərdən təcrübə çıxaran Azərbaycan dövlət quruculuğu, demokratiyanın inkişaf etdirilməsi və iqtisadi islahatlar aparılmasında səmərəli istifadə edirdi.

Bütün bu müddət ərzində isə Azərbaycan beynəlxalq arenada uğurla irəliləyirdi. Amerikanın, Rusiyanın və Böyük Britaniyanın, Fransanın və İran İslam Respublikasının Neft Şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənməsi barədə üçüncü beynəlxalq müqavilə imzalanmışdı. Bununla əlaqədar müvafiq sazişlər imzalayaraq, **Rusiya ərazisindən keçməklə Bakıdan Novorossiysk limanına Şimal neft kəmərinin, habelə Gürcüstan ərazisindən keçməklə Qara dəniz sahilindəki Supsa limanına Qərb neft kəmərinin tikintisinə başlanmışdı.**

Azərbaycan Fransa ilə münasibətlərin inkişafına da ciddi əhəmiyyət verirdi. İki ölkə arasında bütün sahələrdə – iqtisadi, mədəni, siyasi sahələrdə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün mövcud imkanlardan bütünlüklə istifadə edirdi.

Azərbaycanın siyasi və coğrafi əhəmiyyəti, onun Avropa ilə Asiyanın qovuşuğunda, məşhur "İpək yolu"nun üstündə yerləşməsi, habelə ölkəmizin zəngin təbii ehtiyatlara, kifayət qədər sanballı iqtisadi, intellektual potensiala, sərbəst işçi qüvvəsinə malik olması və əməkdaşlıq üçün başlıca rol oynayan iqtisadi siyasətin düzgün və ardıcıl qurulması Avropanın diqqətini cəlb etməklə yanaşı, ölkəmizin

məqsədinə doğru inamla addımlamasına yardımçı olurdu. Ulu öndər Azərbaycanda beynəlxalq standartlara, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə, xüsusən Avropa ölkələrində olan praktikaya, onların əldə etdikləri nəticələrə müvafiq, azad iqtisadiyyatın, o cümlədən, bazar iqtisadiyyatının yaradılmasını və inkişafını təmin etmək məqsədi ilə ölkələrinin təcrübəsinə və nailiyyətlərinə əsaslanırdı.

## HEYDƏR ƏLİYEV VƏ İNSAN HÜQUQ VƏ AZADLIQLARI SİYASƏTİ

**"And içirəm ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam"**

**Heydər Əliyev**

İnsan hüquqları olmayan ölkədə vətəndaşlıq hüququndan danışmaq yersizdir. Məhz insan hüquqlarının genişləndirilməsi cəmiyyətin inkişafına, demokratiyanın təntənəsinə şərait yaradır. Hər bir insan azaddır. Lakin hər bir vətəndaşın hüquqlarını ölkənin demokratik qanunları müəyyənləşdirir. Əsrlərin sınağından çıxmış Azərbaycan müstəqillik əldə etdikdən sonra ümumbəşəri dəyərlərə əsaslanaraq demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçdi. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insanilәşdirən ən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikada dövlət quruculuğu prosesi təşkil etmək idi ki, Heydər Əliyev bunu uğurla həyata keçirdi. Azərbaycanda insan, söz və din azadlığı, dil və vicdan azadlığı – bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir ki, müstəqil Azərbaycan dövlətində məhz 1993-cü ildən başlayaraq bu prinsiplər bərqərar olmağa başladı. Ulu öndərin hakimiyyətə gəlişi ilə insan hüquqlarının qorunması üçün bütün təminatlar yaradıldı. Heydər Əliyev, and içdiyi kimi, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı oldu. Demokratik cəmiyyət qurmaq dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunarkən çox asan və tez bir zamanda nail olunacaq bir hədəf kimi görünürdü. Lakin bu proses 1995-ci il noyabrın 12-də

yeni Konstitusiyanın ümumxalq səsverməsi vasitəsilə qəbul edilməsindən sonra sürət götürdü.

Azərbaycan Respublikasının Konstitusiyası insan hüquqlarının təsbitində paternalizm konsepsiyasından qətiyyətlə imtina etdi. Burada insan hüquq və azadlıqları dövlət hakimiyyəti iradəsinin təzahürü kimi insanın mövcudluq faktı ilə, insanın təbiəti ilə şərtlənən azadlıq ölçüsü kimi götürülməklə, insan hüquqlarının təsbiti və müdafiəsi, təbii hüquq norması üzərində quruldu. **24-cü maddənin I hissəsində göstərilmişdir ki, "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır".** Bu müddəanın söykəndiyi fəlsəfəyə görə insan hüquqları onların normativ təsbitindən kənar və asılı olmayaraq mövcuddur və Konstitusiyamızda öz əksini tapmış əsas hüquq və azadlıqların siyahısına daxil olmaqla insan hüquqlarının qanunvericilikdə, xüsusilə Konstitusiya qaydasında pozitivləşdirməklə onların dəqiq hüquqi prosedurlar vasitəsilə lazımi müdafiəsi üçün prinsipial əhəmiyyət kəsb edir.

**Heydər Əliyevin hakimiyyətə yenidən gəldiyi gündən gördüyü işlərə nəzər saldıqda çox əhəmiyyətli bir inkişaf dialektikasının şahidi oluruq: öncə dövlət, sonra möhlət, daha sonra sərvət. Yəni, əvvəl dövləti yaratmaq, sonra onun müəyyən keçid dövrünü yaşamaq, daha sonra isə dövlətin sərvətlərindən xalqın yararlanması. Məhz bu amillər Ulu öndərin siyasi kursunun əsasını təşkil edirdi.**

Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan 48 maddədən ibarət III fəslinin bütün mətni insana, insan ləyaqətinə, insan hüquqlarına hörmət ruhunda yazıldı. Bəşər sivilizasiyasının iki mütərəqqi ideyasının –konstitusionalizm və insan hüquqlarının müdafiəsi ideyalarının üzvü bağlılığı Azərbaycan Respublikasının Konstitusiyasında özünün layiqli ifadəsini tapdı.

İnsan hüquqları sahəsində beynəlxalq standartları adekvat əks etdirməklə yanaşı, Azərbaycan Respublikası Konstitusiyasında, eyni zamanda, belə bir mütərəqqi müddəa nəzərdə tutulmuşdur: **"...Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir" (12-ci maddənin II hissəsi).**

İnsan hüquqlarının Konstitusiya təsbitinin əsasında duran mühüm prinsiplərdən biri də Konstitusiyanın 25-ci maddəsində əks olunmuş hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipidir.



Bu müddəanın III fəsildə ön plana çəkilməsi prinsipial əhəmiyyətə malikdir. Belə ki, fəaliyyətdə bərabərlik hüququnu təmin etmədən insanın bütün digər hüquq və azadlıqlarının real qorunmasına nail olmaq mümkün deyildir. Buna görə də 25-ci maddənin III hissəsində birmənalı şəkildə göstərilmişdir ki, "dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir". Həmin maddədə mövcud Azərbaycan gerçəkliyi üçün xüsusi əhəmiyyəti olan belə bir müddəa da öz əksini tapmışdır ki, "İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır".

İnsan hüquq və azadlıqlarının real təmin edilməsi üçün həlledici şərtlərdən biri də şəxslərə öz hüquqlarını müdafiə etmək və pozulmuş hüquqlarını bərpa etmək imkanının verilməsidir. Hələ qədim Roma hüququndan bizə belə bir hüquqi aksiom məlumdur ki, hüquq olan yerdə onun müdafiə vasitəsi də olmalıdır". Hüquqi dövlətin bu mühüm tələbi Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsində birbaşa öz ifadəsini tapmışdır. Həmin maddənin I hissəsində deyilir: "Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır".

Şəxsiyyətin ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar hüquqlarına təminat verilməsi Konstitusiyanın mühüm müddəalarından biridir. Bu müddəa hüquqi yardım almaq, məhkəmədə müdafiə olunmaq, müdafiəçinin köməyindən istifadə etmək, məhkəmə qərarından şikayət vermək, təqsirsizlik prezumpsiyası hüququnu və başqa hüquqları əhatə edir. Bundan əlavə, Əsas Qanun məhkəmə aidiyyətinin dəyişdirilməsinə, eyni cinayət üstündə təkrar məhkum edilməyə, habelə qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol vermir. Konstitusiyaya görə, hər bir şəxsin cinayət, hakimiyyətdən sui-istifadə, yaxud dövlət orqanlarının və ya vəzifəli şəxslərin qanuna zidd hərəkətləri nəticəsində ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

Qüvvədə olan Konstitusiyada Azərbaycan Respublikası vətəndaşlarının siyasi hüquq və azadlıqlarının kompleksi geniş təsbit olunmuşdur. Seçki hüququ və dövlətin idarə olunmasında iştirak etmək hüququ bütün digər siyasi hüquq və azadlıqları ehtiva edən ən ümumi hüquqlardır.

Konstitusiyada əksini tapmış digər siyasi hüquq və azadlıqlar arasında vətəndaşlıq hüququnu, cəmiyyətin siyasi həyatında iştirak etmək hüququnu, dövlət orqanlarına şəxsən və ya kollektiv surətdə şikayət və təkliflər göndərmək və bu orqanların fəaliyyətini tənqid etmək imkanı verən müraciət etmək hüququnu qeyd etmək olar.

Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaşların sosial-iqtisadi və mədəni hüquq və azadlıqlarının təsbit edilməsində də prinsipcə yeni ideologiyaya əsaslanır. Bu, ilk növbədə onunla bağlıdır ki, vətəndaş cəmiyyətinin mənafeyinin dövlət mənafeyindən üstün olduğu elan edilir. Buna əsaslanaraq Konstitusiya ən başlıca hüquq olan mülkiyyət hüququna, o cümlədən əqli mülkiyyət hüququna təminat verir. Konstitusiyaya görə mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur və bu hüquq yalnız məhkəmənin qərarı olduqda və ictimai ehtiyaclar üçün istifadə edilən mülkiyyətin dəyərinin qabaqcadan ödənilməsi şərti ilə məhdudlaşdırıla bilər. Özü də Konstitusiya əmlakın tam müsadirə edilməsinə yol vermir.

Konstitusiyada tətil hüququnun təsbit edilməsi Azərbaycan qanunçuluğu üçün yeni müddəadır və hər kəsin həm təkbaşına, həm də başqaları ilə birlikdə tətil etmək hüququ vardır. Konstitusiyada mənzil hüququ, istirahət hüququ, sağlamlığın qorunması hüququ, sosial təminat hüququ, azad sahibkarlıq hüququ, mədəniyyət hüququ, yaradıcılıq azadlığı, habelə pulsuz icbari orta ümumi təhsil almaq təminatı verən təhsil hüququ təsbit olunmuşdur. Azərbaycan Respublikasında hər kəsin sağlam ətraf mühitdə yaşamaq, ətraf mühitin əsil vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

Konstitusiyada əsas insan hüquqları və azadlıqları təsbit olunmaqla yanaşı, onların həyata keçirilməsi üçün zəruri olan təminatlar da göstərilmişdir (maddə 71). Müəyyən olunmuşdur ki, insan hüquqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Həmin maddənin III hissəsinə görə yalnız müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Bu zaman həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilməlidir.

Konstitusiyada insan və vətəndaşın hüquqlarının və azadlıqlarının qorunması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə mühüm bir vəzifə kimi qoymuşdur. İnsan hüquqlarının pozulması ilə bağlı mübahisələrin yalnız məhkəmələr tərəfindən həll edilməsi haqqında Konstitusiyanın mütərəqqi müddəası cəmiyyətimizdə bu hüquqların real müdafiəsi üçün geniş imkanlar açır.



İnsan hüquqları sahəsində atılan ən mühüm addımlardan biri, şübhəsiz ki, ölüm cəzasının ləğvidir. 1993-cü ildən Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyduğu müstəsna cəza növü, 10 fevral 1998-ci il tarixli qanunla tamamilə ləğv edildi. Azərbaycan Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın II Protokoluna qoşuldu. Milli liderimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. **Heydər Əliyevin hakimiyyəti illərinə düşən 1996-2003-cü illər ərzində 7 amnistiya aktı qəbul edilmişdir. Bu müddət ərzində amnistiya aktları 36.428 şəxsə tətbiq edilib ki, onlardan 31.584 nəfəri azadlıqdan məhrumetmə yerlərindən azad olunub. Əfv qaydasında indiyə qədər 3.091 şəxs müxtəlif cəzalardan azad edilib. Onlardan 36-sı yeniyetmə, 64-ü qadın, 139 nəfəri əlil, xəstə və qocalardır.**

İnsan hüquq və azadlıqlarına verilən böyük əhəmiyyətin təzahürü kimi respublika prezidenti 22 fevral 1998-ci il tarixdə xüsusi fərman imzaladı. Həmin fərman Konstitusiyada təsbit edilmiş insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılması üçün dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etdi. Həmin proqram bu gün də uğurla həyata keçirilir. Prezident Heydər Əliyev 1 aprel 1998-ci ildə Avropa Şurası Parlament Assambleyasının Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin İnsan Hüquqları Üzrə Yardımçı Komitəsinin nümayəndə heyəti ilə görüşdü. İnsan hüquqları və azadlıqlarının bərqərar olması üçün aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq Heydər Əliyev 16 aprel 1998-ci ildə BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında Sərəncam verdi. Cəmi bir neçə ay sonra daha bir sərəncam – İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi barədə Sərəncam imzalandı. Elə həmin il ölkə prezidenti Azərbaycanda İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun yaradılması haqqında Sərəncam verdi. 1999-cu ildə isə "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" Qanun qəbul edildi. Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Ölkə prezidenti Azərbaycanın qazandığı siyasi-hüquqi potensialdan tam istifadə et-

məklə bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər gördü. Konstitusiyamızda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyuldu. Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 20-dək beynəlxalq konvensiya və sazişlərə qoşuldu.

**"Bu gün məqsəd ondan ibarətdir ki, hər bir şəxs insan hüquqlarının həyata keçirilməsində və qorunmasında öz məsuliyyətini dərk etsin".** Heydər Əliyev Azərbaycanda insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin insan hüquqlarına dair 1948-ci il 10 dekabr tarixli ümumi bəyannaməsinin qəbul edilməsinin 50 illiyi astanasında ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi və insan hüquqlarını qorumaq sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədi ilə Milli Məclisə, güc nazirliklərinə, Təhsil Nazirliyinə və digər müvafiq orqanlara tapşırıq və tövsiyələr verdi.

1998-ci ilin aprel ayında Heydər Əliyev BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi üçün dövlət komissiyasının yaradılması haqqında Sərəncam verdi.

Xatırladaq ki, 1948-ci ilin dekabr ayının 10-da BMT-nin Baş Məclisi tərəfindən **Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin** qəbul edilməsi bəşəriyyət üçün böyük əhəmiyyət kəsb edirdi. Həmin bəyannamə insan hüquqları sahəsində ilk rəsmi sənəd olmasa da, miqyasına və əhəmiyyətinə görə şübhəsiz ki, birincidir. Məhz 1948-ci il bəyannaməsi insanın beynəlxalq hüququn obyektindən subyektinə çevrilməsinə ilk işarə idi. Onun əsasında sonralar yüzlərlə beynəlxalq konvensiyalar qəbul edildi ki, əksər dövlətlər onun müddəalarını konstitusiyalarında təsbit etdilər.

Aydındır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi İkinci dünya müharibəsinin törətdiyi dəhşətin nəticələrinə cavab olaraq qəbul edilmişdi. Lakin o, boş yerdən yaranmamışdı. Qədim yunanların demokratik təsisatları, "İnsan hər şeyin ölçüsüdür" ideyasına əsaslanan stoiklərin fəlsəfəsi, İntibah dövrünün humanist ruhu, maarifçilik fəlsəfəsinin ədalətli cəmiyyət konsepsiyası, iqtisadi liberalizm və siyasi plüralizm nəzəriyyələri – bütün bunlar bəyannamənin fəlsəfi əsaslarını təşkil edir.



Bəyannamədə təsbit edilmiş hüquqlar ümumbəşəri dəyərlərdir. **«Onlar hər kəsə, məhz insan olduğuna görə, mənsubdur. Kişi və ya qadın, uşaq və ya böyük, vətəndaş və ya əcnəbi, varlı və ya kasıb, güclü və ya zəif-bütün bunların heç bir əhəmiyyəti yoxdur: hər kəs insan olduğuna görə bərabər hüquqlara malikdir və ləyaqətinə hörmət edilməyə haqqı vardır.»** – deyə Ulu öndər çıxışlarında bildirirdi.

Ümumdünya insan hüquqları bəyannaməsi qəbul ediləndə Azərbaycan, o zaman müstəqil dövlət olmadığından, ona səs verə bilməmişdi. Yalnız müstəqilliyini bərpa edəndən və Heydər Əliyev prezident seçiləndən sonra qəbul edilmiş Konstitusiyada böyük bir fəsil məhz insan hüquqlarına həsr edildi. Əsas Qanunumuz 1948-ci il bəyannaməsinin müddəalarını özündə əks etdirdi. Konstitusiya qəbul edildikdən sonra onun müddəalarından irəli gələn, insan hüquq və azadlıqlarını əsas meyar kimi özündə əks etdirən qanunlar qəbul edilərək, onların tətbiqi üçün təşkilati işlər görüldü və insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində mühüm tədbirlər həyata keçirildi.

**"Mənim üçün hər bir Azərbaycan vətəndaşının hüququnun qorunması vacibdir". Ulu öndər bu bəyanatını həm də, imzaladığı sərəncamlar və qəbul edilən qanunlarla sərgiləyirdi.**

Avropa Şurası ilə əməkdaşlığa xüsusi əhəmiyyət verən Heydər Əliyev ölkədə dövlət quruculuğunu Avropa standartlarına uyğun surətdə aparırdı və Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü olması arzusunda idi.

Düçar olduğumuz keçid dövründə ölkəmizin həll olunası bir çox – iqtisadi, sosial və ictimai-siyasi problemləri meydana çıxmışdı. Ən çətin və ağır problem torpaqlarımızın 20 faizinin işğal edilməsi, 1 milyondan artıq azərbaycanlının yerindən-yurdundan didərgin düşməsi və köçkün vəziyyətində yaşaması idi. Bütün bu məsələlər 1998-ci ildə ölkəmizə səfər edən Avropa Şurası Parlament Assambleyasının Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin nümayəndə heyəti ilə müzakirə olundu. İnsan hüquqlarına aid qanunlara, prezident fərmanlarına və hazırlanmış bir neçə vacib qanun layihələrinə nəzər salındı. Yaxın günlərdə yaranacaq Konstitusiya məhkəməsinin xüsusi əhəmiyyətinə toxunuldu. Hüquq, məhkəmə, ədliyyə sahəsi ilə bağlı layihələr bəyənildi.

Görüş zamanı Azərbaycan prezidenti öz iradlarını da bildirdi: "Ermənistanın işğalçılıq siyasəti nəticəsində bir milyondan artıq insan öz yerindən-yurdundan didərgin düşübdür. Əgər insan hüquqlarından

danışırıqsa, Azərbaycanda, yaxud Ermənistanda, yaxud da Gürcüstanda və ya hansısa Avropa ölkəsində hansısa bir insanın hüquqlarının pozulması insan hüquqlarını qoruyan cəmiyyətləri narahat edir. Ancaq yerindən-yurdundan zorla çıxarılmış, varını-yoxunu itirmiş, çox şeylərindən məhrum olmuş insanların hüquqlarının pozulması, nədənsə, insan hüquqlarının pozulması kimi qiymətləndirilmir".

Demokratik cəmiyyətdə insana qayğı yüksək və ali məqsəd sayılır və müvafiq olaraq insan hüquq və azadlıqlarının Konstitusiyada və qanunlarda təsbit edilməsi dövlət idarəçiliyinin əsas məqsədi kimi çıxış edir. Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar şəxsiyyətin fərdi fəallıq potensialının ölçüsü kimi öz təsdiqini tapır. Belə cəmiyyətdə vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsi məqsədilə yaradılmış mexanizmlər səmərəli şəkildə işləyir ki, onların sırasında da məhkəmə mexanizmi, ombudsman təsisatı xüsusi yer tutur.

Bu məqsədlə, yəni insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (ombudsman) təsisatı yaradıldı. 2001-ci ildə isə İnsan Hüquqları üzrə Müvəkkil haqqında" Konstitusiya Qanunu qəbul olundu. Həmin qanunda İnsan hüquqları üzrə Müvəkkilin fəaliyyətinin əsasları müəyyən edildi. Qanunda qeyd edildi ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili vəzifəsi Konstitusiyada və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir. Qanuna görə Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir. Hakimlərin fəaliyyətinin yoxlanılması da Müvəkkilin səlahiyyətlərinə aid deyil. Müvəkkilin səlahiyyətlərinə bir sıra məsələlərlə bağlı təkliflərin verilməsi daxildir: əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi barədə Prezidentə, insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına, amnistiya elan edilməsinə dair Milli Məclisə təkliflərin verilməsi.

Qeyd edək ki, **Azərbaycanda insan hüquq və azadlıqlarının səmərəli təmin edilməsinin konstitusion əsasları ölkəmizdə məhz Heydər Əliyevin təşəbbüsü ilə 24 avqust 2002-ci il tarixdə keçirilmiş referendum nəticəsində daha da təkmilləşdirildi və ilk dəfə olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə**



**Müvəkkili təsisatının yaradılması ilə bağlı müddəalar təsbit edildi.** 2002-ci ilin avqustunda qəbul olunmuş "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu tənzim etdiyi məsələlərin dairəsinə görə çox mühüm əhəmiyyət kəsb edir. Bu Qanun Azərbaycanda insan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında" Konvensiyaya uyğunlaşdırmaq məqsədi daşıyır.

**Azərbaycanda demokratikləşmə və insan hüquqlarına riayət istiqamətində aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq, ölkəmiz 2001-ci il yanvarın 25-də Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi.**

**Ulu öndərin Vətənimizlə bağlı bir arzusu da beləcə reallaşdı.**

Son illərdə də dünyanın inkişaf tempi ilə ayaqlaşmağı bacaran və möhkəmlənən respublikamızın hüquq siyasətinin həyata keçirilməsində Prezident İlham Əliyev Ulu öndərin ənənələrini uğurla davam etdirir. Ölkə başçısının Ombudsmanların VI Bakı Beynəlxalq konfransı iştirakçılarına ünvanladığı müraciətdə "Minilliyin məqsədlərinə uyğun olaraq insan hüquqlarının müdafiəsi, sosial-iqtisadi problemlərin həlli, qanunun aliliyinin təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi demokratik, hüquqi dövlətin başlıca vəzifələridir." kimi fikirləri bildirməsi vətəndaş cəmiyyətinin formalaşdırılmasına birbaşa dəstəyini və diqqətini sərgiləyir.

**Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında 28 dekabr 2006-cı ildə imzalanmış Sərəncam xüsusilə tarixi əhəmiyyət kəsb edir.** İnsan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirən bu Sərəncam qarşıdan gələn illər üçün respublikamızın normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən etdi.

**Ölkə başçısının 18 İyun tarixinin Azərbaycanda insan hüquqları günü kimi qeyd olunması barədə Sərəncamı isə dövlətin insan hüquq və azadlıqlarına verdiyi dəyərin təcəssümüdür.**

Millı Məclisın 90 illiк yubileyi münasibətilə кeçirilən xüsusi iclasda nitq söyləyən Prezident İlham Əliyevin dövlətimizin sürətli inкişafını yüкsəк qiymətləndirərəк, "Mən çox şadam кi, bizim ölкəmizin inкişafı üçün haкımiyyətin bütün qolları öz töhfələrini verirlər" deməsi ölкənin digər sahələrində olduğu кimi hüquq siyasətində də nailiyyətlər əldə edildiyini bir daha sübut edir.



## MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN İNKİŞAF STRATEGİYASINA ELMİ-FƏLSƏFİ BAXIŞ

**"Hazırda sosiomədəni transformasiyanı milli tranzitin iкi aspeкti – iqtisadi və siyasi modernləşmə müəyyən edir»**

**Ramiz Mehdiyev**

Müstəqilliyini əldə etdiкdən sonra Azərbaycanda demoкratiк inкişaf istiqamətində atılan addımlar yalnız Ulu öndər Heydər Əliyevin haкimiyyətə qayıdışından sonra həqiqi mahiyyət кəsb etməyə başlamışdır.

Azərbaycan dövləti 1993-95-ci illərdə bir cox yeni qanunların qəbul edilməsi, qoşulduğu konvensiyalar, muqavilələr, paktlarla bağlı beynəlxalq hüquq normalarının tətbiqi məsələləri yeni Əsas Qanunun – Konstitusiyanın qəbulu zəruriliyini ortaya çıxardı.

**Azərbaycanın ilк milli Konstitusiyasının – hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində sistemli tədbirlər həyata кeçirən Əsas Qanunun qəbul edilməsi prosesində Konstitusiya Komissiyasının sədri, Ulu öndər Heydər Əliyev, İşçi Qrupunun rəhbəri кimi bir sıra müddəaların işlənib hazırlanmasını ona yaxından кöməк edən görкəmli dövlət xadimi, filosof, icra aparatının rəhbəri, həqiqi dovlət muşaviri, akademik Ramiz Mehdiyevə həvalə etmişdir.**

**Komissiyanin iş prosesində dövlət idarəçilik təcrübəsindən çıxış edərək, Konstitusiyanın hərtərəfli işlənib hazırlanmasında Ulu öndər Heydər Əliyevə dəstəк olan, İşçi Qrupuna rəhbərliк edən aкademiк Ramiz Mehdiyev üzərinə düşən missiyanı uğurla yerinə yetirərəк, bu sənədin hazırlanmasında rəy və təкliflərini ölкə başçısına təqdim etmişdir.**

Təкliflərdə əsas insan və vətəndaş hüquqları və azadlıqları xüsusi yer almışdır кi, sonradan bu təкliflər Konstitusiyanın iкinci bölməsinin III fəslində təsbit olunan maddələrdə də öz əкsını tapmışdır.

**Əsas Qanunun qəbulu zamanı 1978-ci ildə olduğu кimi yenə də dil problemi ortaya çıxdı. Azərbaycan dövlət dilinin necə adlandırılması ilə bağlı iclasda öz təklifləri ilə çıxış edən Ramiz Mehdiyev layihənin səsə qoyulduğu vaxtdan etibarən iclasın**

başlandığı günə qədər daxil olan təklif və rəyləri dəyərləndirərək, Konstitusiya Komissiyasının iclasında ölkə başçısının diqqətinə çatdırmışdır.

Azərbaycan Respublikasının ərazisində yaşayan bütün millətlərin nümayəndələrini özündə ehtiva edən toplunun və onun dilinin adı üzərində gedən araşdırmalar başlandı.

Konstitusiya layihəsinin 23-cü maddəsi – Azərbaycanın dövlət dili haqqında olan maddənin xüsusi müzakirə edildiyi iclasda Heydər Əliyev şəxsən iclasa sədrlik edirdi.

Son iclasda Ulu öndər Heydər Əliyev çıxış üçün sözü İşçi Komissiyasının sədri Ramiz Mehdiyevə verərkən ən böyük diqqət bu məsələyə yönəldildi.

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun əməkdaşlarının, görkəmli alim və ziyalıların ölkənin dövlət dili ilə bağlı təkliflərini komissiya sədrinə təqdim edən Ramiz Mehdiyev həm də ölkə vətəndaşlarının yeni Konstitusiya layihəsinə böyük marağını sərgilədi. Azərbaycanda demokratiyanın təntənəsi, hər bir vətəndaşın hüquqlarının təmin edilməsi, dövlətin qüdrətlənməsi üçün maraqlı olan toplum Əsas Qanunun qəbulunda da fəal iştirak etmək istəyirdi.

Dövlət dili haqqında respublikamızın tarixində və xüsusən XX əsr tariximizin müxtəlif mənbələrindən qaynaqlanan təkliflərlə bağlı 1995-ci il oktyabrın 31-də keçirilən müşavirə zamanı qərar qəbul edildi. Həmin qərarla Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dili elan olundu.

Demokratik islahatların uğurlu məkanına çevrilmiş Azərbaycan Respublikasında müxtəlif istiqamətlərdə baş verən bütün proseslərdə yaxından iştirak edən akademik dahi siyasətçi, Ulu öndər Heydər Əliyevin vətəndaş cəmiyyəti quruculuğuna yönəlmiş siyasi xətti və müstəqil Azərbaycan dövlətinin inkişaf strategiyasına dair ideoloji irsinin araşdırılmasında da əvəzsiz rol oynamışdır. Akademik Ramiz Mehdiyevin, eyni zamanda, 2001-ci ildən başlayaraq 2006-cı ilə qədər "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", *"Demokratiya yolunda: irs haqqında düşünərkən"*, "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", "2005-ci ilin parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr,



proqnozlar)" və "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kimi ölkəmizdə baş verən ictimai-siyasi və sosial-iqtisadi prosesləri tədqiq və təhlil edən əsərləri işıq üzü gördü. Həmin əsərlərdə akademik Azərbaycan Konstitusiyasında əksini tapan maddələrin cəmiyyətin həyatında rolunu vurğulayaraq, ölkənin inkişafına milli maraqlar baxımından yanaşmaqla, dövlətimizin müasir inkişaf perspektivlərinin peşəkar tədqiqatçısı kimi çıxış edərək, sosial-iqtisadi və ictimai-siyasi həyatımızın problemləri ilə bağlı dərin təhlillər aparmışdır.

Görkəmli dövlət xadimi və filosof, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, həqiqi dövlət müşaviri, akademik Ramiz Mehdiyev əsərlərində bəşəriyyətin inkişaf tarixində demokratiyanın roluna da toxunaraq, sivilizasiyalı dünyanın daim "xalq hakimiyyəti"nə doğru irəliləməsinin prinsiplərini göstərməklə yanaşı, Azərbaycanın ictimai-siyasi perspektivlərini də tədqiq etmişdir. Azərbaycan dövləti demokratik transformasiya və sivilizasiyalı birliyə inteqrasiya yoluna möhkəm və həmişəlik qədəm qoymuş, yeni dünya nizamı sistemində layiqli yerini tutmaqla yanaşı, özünə yeni perspektivlər də müəyyənləşdirmişdir.

Həyatımızın bütün sahələrində köklü dəyişikliklərin baş verməsinin əsası, akademik Ramiz Mehdiyevin əsərlərində göstərildiyi kimi məhz Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Akademikin əsərlərində ölkəmiz üçün taleyüklü məsələlər sırasında iradəli gənc liderin – cənab İlham Əliyevin başçılığı ilə güclü Azərbaycan dövlətinin yaradılması prosesi xüsusi yer tutur.

Cənab İlham Əliyevin prezidentliyinin əsas konsepsiyasının güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət olduğunu göstərən Ramiz Mehdiyev əsərlərində Azərbaycanın son illərdə qazandığı iqtisadi nailiyyətləri davamlı və tərəqqi edən iqtisadi sistemin formalaşdırılması prosesinin uğurları ilə bağlayır. Akademik təhlillərində sübut edir ki, dövlət başçısı milli inkişafda intellektual irəliləyişə nail olmaqla, dövlətin siyasi suverenliyinin və davamlı iqtisadi rifahının təmin edilməsini əsas məqsədlərdən biri kimi qarşıya qoymuşdur. Son 15 ildə Azərbaycanda cərəyan edən proseslər təhlil edilməklə yanaşı, cənab İlham

**Əliyevin prezidentliyinin ilk beşillik dövrü dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi və siyasi islahatların sürətləndirilməsi mərhələsi kimi xarakterizə edilmişdir.**

Akademikin əsərlərində Azərbaycan Prezidentinin seçkidən əvvəl verdiyi fərman və sərəncamların seçkinin taleyində oynadığı roldan da danışılır. O, haqlı olaraq göstərir ki, Azərbaycan xalqının hakimiyyətlə nümayiş etdirdiyi birlik modeli parlament seçkilərinin uğurlu nəticələrinin əldə olunmasında mühüm faktora çevrilmişdir.

Hakimiyyət-xalq məfhumunun elmi cəhətdən əsaslandırılması, bu iki qüvvənin taleyüklü məsələlərdə daim bir-birinə dəstək olması faktını ortaya qoyması müəllif tərəfindən tutarlı elmi dəlillərlə sübut olunur. Fəlsəfə elmləri doktorunun irəli sürdüyü elmi konsepsiyanın mühüm müddəalarından biri də budur ki, yalnız xalqın dəstəyinə arxalanan qüvvələr seçki kimi mühüm prioritetlərin müəyyənləşdiyi ümumxalq kompaniyasında uğur əldə edə bilər.

Seçkilərdə əldə olunan uğurlar həm də son illərdə, xüsusilə də cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda həyata keçirilən ictimai-siyasi, sosial-iqtisadi, hüquqi və mədəni inkişafın məntiqi nəticəsidir.

Akademik göstərir ki, mövcud olduğumuz yüzillikdə demokratiya, artıq öz ilkin ifadəsini itirərək, ideoloji silaha çevrilərək, cəmiyyətin demokratikləşməsi ilə bərabər iqtisadi, siyasi və sosial islahatların aparılması prosesində vəhdət təşkil etmişdir. İctimai-siyasi sabitliyin bərqərar olmasına gətirib çıxaran bu proseslər demokratik inkişaf üçün geniş meydan yaradır.

Son illərdə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin bütöv bir kompleksi həyata keçirilmişdir. Onlar bir tərəfdən gələcək vətəndaş cəmiyyətinin bazisini formalaşdırmağa, digər tərəfdən milli demokratiya modelini Azərbaycan cəmiyyəti üçün səmərəli və məqbul etməyə imkan verir. Artıq Azərbaycanda məqsədyönlü və planauyğun şəkildə vətəndaş cəmiyyətinin təməli qoyulur: «Konsolidasiya olunmuş demokratiyaya qarşıdakı tranzitin mahiyyəti məhz bundan ibarətdir».

Akademikin son dövrlərdə "Azərbaycan" qəzetində dərc olunmuş "Qloballaşma dövründə dövlət və cəmiyyət", "Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında daha da möhkəmləndi və inkişaf etdi", "Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi" məqalələrində müasir dövrdə Azərbaycan dövləti və cəmiyyətinin qarşısında duran əsas problemlərə toxunulur, onların həlli yolları araşdırılır, fərqli idarəetmə



modelləri və formaları, öncül ölkələrin demokratiya sahəsində əldə etdikləri təcrübə, konkret şərait, ölkənin inkişafının vəziyyəti, onun ümumi mədəni səviyyəsi və milli-mənəvi dəyərləri müqayisəli tərzdə tədqiq edilir.

**İctimaiyyetin maraqla qarşıladığı bu eserler öz ehemiyyeti baxımından xüsusi çekiye malikdir. Akademik Ramiz Mehdiyevin eserlerinin gelecek nesiller terefinden Ulu önder Heyder Əliyev irsinin öyrenilmesi ve Azerbaycanın müsteqillik tarixinin menimsenilmesinde en mükemmel vesait kimi, eyni zamanda, müellifin özünün dövlet idareçiliyi işinde semereli fealiyyet göstermesinde ve son dövrün tarixi hadiselerinin bilavasite iştirakçısı olduğundan çox qiymetlidir.**

**Uzunmüddetli dövlet idareçiliyinde topladığı praktik tecrübeye esaslanan filosof Ramiz Mehdiyev respublikamızda çoxşaxeli dövlet quruculuğu prosesinin nezeri esaslarının yaradılması, tecrübenin nezeriyyeye köçürülmesi istiqametinde ciddi addımlar atıldığını eserlerinde xüsusi ile qeyd edir.**

Bu əsərlərdə Azərbaycanda daha qlobalmiqyaslı inkişafın həyatımızın ayrı-ayrı sahələrini yox, bütövlükdə cəmiyyətimizin mənsub olduğu bütün sferaları əhatə etdiyi əks etdirilir.

Ulu öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasının cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi olaraq son illərdə sosial-iqtisadi inkişafında yeni mərhələyə qədəm qoyan Azərbaycan Respublikası demokratik dəyərlərin cəmiyyətdə möhkəmləndirilməsi istiqamətində də mühüm nailiyyətlər qazanmaqdadır.

Ölkəmiz bütün bu uğurlara müasir dünyamızın sürətlə qloballaşma prosesində, dövlətin ən mühüm istinadgahı olan tarixi keçmişimiz, dövlətçilik ənənələrimiz, mənəviyyatımız və milli mentalitetimizin cəmiyyətimizin aparıcı elementinə çevrilməsi sayəsində nail olmuşdur.

Alimin Azərbaycanın müasir sosial-iqtisadi və siyasi inkişafını təhlil edən və bu əsaslara işıq salan əsərlərində də ictimai-siyasi və sosial-iqtisadi həyatımızda baş verən hadisələr, dəyişikliklər, həyata keçirilmiş demokratik hüquqi-islahatlar konseptual şəkildə şərh edilmişdir. **"Qloballaşma dövründe dövlet ve cemiyyet", "Heyder Əliyevin banisi olduğu müsteqil Azerbaycan dövleti Prezident İlham Əliyevin rehberliyi altında daha da möhkemlendi ve inkişaf etdi", "Azerbaycançılıq – milli ideologiyanın kamil nümunesi"** məqalələrində müasir dövrdə Azərbaycan dövlətinin və cəmiyyətin

qarşısında dayanan aktual məsələlərin geniş şərhi verilmiş, dərin təhlillər aparılaraq problemlərin həlli yolları göstərilmişdir. Akademikin tədqiqatlarında yeni dövlət quruculuğu - demokratiyanın prinsipləri, ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin nisbəti barədə diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, Azərbaycanın özünəməxsus, spesifik xüsusiyyətləri, konkret faktlar, misallar əsasında göstərilir, çox yüksək elmi-nəzəri səviyyədə təhlil olunur.

Alimin Azərbaycanda demokratiyaya tədricən, təkamül yolu ilə keçməyin üstün cəhətlərinə dair çıxardığı elmi nəticələr də maraqlı və düşündürücüdür. Bu əsərlərdə azərbaycançılıq ideyasının milli ideologiyamızın əsas istiqamətlərindən biri olması, onun dövlət quruculuğu prosesindəki rolu, müstəqil dövlətimizin təməl prinsipləri, yeni dövrün əsas ideoloji hədəfləri, islam dini ilə əlaqədar olan bir çox mühüm məsələlər öz əksini tapmışdır. Bazar iqtisadiyyatı qurmaqla yanaşı, demokratiya yolu ilə də getmək müasir Azərbaycan cəmiyyətinə xas cəhətlərdir.

**Dünyanın sivil ölkələrinin təcrübəsində də özünü doğruldan hər iki mütərəqqi inkişaf prosesi bütünlükdə dünyanın inkişaf strategiyasının əsas istiqamətinə çevrilmişdir. İlk növbədə demokratiyanı, onun başlıca prinsiplərini və tərkib elementlərini siyasət sferası ilə yanaşı, iqtisadiyyat sferasında da görmək və inkişaf etdirmək lazımdır. Akademik Ramiz Mehdiyev "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" adlı əsərində ölkənin inkişafında yeni dəyişikliklərin konkret formalarının qurulması üçün iqtisadiyyatdan demokratiyaya doğru gedişini xüsusi olaraq qeyd edir. Akademik Ramiz Mehdiyevin "Azərbaycan: Qloballaşma dövrünün tələbləri" monoqrafiyası Türkiyədə də nəşr olunaraq, türk elmi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb. Türk dünyasını qloballaşma dövründə gözləyən proseslər və qarşımızıda duran hədəflər barədə apardığı dolğun və obyektiv elmi tədqiqatlar türk ictimaiyyətinin strateji-ideoloji istinad nöqtəsi kimi qarşılandığından akademikin monoqrafiyası geniş təhlil edilərək əsərdəki məsələlərə xüsusi diqqət ayrılıb.**

"Azərbaycan" qəzeti bu fundamental əsərlərin və onlara verilmiş rəylərin cəmiyyət üçün aktuallığını və əhəmiyyətini nəzərə alaraq, onların kitab halında nəşrini məqsədəuyğun hesab edib. Heydər Əliyev siyasi irsinin obyektiv araşdırılmasına geniş yer verən qəzetin tərtibatı ilə son illərdə çap olunmuş "Azərbaycanın özü qədər əbədi" silsiləsindən qəzetin nəşr etdirdiyi "Heydər Əliyev dünyanın gözü ilə",



"Heydər Əliyev mənim həyatımda", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" kitabları cəmiyyətdə böyük maraqla qarşılanıb.

**"Azərbaycan" qəzetinin «Azərbaycanın özü qədər əbədi» silsiləsindən nəşr etdirdiyi "Yeni siyasət: inkişafa doğru" adlı ikicildlik kitabdır ki, burada qloballaşan dünya iqtisadiyyatında və siyasətində dövlətimizin yeri, milli demokratiya modeli, modernləşmə xətti, innovasion cəmiyyətin qurulması xüsusiyyətləri ilə bağlı dərin elmi-fəlsəfi fikir və mülahizələr əksini tapıb. "Azərbaycanın özü qədər əbədi" silsiləsinə akademik Ramiz Mehdiyevin 2008-ci ildə "Azərbaycan" qəzetində dərc olunmuş "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" əsəri də daxil edilib. Azərbaycanın gələcək inkişaf strategiyasının dərin fəlsəfi və iqtisadi təhlilinə əsaslanan sanballı tədqiqat əsərində demokratikləşmə prosesləri və modernləşmə xətti respublikamızın hazırkı inkişaf strategiyası kontekstində elmi-fəlsəfi istiqamətdə təhlil olunur.**

## KONSTİTUSİYADA SEÇKİ SİSTEMİ

Tarixən bir çox dövlətlərdə ali icra (Prezident və Nazirlər Kabineti, ayrı-ayrı icra orqanları) və ali qanunvericilik (Milli Məclis) hakimiyyətləri arasında obyektiv və subyektiv səbəblər üzündən çəkişmələr və narazılıqlar müşahidə edilmişdir. Belə ziddiyyətlərə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Moldovada rast gəlinir. Hətta Amerika Birləşmiş Ştatlarında konqres və prezident arasında "münaqişələr" mövcuddur. Hətta bir sıra dövlətlərdə, məsələn, Amerika Birləşmiş Ştatlarında baş nazirin funksiyasını da prezident icra edir.

Azərbaycan Respublikasının yeni konstitusiyasına (Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsi) görə ölkə prezidentinə parlamenti buraxmaq səlahiyyəti verilmir. Bununla belə prezidentin parlament seçkilərini təyin etmək hüququ var. Sual yarana bilər: bu hal, formal da olsa, Milli Məclisin buraxılması demək deyilmi?

Milli Məclisə seçkilər beş ildən bir keçirilir, seçkilərin vaxtı Əsas Qanunda müəyyən edilib. Belə bir halda parlamentin buraxılmasından qətiyyən söhbət gedə bilməz. Ölkə başçısının parlament seçkiləri təyin etməsinə gəldikdə isə bu səlahiyyət mahiyyətcə tamamilə formal xarakter daşıyır. Burada söhbət yalnız seçkilər haqqında qərarın qəbul edilməsindən gedir.

131-ci maddədə göstərilir ki, Azərbaycan Respublikasının Milli Məclisi, respublika prezidentinin baş nazir vəzifəsinə təqdim etdiyi namizədə üç dəfə razılıq verməzsə, prezident parlamentin razılığı olmadan baş nazir təyin edə bilər.

Rusiya Federasiyasının Konstitusiyasına müraciət edək. Orada belə mübahisəli məsələlərin həlli zamanı Dövlət Duması baş nazirin namizədliyinə üç dəfədən artıq razılıq verməzsə, prezident Rusiya Konstitusiyasının ona verdiyi səlahiyyətlərdən istifadə edərək, Dumanın buraxılıb yeni seçkilər keçirilməsi barədə qərar qəbul edə bilir. Azərbaycan Respublikasının yeni konstitusiyasında isə mexanizm daha demokratik xarakter daşıyır: üç təşəbbüsdən sonra prezidentin Milli Məclisin razılığı olmadan baş nazir təyin etməsi obyektiv zərurətə çevrilir. Parlament daimi olaraq namizədləri rədd edərsə, bunun nəticəsində hakimiyyət qollarından biri iflic vəziyyətinə düşər. Belə halda prezidentin baş nazir təyin etməsi normal hal sayılır. Bu vəziyyəti qarşıdurma hesab etmək normal hal sayıla bilməz. Çünki prezident baş nazir postuna öz namizədini təyin etsə də, parlamentin fəaliyyətinə xitam vermək hüququna malik deyil. Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərin – Rusiyanın, başqa dövlətlərin qəbul etdikləri konstitusiyalar prezidentə parlamenti buraxmaq səlahiyyəti verir. Azərbaycan konstitusiyasında prezidentə bu səlahiyyət verilməyib.

Azərbaycan Respublikasının Konstitusiyasına görə (32 bənddən ibarət olan 109-cu maddədə təsbit edildiyi kimi) prezident ikili statusa malikdir. Prezident Azərbaycan Respublikasının dövlət başçısı olmaqla yanaşı, ali icra hakimiyyəti də ona məxsusdur. Prezident hakimiyyətin qolları arasında müəyyən tarazlaşdırıcı funksiyaları həyata keçirir, onların arasında əlaqələndirici, ali arbitr rolunu oynayır. Bununla belə prezident iqtisadiyyatın idarə olunması ilə bağlı operativ məsələlərin həlli ilə müntəzəm məşğul ola bilməz. Bu məsələlərin həlli üçün xüsusi orqan olaraq Nazirlər Kabinetinin səlahiyyətləri konstitusiyada kifayət qədər ətraflı əks etdirilib və bu orqan konstitusiya statusuna malikdir. Kabinetə rəhbərlik Baş nazirə həvalə olunur. Digər dövlətlərdən fərqli olaraq Baş nazir Azərbaycanın dövlət institutları arasında əhəmiyyətli rola malikdir. Baş Nazir statusunun formal xarakter daşımasına qətiyyən yol verməmək üçün Ulu öndər Heydər Əliyevin sədrlik etdiyi konstitusiya komissiyası **119-cu maddə ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərini genişləndirərək** dövlət büdcəsinin layihəsini hazırlayıb prezidentinə təqdim etmək, dövlət büdcəsinin icrasını və maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin etməklə yanaşı, dövlət iqtisadi proqramlarının həyata keçirilməsini, dövlət sosial təminat proqramlarının həyata keçirilməsininin təmin edilməsi, nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərliyi və onların aktlarını ləğv etmək səlahiyyətləri ilə yanaşı digər məsələləri də bu quruma həvalə etdi.

2002-ci ilin avqust ayınadək prezidentin səlahiyyətlərini həyata keçirmək Milli Məclisin sədrinə həvalə edilirdi. Dünya ölkələrinin təcrübəsindən yararlanaraq, Ulu öndər (**Azərbaycan Respublikası Konstitusiyası 152, 153-cü maddə)** bu səlahiyyətin Nazirlər Kabinetinin sədrinə verilməsi məsələsini irəli sürdü. Təklif referendum yolu ilə qəbul edildi.

Konstitusiyanın bir hissəsini isə (81-98-ci maddələr) Parlament seçkiləri haqqında Qanun təşkil edir. Birmandatlı dairələrdə 100 yerə təqribən 400 namizədin olması, seçkilərdə 8 siyasi partiyanın iştirak etməsi və bunların hər birinin 25 namizəd, yəni bütövlükdə 200 namizəd irəli sürməsi, beləliklə də, indi ümumilikdə 600 nəfər

namizədin səsə qoyulması faktının özü Azərbaycandan ötrü böyük nailiyyətdir.

Bundan ötrü respublikamızın qarşısında duran nəhəng vəzifələrin birlikdə həyata keçirilməsində ali qanunverici orqanın və hərtərəfli təcrübəyə malik, ölkənin daxili və xarici hüquq normalarını bilən parlamentin olması çox mühümdür.

Ulu öndər komissiyanın sədri kimi vəzifəsini şərəflə yerinə yetirərək, konstitusiya layihəsinin hazırlanması prosesinə rəhbərlik etdi. Onun rəhbərliyi ilə qəbul olunan qanun parlament seçkiləri haqqında dünyanın bütün demokratik prinsiplərinə tamamilə cavab verməklə Azərbaycanın demokratik, hüquqi, dünyəvi və sivil bir dövlət olmasını sübut etdi.

Yeni Konstitusiyada yerli sovetlərin funksiya və səlahiyyətləri seçkili bələdiyyə orqanlarına həvalə edildi.

Bələdiyyə orqanları müəyyən ərazidə yaşayan əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədi ilə vergilərin tutulması, məqsədyönlü xərclənməsi, sosial-məişət obyektlərinin tikilməsi və yolların çəkilməsi və ərazinin abadlaşdırılması və s. işlər yeni qurum kimi fəaliyyət göstərən bələdiyyələrə həvalə edildi.

Bir faktı qeyd etmək vacibdir ki, Ulu öndər Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərliyi dövründə 1978-ci ildə məhz onun iradəsi ilə qəbul edilmiş üçüncü Konstitusiyada xalqın Dövlət və cəmiyyət işlərinin idarə olunmasında zəhmətkeşlərin getdikcə daha geniş miqyasda iştirak etməsi, dövlət aparatının təkmilləşdirilməsi, ictimai təşkilatların fəallığının yüksəldilməsi, xalq nəzarətinin gücləndirilməsi, aşkarlığın genişləndirilməsi, ictimai rəyin daim nəzərə alınması – sosialist demokratiyası inkişafının bu konkret istiqamətləri ilk növbədə Sovetlərin fəaliyyət dairəsinə salındı.

1978-ci ildə qəbul olunmuş Əsas Qanun Azərbaycan SSR Ali Sovetinin, Naxçıvan MSSR Ali Sovetinin, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, rayon, şəhər, qəsəbə və kənd deputatları Sovetlərinin hüquqi vəziyyətinin əsasları 85-ci maddədə öz əksini tapdı. Respublikanın bütün Sovetləri dövlət hakimiyyəti orqanlarının vahid sistemini təşkil edirdi.

Konstitusiyaya Azərbaycan SSR Ali Sovetinin geniş səlahiyyətlərini daha aydın və daha dolğun göstərən maddələr salınmışdı. Hər şeydən əvvəl, müəyyən edilirdi ki, Ali Sovet Azərbaycan SSR-in səlahiyyətinə aid olan bütün məsələləri həll etmək hüququna malikdir. Eyni zamanda, göstərilirdi ki, Konstitusiyanın qəbul olunması, orada dəyişikliklər edilməsi, dövlət iqtisadi və sosial inkişaf planlarının dövlət budcəsinin və bunların yerinə yetirilməsi haqqında hesabatların



təsdiq edilməsi, hökumətin, Ali Məhkəmənin və Ali Sovetə hesabat verməli olan digər orqanların təşkili kimi mühüm məsələlər yalnız respublikanın Ali Soveti tərəfindən həll edilir.

Qüvvədə olan Konstitusiya deputatların ümumi sayını müəyyən etmir, yalnız nümayəndəlik normasını nəzərdə tuturdu.

Respublikanın Konstitusiya praktikasında ilk dəfə olaraq Ali Sovetin daimi komissiyalarının statusu müəyyən edilirdi. Ali Sovetin səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilib hazırlanmasında, qanunvericilik aktlarının həyata keçirilməsinə, habelə dövlət orqanlarının və təşkilatlarının fəaliyyətinə nəzarət qoyulmasına kömək göstərilməsində daimi komissiyalara mühüm yer verilirdi.

Bu konstitusiyanın son mətnində Azərbaycan SSR Nazirlər Sovetinin səlahiyyəti də hərtərəfli müəyyən edilmişdi.

Xalq deputatları Sovetlərinin və onların icraiyyə komitələrinin təşkili və fəaliyyət prinsipləri hərtərəfli işlənib hazırlanmış, onların səlahiyyətləri dürüst müəyyən edilmişdir. Bu məsələlərə "Azərbaycan SSR-də yerli dövlət hakimiyyəti və idarə orqanları" adlı xüsusi bölmə həsr olunmuşdur ki, sovetlərə yalnız yerli əhəmiyyətli məsələləri həll etmək hüququ deyil, həm də respublika və Ümumittifaq miqyaslı məsələlərin müzakirəsində iştirak etmək, bunların barəsində təkliflər irəli sürmək, öz ərazisində yerləşən və yuxarı orqanlara tabe olan müəssisələrin, idarələrin və təşkilatların qanunlara riayət etmələrinə öz səlahiyyətləri daxilində nəzarət etmək, habelə onların fəaliyyətini əlaqələndirmək hüququ verilmişdi.

Konstitusiyanın maddələrində göstərilən tələblərdə ictimai təşkilatlara böyük diqqət yetirilir, həmkarlar ittifaqlarının, komsomolun, kooperativ təşkilatlarının və zəhmətkeşlərin digər kütləvi təşkilatlarının mühüm rolu geniş surətdə öz əksini tapırdı. Onlar öz nizamnamə vəzifələrinə uyğun olaraq dövlət işlərinin və ictimai işlərin idarə olunmasında, siyasi, təsərrüfat və sosial-mədəni məsələlərin həllində iştirak edirlər. Bütün bunlar həm də Konstitusiya tələbləri xarakteri kəsb edirdi. Konstitusiyaya dövlət məsələlərinin və ictimai məsələlərin həllində, xüsusən istehsalın idarə olunmasında əmək kollektivlərinin rolu haqqında da mühüm müddəa daxil edilmişdi.

Ulu öndər dördüncü konstitusiya layihəsinin hazırlanmasına rəhbərlik edərkən məhz bir çox Avropa ölkələrinin əsas qanunlarını öyrənməklə yanaşı, özünün uzunmüddətli rəhbərlik təcrübəsinə istinad edərək, məhz 1995-ci il Konstitusiyasının böyük uğurla qəbul edilməsinə nail oldu.

## İQTİSADİ DURUM VƏ KONSTİTUSİYA

Ulu öndər 1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının yeni konstitusiyasını qəbul edərkən bir neçə amili əsas götürmüşdü. Yenilənmiş və formalaşmış cəmiyyət və onun tələbləri, insan hüquq və azadlıqlarına yeni baxış daha mükəmməl və perspektivlərə hesablanmış Konstitusiyanın qəbul olunması zərurətini qaçılmaz edirdi.

Eyni zamanda, cəmi bir il əvvəl ittifaqın yeni konstitusiya qəbul etməsi dahi siyasətçi Heydər Əliyevə imkan yaradırdı ki, Azərbaycanın Əsas Qanununu yenidən nəzərdən keçirsin.

Ölkənin iqtisadi inkişaf tempi və genişmiqyaslı proqramlar Azərbaycanın Milli iqtisadiyyatında yeni keyfiyyət dəyişikliklərini üzə çıxartdı. Bu isə respublikanın yeni Konstitusiyasının qəbul edilməsini şərtləndirən başlıca faktorlarından biri idi. Belə ki, sonuncu Əsas Qanunun qəbul edildiyi vaxtdan keçən 40 il ərzində bütün respublikanın həyatında, o cümlədən xalq təsərrüfatında, elm və mədəniyyətində əsaslı dəyişikliklər baş vermişdi. Ümumi ictimai məhsul 12 dəfə artdığından respublika sənayesinin biraylıq məhsulu 1937-ci ilin birillik nəticələrini üstələyirdi. Respublikanın sənaye simasını təqribən 100 sənaye sahəsi, o cümlədən neft və neftayırma sənayesi ilə yanaşı, kimya və neft kimyası, qara və əlvan metallurgiya, elektrotexnika, radiotexnika, cihazqayırma və digər maşınqayırma sahələri, yüngül sənayenin və yeyinti məhsulları sənayesinin bir sıra yeni istehsalatları sərgiləyirdi.

1936-cı ildəkinə nisbətən elektrik enerjisi istehsalı 12 dəfə, kimya və neft kimyası sənayesi məhsulu 233 dəfə, maşınqayırma və metal emalı məhsulu 40 dəfə, tikinti materialları sənayesi məhsulu 30 dəfəyə qədər artmışdı. SSRİ-də istehsal olunan bütün neft-mədən avadanlığının üçdə bir hissəsindən çoxu, o cümlədən neftçıxarma texnikasının 70 faizi Azərbaycanın neft maşınqayırma müəssisələrində istehsal edilirdi.

Bakı şəhərinin siması dəyişilmiş, Gəncə, Naxçıvan və Xankəndi şəhərləri böyüyüb SSRİ-nin iri şəhərlərinə çevrilmişdi. Sumqayıt, Mingəçevir, Daşkəsən, Əli Bayramlı və başqa yeni sənaye mərkəzləri yaranmaqla yanaşı, böyük fəhlə qüvvəsini özündə birləşdirən 310 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdi.

Aqrar sənayenin ümumi məhsuldarlığı 4 dəfədən çox artmış, 40 il ərzində kənddə traktorların sayı 7, taxıl kombaynlarının sayı 17, yük avtomobillərinin sayı 33 dəfə çoxalmış, kənd əməyinin enerji təchizatı 2,5 dəfəni ötüb keçmişdi. Bu illər ərzində kənd təsərrüfatı əməyinin



xarakteri də xeyli dəyişmişdir. 1978-ci ildə kolxoz və sovxozlarda tələb olunan 120 peşə və ixtisasa sahib olmuş adamlar işləyirdilər.

Respublika bütün nəqliyyat növlərinin inkişafında böyük müvəffəqiyyətlər qazanmışdı. Azərbaycanın elektrikləşdirilmiş dəmir yollarının uzunluğu üst-üstə Türkiyənin, İranın və Əfqanıstanın müvafiq yollarının uzunluğunu ötüb keçmişdi. Azərbaycan hava yolları respublikanın paytaxtını SSRİ-nin 57 şəhəri ilə birləşdirirdi. 18 gün ərzində respublikanın avtomobil nəqliyyatı bütün 1940-cı ildə daşındığı qədər yük daşıyırdı.

Əhalinin sosial strukturunda dərin keyfiyyət dəyişiklikləri baş vermişdi. Fəhlələrin sayı 1940-cı ildəkinə nisbətən üç dəfədən çox artmaqla yanaşı, 1939-cu ildə ali, natamam ali, orta təhsilli fəhlələr Azərbaycanın bütün fəhlələri arasında cəmi 8,3 faiz təşkil edirdisə, 1978-ci ildə bu faiz 60 rəqəmində özünü ehtiva edirdi.

Azərbaycanda bu müddət ərzində orta ümumtəhsil məktəblərinin sayı 12 dəfə artmışdı. Əgər 1937-ci ildə Azərbaycan məktəblərində 15 min müəllim işləyirdisə, 1978-ci ildə onların sayı 100 min nəfərə çatmışdı. 268 min nəfərlik 550 yeni ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdi.

Respublikanın 17 ali məktəbində 100 min nəfərdən çox tələbə təhsil alırdı ki, bu da 1937-ci ildəkindən 10 dəfə çox idi.

Azərbaycan SSR Elmlər Akademiyası başda olmaqla, elmi idarələrin böyük şəbəkəsi, onlarca layihə-konstruktor, təcrübə-sənaye və eksperiment bazası və laboratoriyası fəaliyyət göstərən respublikada elm ictimai tərəqqinin qüdrətli amilinə çevrildiyindən bu sahədə çalışanların sayı 25 dəfə artaraq 1978-ci ildə 21 min nəfəri ötmüşdü.

Respublikada fəhlə və qulluqçuların adambaşına real gəliri 1940-cı ildəkinə nisbətən 3,6 dəfə, kolxozçularınkı isə 6 dəfə artmışdı. 40 il ərzində respublikada mənzil fondu 5 dəfə artmış, təqribən 40 milyon kvadratmetr mənzil sahəsi istifadəyə verilmişdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi son yeddi ildə əvvəlki 15 ildə olduğu, yəni üst-üstə altıncı, yeddinci və səkkizinci beşilliklərdə olduğu qədər sənaye məhsulu istehsal edilmişdir. 1977-ci ildə istehsalın həcmi 1970-ci ildəki göstəriciləri 1,7 dəfə ötüb keçmişdi.

Yeddi il ərzində sənaye məhsulu artımının təqribən dörddə üç hissəsi əmək məhsuldarlığının yüksəldilməsi hesabına əldə edilmişdi və əmək məhsuldarlığı 47 faiz artmışdı.

Xalq istehlakı mallarının istehsalı yeddi il ərzində 1,8 dəfə artmışdı ki, buna da 67 yeni müəssisənin işə salınması da yaxından yardımçı olmuşdu.

Ortaıllıк məhsuldarlıq əsas кənd təsərrüfatı bitкilərinin – pambıq, taxıl, tərəvəz, üzüm istehsalında 40, tütün istehsalında isə 63 faizi əhatə edirdi. Heyvandarlıqda artım şкalası 2,2 rəqəmini göstərirdi.

Xalqın maddi rifahının artmasının əsas mənbəyi olan milli gəlir 1970-cı ıldəкınə nisbətən adambaşına 1,4 dəfə çoxalmışdı. Və bu məqamı xüsusi olaraq qeyd etməк lazımdır кi, milli gəlirin təqribən dörddə üç hıssəsi zəhmətкeşlərin maddi və mənəvi tələbatının ödənilməsinə yönəlmişdı.

Yeddı il ərzində Sumqayıt кimi daha beş şəhər salınaraq, 1 milyon 200 mindən çox adamın və ya respublıкa əhalisinin 21 faizinin mənzil şəraitı yaxşılaşdırılmışdı.

Ulu öndər Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublıкasına rəhbərlıк etdiyi dövrdə respublıкamız səккiz il dalbadal Ümumittifaq sosializm yarışında qalib gəldi və Sovet İttifaqı Kommunist Partıyası Mərкəzı Komıtəsinin, SSRİ Nazirlər Sovetinin, Ümumittifaq Həmкarlar İttifaqları Mərкəzi Şurasının və Ümumittifaq Lenin Kommunıst Gənclər İttifaqı Mərкəzi Komitəsinin кeçici Qırmızı bayrağı ilə təltif olundu. Sovet məкanında bu, ən böyüк nailiyyət və uğur idi.

Ulu öndər çox böyüк uzaqgörənliklə dövlətin öz Əsas Qanununu yenıdən və əsaslı şəкildə işləyib hazırlamış, dinamiк inкişaf edən, xalqın həyatını dəyişdirən sabit iqtisadiyyata malıк olan Azərbaycanı SSRİ-də birləşən digər respublıкalar arasında ön sıraya gətirib çıxartmışdı. Azərbaycanın gələcəк inкişafına hesablanmış yeni Konstitusiyanın qəbul edilməsı Heydər Əliyevin başlıca məqsədi idi. Bu məqsədə çatmaq üçün respublıкanın iqtisadi özülü qurulmalı idı. Ulu öndərin uzaqgörən sıyasətı nəticəsində bu özül yaradıldı, Azərbaycanın perspeкtıvlərinə – 1978-ci il üçün ağlasığmaz görünən gələcəyinə – müstəqilliк dövrünə hesablanmış Əsas Qanun Konstitusiya qəbul edıldı.

**1995-ci ildə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın ilк Konstitusiyası qəbul edilərкən Əsas Qanunun 15 və 16-cı maddələrində dövlətin iqtisadi və sosial inкişaf qanunları öz əкsini tapdı.** Əsas Qanunda göstərilir кi, Azərbaycan Respublıкasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Bazar münasibətləri əsasında iqtisadiyyatın inкişafına şərait yaradılır кi, bu da azad sahibкarlığa təminat verməкlə yanaşı, iqtisadi münasibətlərdə ınhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi



qayğısına qalmaqla yanaşı, mədəniyyətin, təhsilin, səhiyyənın, elmin, incəsənətin inкişafına yardım göstərir, ölкənin təbiətini, xalqın tarıxı, maddi və mənəvi irsini qoruyur.

Əsası Ulu öndər tərəfindən qoyulan iqtisadi islahatlar strategiyası bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla həyata кeçirilir.

Konstitusiyanın tələblərinə uyğun olaraq dövlət başçısının fəaliyyətinin ilк günlərində iqtisadi siyasətin başlıca hədəflərindən biri olan bölgələrin bərabər və tarazlı şəкıldə inкişaf etməsi üçün kompleкs tədbirlər proqramı hazırlandı. Regionların Sosial-İqtisadi İnкişafına dair Dövlət Proqramı iqtisadı inкişafa təкan verərəк, maкroiqtisadi sabitliyin möhкəmlənməsinə baza yaratmış oldu. Mövcud əməк ehtiyatlarından, təbii və iqtisadı potensialdan səmərəli istifadə edilməsi son nəticədə bütün Azərbaycanın iqtisadi tarazlığının bərpa olunmasına, strateji hədəflərə çatmasına nail oldu. Yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmın edilməsi son nəticədə vətəndaşların sosial tərəqqisinə səbəb oldu. Hökumətin qəbul etdiyi bütün qərarlar konкret olaraq cəmiyyətin iqtisadi sifarişlərini özündə əкs etdirir, xalqın sosial qayğılarının təmin olunmasına əhatəli şəкildə baza yaradır, ölкəni valyuta ehtiyatlarına söyкənən güclü pul resursları ilə təmin edir. Hər bir dövlət proqramının arxasında icra mexanizmləri, maliyyə resursları və güclü dövlət siyasəti dayanır. Ümumilıкdə, ötən illər ərzində Azərbaycanın bütün regionları üzrə 20 min 705 yeni müəssisə yaradılaraq istifadəyə verilib. Bu müəssisələrin 40 faizindən çoxu rayonların payına düşür. Ötən dörd ildə həmin müəssisələrdə, digər istehsal və xidmət sahələrində iş yeri ilə təmin olunan vətəndaşların sayı artıq 643 min 353 nəfərə çatıb. Onların 458 mini daimi iş yerləri ilə təmin olunanlardır. Son dörd il ərzində Azərbaycanda yoxsulluq 49 faizdən 16 faizə düşmüşdür.

Regionların Sosial-İqtisadi İnкişafına dair Dövlət Proqramında müxtəlif sahələri əhatə edən 714 tədbir nəzərdə tutulub кi, bunun da 46-sı maкroiqtisadi sabitliyin və davamlı inкişafın təmin edilməsinə yönəldilib, 668 tədbir isə 9 iqtisadi rayon üzrə inкişaf layihələrini əhatə edir.

2009-2013-cü illəri əhatə edən yeni proqram nəinкi rayonların, eləcə də qəsəbə və кəndlərin spesifiк xüsusiyyətlərini özündə əкs etdirir. Azərbaycanın bütün yaşayış məntəqələrinin qazlaşdırılması, fasiləsiz eleкtriк enerjisi, кeyfiyyətli su xidmətləri ilə əhatə olunacaq, bütün məhəlledaxili yollar əsaslı şəкildə yenidən qurulacaq. Qəsəbələrdə yeni müəssisələrin, ticarət mərкəzlərinin, xidmət obyeкtlərinin yaradılması başa çatdırılacaq. Bütün rayonlarda məкtəblərin, xəstəxanaların, digər səhiyyə obyeкtlərinin bərpası

rabitə və nəqliyyat xidmətlərinin əhatəli şəkildə təmin olunması bu proqramın başlıca istiqamətlərini təşkil edir. Yeni proqramda 2013-cü ilədək vətəndaşların sosial xidmətlərdən əhatəli şəkildə istifadə etməsi üçün yeni səhiyyə müəssisələrinin, stasionar və diaqnostika mərkəzlərinin inşası, rabitə müəssisələrinin modernləşdirilməsi, məktəblərin ən yeni avadanlıqlarla təmin edilməsi, onların istilik təchizatının yaxşılaşdırılması nəzərdə tutulur. 2009-2013-cü illəri əhatə edən Dövlət Proqramını səciyyələndirən əsas xüsusiyyətlərdən biri işğal olunmuş rayonlarda layihələrin həyata keçirilməsi ilə bağlıdır. Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarına daxil olan ərazilərdə sosialyönümlü obyektlərin inşa edilməsi, kommunal və infrastruktur şəbəkələrinin yaradılması nəzərdə tutulur. Həmin rayonlar işğaldan azad edildikdən sonra burada sosial-iqtisadi inkişafla bağlı xüsusi proqram hazırlanıb həyata keçirilməsi nəzərdə tutulub. Həmin proqramların əsas mahiyyəti məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması, məktəb, səhiyyə, xəstəxana və digər sosial obyektlərin tikintisi, vətəndaşların yeni iş yerləri ilə təmin edilməsindən ibarətdir. Qaçqınların və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğun artırılması ilə bağlı dövlət proqramına əlavələr edilibdir. Bu əlavələrin xərcləri təxminən 500 milyon manat həcmindədir. Proqrama 400 milyon manata yaxın vəsait ayrıldığını nəzərə alsaq, deməli, əlavələrə görə 1 milyard manatadək vəsait də ayrılacaq ki, erməni işğalından əziyyət çəkən soydaşlarımız həm normal evlərlə təmin olunsunlar, həm də onların məşğulluq məsələləri həll edilsin. Sahibkarlar üçün güzəştli vergi rejiminin yaradılması, ƏDV-nin azaldılması, uzunmüddətli kreditlərin verilməsi də bu tədbirlər sırasındadır. Bütün bu tədbirlər planı Azərbaycanın Avropa ailəsinin üzvü kimi yeni inkişaf erasının başlanğıcında bütün iqtisadi-sosial elementlərə çatmasına imkan verəcək. Bütövlükdə hökumət siyasətinin əsasını Azərbaycanda bütün infrastrukturun dünya səviyyəsinə çatması və Avropa Birliyinin meyarlarına bərabər olması təşkil edir.

Ümummilli lider Heydər Əliyevin təmin etdiyi sabitlik və davamlı inkişaf konsepsiyası son beş ildə Prezident İlham Əliyevin rəhbərliyi dövründə keyfiyyət və kəmiyyət baxımından zənginləşərək, yeni məzmun kəsb etməkdədir. Son 5 ildə dinamik iqtisadi inkişaf, artım tempinin dünya inkişaf göstəricisini 3-4 dəfə üstələməsi, dünya iqtisadiyyatına inteqrasiyanın dərinləşməsi və bu kimi məsələlər iqtisadi siyasətin uğurlarının göstəricisidir.

Ölkəmizin enerji təhlükəsizliyi tam həll edilməklə yanaşı, gəlir əldə olunmaqla, bu gəlirin artması müddəti 20 il nəzərdə tutulsa da,



birinci onillikdə enerji layihələrinin həyata keçirilməsindən yüz milyardlarla dollar gəlir gözlənilir. Bütün bunlar iqtisadi və siyasi islahatları həyata keçirməyə, ölkəmizin beynəlxalq mövqelərini möhkəmlətməyə və gələcəyə inamla baxmağa imkan verir. Bu uğurlara Azərbaycanın güclü elmi-tədqiqat mərkəzləri və zəngin kadr bazasının olması, son illərdə inkişafın çoxşaxəliliyi, regionun ən iri enerji və kommunikasiya layihələrinin reallaşmasında ölkəmizin söz sahibi olması, neft və qaz yataqlarının geoloji kəşfiyyatında, hasilat işlərində, sənayenin digər sahələrində ən modern texnologiyaların tətbiqində yerli kadrların intellektual potensialı da təkan verib. Azərbaycanın iqtisadi artım tempinə görə dünyada lider ölkəyə çevrilməsi əhalinin gəlirlərinin son illərdə 5 dəfəyə yaxın artaraq, pul gəlirlərinin 35 faizə yaxınlaşmasına, əmək haqları və pensiyaların, o cümlədən digər sosial göstəricilərin əhəmiyyətli dərəcədə artmasına, son beş ildə iqtisadiyyatda artım tempinin 96 faizi olmasına gətirib çıxarmışdır.

2003-cü ildə büdcə ehtiyatları 1 milyard manatdan da az olan, valyuta portfeli 700-800 milyon manat civarına bərabər ölkəmizdə 2008-ci ilin dövlət büdcəsi 10 icmal büdcəsi artıq 12-14 milyard manat dollar səviyyəsindədir. Son beş ildə büdcə gəlirləri 10 dəfədən çox artıb, valyuta ehtiyatları 12 dəfədən çox yüksəlib. Hazırda hər iki sahə üzrə gəlirlərin 10 dəfədən çox artması ölkəmizin iqtisadi gücünü özündə ehtiva edir.

1995-ci ildə Azərbaycana yatırılan 544 milyon dollar həcmində investisiyaların 375 milyonu, yəni 70 faizi xarici sərmayələrin payına düşürdü. 1996-98-ci illərdə də investisiya portfelində xarici sərmayələrin çəkisi yüksək olub. 2000-ci ildən sonra isə yerli sərmayələrin tempi artmağa başlayıb. 2000-ci ildə ölkəmizə cəlb olunmuş 1 milyard 441 milyon dollar məbləğində sərmayələrin 65 faizi, 2002-ci ildə isə 2 milyard 796 milyon dollar həcmində kapital resursunun təxminən 70 faizi, yəni 2 milyard 234 milyon dolları əcnəbilərin payına düşüb. Son 5 ildə isə Azərbaycan ümumi investisiya portfelində yerli investisiyaların illik artım tempinə görə Müstəqil Dövlətlər Birliyində (MDB) ilk sırada dayanan ölkələrdən biridir. 2005-ci ildə ölkə iqtisadiyyatına cəlb olunmuş 7 milyard 118 milyon dollar məbləğində investisiyanın 2,5 milyard dolları hökumətin yönəltdiyi sərmayələrdir ki, bu əvvəlki illə müqayisədə 2-3 dəfə artım deməkdir. 2006-cı ildə 8 milyard dollar həcmində investisiyanın 3 milyard dollardan da böyük hissəsi yerli sərmayələr olub. 2007-ci ildə isə Azərbaycan sərmayələrinin 3 milyardı əcnəbi investorların və maliyyə institutlarının payına düşdüyü halda 4,7 milyard dollarını yerli investisiyalar təşkil edib.

On minlərlə insan yaşayan on iki çadır düşərgəsinin hamısı ləğv edilərək, Avropa standartlarına tam cavab verən qaçqın və məcburi köçkün qəsəbələri yaradılaraq, 1 milyona yaxın əhali oraya köçürülmüşdür. Bu günlərdə isə Azərbaycan dövləti 1 milyon qaçqın və məcburi köçkünün ərzaq təminatını öz üzərinə götürmüşdür.

Yeni hazırlanan 2008-2011-ci illərə aid Dövlət İnvestisiya Proqramının əsas elementləri məhz qeyri-neft sektoruna sərmayələrin axınının genişləndirilməsindən və bütün infrastruktur bölmələrində yeni layihələrin həyata keçirilməsindən ibarətdir. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq maliyyə institutlarının son hesabatlarında Azərbaycan dinamik inkişaf tempinə görə dünyanın lider ölkəsi kimi yer alır.

Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində hərtərəfli işlənib hazırlanmış iqtisadi inkişaf proqramı onun siyasi varisi cənab İlham Əliyev tərəfindən təkmilləşdirilərək, 2008-2013-cü illərdə zəngin valyuta sərvətlərinin ölkəmizə daxil olmasının fonunda sözsüz ki, bütün sahələr üzrə yüksək sıçrayışlarla müşayiət olunacaq. Bu mərhələdə ölkənin valyuta sərvətləri bir neçə dəfə artaraq on milyardlarla deyil, yüz milyard dollarla ölçüləcək.

Beynəlxalq maliyyə institutlarının hesablamalarına görə, Azərbaycanın valyuta sərvətləri qarşıdakı beş ildə 20-30 dəfə artaraq, 200 milyard dolları ötəcək. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, 2013-2014-cü illərdə respublikamızda milli məhsul istehsalı bir neçə dəfə artaraq, adambaşına düşən valyuta gəlirləri 252 manatdan da çox olacaq. Milli gəlirin dünya ölkələri üzrə bölgüsünə görə, Azərbaycan 181 ölkə arasında 91-ci yerdən 56-cı yerə yüksələcək. Bu isə Azərbaycanın Avropa İttifaqı ölkələri, Şimali Amerika və Asiyanın inkişaf etmiş dövlətləri, həmçinin Yaxın Şərqin əsas neft hasilatçıları, xüsusilə də OPEK ölkələri ilə eyni səviyyədə olmasına imkan verəcəkdir.



## 1978-Cİ İLDƏ AZƏRBAYCANDA SİYASİ DURUM VƏ KONSTİTUSİYA

1978-ci il aprelin 19-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirilmişdir. Plenumda "Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) və onun ümumxalq müzakirəsinin yekunları haqqında" Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan SSR Konstitusiyasının mətnini hazırlayan komissiyanın sədri Heydər Əliyevin məruzəsi dinlənilmişdir.

Qəbul olunmuş qərarda plenum "Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) mətnini və onun ümumxalq müzakirəsinin yekunları haqqında" Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan SSR Konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri Heydər Əliyevin məruzəsini bütünlüklə və tamamilə bəyənmişdir.

Plenum Konstitusiya komissiyasının təqdim etdiyi Azərbaycan Sovet Sosialist Reslublikası Əsas Qanununun mətnini ümumxalq müzakirəsinin yekunları əsasında irəli sürülmüş əlavələr, dəqiqləşdirmələr və düzəlişlərlə birlikdə bəyənmişdir. Konstitusiyanın mətnini Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasının müzakirəsinə vermək qərara alınmışdır.

Plenum Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan SSR Konstitusiyasının mətnini hazırlayan komissiyanın sədri Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin sessiyasında Konstitusiyanın mətnini və onun ümumxalq müzakirəsinin yekunları haqqında məruzə etməyi tapşırmışdır.

Partiya və sovet orqanlarına, nazirliklərə və baş idarələrə, həmkarlar ittifaqları, komsomol təşkilatlarına və digər ictimai təşkilatlara tapşırılmışdır ki, Azərbaycan SSR Konstitusiyası layihəsinin ümumxalq müzakirəsinin gedişində dövlət, təsərrüfat və mədəniyyət quruculuğunun konkret sahələrində işin yaxşılaşdırılmasına dair zəhmətkeşlərdən alınmış bütün təklif və qeydləri diqqətlə müzakirə etsinlər və onların əməli surətdə həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər.

* * *

1978-ci il aprelin 19-da Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin iclası keçirilmişdir. İclasa Rəyasət Heyətinin sədri Q.Xəlilov

sədrlık etmişdir. Azərbaycan SSR Konstitusiyası mətninin ümumxalq müzakirəsinin yekunları və bu müzakirənin gedişində verilmiş təkliflər haqqında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan SSR Konstitusiyasının mətnini hazırlayan komissiyanın sədri Heydər Əliyevin məlumatı nəzərdən keçirilmişdir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti respublikanın Əsas Qanununun müzakirəsi gedişində Azərbaycan SSR vətəndaşlarının yüksək siyasi və əmək fəallığını, vətənpərvərliyini, müzakirənin özünün işgüzar, dərin maraq ifadə edən yaradıcı xarakter daşıdığını razılıq hissilə qeyd etmişdir. Müzakirə göstərmişdir ki, Azərbaycan zəhmətkeşləri Kommunist Partiyasının baş xəttini və əməli fəaliyyətini, Sov.İKP-nin leninçi daxili və xarici siyasətini, partiyanın Mərkəzi Komitəsinin, Leonid İliç Brejnev başda olmaqla MK Siyası Bürosunun yorulmadan göstərdikləri səmərəli fəaliyyəti səmimi-qəlbdən, ürəkdən və hərarətlə müdafiə edir və bəyənirlər. Ümumxalq müzakirəsi partiya ilə xalqın sarsılmaz birliyini, respublika zəhmətkeşlərinin var qüvvələrini Sov.İKP XXV qurultayı tarixi qərarlarının həyata keçirilməsi uğrunda mübarizəyə sərf etmək əzmini bir daha nümayiş etdirmişdir.

Qəbul olunmuş qərarda Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qeyd etmişdir ki, Azərbaycan SSR Konstitusiyasının mətnini hazırlayan komissiya layihəsinin ümumxalq müzakirəsi zamanı irəli sürülmüş təklif və qeydləri nəzərdən keçirib ümumiləşdirməklə böyük iş görmüşdür. İclasda Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvləri A.A.Aslanov, N.Ə.Əliyev, T.R.Əhmədova, B.Ə.Hacıyev çıxış etmişlər.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti komissiya tərəfindən təqdim olunmuş Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) mətni – respublikada ümumxalq müzakirəsi gedişində irəli sürülmüş təkliflər nəzərə alınmaqla tamamlanmış və dəqiqləşdirilmiş mətni bəyənmişdir. Layihə doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasının müzakirəsini verilmişdir.

İclasda həmçinin Azərbaycan SSR Dövlət himninin təsdiq edilməsi haqqında məsələ nəzərdən keçirilmişdir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Ə.Xəlilov məlumat vermişdir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan Sovet Sosialist Respublikası Dövlət Himninin mətnini təsdiq etmək haqqında Fərman qəbul etmişdir. Müəyyən edilmişdir ki, respublikanın Dölət himni 1978-ci il aprelin 28-dən hər yerdə ifa olunsun.



Növbədənkənar sessiyanın axşam iclasında "Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) mətni (və onun ümumxalq müzakirəsinin yekunları haqqında" Heydər Əliyevin məruzəsinin müzakirəsi davam etdirilmişdir.

1978-ci il aprelin 20-də Azərbaycan SSR Konstitusiyasının son mətnini hazırlamaq üçün redaksiya komissiyasının təşkil edilməsi haqqında Azərbaycan SSR Ali Soveti qərar qəbul etmişdir. Qərarda göstərilir ki, Azərbaycan SSR Konstitusiyasının son mətnini hazırlamaq üçün aşağıdakı tərkibdə redaksiya komissiyası təşkil edilsin.

1978-ci il aprelin 21-də Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) son mətnini hazırlayan redaksiya komissiyasının iclası keçirilmişdir. İclasda redaksiya komissiyasının sədri, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev sədrlik etmişdir.

Heydər Əliyev çıxışında qeyd etmişdir ki, respublika Ali Sovetinin sessiyasında Azərbaycan SSR Konstitusiyasının mətninin müzakirəsində iştirak edən deputatlar Azərbaycan SSR Əsas Qanununun mətnini yekdilliklə bəyənmiş və onun qəbul edilməsinə tərəfdar çıxmışlar. Bununla birlikdə bəzi çıxışlarda ayrı-ayrı maddələrə əlavələr və dəqiqləşdirmələr keçirmək haqtında yeni təkliflər irəli sürülmüşdür.

Bu təklifləri nəzərdən keçirən redaksiya komissiyası müvafiq tövsiyələr qəbul etmiş və Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) son mətninin Azərbaycan SSR Ali Sovetinii müzakirəsinə təqdim etməyi qərara almışdır.

Aprelin 21-də Heydər Əliyev Azərbaycan sovet Soialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) mətni və onun ümumxalq müzakirəsinin yekunları haqqında məruzə etmişdir. «Altı aydan bir qədər çox bundan əvvəl, tarixi bir gündə, SSRİ Ali Soveti sovet xalqının iradəsini ifadə edərək Sovet Sosialist Respublikaları İttifaqının Yeni Konstitusiyasını qəbul etmişdir. Dövlətimizin Əsas Qanununda xalq hakimiyyətinin 60 ili ərzində qazanılmış nailiyyətlər dərindən əks etdirilir, inkişaf etmiş sosializm cəmiyyətinin əsasları qanunvericilik yolu ilə təsbit olunur və inandırıcı surətdə göstərilir ki, bu cəmiyyət sosial tərəqqinin ən yüksək nailiyyətidir. Sovet Konstitusiyası həyatımızın qanunudur. O, ölkənin kommunizmə doğru irəliləyiş perspektivlərini müəyyən etmişdir.

Bütün sovet xalqlarının təcrübəsini, bilik və arzularını təcəssüm etdirən SSRİ Konstitusiyası dünyada birinci sosialist dövlətinin 15 bərabər hüquqlu, suveren müttəfiq respublikanı vahid ailədə sıx birləşdirən bir dövlətin görkəmli siyasi və hüquqi sənədidir. Bizim Əsas Qanun SSRİ xalqlarının böyük dostluq və qardaşlıq ideyalarının

müdrik Lenin milli siyasətinin təntənəsini nümayiş etdirir. Lenin milli siyasəti çoxmillətli SSR İttifaqının ümumi mənafeyi ilə müttəfiq respublikalardan hər birinin mənafeyinin əsil demokratik vəhdətini, bütün sosialist millətlərinin və xalqlarının hərtərəfli tərəqqisini və bir-birinə daha da yaxınlaşmasını təmin edir.

Ölkədə və hər bir respublikada əzəmətli siyasi və sosial-iqtisadi dəyişikliklər baş verməsi, SSRİ-nin yeni Konstitusiyasının təsdiq edilməsi müttəfiq respublikaların konstitusiyalarını işləyib hazırlamaq zərurətini meydana gətirmişdir. Azərbaycan SSR Konstitusiyasının layihəsi Ali Sovetin müzakirəsinə verilmişdir. Bu layihənin əsasını İttifaq Konstitusiyasının ideyaları və prinsipləri, Sov. İKP XXV qurultayının, partiyanın Mərkəzi Komitəsinin may və oktyabr (1977-ci il) plenumlarının qərarları, Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnev yoldaşın əsərlərindəki və çıxışlarındakı nəzəri müddəalar və nəticələr təşkil edir.

Bütün sovet adamları kimi Azərbaycan zəhmətkeşləri də dövlətimizin yeni Əsas Qanununu coşğun vətənpərvərlik hissi ilə qarşılamışlar. SSRİ Konstitusiyası milyonların canlı praktikasına daxil olmuşdur. Bu Konstitusiya yaşayır, işləyir, fəaliyyət göstərir. Sov. İKP XXV qurultayı qərarlarının, Sovetlər ölkəsinin sosial-iqtisadi inkişaf planlarının müvəffəqiyyətlə yerinə yetirilməsi üçün xalqın qüvvələrini səfərbərliyə almağa kömək edir.

Partiyamız və xalqımız onuncu beşillyin üçüncü ilinə yeni böyük müvəffəqiyyətlərlə gəlmişlər. Hər bir respublikanın, vilayətin və bütün ölkənin iqtisadi potensialı xeyli artmışdır. Sənaye məhsulunun mütləq artımı təkcə ötən il ərzində 30 milyard manat olmuşdur ki, bu da bütün 1940-cı ildəki sənaye məhsulunun həcminə bərabərdir. 1976-1977-ci illərdə xalq təsərrüfatının əsas istehsal fondlarının artımı ölkənin 50-ci illərin ortalarındakı istehsal fondlarının bütün həcminə bərabər olmuşdur. Partiyanın əzmlə və ardıcıllıqla yeritdiyi qərar siyasət getdikcə daha böyük səmərə verir.

Sovet cəmiyyətimizin bütün həyatı partiya ilə xalqın məqsəd və fəaliyyət birliyinə əyani sübutdur. L.İ.Brejnev yoldaşın Sibir və Uzaq şərq rayonlarına səfəri partiya ilə xalqın monolit birliyinin, qarşılıqlı etimad və hörmətinin yeni parlaq təzahürü, rəhbərin kütlələrlə partiya ünsiyyəti nümunəsi olmuşdur. Fəhlələr, mühəndis-texnik işçilər, alimlər, Sovet Silahlı Qüvvələrinin döyüşçüləri, vilayət və ölkələrin rəhbərləri ilə söhbətlərdə Sibirin və Uzaq şərqin mühüm iqtisadi rayonlarının, bütün ölkənin vəziyyəti və inkişaf perspektivi ilə, adamların həyatı və əməyi, dövlətimizin müdafiə qabiliyyətinin möhkəmlənməsi və onun xarici siyasəti ilə əlaqədar olan bir çox məsələrə toxunulmuşdur. L.İ.Brejnev yoldaşın BAM inşaatçıları, Komsomolsk-Amur, Krasnoyarsk, İrkutsk müəssisələrinin fəhlələri, partiya-təsərrüfat fəalları qarşısında çıxışları, onun tövsiyələri, ehtiyat mənbələrini təhlil etməsi, tənqidi mülahizələri bütün təsərrüfat, təşkilat və ideya-tərbiyə işimizi təkmilləşdirmək üçün böyük prinsipial əhəmiyyətə malikdir. Leonid İliçin çıxışlarıda dönə-dönə qeyd edilmişdir ki, partiyanın Mərkəz Komitəsi, MK-nın Siyasi Bürosu, Sovet hökuməti bundan sonra da xarici siyasəti Sülh proqramına və SSRİ Konstitusiyasının müddəalarına tamamilə uyğun surətdə ardıcıl olaraq və dönmədən həyata keçirəcək, beynəlxalq gərginliyin zəifləməsini dönməz prosesə çevirmək uğrunda, real tərksilah uğrunda, bütün dünyada sülh uğrunda prinsipial, barışmaz mübarizə aparacaqlar.

L.İ.Brejnev yoldaşın Sibir və Uzaq Şərq rayonlarına səfəri, əhalinin bütün təbəqələrinin nümayəndələri ilə görüşləri və söhbətləri bütün ölkədə, o cümlədən də respublikamızda siyasi fəallığı və əmək coşqunluğunu daha da artırmışdır.

Sov. İKP MK Siyasi Bürosu, SSRİ Ali Sovetinin Rəyasət Heyəti, SSRİ Nazirlər Soveti səfərin yekunlarını müzakirə edərək, L.İ.Brejnev yoldaşın gördüyü işi tamamilə bəyənmiş, partiyanın XXV qurultayı qərarlarının yerinə yetirilməsi üçün onun səfərinin böyük əhəmiyyətini qeyd etmişlər. Partiya təşkilatlarına, nazirliklərə və baş idarələrə təklif edilmişdir ki, zəhmətkeşlərlə, partiya-təsərrüfat fəalları ilə görüş və söhbətlər zamanı L.İ.Brejnev yoldaşın verdiyi göstərişlərdən və tövsiyələrdən əməli nəticələr çıxarsınlar.

Azərbaycan Kommunist Partiyası mərkəzi Komitəsinin bürosu L.İ.Brejnev yoldaşın səfərinin yekunlarını təbliğ etmək, istehsalın səmərəliliyinn və bütün işin keyfiyyətini yüksəltmək sahəsində təşkilati və kütləvi siyasi tədbirlər haqqında qərar qəbul etmişdir.

Respublikanın partiya təşkilatı, bütün zəhmətkeşləri Sov. İKP MK Siyasi Bürosunun, SSRİ Ali Soveti Rəyasət Heyətinin və SSRİ Nazirlər Sovetinii qərarını bütünlüklə və tamamilə bəyənir, L.İ.Brejnev yoldaşın Sibir və Uzaq Şərq rayonlarına səfərinin nəticələrini yüksək qiymətləndirir, onun məsləhətlərini və tövsiyələrini özlərinin fəaliyyətində rəhbər tutur və əmin edirlər ki, Sov. İKP MK XXV qurultayı qərarlarının yerinə yetirilməsi uğrunda daha artıq səylə mübarizə aparacaq, partiyanın və Sovet dövlətinin daxili və xarici siyasətinin məqsədlərinə müvəffəqiyyətlə nail olmağa fəal kömək edəcəklər.

Azərbaycan SSR Konstitusiyasının Ali Sovetin müzakirəsinə verilən layihəsi böyük kollektivin doqquz aydan artıq müddət ərzində gördüyü mühüm işin nəticəsidir. Layihəni hazırlamaq üçün Azərbaycan SSR Ali Sovetinin təşkil etdiyi komissiyanın tərkibinə partiya və

dovlət işçiləri, fəhlələrin, kolxozçuların, ziyalıların nümayəndələri daxil idilər. Layihənin işlənib hazırlanmasına Azərbaycan KP MK-nın üzvləri, SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatları, görkəmli alimlər, hüquqşünas mütəxəssislər, partiya və dövlət orqanlarının, ictimai təşkilatların işləri cəlb edilmişdir.

L.İ.Brejnev yoldaşın başçılıq etdiyi Konstitusiya komissiyanın təcrübəsindən hazırlıq işində hərtərəfli istifadə olunmuşdur. Bu iş prosesində biz Sov. İKP MK-da, SSRİ Ali Sovetinin Rəyasət Heyətində məsləhətləşirdik, onlar bizə böyük yardım göstərdilər. Biz başqa müttəfiq respublikalarda bu işin təşkili təcrübəsini də nəzərə alırdıq. Layihə diqqətlə hazırlandıqdan sonra Konstitusiya komissiyasının, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin geniş iclaslarında nəzərdən keçirildi və ümumxalq müzakirəsinə verildi.

Komissiya 25 gün davam edən ümumxalq müzakirəsinin yekunlarını növbəti iclasında müzakirə etdi. Müvafiq əlavələr, dəqiqləşdirmələr və düzəlişlərlə birlikdə layihə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müzakrəsinə verildi. Aprelin 19-da Azərbaycan KP Mərkəzi Komitəsinin plenumu və Azərbaycan SSR Ali Smovetinin Rəyasət Heyəti Azərbaycan SSR Konstitusiyasının son mətninin və onun ümumxalq müzakirəsinin yekunlarını müzakirə edərək Azərbaycan SSR Konstitusiyasını əlavələr, dəqiqləşdirmələr və düzəlişlərlə birlikdə əsasən bəyəndilər və onu respublikanın ali qanunvericilik orqanı olan Ali Sovetin müzakirəsinə verdilər.

Azərbaycan SSR-in yeni Konstitusiyasının siyasi-hüquqi əsasına və məzmununun xarakteristikasına gəlincə, mətnin əsasını SSR İttifaqının yeni Konstitusiyası təşkil edr. Bu Konstitusiyada sosialist tipli Konstitusiyanın V.İ.Lenin tərəfindən müəyyən edilmiş başlıca xüsusiyyətlərinin varisliyi saxlanmış və daha da inkişaf etdirilmiş, milli dovlət quruculuğu haqqında Lenin ideyaları öz təcəssümünü tapmışdır. Konstitusiyanın son mətni hazırlanarkən biz SSRİ Konstitusiyasının və müttəfiq respublikaların konstitusiyalarının prinsip və strukturunun ümumiliyini, İttifaq dövləti olmaq etibarı ilə SSRİ-nin sosial-siyasi təbiətinin vəhdətini, sovet siyasi və iqtisadi sisteminin vəhdətini, sovet vətəndaşlarının hüquqi statusunun vəhdətini əsas götürmüşük. Konstitusiya çoxmillətli Sovet dövlətinin Əsas Qanununa tamamilə uyğundur. Qardaş respublikaların konstitusiyaları ilə onun umumi cəhətləri çoxdur. Bununla birlikdə tərtib olunmuş son mətndə İttifaq Konstitusiyasının bir çox normaları respublikamızın şəraitinə uyğun olaraq konkretləşdirilmiş və inkişaf etdirilmişdir.

Respublikanın yeni Konstitusiyası hazırda qüvvədə olan Əsas Qanunun varisliyini qoruyub saxlayaraq, siyasi və sosial-iqtisadi



quruculuq sahəsində qırxillik təcrübəni özündə cəmləşdirib və Azərbaycan xalqının həyatında yaranmış ən böyük dəyişiklikləri həmin təcrübə əsasında hərtərəfli və dərindən əks etdirib. Azərbaycan SSR-in yeni Konstitusiyası inkişaf etmiş sosializmin konstitusiyasıdır. Respublikanın yeni Əsas Qanunu dövlətimizin müasir inkişaf səviyyəsini əks etdirir, ölkəmizdə yaranmaqda olan ictimai münasibətlərin geniş dairəsini təsbit və tənzim etmək məqsədini daşıyır. Məhz buna görə də onun mətni respublikanın qüvvədə olan Konstitusiyasının mətnindən genişdir, layihədə bir çox yeni mühüm sosial-iqtisadi və siyasi-hüquqi məsələlər əks olunub. Qüvvədə olan Konstitusiya 14 fəsildən və 155 maddədən ibarətdirsə, layihədə 11 bölmə, 22 fəsil və 185 maddə nəzərdə tutulub.

Mətndə qısa giriş hissəsi (preambula) verilib, burada bəşəriyyət tarixində yeni dövrün başlanğıcını qoyan, çoxmillətli ölkəmizin xalqlarının müqəddəratında əsaslı dönüş yaradan Böyük Oktyabr sosialist inqilabının ümumdünya tarixi əhəmiyyəti yığcam şəkildə göstərilib. Sovet hakimiyyəti illərində SSRİ xalqlarının qardaşlıq ailəsində respublikanın keçdiyi yolun qısa xarakteristikası verilib. Girişdə deyilir: "Qardaş sovet respublikalarının möhkəm ittifaqında, sosialist ictimai quruluşunun böyük tarixi üstünlükləri sayəsində, Sov. İKP-nın Lenin milli siyasətinin ardıcıl həyata keçirilməsi sayəsində Azərbaycan SRR zəhmətkeşləri iqtisadi, siyasi və sosial-mədəni həyatın bütün sahələrində görkəmli müvəffəqiyyətlər qazanıblar". Burada qeyd edilir ki, Azərbaycan Sovet Sosialist Respublikası sovet xalqının dövlət birliyinə təcəssüm etdirən, birlikdə kommunizm qurman uçün bütün millətləri və xalqları sıx birləşdirən SSR İttifaqının tərkibində bərabər hüquqlu respublikadır.

Konstitusiya bunu əsas götürür ki, Azərbaycan SSR respublikanın fəhlələrinin, kəndlilərinin və ziyalılarının, bütün millətlərdən olan zəhmətkeşlərinin iradəsini və mənafeyini ifadə edən sosialist umumxalq dövlətidir. Dövlətimizin əsil xalq dövləti olması, sovet cəmiyyətinin ardıcıl beynəlmiləlçiliyi, bütün millət və xalqların zəhmətkeşlərinin hüquq bərabərliyi bununla bir daha qeyd edilir.

## KONSTİTUSİYADA ƏDALƏT MÜHAKİMƏSİ

**1995-ci ildə Ulu öndərin rəhbərliyi ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə insan hüquqları sahəsində həyata keçiriləcək tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edildi.**

Ədalət mühakiməsinin həyata keçirilməsi, qanunlara dürüst əməl edilməsi və təkmilləşdirilməsi məqsədi ilə məhkəmə islahatları proqramı hazırlandı.

**1978-ci il Konstitusiyası fəaliyyət göstərdiyi dövrdə ikipilləli məhkəmə sistemi fəaliyyət göstərirdi.** Yəni rayon məhkəmələri və ondan sonra respublika Ali Məhkəməsi. Bu da insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına gətirib çıxarırdı. Belə ki, yerli məhkəmənin çıxardığı qərardan narazı qalan tərəf birbaşa Ali Məhkəməyə müraciət edir, orada qəbul edilmiş qərara isə Ali Məhkəmənin rəyasət heyətində, daha sonra plenumda baxılırdı. Son uç məhkəmə qərarı Ali Məhkəmədə qəbul edilirdi. Rəhbərliyin təsiri, bir binada fəaliyyət göstərmələri, hakimlər arasında olan yoldaşlıq münasibəti və s. bu kimi amillər işin ədalətli həllinə mane olurdu.

Ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi komissiyada bu məsələlər əsas götürülərək, yeni konstitusiyada insan hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edən üçpilləli məhkəmə sistemi yaradılması nəzərdə tutuldu.

1995-ci il Konstitusiyasında Azərbaycan Konstitusiyasının müddəalarından irəli gələn tələblərə uyğun olaraq Ulu öndər Heydər Əliyev **1998-ci il dekabrın 1-də «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsi ilə əlaqədar tədbirlər barədə Fərman imzaladı.**

Bu fərman ölkəmizdə yeni məhkəmə sisteminin yaranmasında mühüm əhəmiyyət kəsb etdi.

Məhkəmə islahatının həyata keçirilməsi, yeni məhkəmələrin təşkili və onların fəaliyyətinin təmin edilməsi məqsədilə **Ümummilli liderimiz Heydər Əliyevin 17 iyun 1999-cu ildə imzaladığı Fərman məhkəmə islahatları sahəsində atılan mühüm addımlardan biri idi.**

Həmin fərmanla Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsi, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi, Azərbaycan Respublikasının İqtisad Məhkəməsi, Sumqayıt Hərbi Məhkəməsi, Bakı, Gəncə və Şirvan şəhərlərində yerli iqtisad məhkəmələri yaradıldı. Həmçinin respublikada fəaliyyət göstərən məhkəmələrin hakimlərinin sayı müəyyən edildi.



Azərbaycanda həyata keçirilən demokratik dəyişikliklər prosesində məhkəmə-hüquq islahatına xüsusi əhəmiyyət verildi.

**2000-ci ildə ölkəmizdə ilk dəfə olaraq test üsulu ilə şəffaf prosedurlar və demokratik seçim əsasında yeni hakim korpusu formalaşdırıldı.** Qısa müddət ərzində beynəlxalq prinsiplərə və müasir tələblərə uyğun mütərəqqi qanunlar və məcəllələr qəbul edildi.

**Heydər Əliyevin 2000-ci ildə verdiyi sərəncamla 22 Noyabr tarixi ədliyyə işçilərinin peşə bayramı kimi ölkəmizin təqviminə yazıldı.** Ədliyyə və məhkəmə fəaliyyətinin mənəvi stimullaşdırılması, onların tarixi varisliyinin təsbit olunması və cəmiyyətdə nüfuzunun artırılması üçün bu, çox vacib bir amil idi. Ulu öndər Azərbaycan ədliyyəsinin keçdiyi inkişaf yolunun və müsbət ənənələrinin öyrənilməsinə, təbliğinə və qorunub saxlanılmasına, gənc nəslin bu ənənələr ruhunda tərbiyə olunmasına xüsusi diqqət yetirirdi. Məhz 2000-ci il Sərəncamına əsasən Ədliyyə Nazirliyində Azərbaycan ədliyyəsinin Penitensiar tarix muzeyləri yaradıldı.

Dünyanın inkişaf tempi ilə ayaqlaşmağı bacaran və möhkəmlənən respublikamızın hüquq siyasətinin həyata keçirilməsində də prezident İlham Əliyev Ulu öndərin ənənələrini uğurla davam etdirir. Ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü və gündəlik qayğısı ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi işində keyfiyyətcə yeni mərhələ başlanmışdır.

**28 dekabr 2004-cü il tarixdə imzalanmış «Məhkəmə Hüquq Şurası haqqında» Qanuna görə Məhkəmə Hüquq Şurasının səlahiyyətləri daha da genişləndirildi ki, bunlara da hakim vəzifəsinə namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, hakimlərin Seçki Komitəsinin formalaşması və s. vəzifələr daxildir.**

Möhtərəm Prezidentimiz tərəfindən imzalanmış **«Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 19 yanvar 2006-cı il tarixli Fərmanına** əsasən isə vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, onların nara

zılığına səbəb olan sui-istifadə və süründürməçilik hallarının aradan qaldırılması məqsədi ilə regionlarda – Bakı, Sumqayıt, Şəki, Şirvan, Gəncə apellyasiya və yerli iqtisad məhkəmələri, habelə Naxçıvan Muxtar Respublikasında Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsi yaradıldı.

Artıq ölkəmizdə mütəmadi olaraq Avropa standartlarına uyğun, tam şəffaf şəraitdə hakimliyə namizəd hüquqşünasların seçimi və tədrisi həyata keçirilir, hakimlərin fəaliyyəti qiymətləndirilməklə ölkə Prezidentinin sərəncamları ilə hakim vəzifələrinə yeni təyinatlar edilir.

Keçmiş sovetlər birliyində Ədliyyə Nazirliyinin fəaliyyəti kölgədə qalmış, hətta nazirlik bir neçə dəfə ləğv edilmişdi. Nazirliyin yaradılması yalnız 1970-ci ildə – cənab Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra mümkün olmuşdu. Daha doğrusu, ədliyyə və məhkəmə sisteminin inkişafına xüsusi diqqət yetirdiyindən, Heydər Əliyev onun fəaliyyət mexanizmini tamamilə yenidən qurmuşdu.

Ulu öndərin yenidən Azərbaycanın birinci şəxsi kimi fəaliyyətə başladığı dövrdə apardığı məhkəmə-hüquq islahatları nəticəsində Ədliyyə Nazirliyinin fəaliyyəti daha da təkmilləşdirilərək, müasir tələblərə uyğunlaşdırıldı, qurumun funksiya və səlahiyyətləri genişləndirildi. Ulu öndərin apardığı məhkəmə-hüquq islahatına müvafiq olaraq ədliyyə fəaliyyəti ilə bağlı təkcə 2000-ci ildən sonra 25-dən çox qanuna, ölkə başçısının 50-dən çox fərmanına əsasən Ədliyyə Nazirliyinin üzərinə yeni vəzifələr qoyuldu. Nazirliyin tərkibində məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, istintaq təcridxanaları nazirliyin tərkibinə verildi. Ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlərin ibtidai istintaqının aparılması, bütün qeyri-tibbi məhkəmə ekspertizalarının həyata keçirilməsi də bu nazirliyə həvalə edildi. Azərbaycan Respublikası adından xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla hüquqi yardım və hüquqi sahədə əməkdaşlıq üzrə müqavilələrin bağlanması və onların icrasının təmin edilməsi, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi, o cümlədən ekstradisiya və digər məsələlərin həlli də nazirliyə tapşırıldı. Ölkəmizdə aparılan hərtərəfli islahatların səmərəli iqtisadi sistemin bərqərar olmasına gətirib çıxarması əhalinin hüquq və mənafelərinin daha etibarlı qorunması və onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi zərurətini yaradırdı.

Ölkədə həyata keçirilən mütərəqqi islahatlar nəticəsində yerli özünüidarəetmə – bələdiyyə institutu təsis edildi. 2700-dək bələdiyyə yaradılaraq, onların fəaliyyətinin təmin edilməsi məqsədilə zəruri normativ hüquqi baza yaradıldı. Heydər Əliyev 8 fevral 2000-ci il



tarixində bələdiyyələrin fəaliyyətinə kömək göstərilməsi məqsədilə daha bir sərəncam imzaladı. Sərəncama əsasən Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi təsis edildi və "Yerli özünüidarə orqanlarının normativ aktlarının bülleteni"nin dərcinə başlandı. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında qanunun tətbiq edilməsi ilə bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyə uyğun olmasına inzibati nəzarət Ədliyyə Nazirliyinə tapşırıldı.

Bu siyasətin davamı olaraq **cənab İlham Əliyevin 2006-cı il 18 aprel tarixində Ədliyyə Nazirliyinin fəaliyyətinin normativ-hüquqi əsaslarının təkmilləşdirilməsi məqsədi ilə imzaladığı Fərmanla «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə» təsdiq edildi.** May ayında isə dövlət başçımızın qanunvericilik təşəbbüsü əsasında Milli Məclis tərəfindən «Ədliyyə orqanlarında qulluqkeçmə haqqında» Qanun qəbul edildi. **2006-cı il avqustun 17-də isə Azərbaycan Respublikasının Prezidenti «Ədliyyə orqanlarının inkişafı haqqında» xüsusi Fərman imzaladı ki, bu da Azərbaycan ədliyyəsinin təkmilləşdirilməsində yeni mərhələ oldu.**

2000-ci ildə iqtisadi və hüquqi proseslərin tənzimlənməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı – Notariat və VVAQ orqanlarında da köklü dəyişikliklər və əsaslı tədbirlər həyata keçirildi. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə vətəndaşlıq vəziyyəti aktları qeydiyyatının səyyar aparılmasına imkan verən norma əlavə edildi. Azərbaycan vətəndaşlığı, məhkəmə işçiləri vəzifələrinə namizədlər, məhkəmə aidiyyəti məsələləri, xarici dövlətlərin məhkəmə qərarlarının icrası qaydası, andlı iclasçılar institutunun təsis edilməsi ölkə parlamentinin müzakirəsinə çıxarıldı. Həmçinin amnistiya, BMT, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa mühüm əhəmiyyət verildiyindən inkişaf etmiş ölkələrlə təcrübə mübadilələrinə xüsusi diqqət verildi.

Ölkə başçımız cənab İlham Əliyevin hüquq-mühafizə və ədliyyə orqanları qarşısına qoyduğu tələblərdən irəli gələn məsələlər bu gün də yüksək peşəkarlıqla həyata keçirilir.

# 1921-Cİ İLİN KONSTİTUSİYASI

**Bütün ölkələrin proletarları birləşin!**
**Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi**

**Konstitusiya**
**(Əsas Qanun)**

1921-ci il mayın 19-da, Ümumazərbaycan Sovetlər Qurultayının I çağırışında qəbul olunub

(1925-ci il martın 14-də Ümumazərbaycan Sovetlər Qurultayının IV çağırışında qəbul edilmiş əlavə və dəyişikliklərlə)

**Konstitusiya**

**Azərbaycan Sovet Sosialist Respublikası**

## I BÖLMƏ

### ASSR Konstitusiyasının ümumi müddəaları

### I FƏSİL

1. ASSR Konstitusiyasının hazırkı keçid mərhələsinə hesablanmış əsas vəzifəsi burjuaziyanın tam məhvi məqsədilə şəhər və kənd proletariatının və yoxsul kəndlilərin diktaturasının qüdrətli Sovet hakimiyyəti şəklində bərqərar edilməsi, insanın insanı istismarının aradan qaldırılması və sosializmin qurulmasıdır ki, orada nə siniflərə bölünmə, nə də dövlət hakimiyyəti olacaq.



2. Azərbaycan Respublikası bütün Azərbaycan zəhmətkeşlərinin azad sosialist cəmiyyətidir. ASSR hüdudlarında hakimiyyət ölkənin şəhər və kənd Sovetlərində birləşmiş bütün əməkçi əhaliyə məxsusdur.
3. ASSR ali hakimiyyəti Azərbaycan Sovetlər Qurultayına, qurultaylararası dövrdə isə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə məxsusdur.
4. Zəhmətkeşlərin həqiqi vicdan azadlığını təmin etmək məqsədilə kilsə dövlətdən, məktəb isə kilsədən ayrılır, dini və din əleyhinə təbliğat azadlığı isə bütün vətəndaşlar tərəfindən tanınır.
5. Zəhmətkeşlərin həqiqi fikir azadlığını təmin etmək məqsədilə mətbuatın kapitaldan asılılığını aradan qaldırır, qəzet, broşura, kitab və bütün digər çap məhsullarının nəşri üçün lazım olan texniki və maddi vəsaiti fəhlə sinfinin və yoxsul kəndlilərin ixtiyarına təqdim edir və onların bütün ölkə üzrə sərbəst yayılmasını təmin edir.
6. Zəhmətkeşlərin həqiqi sərbəst toplaşma azadlığını təmin etmək məqsədilə ASSR, Sovet Respublikasının vətəndaşlarının sərbəst toplantılar, mitinqlər, yürüşlər və s. təşkil etmək hüquqlarını tanıyaraq, xalq yığıncağı keçirilməsi üçün zəruri olan şəraiti, işıqlandırılmalı və qızdırılmalı olan bütün yerləri fəhlə sinfinin və yoxsul kəndlilərin ixtiyarına təqdim edir ???
7. Zəhmətkeşlərin həqiqi təşkilatlanmaq azadlığını təmin etmək məqsədilə ASSR varlı sinfin iqtisadi və siyasi hakimiyyətini dağıtmaq və bununla da burjua cəmiyyətində fəhlələrə və kəndlilərə təşkilatlanma və hərəkət azadlığından istifadə etməyə imkan verməyən maneələri aradan qaldırmaqla, fəhlələrə və yoxsul kəndlilərə onların birləşməsi və təkşilatlanması üçün hər cür – maddi və s. yardım göstərir.
8. Zəhmətkeşlərin həqiqi bilik əldə etmələrini təmin etmək məqsədilə ASSR öz qarşısına fəhlələrə, yoxsul kəndlilərə və bütün zəhmətkeşlərə tam və hərtərəfli pulsuz təhsil vermək vəzifəsini qoyur.
9. ASSR əməyi respublikanın bütün vətəndaşlarının borcu sayır və «İşləməyən dişləməz» şüarını elan edir.
10. Böyük Fəhlə-kəndli inqilabının nailiyyətlərinin hər cür qorunması məqsədilə ASSR sosialist vətəninin müdafiəsini respublikanın bütün vətənDaşlarının borcu hesab edir və ümumi hərbi mükəlləfiyyət təyin edir. İnqilabı silahla qorumaq

şərəfli hüququ yalnız zəhmətkeşlərə verilir; işləməyən ünsürlərə isə başqa hərbi borcların icrası həvalə olunur.

11. Bütün millətlərin zəhmətkeşlərinin həmrəyliyindən çıxış edərək, ASSR Azərbaycan Respublikası ərazisində yaşayıb əməklə məşğul olan və fəhlə sinfini təmsil edən və ya özgə əməyindən istifadə etməyən əcnəbi kəndlilərə Azərbaycan vətənDaşlarının bütün siyasi hüquqlarını təqdim edir və yerli Sovetlərə həmin əcnəbilərə heç bir formal çətinlik yaratmadan Azərbaycan vətəndaşlığı hüququnu təqdim etmək ixtiyarı verir.
12. ASSR siyasi və ya dini cinayətinə görə təqibə məruz qalan bütün əcnəbilərə sığınacaq hüququ təqdim edir.
13. ASSR dini, irqi və milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara eyni hüquqları tanıyır, bu əsasda hər hansı hüquq və ya imtiyazın müəyyən olunmasını və ya buna yol verilməsini, eyni zamanda, milli azlıqlara hər hansı şəkildə təzyiq olunmasını və ya onların bərabər hüquqlarının məhdudlaşdırılmasını respublikanın əsas qanunlarına zidd hesab edir.
14. Ümumilikdə fəhlə sinfinin və kəndlilərin maraqlarını əsas tutaraq, ASSR ayrı-ayrı fərdləri və qrupları sosialist inqilabının ziyanına istifadə etdikləri hüquqlardan məhrum edir.

## II HİSSƏ

## SOVET HAKİMİYYƏTİNİN QURULUŞU
## A. MƏRKƏZİ HAKİMİYYƏT TƏŞKİLATI

### II FƏSİL

### AZƏRBAYCAN SOVETLƏRİNİN QURULTAYI BARƏDƏ

15. Azərbaycan Sovetlərinin Qurultayı Azərbaycan Sovet Sosialist Respublikasının ali hakimiyyətidir.
16. Azərbaycan Sovetlərinin Qurultayı 1000 nəfər seçiciyə bir deputat hesabıyla bütün şəhər Sovetlərinin nümayəndələrindən və 5000 sakinə bir deputat hesabıyla bütün uezd Sovetlərinin Qurultaylarının nümayəndələrindən təşkil olunur.
17. Azərbaycan Sovetlərinin Qurultayı, Mərkəzi İcraiyyə Komitəsi tərəfindən, ildə iki dəfədən az olmayaraq çağırılır.



18. Azərbaycan Sovetlərinin Fövqəladə Qurultayı, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən, onun öz təşəbbüsüylə və ya respublikanın ümumi əhalisinin üçdə birini əhatə edən yerli Sovetlərin tələbilə çağırılır.
19. Azərbaycan Sovetlərinin Qurultayını 75 üzv və 25 namizəd sayından çox olmamaqla Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi seçir.
20. Azərb. MİK, Azərbaycan Sovetlərinin Qurultayı qarşısında bütünlükdə məsuliyyət daşıyır.
21. Qurultaylararası dövrdə Respublikada ali hakimiyyət Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə məxsusdur.

### III FƏSİL

### AZƏRBAYCAN MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİ HAQQINDA

22. Azərb. MİK, ASSR-in ali qanunverici, sərəncamverici və nəzarətedici orqanıdır.
23. Azərb. MİK, Fəhlə Kəndli Hökumətinin və ölkədəki bütün Sovet hakimiyyəti orqanlarının fəaliyyətinə ümumi istiqamətlər verir, qanunvericilik və idarəetmə üzrə işləri toplayıb razılaşdırır və Sovet konstitusiyasının və Azərbaycan Sovetləri Qurultayının və Sovet hakimiyyətinin Mərkəzi orqanlarının qərarlarının həyata keçirilməsinə nəzarət edir.
24. Azərb. MİK, Xalq Komissarları Sovetinin və ya ayrı-ayrı təsisatların təklif etdiyi dekretlərin və başqa təkliflərin layihələrini qiymətləndirir və təsdiq edir, eyni zamanda, öz dekretlərini və sərəncamlarını dərc etdirir.
25. Azərb. MİK, Azərbaycan Sovetləri Qurultayını çağırır və onun qarşısında öz fəaliyyətilə bağlı hesabat verir, ümumi siyasət və ayrı-ayrı məsələlər barədə məruzə edir.
26. Azərb. MİK, ASSR-in ümumi işlərini idarə etmək üçün Xalq Komissarları Sovetinin və idarəetmənin ayrı-ayrı sahələrinə rəhbərlik etmək üçün şöbələri (Xalq Komissarlıqlarını) təşkil edir.
27. Azərb. MİK üzvləri şöbələrdə (Xalq Komissarlıqlarında) çalışır və Azərb. MİK-in xüsusi tapşırıqlarını yerinə yetirirlər.
28. Azərb. MİK Rəyasət Heyəti hər iki aydan bir Azərb. MİK-in sessiya iclaslarını çağırır. Azərb. MİK-in fövqəladə iclasları

Rəyasət Heyətinin təşəbbüsü, Xalq Komissarı Sovetinin təklifi və ya Azərb. MİK üzvlərinin üçdə birinin tələbi ilə çağırılır.

## IV FƏSİL

## AZƏRB. MİK RƏYASƏT HEYƏTİ HAQQINDA

29. Azərb. MİK Rəyasət Heyəti:
   a) Azərb. MİK-in iclaslarına rəhbərlik edir və bu iclaslar üçün materiallar hazırlayır;
   b) dekret layihələrini Azərb. MİK Rəyasət Heyətinin müzakirəsinə təqdim edir;
   v) Azərb. MİK-in qərarlarının icrasına nəzarət edir;
   q) Azərb. MİK adından əlaqə yaradır;
   d) həm mərkəzdə, həm də yerlərdə ümumilikdə bütün işin təlimatı üzrə rəhbər mərkəzdir;
   e) əfv barədə ərizələrə baxır, ordenlərlə təltif olunmanı təsdiq edir və idarə qaydasında başqa məsələləri həll edir.
30. Azərb. MİK-in iclasları arasında Rəyasət Heyəti, Xalq Komissarı Sovetinin qərarlarını təsdiq etmək, eyni zamanda, onun qərarlarını dayandıraraq, onun həllini Azərb. MİK Rəyasət Heyətinin yaxın iclaslarına saxlamaq hüququna malikdir.
31. Azərb. MİK Rəyasət Heyəti, Xalq Komissarı Sovetinin təqdimatına əsasən ayrı-ayrı xalq komissarlarını, eyni zamanda, Xalq Komissarlığının Kollegiya üzvlərini təyin edir.

## V FƏSİL

## AZƏRBAYCAN SOVETLƏRİ QURULTAYININ VƏ AZƏRB. MİK-İN İDARƏETMƏ PREDMETLƏRİ HAQQINDA

32. Azərbaycan Sovetləri Qurultayının və Azərb. MİK-in sərəncamına ümumdövlət əhəmiyyətli bütün məsələlər aiddir, o cümlədən:
   a) ASSR Konstitusiyasının təsdiqi, əlavə və dəyişikliklərin edilməsi;
   b) ASSR-in bütün xarici və daxili siyasətinə ümumi rəhbərlik;



   v) sərhədlərin müəyyən olunması və dəyişdirilməsi, eləcə də ASSR ərazisinin və ya ona məxsus hüquqların özgəninkiləşdirilməsi;
   q) ASSR ərazisinin ümumi inzibati bölgüsü;
   d) Respublika ərazisində ölçü, çəki və pul vahidləri sisteminin müəyyən olunması və dəyişdirilməsi;
   e) xarici ölkələrlə əlaqələr, müharibə elan olunması və sülh bağlanması;
   j) borcların, gömrük və ticarət sazişlərinin, eləcə də maliyyə razılaşmalarının bağlanması;
   z) Respublika ərazisində bütün xalq təsərrüfatının və ya onun ayrı-ayrı sahələrinin ümumi planının əsaslarının müəyyən olunması;
   i) büdcənin təsdiqi;
   k) ümumdövlət vergilərinin və mükəlləfiyyətlərin müəyyən olunması;
   l) hərbi qüvvələrin təşkilinin əsaslarının müəyyən olunması,
   m) ümumdövlət qanunvericiliyi, məhkəmə quruluşunu, mülki və cinayət qanunvericilyi və s
   n) istər Xalq Komissarı Sovetinin ayrı-ayrı üzvlərinin, istərsə də bütövlükdə Xalq Komissarı Sovetinin təyini və kənarlaşdırılması;
   o) Azərbaycan vətəndaşlığı hüququnun qazanılması və itirilməsi və respublika ərazisində əcnəbilərin hüquqları barədə ümumi qərarların dərci,
   p) ümumi və natamam amnistiya hüququ

   Yuxarıda qeyd olunan məsələlərdən başqa, Azərbaycan Sovetləri Qurultayı və Azərb. MİK öz sərəncamında hesab etdikləri bütün məsələlər onların ixtiyarındadır.
33. Yalnız Azərbaycan Sovetlərinin Qurultayının sərəncamındadır:
   a) Sovet Konstitusiyasının əsas mənbələrinin müəyyən olunması, ona əlavə və dəyişikliklərin edilməsi;
   b) sülh danışıqlarının ratifikasiyası.
34. Yalnız Azərbaycan Sovetləri Qurultayını çağırmaq mümkün olmadıqda, 32-ci maddənin «v» və «e» bəndlərində göstərilən məsələlərin həlli Azərb. MİK-ə həvalə olunur.

## VI FƏSİL

## XALQ KOMİSSARI SOVETİ HAQQINDA

35. Xalq Komissarları Soveti ASSR-in işlərini ümumilikdə idarə edir.
36. Bu vəzifəni yerinə yetirmək üçün Xalq Komissarları Soveti dekretlər, sərəncamlar, təlimatlar nəşr etdirir və ümumiyyətlə, dövlət həyatının düzgün və sürətlə aparılması üçün lazım olan bütün tədbirləri görür.
37. Xalq Komissarı Soveti özünün bütün qətnamələri və qərarları barədə təxirəsalınmadan Azərb. MİK-ə məlumat verir.
38. Azərb. MİK Xalq Komissarları Sovetinin istənilən qətnamə və ya qərarını ləğv edə və ya dayandıra bilər.
39. Xalq Komissarları Sovetinin böyük ictimai-siyasi əhəmiyyət daşıyan bütün qətnamə və qərarları Azərb. MİK-in müzakirəsinə və təsdiqinə təqdim olunur.

   Qeyd. Təxirəsalınmadan icrası tələb olunan tədbirləri Xalq Komissarları Sovetinin bilavasitə həyata keçirə bilər.
40. Xalq Komissarları Sovetinin üzvləri ayrı-ayrı Xalq Komissarlıqlarına rəhbərlik edirlər.
41. 17 Xalq Komissarlığı təşkil olunur.

   a) Xarici işlər üzrə, b) Hərbi və Dəniz məsələləri üzrə, v) Daxili İşlər üzrə, q) Ədliyyə, d) Əmək, e) Sosial Təminat, j) Maarif, z) Poçt və Teleqraf, i) Maliyyə, к) Məlumat üsulları, l) Torpaqşünaslıq, m) Xarici ticarət, n) Ərzaq, o) Xalq Təsərrüfatı Soveti, p) Səhiyyə, r) Fəhlə-kəndli təftişi, s) Neft Komissarlığı.
42. Hər xalq komissarı yanında onun sədrliyi ilə üzvlərinin iştirakı ilə Xalq Komissarları Soveti tərəfindən kollegiya təyin olunur və Azərb. MİK tərəfindən təsdiqlənir.
43. Xalq komissarı müvafiq Xalq Komissarlığının həvaləsində olan məsələlərlə bağlı təkbaşına qərar qəbul etmək və bu barədə kollegiyanı xəbərdar etmək hüququna malikdir. Komissarın bu və digər qərarı ilə razılaşmayacağı təqdirdə kollegiya qərarı dayandırmadan ondan Xalq Komissarları Sovetinə və ya Azərb. MİK-ə şikayət edə bilər. Bu şikayət hüququ həm də Kollegiyanın ayrı-ayrı üzvlərinə məxsusdur.
44. Xalq Komissarı Soveti bütünlükdə Azərbaycan Sovetləri Qurultayının və Azərb. MİK-in qarşısında məsuliyyət daşıyır.



45. Xalq komissarları və Xalq Komissarlıqları yanında Kollegiyalar bütünlükdə Azərbaycan Sovetləri Qurultayının və Azərb. MİK-in qarşısında məsuliyyət daşıyır.
46. Xalq Komissarlıqları özlərinin aidiyyatı olan sərəncamlarını bilavasitə əlaqə saxlamaq hüquqları olan müvafiq Uezd Şöbələrinə və sahə üzrə İcraiyyə Komitələrinə verirlər, xüsusi əhəmiyyət daşıyan sərəncamlar barədə eyni vaxtda müvafiq İcraiyyə Komitəsinə, həmçinin bu sərəncamların düzgün və vaxtında icrasına nəzarət edən aralıq İcraiyyə Komitələrinə məlumat verirlər.

## VII FƏSİL
## YERLİ HAKİMİYYƏT TƏŞKİLATLARI

47. Sovetlər Qurultayı aşağıdakı qaydada təşkil olunur.

   a) uezdlərdə – uezdin məntəqə Qurultayında seçilən Kənd Sovetlərinin nümayəndələrindən və uezdin Soveti olmayan şəhərlərinin nümayəndələrindən – kənd Sovetlərindən 500 nəfər sakinə bir deputat olmaqla, şəhər Sovetlərindən, kənddən kənarda yerləşən fabrik-zavod qəsəbələrindən və Soveti olmayan şəhərlərin nümayəndələrindən – 100 nəfər seçiciyə bir deputat olmaqla, ancaq bütövlükdə uezd üçün 300 nəfər deputatdan çox olmamaqla.

   b) sahənin bütün kənd Sovetlərinin nümayəndələrindən – hər 10 nəfər Sovet üzvünə 1 deputat olmaqla.

   *Qeyd 1*: Əhalinin 500 nəfərdən az olmadığı yerlərin kənd Sovetləri uezd Qurultayına deputat seçmək üçün birləşirlər.

   *Qeyd 2*: Üzvlərinin sayı 10 nəfərdən az olan kənd Sovetləri uezd Qurultayına hərəsi 1 nəfər nümayəndə göndərə bilər.

   *Qeyd 3*. İdarəetmə məsələləri 52-ci maddənin «v» bəndinə uyğun olaraq seçicilərin ümumi yığıncaqlarında həll olunan məskunlaşma məntəqələrində, fabrik və zavodlarda Sovetlər Qurultayına deputatlar elə həmin yığıncaqlarda seçilir.

   *Qeyd 4*. Soveti olmayan şəhərlərdən Qurultaya deputat seçkiləri şəhər Sovetlərinə keçirilən seçkilərin qaydasıyla keçirilir.
48. Sovetlər Qurultayı müvafiq olaraq Sovet hakimiyyətinin ərazi üzrə icraiyyə orqanları (uezd və məntəqə üzrə icraiyyə orqanları) tərəfindən sonuncunun rəyi və ya həmin rayon üzrə əhalinin üçdə birini əhatə edən yerli Sovetlərin tələbi ilə hər bir

halda həm uezdlər, həm də məntəqələr üzrə 6 ayda bir dəfədən az olmayaraq çağırılır.

49. Sovetlərin Qurultayı (məntəqə və uezd üzrə) 6 aydan çox olmayan müddətə öz icraçı orqanını – İcraiyyə Komitəsini seçir, onun uzvlərinin sayı uezdlərdə 15-21, məntəqələrdə isə 5 nəfəri keçməməlidir. İcraiyyə Komitəsi bütünlükdə onu seçən Sovetlər Qurultayı qarşısında məsuliyyət daşıyır.

50. Öz idarəetmə hüdudlarında Sovetlər Qurultayı (uezd və məntəqə üzrə) həmin ərazi daxilində ali hakimiyyətdir, qurultaylararası dövrdə isə bu hakimiyyət Sovetlər Qurultayının İcraiyyə Komitəsidir.

## VIII FƏSİL
## DEPUTAT SOVETİ

51. Fəhlə, Kəndli, Əsgər və Dənizçilər Şuraları təşkil olunur:
a) Şəhər Sovetləri – Bakı şəhərində (onun rayonlarıyla birgə) və Azərbaycan Sovet Sosialist Respublikasının əhalisinin böyük hissəsini fəhlələr təşkil edən başqa şəhərlərində - ümumi əhalisinin sayı 10 min nəfərdən az olmayan həmin şəhərlərdə hər 500 nəfərə 1 deputat olmaqla, yalnız deputatların sayı 50 nəfərdən az, 800 nəfərdən çox olmamaqla.
b) Kənd Sovetləri – sakinlərinin sayı 300 nəfərdən az olmayan kəndlərdə (kiçik və böyük kəndlərdə, aul və gecəqondularda), əhalinin hər 25 nəfərinə 1 deputat olmaqla, yalnız hər kəndə 50 deputatdan çox olmamaqla.
*Qeyd* 1: Bu maddənin a) bəndinə uyğun gəlməyən şəhərlərdə Sovetlər təşkil olunmur; həmin şəhərlərdə hakimiyyət müvafiq olaraq Uezd Sovetlərinin Qurultayı və Uezd İcraiyyə Komitəsinə məxsusdur.
*Qeyd 2*: Şəhər Sovetlərinin təşkil olunduğu şəhərlərin siyahısı Azərb. MİK tərəfindən Daxili İşlər üzrə Xalq Komissarlığının təqdimatı əsasında təsdiq olunur.
*Qeyd* 3: Bir-birinə yaxın yerləşmiş bir neçə qəsəbədən ibarət olan kəndlərdə bir Kənd Soveti təşkil olunur.

52. Sakinlərinin sayı 300 nəfərdən az olan kəndlərdə ayrıca Kənd Sovetləri təşkil olunmur. Bu cür kəndlərin zəhmətkeşləri öz idarəetmə hüquqlarını gerçəkləşdirirlər:
a) müstəqil Sovet seçmək hüququ olan qonşu kəndin Kənd Sovetinin seçkilərində iştirak etməklə və ya
b) qonşu kəndlərlə birləşərək bu yaşayış məntəqələrinin hamısı üçün ümumi Kənd Soveti seçməklə və ya
v) seçicilərin ümumi iclaslarında idarətemə məsələlərini həll etməklə.

53. Sovet Təsərrüfatları və kənddən kənarda yerləşən fabriklər ayrıca kəndlər kimi nəzərdə tutulur və onların əhalisi Konstitusiyanın 51 və 52-ci maddələrində göstərildiyi kimi, ümumi əsaslarla Kənd Soveti seçkilərində iştirak edir.

54. Deputatlar Soveti 6 ay müddətinə seçilir.

55. Deputatlar Sovetinin öz içərisindən carı işi üçün kəndlərdə 3 nəfər, Bakıda, onun rayonlarıyla birgə 40 nəfər olmaqla, 6 aydan çox olmayan müddətə icraçı orqanı – İcraiyyə Komitəsi Sovetini seçir. Başqa şəhərlərin Şəhər Sovetləri ayrıca İcraiyyə Komitəsi seçmirlər. Bu Sovetlərin icraçı orqanı Uezd İcraiyyə Komitəsi və onun Şöbələri, Rəyasət Heyəti isə Uezd Sovetləri Qurultayının Rəyasət Heyətidir.

56. İdarəetmə məsələləri seçicilərin ümumi iclaslarında həll olunan kənddən kənarda yerləşən fabrik və zavodlarda və Sovet Təsərrüfatlarında, yığıncaq, 6 aydan çox olmayan müddətə 3 nəfərdən ibarət Rəyasət Heyətini seçir, bu Rəyasət Heyəti həm də icraçı orqandır.

57. Sovetlərin İcraiyyə Komitəsi (56-cı maddədə göstərildiyi kimi – Ümumi yığıncağın Rəyasət Heyəti) bütünlükdə Sovetin işi və Sovet Hakimiyyəti orqanlarının qərarlarının icrası üçün onu seçən Sovet və ya seçicilərin ümumi yığıncağı və Sovet hakimiyyətinin ali orqanı qarşısında məsuliyyət daşıyır.

58. Deputatlar Soveti, İcraiyyə Komitəsi tərəfindən sonuncunun qərarı ilə və ya Sovet üzvlərinin üçdə birinin tələbilə, şəhərlərdə və kəndlərdə, ayda 2 dəfədən az olmayaraq çağırılır.

59. Sovet, Konstitusiyanın 52-ci maddəsinin v bəndində nəzərdə tutulduğu halda isə, seçicilərin ümumi yığıncağı öz idarəetmə hüdudları çərçivəsində, həmin ərazi hüdudlarında qərarları həmin yerin bütün əhalisi üçün məcburi olan ali hakimiyyətdir.

60. Sovetlərin bütün üzvləri öz seçiciləri qarşısında, ayda iki dəfədən az olmayaraq hesabat verməyə borcludurlar.

## IX FƏSİL
## İCRAİYYƏ KOMİTƏLƏRİ HAQQINDA

61. İcraiyyə Komitələri bütövlükdə onları seçən Sovet Hakimiyyəti orqanı qarşısında (Sovet, Sovetlər Qurultayı) məsuliyyət daşıyır və yuxarı orqanlar olan İcraiyyə Komitəsi, Xalq Komissarları Soveti və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə tabedir.
62. Uezd Sovetləri Qurultayları arasındakı dövrlərdə Uezd İcraiyyə Komitəsi öz fəaliyyətində uezdə daxil olan şəhərin şəhər Sovetini rəhbər tutur, sonuncunun nəzarətində olur və bu mərhələdə Uezd İcraiyyə Komitəsi qarşısında məruzə edir və ona hesabat verir.
63. Bakı şəhər Sovetinin İcraiyyə Komitəsi, Uezd və Məntəqə İcraiyyə Komitələri yerli hakimiyyətin ixtiyarında olan bütün işlərin yerinə yetirilməsi və onu seçən Sovet Hakimiyyəti orqanlarının (Sovetlərin, Sovetlər Qurultayının), yuxarı orqanların - İcraiyyə Komitələrinin və Mərkəzi Hakimiyyətin qərarlarının həyata keçirilməsi üçün Şöbələr təşkil edir. Kənd Sovetləri İcraiyyə Komitələri yanında Şöbələr yaradılmır.
64. Bakı şəhər Sovetinin İcraiyyə Komitəsi yanında Şöbələr, Plenumun sanksiyası ilə təşkil olunur.
65. Uezd İcraiyyə Komitəsi yanında aşağıdakı şöbələr formalaşır:
   1) İdarəetmə, 2) Hərbi, 3) Torpaq, 4) Ərzaq, 5) Maliyyə, 6) Xalq Maarifi, 7) Əmək, 8) Sosial Təminat, 9) Səhiyyə, 10) Fəhlə-Kəndli Təftişi, 11) Xalq Təsərrüfatı Soveti, 12) Kommunal, 13) Ədliyyə.
66. Məntəqə İcraiyyə Komitəsi yanında aşağıdakı şöbələr formalaşır:
   1) İdarəetmə, 2) Hərbi, 3) Torpaq, 4) Xalq Təsərrüfatı və 5) Ərzaq.
   *Qeyd*: Məntəqə İcraiyyə Komitəsinin İdarəetmə Şöbəsinə, barəsindəki əsasnamənin müəyyən etdiyi vəzifələrdən başqa məntəqə yanında İcraiyyə Komitələrinin Şöbələrinin səlahiyyətinə daxil olmayan bütün işlər həvalə olunur.
67. Mövcud Şöbələrin bağlanması və yenilərinin yaradılması Uezd və ya Məntəqə İcraiyyə Komitəsi tərəfindən Xalq Komissarlığı ilə müvafiq razılaşmaya əsasən və Azərb. MİK-in razılığı ilə həyata keçirilir.



68. Öz şöbələrinə bilavasitə rəhbərlik və bu şöbələrin bütün işlərinə nəzarət üçün, eyni zamanda, aşağı İcraiyyə Komitələrinin, Uezd İcraiyyə Komitələrinin və Bakı şəhər İcraiyyə Komitəsi öz içərisindən Rəyasət Heyəti seçir: Uezdlərdə 3-5, Bakıda 7-10 üzv, onlardan biri sədr, biri sədrin müavini və biri isə katibdir.
69. İcraiyyə Komitəsinin üzvləri öz aralarında cari işlərin idarəedilməsi və şöbələrə rəhbərliklə bağlı vəzifələri bölüşürlər. Yeni seçkilərə qədər İcraiyyə Komitəsi üzvlərinin İcraiyyə Komitəsinin icazəsi olmadan öz vəzifələrini tərk etmək hüquqları yoxdur.
   *Qeyd* 1: Məntəqə İcraiyyə Komitəsinin sədri, eyni zamanda, İdarəetmə Şöbəsinin rəhbəridir.
   *Qeyd* 2: İcraiyyə Komitəsi iclaslarda məşvərətçi səs hüququ ilə şöbələrə rəhbərlik üçün İcraiyyə Komitəsinin tərkibinə daxil olmayan şəxsi seçə bilər, eyni zamanda, müvafiq xalq komissarı şöbəyə rəhbərlik edən şəxsə etiraz etmək hüququna malikdir. Uezd İcraiyyə Komitəsinin şöbələrinin rəhbərlərinə etirazla bağlı fikir ayrılıqları Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən həll olunur.
70. Şöbələrin fəaliyyətinə, Mərkəzi Hakimiyyətin və yuxarı İcraiyyə Komitələrinin sərəncamlarının dəqiq və vaxtlı-vaxtında yerinə yetirilməsinə görə məsuliyyət istər şöbə rəhbərinin, istərsə də ümumilikdə icraiyyə komitələrinin üzərinə düşür.
71. Şöbələrin həm prinsipial, həm də praktik cəhətdən əhəmiyyət daşıyan bütün böyük tədbirləri də şöbələrin büdcələri kimi (onların Mərkəzə təqdim olunmasına qədər) şöbələr tərəfindən icraiyyə komitələrinin təsdiqinə təqdim olunmalıdır.
72. İcraiyyə komitələrinin şöbələri yerli İcraiyyə Komitələrinə tabedirlər və sonuncunun, habelə yuxarı İcraiyyə Komitəsinin müvafiqşŞöbəsinin və müvafiq Xalq Komissarlığının bütün əmr sərəncamlarını icra etməyə borcludurlar.
73. İcraiyyə Komitəsinin şöbəsi hər hansı səbəbdən Xalq Komissarlığının və ya yuxarı İcraiyyə Komitəsinin və ya onun şöbəsinin sərəncamının həyata keçirilməsini mümkünsüz hesab edərsə, dərhal öz İcraiyyə Komitəsini və ya onun Rəyasət Heyətini bundan məlumatlandırmalıdır. İcraiyyə Komitəsi və ya onun Rəyasət Heyəti də həmin sərəncamın həyata keçirilməsini dayandırmadan onun təxirə salınmasının zəruriliyi barədə mülahizələrini təqdim edir: məntəqə üzrə -

Uezd İcraiyyə Komitəsinə, uezd üzrə – Xalq KomisSarları Sovetinə və ya Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə.

74 Xalq Komissarlıqları və yuxarı İcraiyyə Komitələrinin Şöbələri aşağı İcraiyyə Komitələrinin müvafiq Şöbələrinə aidiyyatı olan sərəncamları verirlər, eyni zamanda:

a) onlar mühüm əhəmiyyət daşıyan bütün sərəncamlar barədə, eyni zamanda, İcraiyyə Komitəsinə məlumat verirlər, İcraiyyə Komitəsi təlimatların düzgün və vaxtında həyata keçirilməsinə nəzarət edir.

b) aradakı instansiyalarını adlayaraq aşağı hakimiyyət orqanı ilə əlaqə yaratdıqları halda, onlar eyni vaxtda həmin aralıq instansiyaları məlumatlandırmağa borcludurlar.

75 İcraiyyə Komitələri və onların Şöbələri yuxarı İcraiyyə Komitələri və onların Şöbələri ilə, eləcə də müvafiq aralıq instansiyalar vasitəsilə Xalq Komissarlığı ilə əlaqə yaradır, yalnız yuxarı orqanlarla əlaqə yaratmaq zəruri olanda yalnız onları xəbərdar etməklə aralıq instansiyaları keçərək, bilavasitə yuxarı orqanlarla əlaqə yaratmaq hüququna malikdirlər.

76 Yerli İcraiyyə Komitələrinin birləşməsinə Sovet Hakimiyyətinin onları seçən yerli orqanlarının Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin hər biri üçün ayrı-ayrılıqda təsdiqi ilə yol verilir.

## X FƏSİL
## YERLƏRDƏ SOVET HAKİMİYYƏTİ ORQANLARININ İDARƏETMƏ PREDMETİ BARƏDƏ

77. Sovet Hakimiyyətinin yerli orqanlarının, uezd və məntəqə Sovetləri Qurultayının, habelə şəhər və kənd Deputatlar Sovetlərinin fəaliyyətinin predmetləri aşağıdakılardır:

a) Mərkəzin və Sovet Hakimiyyətinin müvafiq ali hakimiyyət orqanlarının bütün qərarlarının həyata keçirilməsi,

b) sözügedən ərazinin və onun əhalisinin mədəni münasibətlərinin və təsərrüfat münasibətlərinin yüksəlməsinə yönələn bütün ölçülərin götürülməsi,

v) sırf yerli əhəmiyyət daşıyan (həmin ərazi üçün) bütün məsələlərin həlli,

q) həmin ərazi hüdudlarında bütün Sovet fəaliyyətinin birləşdirilməsi.



*Qeyd:* Sovet Hakimiyyətinin hər bir yerli orqanının idarəetmə predmeti Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin təsdiq etdiyi xüsusi Əsasnamələrdə müfəssəl şərh edilir.

78. Sovetlər Qurultayı və onların İcraiyyə Komitələri yerli Sovetlərin işinə (uezd üzrə – bütün uezd Sovetinin, məntəqə üzrə – bütün məntəqə Sovetlərinin fəaliyyətinə) nəzarət hüququna malikdirlər, uezd Sovetlərinə və onların İcraiyyə Komitələrinə – bundan əlavə, zəruri hallarda Mərkəzi Sovet Hakimiyyətinə bildirməklə onların uezd Sovetlərində mövcud olan qərarların ləğvi hüququ da verilir.

*Qeyd:* Şəhər Sovetlərinin fəaliyyətinə İcraiyyə Komitələri deyil, uezd Qurultayları nəzarət edir.

## III BÖLMƏ
## SOVET HAKİMİYYƏTİ ORQANLARINA SEÇKİLƏR HAQQINDA

## XI FƏSİL
## AKTİV VƏ PASSİV SEÇİCİ HÜQUQU

79. Dini və milli mənsubiyyətindən, oturaq həyat sürüb-sürməməsindən və s. asılı olmayaraq, Azərbaycan Sovet Sosialist Respublikasının seçki gününədək 18 yaşına çatmış hər iki cinsdən olan bütün vətəndaşları Sovetlərə və onların Qurultayına seçmək və seçilmək hüququna malikdirlər:

a) istehsal həyatı və ictimai faydalı əmək vasitələri, o cümlədən birincilər üçün istehsalkçı əmək şəraitini təmin edən ev təsərrüfatı ilə məşğul olan şəxslər, məsələn sənaye, ticarət, kənd təsərrüfatı və s. ilə məşğul olan bütün növ və kateqoriyalardan olan fəhlələr, kəndlilər və gəlir götürmək məqsədi ilə muzdlu əməkdən istifadə etməyən əkinçilər,

b) Sovet Ordusunun və Donanmasının əsgərləri,

v) hər hansı səbəbdən əmək qabiliyyətini itirmiş bu maddənin a) və b) bəndlərində sadalanan kateqoriyalara aid olan vətəndaşlar.

*Qeyd 1:* Mərkəzi Hakimiyyətin təsdiqi ilə Yerli Sovetlər bu maddədə göstərilən yaş həddini aşağı sala bilərlər.

*Qeyd 2:* Azərbaycan vətəndaşlarının sırasına daxil olmayan şəxslərdən Konstitusiyanın II maddəsində göstərilən şəxslər aktiv və passiv seçki hüququna malikdirlər.

80. Bundan əvvəlki (79-cu) maddədə sadalanan kateqoriyalara daxil olsalar belə, seçmirlər və seçilmirlər:
a) gəlir götürmək məqsədi ilə muzdlu əməyə müraciət edən şəxslər,
b) əmək gəlirləri hesabına yaşamayan, hər hansı yolla: kapitaldan gələn faiz, müəssisələrdən gələn gəlir, mülkiyyət varidatı əsasında yaşayan şəxslər,
v) fərdi ticarətçilər, ticarət və kommersiya vasitəçiləri,
q) rahiblər və kilsənin və dini kultların qulluqçuları,
d) keçmiş polis işçiləri və casusları, xüsusi jandarma korpusunun və mühafizə şöbələrinin işçiləri, o cümlədən, çar dinastiyasının üzvləri,
e) müəyyən olunmuş qaydada ruhi xəstə hesab olunanlar və əqli cəhətdən zəif inkişaf etmiş şəxslər, həmçinin himayə altında olan şəxslər,
j) qanunla və ya məhkəmə hökmüylə müəyyən olunmuş qaydada tamahkarlıq və ağır cinayət üstündə cəza çəkən məhkumlar

## XII FƏSİL
## SEÇKİLƏRİN KEÇİRİLMƏSİ BARƏDƏ

81. Seçkilər yerli Sovetlərin müəyyən etdiyi günlərdə keçirilir.
82. Seçkilər seçki komissiyasının və yerli Sovet nümayəndəsinin iştirakıyla keçirilir.
83. Mərkəzi Hakimiyyət nümayəndəsinin iştirakı texniki cəhətdən mümkünsüz olduğu hallarda onu Seçki Komissiyasının sədri, onun da olmadığı təqdirdə Seçki Yığıncağının sədri əvəz edir.
84. Seçkilərin gedişi və nəticələri barədə protokol Seçki komissiyalarının üzvlərinin və Sovet sədrinin imzasıyla tərtib olunur.
85. Seçkilərin keçirilməsi ilə bağlı müfəssəl protokol, habelə seçkilərdə peşəkarların və başqa fəhlə təşkilatlarının iştirakı yerli Sovetlər tərəfindən, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin təlimatlarına əsasən müəyyən olunur.



## XIII FƏSİL
## SEÇKİLƏRİN YOXLANMASI VƏ DEPUTATLARIN ÇAĞIRILMASI BARƏDƏ

86. Seçkilərin keçirilməsi barədə bütün material müvafiq Sovetə daxil olur.
87. Sovet seçkilərin yoxlanması üçün Mandat Komissiyası təyin edir.
88. Mandat Komissiyası yoxlamanın nəticələri ilə bağlı Sovetə məruzə edir.
89. Sovet mübahisəli namizədin təsdiqlənməsi ilə bağlı məsələləri həll edir.
90. Bu və ya digər namizədin təsdiqlənmədiyi halda Sovet yeni seçkilər təyin edir.
91. Ümumilikdə seçkilərin düzgün keçirilmədiyi halda seçkilərin ləğv olunması barədə məsələ yuxarı ardıcıllıqla Sovet Hakimiyyəti orqanı tərəfindən həll olunur.
92. Sovet seçkilərindən kassasiya üzrə son instansiya Azərbaycan Mərkəzi İcraiyyə Komitəsidir.
93. Sovetə deputat göndərən seçicilər hər zaman onu geri çağırmaq hüququna malikdirlər, yeni seçkilər ümumi Əsasnaməyə müvafiq olaraq həyata keçirilir.

# IV HİSSƏ
# BÜDCƏ HÜQUQU

## XIV FƏSİL

94. ASSR-in maliyyə siyasəti zəhmətkeşlər diktaturasına hazırkı keçid şəraitində əsas məqsədə – burjuaziyanın mülkiyyətinin əlindən alınması və istehsal sahəsində respublika vətəndaşlarının ümumi bərabərliyi və sərvətlərin bölünməsi üçün şəraitin yaradılmasına xidmət edir. Bu məqsədlə ASSR, Sovet Respublikasının ümumdövlət və yerli ehtiyacların təmin olunması üçün, şəxsi mülkiyyət hüququna müdaxilə qarşısında dayanmadan bütün zəruri vəsaiti Sovet Hakimiyyəti orqanlarının sərəncamına təqdim edir.
95. Azərbaycan Sovet Sosialist Respublikasının bütün - həm ümumdövlət, həm də yerli gəlir və məsrəfləri ümumdövlət büdcəsində cəmlənir.

96 Azərbaycan Sovetlər Qurultayı və ya Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi vergilərin formalarını, əndazələrini və qaydalarını təyin edir.

97 Bütün - həm ümumdövlət, həm də yerli gəlirlər dövlət xəzinəsinə və ümumdövlət fonduna daxil olur.

98 Dövlət xəzinəsindəki vəsaitlərdən heç bir məsrəf dövlət gəlirləri və məsrəfləri barədə siyahı üzrə kredit təqdim olunmadan və ya Mərkəzi Hakimiyyətin xüsusi qərarının dərci yolu ilə xərclənə bilməz.

99 Həm ümumdövlət, həm də yerli ehtiyacların təmin olunması üçün yerli Sovetlərin sərəncamına dövlət xəzinəsindən Xalq Komissarlıqlarına aid olan zəruri kreditlər təqdim olunur.

100 Sovetlərə dövlət xəzinəsi vəsaitlərindən təqdim olunan kreditlər smeta bölmələri (paraqaflar və məqalələr) çərçivəsində birbaşa təyinatı üzrə xərclənir və onlardan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin xüsusi qərarı olmadan hər hansı ehtiyacın ödənməsi üçün istifadə oluna bilməz.

101 Yerli Sovetlər həm ümumidövlət, həm də yerli və gəlir və məsrəflərin yarımillik və illik smetasını tərtib edir. Şəhər və uezd İcraiyyə Komitələrinin smetasını Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti təsdiq edir, kənd və şəhər Sovetlərinin smetası müvafiq uezd Sovetləri Qurultayları və onların İcraiyyə Komitələri tərəfindən təsdiq olunur.

102 Smetada nəzərdə tutulmayan məsrəflər üçün, o cümlədən smeta təyinatlarının çatışmazlığı halında Sovetlər aidiyyatı olan Xalq Komissarlığından əlavə kreditlər istəyə bilərlər.

## V HİSSƏ

## AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ GERBİ VƏ BAYRAĞI HAQQINDA

## XV FƏSİL

103 ASSR-in gerbi qırmızı fonda günəşin şüalarında, çarpazlaşdırılmış, aşağı tərəfdən dəstəyi olan qızıl oraq və çəkicdən, sünbül çələngi ilə əhatə olumuş beşguşəli ulduzla ayparadan ibarətdir, üzərində aşağıdakı yazılar vardır:

a) Azərbaycan Sovet Sosialist Respublikası və

b) Bütün ölkələrin proletarları, birləşin!



104. ASSR-in ticarət, dəniz və hərbi bayrağı qırmızı (al) qumaşdan ibarətdir, taxtanın yuxarısındakı sol küncündə, yaşıl fonda qızıl hərflərlə ASSR və Azərbaycan Sovet Sosialist Respublikası yazısı yerləşdirilib.

Azərb. MİK-in Rəyasət Heyəti üzvləri:

1. Hacıyev Muxtar – sədr
2. Ağamalı oğlu Səməd Ağa – sədr müavini
3. Hüseynov Teymur – katib
4. Qasımov Mir Bəşir – üzv
5. Nərimanov Nəriman – üzv
6. Qarayev Əli Heydər – üzv
7. Pleşakov M. – üzv
8. Konuşkin İ. – üzv
9. Şahbazov Tağı – üzv

1. Andreyev – namizəd
2. Məmmədyarov M. – namizəd
3. Fətəlizadə Sumbat – namizəd

*Azərbaycan Sovet Sosialist Respublikasının ASSR Konstitusiyasına Azərb. MİK-ın 8 dekabr 1924-cu il tarixdə keçirilən 3-cü sessiyasında qəbul edilən və Umumazərbaycan Sovetlər Qurultayının IV çağırışında təsdiq olunan əlavə və dəyişikliklər*

14 mart 1925-ci il

1. ASSR Konstitusiyasına aşağıdakı dəyişikliklər və əlavələri etməli:

2-ci maddəyə *qeyd*: ASSR-in tərkibinə Dağlıq Qarabağ və Naxçıvan SSR muxtar vilayətləri daxildirlər.

2. ASSR Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının Zaqafqaziya Sosialist Federativ Respublikasının konstitusiyasında təfsir olunmuş əsaslarda Gürcüstan Sovet Sosialist Respublikası və Ermənistan Sovet Sosialist Respublikası ilə birləşərək, onun vasitəsi ilə Sovet Sosialist Respublikaları İttifaqına daxil olur və vahid Beynəlxalq Sovet Sosialist Respublikasının yaranması üçün əlverişli şərait yaranan kimi onun tərkibinə daxil olmaq üçün hazır olduğunu bəyan edir.

ASSR suveren dövlətdir.

Bu suverenlik yalnız SSRİ-nin Əsas Qanunundakı və ZSFSR Konstitusiyasında göstərilən hüdudlarla və yalnız bu dövlət təşkilatlarının səlahiyyətinə daxil olan predmetlərlə məhdudlaşır.

2. ASSR vətəndaşları respublika vətəndaşlıqlarını saxlamaqla, SSRİ vətəndaşları hesab olunurlar.

Maddə 17. Azərbaycan Sovetlər Qurultayı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən ildə bir dəfə çağırılır.

Maddə 19. Azərbaycan Sovetlər Qurultayı 135 üzv və 50 nəfər üzvlüyə namizəd olmaqla Mərkəzi İcraiyyə Komitəsini seçir.

Maddə 28. Azərb. MİK üç ayda bir dəfədən az olmamaqla Azərb. MİK-in Rəyasət Heyəti tərəfindən çağırılır. Azərb. MİK-in fövqəladə iclasları Rəyasət Heyətinin təşəbbüsü, Xalq Komissarları Sovetinin təklifi və ya Azərb. MİK üzvlərinin üçdə birinin tələbi ilə çağırılır.

Maddə 30. Azərb. MİK sessiyaları arasında MİK Rəyasət Heyəti ASSR-in ali qanunverici, icraedici və sərəncamçı orqanıdır.

Rəyasət Heyəti istər Xalq Komissarları Sovetinin qərarlarını təsdiq etmək, istərsə də onları dayandırmaq, habelə dekretlər vermək və bu dekretlərə sonradan əlavələr etmək və Azərb. MİK-in növbəti sessiyalarını təsdiq etmək hüququna malikdir.

Maddə 31. Azərb. MİK-in Rəyasət Heyəti Naxçıvan SSR və Dağlıq Qarabağ Muxtar Vilayətinin Sovetlər Qurultaylarının qərarlarını dayandırmaq, sonradan edilən əlavələrlə birgə bu qərarların Azərb. MİK-in müzakirəsinə və təsdiqinə təqdim etmək, habelə Naxçıvan SSR-in və Dağlıq Qarabağ Muxtar Vilayətinin MİK-inin və Xalq Komissarları Sovetinin qərarlarını dayandırmaq hüququna malikdir.

Maddə 32. Azərbaycan Sovetlər Qurultayı və Azərb. MİK-in idarəetməsinə dövlət əhəmiyyətli bütün məsələlər daxildir, məsələn:

a) ASSR Konstitusiyasının təsdiqi, ona əlavə və dəyişikliklər,

b) bütün daxili siyasətə ümumi rəhbərlik,



v) ASSR sərhəddinin dəyişdirilməsi məsələsinə SSRİ Əsas Qanununda nəzərdə tutulan qaydada baxılması,

q) ərazinin ümumi inzibati bölgüsü,

d) ittifaq hakimiyyətinin müəyyən etdiyi ölçü və çəki vahidlərinin tətbiqi,

e) xalq təsərrüfatının və onun ayrı-ayrı sahələrinin ümumi planının və əsasının müəyyən olunması,

j) daxili ticarətə rəhbərlik,

z) respublika büdcəsinin müzakirəsi və təsdiqi,

i) ASSR büdcəsinin təşkili üçün Sovet Hakimiyyətinin icazəsi ilə əlavə vergi və rüsumların müəyyən olunması,

k) ümumi dövlət qanunvericiliyi, məhkəmə quruluşu və üsulu, mülki qanunvericiliyi və cinayət qanunvericiliyi və s.

l) ASSR-in tərkibinə daxil olan Naxçıvan Respublikasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin Sovetlər Qurultayının, MİK-lərin, Xalq Komissarları Sovetlərinin Konstitusiyaya zidd qərarlarının ləğvi,

m) Azərbaycan vətəndaşlığı hüququnun qazanılması və itirilməsi barədə ümumi qərarların dərci,

n) ümumi və natamam amnistiya hüququ,

o) istər Xalq Komissarları Sovetinin ayrı-ayrı üzvlərinin, istərsə də bütövlükdə Xalq Komissarları Sovetinin təyini və işdən kənarlaşdırılması, eləcə də Xalq Komissarları Sovetinin sədrinin təsdiqi.

Yuxarıda qeyd edilən məsələlərdən başqa Azərbaycan Sovetlər Qurultayı və Azərb. MİK-in öz səlahiyyətinə aid olduğunu düşündüyü bütün məsələləri həll edə bilər.

Maddə 33. Yalnız Azərbaycan Sovetlər Qurultayının ixtiyarındadır:

a) Sovet Konstitusiyasının əsas mənbəyinin müəyyən olunması, əlavə və dəyişikliklərin edilməsi.

Maddə 34. 32-ci maddənin v) bəndində nəzərdə tutulan məsələlərin həlli yalnız Azərbaycan Sovetlər Qurultayının çağırılması mümkün olmayanda (maddə 2) Azərb. MİK-inə həvalə olunur.

Maddə 36. Xalq Komissarları Soveti yanında ASSR-in iqtisadi siyasətini müəyyən edən və respublikanın təsərrüfat orqanlarının işinə rəhbərlik edən Ali İqtisadi Soveti formalaşdırılır.

Maddə 41. Xalq Komissarlıqları 9 sahə üzrə, yəni: a) daxili işlər, b) ədliyyə, v) maarif, q) səhiyyə, d) əkinçilik, e) sosial təminat, j) xalq təsərrüfatının ali şurası, z) fəhlə-kəndli təftişi, i) əmək sahələri üzrə təşkil olunur.

Maddə 41. Zaqafqaziya Xalq Komissarlığının Maliyyə və Daxili Ticarət üzrə səlahiyyətliləri Azərb. MİK Rəyasət Heyətinin qərarı ilə

Xalq Komissarları Sovetinin tərkibinə əsas və ya məşvərətçi səs hüququ ilə daxildirlər

*Qeyd (41-ci maddə uçun)* XKS-in tərkibinə əsas səs hüququyla Bakı Sovetinin sədri daxıldır

Maddə 41 Əmək Xalq Komissarlığı, Fəhlə Kəndli Təftişi Xalq Komissarlığı və Xalq Təsərrüfatı Ali Soveti Azərb. MİK-ə və Xalq Komissarları Sovetinə tabe olmaqla öz fəaliyyətində ZFSSR-in və SSRİ-nin müvafiq Xalq Komissarlıqlarının direktivlərini həyata keçirir

VII fəsil ASSR Ali Məhkəməsi haqqında.

Maddə 46 İnqılab(i) qanunvericiliyinin təsdiqi məqsədilə ASSR ərazisində vahid Xalq Məhkəməsi sisteminə daxil olan ASSR Ali Məhkəməsi təsis olunur

Maddə 46 ASSR Ali Məhkəməsi istisnasız olaraq ASSR-in bütün məhkəmə yerlərində Məhkəmə nəzarəti orqanıdır, Ali Məhkəmə kassasiya qaydasında Xalq Dairə Məhkəməsində, nəzarət qaydasında respublikanın istənilən məhkəməsində həll olunan işlərə və ilkin instansiya qismində xüsusi dövlət əhəmiyyətli cinayət işlərinə və mülki işlərə baxır

Maddə 96 Azərbaycan Sovetlər Qurultayı və ya Azərb. MİK ittifaq hakimiyyətinin icazəsi ilə əlavə vergilər və rüsumlar təyin edir

Maddə 104 ASSR-in dövlət bayrağı eni 2, uzunu 1 metr olan, yuxarı sol küncündə qırmızı (al) qumaşdan; taxtasında bayrağın eninin radiusunun 1/6 ölçüsündə, üzərində ucları sağa yönələn qızıl aypara və qızıl haşiyəyə alınmış beşguşəli ulduzla birgə olan qızıl oraq və çəkic, ayparanın diametri bayrağın eninin 1/10-nə bərabərdir, orağın və çəkicin sağ güncündə yeni və köhnə türk əlifbası ilə yazılır; A. S Z S -

Azərb MİK-nin sədri Ağamalı oğlu
Azərb. MİK-nin katibi T Şahbazi

Yuxarıda qeyd olunan məsələlərdən başqa, Azərbaycan Sovetləri Qurultayı və Azərb MİK öz sərəncamında hesab etdikləri bütün məsələlər onların ixtiyarındadır.



# 1937-Cİ İL KONSTİTUSİYASI

## AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİQASININ QONSTİTUSİYASI (ƏSAS QANUNU)

### FƏSİL I
### İCTİMAİ QURULUŞ

**Maddə 1.** Azərbaycan Sovet Sosialist Respubliqası işçi və kəndlilərin sosialist dövlətidir

**Maddə 2.** Azərbaycan SSR-in səyasi əsasını mulkədar və qapitalistlər hakimiyyətinin devrilməsi, proletar diqtaturasının əldə edilməsi, Azərbaycan xalqının çarizm və rus imperialist burjuaziyasının milli zülmündən qurtulması və millətçi qontr-revolyusiyanın darmadağın edilməsi nəticəsində boyumuş və möhkəmlənmiş Əməkçi Deputatlarının Sovetləri təşkil edir

**Maddə 3.** Azərbaycan SSR-də bütün hakimiyyət Əməkçi Deputatlarının Sovetləri şəxsində şəhər və kənd əməkçilərinindir

**Maddə 4.** Azərbaycan SSR-in eqonomik əsasını, qapitalist təsərrüfat sistemasının ləğv edilməsi, istehsal alət və vasitələrinə xüsusi mülkiyyətin aradan qaldırılması və insanın insan tərəfindən istismarının yox edilməsi nəticəsində bərqərar olmuş sosialist təsərrüfat sisteması və istehsal alət və vasitələrinə sosialist mülkiyyəti təşkil edir

**Maddə 5.** Azərbaycan SSR-də sosialist mülkiyyəti ya dövlət mülkiyyəti (bütünxalq malı) formasında, və ya qooperativ qolxoz mülkiyyəti (ayrı-ayrı qolxozların mülkiyyəti, qooperativ birləşmələrinin mülkiyyəti) formasındadır.

**Maddə 6.** Torpax, yerin altı, sular, meşələr, zavodlar, fabrıqalar, şaxtalar, mədənlər, dəmiryol, su və hava transportu, banqlar, rabitə

vasitələri, dövlət tərəfindən təşkil edilmiş iri kəndtəsərrüfat müəssisələri (sovxozlar, maşın-traqtor stansiyaları v. s.), habelə şəhərlərdə və sənaye mintəqələrində qommunal müəssisələr və əsas mənzil fondu dövlət mülkiyətidir, yəni bütünxalq malıdır.

**Madde 7.** Qolxozlarda və qooperativ təşkilatlarında olan ictimai müəssisələr və onların canlı və cansız inventarı, qolxoz və qooperativ təşkilatlarının istehsal etdikləri produqsiya, habelə onların ictimai tikintiləri qolxozların və qooperativ təşkilatlarının ictimai sosialist mülkiyətini təşkil edir.

Hər bir qolxozçu həyətinin, ictimai qolxoz təsərrüfatının əsas gəlirindən başqa, kəndtəsərrüfat arteli ustavına görə, şəxsi istifadəsində kiçik həyətyanı torpağı və həyətyanı torpağında şəxsi mülkiyətində olan yardımçı təsərrüfatı, yaşayış evi, məhsul verən heyvanı, ev quşu və xırda kəndtəsərrüfat inventarı varıdır.

**Madde 8.** Qolxozların əlində olan torpax pulsuz və vədəsiz, yəni əbədi olaraq, istifadə üçün onlara təhkim edilir.

**Madde 9.** Azərbaycan SSR-də hakim təsərrüfat forması olan sosialist sistemalı təsərrüfat forması ilə yanaşı olaraq, təkbaşına kəndlilərin və qustarların, şəxsi əməyə əsaslanan və özgə əməyinin istismarına yol verməyən xırda xüsusi təsərrüfatı olmasına qanun tərəfindən yol verilir.

**Madde 10.** Vətəndaşların öz əmək gəlirlərinə və qənaətlərinə, yaşayış evinə və yardımçı ev təsərrüfatına, ev təsərrüfatı şeylərinə və avadanlığına, şəxsi istehlak və rahatlıx şeylərinə olan şəxsi mülkiyət hüququ və habelə vətəndaşların şəxsi mülkiyətə varislik hüququ qanun tərəfindən qorunur.

**Madde 11.** Azərbaycan SSR-in təsərrüfat həyatı, ictimai sərvəti artırmaq, əməkçilərin maddi və qultur səviyəsini dönmədən yüksəltmək, sosialist dövlətinin istiqlaliyətini möhkəmləndirmək və onun müdafiə qabiliyyətini qüvvətləndirmək intereslərinə olaraq, dövlət xalq təsərrüfatı planı ilə müəyən edilir və yönəldilir.

**Madde 12.** Azərbaycan SSR-də əmək: «kim işləməzsə, o yeməz» prinsipi üzrə, əmək qabiliyəti olan hər bir vətəndaşın vəzifəsi və şərəf işidir.

Azərbaycan SSR-də sosializmin: «hər kəsdən qabiliyətinə görə, hər kəsə əməyinə görə» prinsipi həyata keçirilir.



## FƏSİL II
## DÖVLƏT QURULUŞU

**Madde 13.** Eqonomik və səyası cəhətdən, habelə müdafiə cəhətindən qarşılıxlı, yardımı həyata keçirmək məqsədilə Azərbaycan Sovet Sosialist Respubliqası, könüllü olaraq, barabar hüquqlu Sovet Sosialist Respubliqaları ilə: Rusiya SFSR, Uqrayna SSR, Belorusiya SSR, Gürcüstan SSR, Ermənistan SSR, Qazaxıstan SSR, Qırğızıstan SSR ilə ittifaq dövləti olan Sovet Sosialist Respubliqaları İttifaqında birləşmişdir.

Buna görə, Azərbaycan SSR, SSRİ Qonstitusiyasının 14-cü maddəsi ilə müəyən edilmiş hüququn SSRİ-nın ali hakimiyyət orqanları və dövlət idarəsi orqanları sifətində SSRİ-yə ayid olmasını təmin edir.

SSRİ Qonstitusiyasının14-cü maddəsi hüdudu xaricində, Azərbaycan SSR, öz suveren hüququnu tamamilə mühafizə edərək, dövlət hakimiyətini müstəqill surətdə həyata keçirir.

**Madde 14.** Azərbayçan Sovet Sosialist Respubliqası Naxçıvan Avtonom Sovet Sosialist Respubliqasından, Dağlıx Qarabağ Avtonom Oblastından, Ağdam, Ağdaş, Ağcabədi, Əlibayramlı, Astara, Astraxanbazar, Bərdə, Bələkən, Biləsuvar, Vartaşen, Vərgədüz, Göyçay, Hil, Dəstəfur, Cəbrayıl, Dəvəçi, Yevlax, Zaqatala, Zəngilan, Zərdab Zuvand, İsmayıllı, Qazax, Qaradonlu, Qaryagın, Qasım-İsmayılov, Qax, Gədəbəy, Kəlbəcər, Kirovabad, Qonaxkənd, Qubadlı, Quba, Qutqaşen, Kürdəmir, Laçın, Lənkəran Masallı, Nərimanov, Nuxa, Sabirabad, Səlyan, Samux, Tovuz, Tertər, Xaçmaz, Xızı, Şamxor, Şaumyan və Şamaxı rayonlarından və Bakı şəhərindən ibarətdir.

**Madde 15.** Azərbaycan Sovet Sosialist Respubliqası Sovet Sosialist Respubliqaları İttifaqından azad surətdə çıxmaq hüququnu saxlayır.

**Madde 16.** Azərbaycan SSR-in territoriyası Azərbaycan SSR-in razılığı olmadan dəyişdirilə bilməz.

**Madde 17.** SSRİ-nin qanunları Azərbaycan SSR territoriyasında məcburidir.

**Madde 18.** Azərbayçan SSR-in hər bir vətəndaşı SSRİ-nin vətən daşıdır.

Bütün başqa müttəfiq respubliqaların vətəndaşları, Azərbaycan SSR territoriyasında Azərbaycan SSR vətəndaşları ilə eyni hüquqa malikdirlər.

**Maddə 19.** Azərbaycan Sovet Sosialist Respubliqası öz ali hakimiyət orqanları və dövlət idarə orqanları sifətində aşağıdakı işləri idarə edir:

**a)** Azərbaycan SSR-ın Qonstitusiyasını qərarlaşdırmaq və onun icrasını qontrol etmək;

**b)** Naxçıvan ASSR-ın Qonstitusiyasını təsdiq etmək;

**c)** Azərbaycan SSR-in tərkibində yeni avtonom respubliqalar və oblastların təşkil edilməsini SSRİ Baş Sovetinin təsdiqinə təqdim etmək;

**ç)** Naxçıvan ASSR-in və Dağlıx Qarabağ Avtonom Oblastının sərhədlərini və rayon bölgülərini və rayonlarının sərhədlərini qərarlaşdırmaq;

**e)** Azərbaycan SSR-ın qanunlarını vermək;

**ə)** dövlət nizam-qaydasını və vətəndaşların hüququnu qorumaq;

**f)** Azərbaycan SSR-ın xalq-təsərrüfat planını təsdiq etmək;

**g)** Azərbaycan SSR-in dövlət byudcetini təsdiq etmək;

**q)** SSRİ qanunlarına müvafiq olaraq, dövlət və yerli vergiləri, yığmaları və vergi gəlirindən olmayan gəlirləri qərarlaşdırmaq;

**h)** Naxçıvan ASSR-in və Dağlıx Qarabağ Avtonom Oblastının byudcetlərinin və rayon və şəhərlərin yerli byudcetlərinin həyata keçirilməsinə rəhbərlik etmək;

**i)** sığorta və əmanət işlərinə rəhbərlik etmək;

**j)** respubliqaya tabe olan banqları, sənaye, kəndtəsərrüfat və ticarət müəssisə və təşkilatlarını idarə etmək, və habelə yerli sənayeə rəhbərlik etmək;

**k)** İttifaqa tabe müəssisələrin vəziyyətini və idarə edilmələrini qontrol və onlara nəzarət etmək;

**l)** torpaxdan, yer altından, meşələrdən və sulardan istifadə etmək qaydasını qərarlaşdırmaq;

**m)** mənzil və qommunal təsərrüfatına, mənzil inşaatına, şəhərlərin və sayir məskun yerlərin abadanlaşdırılmasına rəhbərlik etmək;

**n)** yol inşaatı, yerli transporta və rabitəyə rəhbərlik etmək;

**o)** əmək haqqında qanunvericilik;

**ö)** səhiyyə işlərinə rəhbərlik etmək;

**p)** ictimai təminat işlərinə rəhbərlik etmək;

**q)** ibtidai, orta və ali təhsil işlərinə rəhbərlik etmək;

**r)** Azərbaycan SSR-in qultura-maarif və elmi təşkilat və müəssisələrinə rəhbərlik etmək və bütün respubliqa masştabında



əhəmiyyəti olan qultura-maarif və elmi təşkilat və müəssisələri idarə etmək;

**s)** bədən tərbiyəsi və sport işlərinə rəhbərlik etmək və onları təşkil etmək;

**ş)** Azərbaycan SSR-in məhkəmə orqanlarını təşkil etmək;

**t)** Azərbaycan SSR-in vətəndaşlığı hüququnu vermək;

**u)** Azərbaycan SSR-in məhkəmə orqanları tərəfindən məhkum edilmiş vətəndaşlara amnistiya vermək və bağışlamaq.

**Maddə 20.** Naxçıvan ASSR-in, Naxçıvan ASSR xüsusiyyətlərini nəzərə alan və Azərbaycan SSR
ilə SSRİ-nin Qonstitusiyalarına tamamilə müvafiq qurulmuş olan öz Qonstitusiyası vardır.

**Maddə 21.** Azərbaycan SSR-in qanunları Naxçıvan ASSR-in territoriyasında məcburidir. Naxçıvan ASSR qanunu Azərbaycan SSR qanunu ilə düz gəlmədikdə, Azərbaycan SSR-in qanununa əməl edilir.

## FƏSİL III
## AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİQASI DÖVLƏT HAKİMİYƏTİNİN ALİ ORQANLARI

**Maddə 22.** Azərbaycan SSR dövlət hakimiyyətinin ali orqanı Azərbaycan SSR-in Baş Sovetidir.

**Maddə 23.** Azərbaycan SSR-in Baş Soveti, Azərbaycan SSR Qonstitusiyasının 13 və 19-cu maddələrinə görə Azərbaycan SSR-ə verilmiş bütün hüququ həyata keçirir, nə qədər ki, bu hüquq Qonstitusiyaya görə Azərbaycan SSR-in Baş Sovetinə hesabat verən orqanların: Azərbaycan SSR Baş Soveti Prezidiumunun, Azərbaycan SSR Xalq Qomissarları Sovetinin və Azərbaycan SSR Xalq Qomissariatlarının qompetensiyalarına daxil deyildir.

**Maddə 24.** Azərbaycan SSR-in Baş Soveti Azərbaycan SSR-in yeganə qanunverici orqanıdır.

**Maddə 25.** Azərbaycan SSR-in Baş Soveti Azərbaycan SSR vətəndaşları tərəfindən seçki oqruqları üzrə 10 min əhalidən bir deputat norması ilə 4 il müddətinə seçilir.

**Maddə 26.** Qanun, Azərbaycan SSR Baş Soveti tərəfindən sadə səs çoxluğu ilə qəbul edildikdə, təsdiq edilmiş sayılır.

**Maddə 27.** Azərbaycan SSR Baş Sovetinin qəbul etdiyi qanunlar Azərbaycan SSR Baş Soveti Prezidiumunun sədr və katibinin imzaları ilə elan edilir.

**Maddə 28.** Azərbaycan SSR Baş Soveti Azərbaycan SSR Baş Sovetinin sədrini və onun iki əvəzini seçir.

**Maddə 29.** Azərbaycan SSR Baş Sovetinin sədri Azərbaycan SSR Baş Sovetinin iclaslarına rəhbərlik edir və onun daxili qaydalarını idarə edir.

**Maddə 30.** Azərbaycan SSR Baş Sovetinin sessiyaları Azərbaycan SSR Baş Sovetinin Prezidiumu tərəfindən ildə iki dəfə çağırılır.

Növbədən xaric sessiyalar Azərbaycan SSR Baş Sovetinin Prezidiumu tərəfindən öz mülahizəsinə görə və ya Baş Sovet deputatlarının üçdə bir hissəsinin tələbinə görə çağırılır.

**Maddə 31.** Azərbaycan SSR Baş Soveti: Azərbaycan SSR Baş Soveti Prezidiumu sədrindən, avtonom respublikа və oblastların sayına görə, iki sədr əvəzindən, Prezidium katibindən və 13 nəfər Prezidium üzvündən ibarət Azərbaycan SSR Baş Sovetinin Prezidiumunu seçir.

**Maddə 32.** Azərbaycan SSR Baş Sovetinin Prezidiumu bütün öz fəaliyyəti haqqında Azərbaycan SSR Baş Sovetinə hesabat verir.

**Maddə 33.** Azərbaycan SSR Baş Sovetinin Prezidiumu:

**a)** Azərbaycan SSR Baş Sovetinin sessiyalarını çağırır;

**b)** Azərbaycan SSR qanunlarını təfsir edir, fərmanlar verir;

**c)** bütün xalqın rəyini soruşur (referendum keçirir);

**ç)** Azərbaycan SSR Xalq Qomissarları Sovetinin, Naxçıvan ASSR Xalq Qomissarları Sovetinin qərar və binagüzarlıxları, habelə Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin qərar və binagüzarlıxları qanuna müvafiq olmadıqda, onları ləğv edir;

**d)** Azərbaycan SSR Baş Sovetinin sessiyaları arasındakı dövrdə Azərbaycan SSR Xalq Qomissarları Soveti sədrinin təqdimi ilə Azərbaycan SSR-in ayrı-ayrı Xalq Qomissarlarını vəzifədən azad edir və təyin edir, və təsdiq üçün sonradan Azərbaycan SSR Baş Sovetinə təqdim edir;

**e)** Azərbaycan SSR-ın fəxri adlarını verir;

**ə)** Azərbaycan SSR məhkəmə orqanlarının məhkum etdiyi vətəndaşları bağışlamaq hüququnu həyata keçirir.

**Maddə 34.** Azərbaycan SSR-in Baş Soveti Mandat Qomissiyası seçir ki, bu da Azərbaycan SSR Baş Soveti deputatlarının vəkalətini yoxlayır.



Mandat Qomissiyasının təqdimi üzrə, Azərbaycan SSR Baş Soveti ayrı-ayrı deputatların vəkalətini ya qəbul etməyi, ya da seçilməsini puç etməyi qərara alır.

**Maddə 35.** Azərbaycan SSR Baş Soveti lazım gördükdə hər bir məsələ üzrə istintaq və təftiş qomissiyaları təyin edir.

Bütün idarələr və vəzifəli şəxslər bu qomissiyaların tələblərini yerinə yetirməyə və onlara lazımi material və doqumentlər təqdim etməyə məcburdurlar.

**Maddə 36.** Azərbaycan SSR Baş Sovetinin deputatı Azərbaycan SSR Baş Sovetinin, Azərbaycan SSR Baş Soveti sessiyaları arasındakı dövrdə isə Azərbaycan SSR Baş Soveti Prezidiumunun razılığı olmadan məhkəmə məsuliyyətinə cəlb və ya həbs edilə bilməz.

**Maddə 37.** Azərbaycan SSR Baş Sovetinin vəkaləti qurtardıqda Azərbaycan SSR Baş Sovetinin Prezidiumu, Azərbaycan SSR-ın yeni seçilmiş Baş Soveti tərəfindən Azərbaycan SSR Baş Sovetinin yeni Prezidiumu təşkil edilənədək, öz vəkalətini saxlayır.

**Maddə 38.** Azərbaycan SSR Baş Sovetinin vəkaləti qurtardıqda Azərbaycan SSR Baş Sovetinin Prezidiumu Azərbayçan SSR Baş Sovetinin vəkaləti qurtaran gündən etibarən iki aydan gec olmayaraq yeni seçkilər təyin edir.

**Maddə 39.** Azərbaycan SSR-ın yenidən seçilmiş Baş Soveti, Azərbaycan SSR Baş Sovetinin keçmiş çağırılış Prezidiumu tərəfindən, seçkilərdən sonra bir aydan gec olmayaraq çağırılır.

**Maddə 40.** Azərbaycan SSR Baş Soveti Azərbayçan SSR Hökumətini - Azərbaycan SSR Xalq Qomissarları Sovetini təşkil edir.

**Maddə 41.** Qanunlar, habelə Azərbaycan SSR Baş Soveti Prezidiumunun fərmanları və izahları, Azərbaycan SSR Xalq Qomissarları Sovetinin qərar və binagüzarlıxları Azərbaycan, rus və erməni dillərində elan edilir.

## FƏSİL IV

## AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKALARININ DÖVLƏT İDARƏSİ ORQANLARI

**Maddə 42.** Azərbaycan SSR-in dövlət hakimiyyətinin ali icraiyə və binagüzarlıx orqanı Azərbaycan SSR-in Xalq Qomissarları Sovetidir.

**Maddə 43.** Azərbaycan Sovet Sosialist Respublikasının Xalq Qomissarları Soveti Azərbaycan SSR Baş Soveti qarşısında məsuldur və ona hesabat verir, Azərbaycan SSR Baş Sovetinin sessiyaları arasındakı dövrdə isə Azərbaycan SSR Baş Sovetinin Prezidiumu qarşısında məsuldur və ona hesabat verir.

**Maddə 44.** Azərbaycan SSR Xalq Qomissarları Soveti SSRİ və Azərbaycan SSR qanunlarına, SSRİ Xalq Qomissarları Soveti qərar və binaguzarlıxlarına əsasən və onların icrası üçün qərar və binagüzarlıxlar verir və onların icrasını yoxlayır

**Maddə 45.** Azərbaycan SSR Xalq Qomissarları Sovetinin qərar və binagüzarlıxlarının icrası Azərbaycan SSR-in bütün territoriyasında məcburidir

**Maddə 46.** Azərbaycan SSR Xalq Qomissarları Soveti:

a) Azərbaycan SSR Xalq Qomissariatlarının və özünə tabe olan başqa təsərrüfat və qultura müəssisələrinin işlərini birləşdirir və yönəldir, Ümum İttifaq Xalq Qomissariatları müvəkkillərinin işlərini birləşdirir və yoxlayır,

b) xalq-təsərrüfat planının həyata keçirilməsi üçün tədbirlər görür;

s) Azərbaycan SSR-in dövlət və yerli byudcetinin həyata keçirilməsi üçün tədbirlər görür;

ç) ictimai nizam-qaydanı təmin etmək, dövlətin interesləri müdafiə etmək və vətəndaşların hüququnu qorumaq üçün tədbirlər görür;

d) Naxçıvan ASSR Xalq Qomissarları Sovetinin işini yönəldir və yoxlayır, Dağlıx Qarabağ Avtonom Oblastının, rayon və şəhər Əməkçi Deputatları Sovetləri icraiyə qomitetlərinin işlərinə rəhbərlik edir və bu işləri yoxlayır,

e) lazım olduqda, Azərbaycan SSR Xalq Qomissarları Soveti Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetləri və rayon və şəhər Əməkçi Deputatları Sovetləri icraiyə qomitetlərinin qərar və binagüzarlıxlarını ləğv etmək, və Naxçıvan ASSR Xalq Qomissarları Sovetinin qərar və binagüzarlıxlarını, Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin, rayon və şəhər Əməkçi Deputatları Sovetlərinin qərar və binagüzarlıxlarını dayandırmaq hüququna malikdir.

Azərbaycan SSR Xalq Qomissarları Soveti Azərbaycan SSR Xalq Qomissariatlarının əmr və instruqsiyalarını ləğv etmək hüququna malikdır.

**Maddə 48.** Azərbaycan SSR Xalq Qomissarları Soveti Azərbaycan SSR Baş Soveti tərəfindən bu heyətdə təşkil edilir:



Azərbaycan SSR Xalq Qomissarları Soveti sədri,
Azərbaycan SSR Xalq Qomissarları Soveti sədrinin əvəzləri,
Azərbaycan SSR Dövlət Plan Qomissiyası sədri;
Azərbaycan SSR-in:
Xalq Yeyinti Sənayei Qomissarı;
Xalq Yüngül Sənaye Qomissarı;
Xalq Meşə Sənayei Qomissarı;
Xalq Torpax Qomissarı;
Xalq Finans Qomissarı,
Xalq Daxili Ticarət Qomissarı;
Xalq Daxili İşlər Qomissarı;
Xalq Ədliyə Qomissarı;
Xalq Səhiyə Qomissarı;
Xalq Maarif Qomissarı;
Xalq Yerli Sənaye Qomissarı,
Xalq Qommunal Təsərrüfat Qomissarı,
Xalq İctimai Təminat Qomissarı,
SSRİ Tədarük Qomiteti müvəkkili;
İncəsənət İşləri İdarəsi naçalniqi;
Ümum İttifaq Xalq Qomissariatları müvəkkilləri

**Maddə 49.** Azərbaycan SSR Baş Soveti deputatından sorğu alan Azərbaycan SSR hökuməti və ya Azərbaycan SSR Xalq Qomissarı, üç gündən geç olmayaraq, Azərbaycan SSR Baş Sovetində dilcavabı və ya yazı ilə cavab verməyə məcburdur

**Maddə 50.** Azərbaycan SSR Xalq Qomissarları, Azərbaycan SSR-in qompetensiyasına daxil olan dövlət idarəsi sahələrinə rəhbərlik edirlər

**Maddə 51.** Azərbaycan SSR Xalq Qomissarları, SSRİ-nin və Azərbaycan SSR-in qanunlarına, SSRİ Xalq Qomissarları Sovetinin və Azərbaycan SSR Xalq Qomissarları Sovetinin qərar və binagüzarlıxlarına, SSRİ ittifaq-respubliqa Xalq Qomissariatlarının əmr və instruqsiyalarına əsasən və bunların icrası üçün, müvafiq xalq qomissariatlarının qompetensiyaları daxilində əmr və instruqsiyalar verir və onların icrasını yoxlayırlar

**Maddə 52.** Azərbaycan SSR Xalq Qomissariatları ya ittifaq- respubliqa Xalq Qomissariatlarından və ya respubliqa Xalq Qomissariatlarından ibarətdirlər

**Maddə 53.** Azərbaycan SSR ittifaq-respubliqa Xalq Qomissariatları həm Azərbaycan SSR Xalq Qomissarları Sovetinə, həm də SSRİ-nin müvafiq ittifaq-respubliqa Xalq Qomissariatlarına tabe ola-

raq, SSRİ-nın Baş Soveti Prezidiumu tərəfindən təsdiq edilmiş siyahı ilə ancax məhdud miqdarda müəssisələrdən başqa Azərbaycan SSR dövlət idarəsinin onlara tapşırılmış sahələrinə rəhbərlik edirlər.

**Madde 54.** Azərbaycan SSR-in respubliqa Xalq Qomissariatları, bılavasitə Azərbaycan SSR Xalq Qomissarları Sovetinə tabe olaraq, dövlət idarəsinin onlara tapşırılmış sahələrinə rəhbərlik edirlər.

**Madde 55.** Azərbaycan SSR-in ittifaq-respubliqa Xalq Qomissariatları bunlardır:

Azərbaycan SSR-in:
Xalq Yeyinti Sənayei Qomissariatı;
Xalq Yüngül Sənaye Qomissariatı;
Xalq Meşə Sənayei Qomissariatı;
Xalq Torpax Qomissariatı;
Xalq Finans Qomissariatı;
Xalq Daxili Ticarət Qomissariatı;
Xalq Daxili İşlər Qomissariatı;
Xalq Ədliyə Qomissariatı;
Xalq Səhiyə Qomissariatı.

**Madde 56.** Azərbaycan SSR-in respubliqa Xalq Qomissariatları bunlardır:

Xalq Maarif Qomissariatı;
Xalq Yerli Sənaye Qomissariatı;
Xalq Qommunal Təsərrüfat Qomissariatı;
Xalq İctimai Təminat Qomissariatı.

## FƏSİL V

## NAXÇIVAN AVTONOM SOVET SOSİALİST RESPUBLİQASI DÖVLƏT HAKİMİYƏTİNİN ALİ ORQANLARI

**Madde 57.** Naxçıvan ASSR dövlət hakimiyətinin ali orqanı Naxçıvan ASSR Baş Sovetidir.

**Madde 58.** Naxçıvan ASSR Baş Soveti Naxçıvan ASSR-in Konstitusıyası ilə qərarlaşdırılan nümayəndəlik normaları üzrə, respublikanın vətəndaşları tərəfindən 4 il müddətinə seçilir.

**Madde 59.** Naxçıvan ASSR Baş Soveti Naxçıvan ASSR-in yeganə qanunverici orqanıdır.



**Madde 60.** Naxçıvan ASSR Baş Soveti:

**a)** Naxçıvan ASSR-in Konstitusıyasını qəbul edir və onu təsdiq üçün Azərbaycan SSR Baş Sovetinə təqdim edir;

**b)** Naxçıvan ASSR-in rayon bölgüsünü, rayon və şəhərlərin sərhədlərini qərarlaşdırır və təsdiq üçün Azərbaycan SSR Baş Sovetinə təqdim edir;

**s)** Naxçıvan ASSR-in xalq-təsərrüfat planını və byudcetini təsdiq edir;

**ç)** Naxçıvan ASSR-in fəxri adlarını verir.

**Madde 61.** Naxçıvan ASSR Baş Soveti Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu sədrindən, onun əvəzlərindən, Prezidium katibindən və Naxçıvan ASSR Baş Soveti Prezidiumu üzvlərindən ibarət Naxçıvan ASSR Baş Sovetinin Prezidiumunu seçir.

**Madd 62.** Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu Naxçıvan ASSR Baş Sovetinə hesabat verir.

**Madde 63.** Naxçıvan ASSR Baş Soveti Prezidiumunun səlahiyəti Naxçıvan ASSR Qonstitusıyası ilə müəyən edilir.

**Madde 64.** İclasları aparmaq üçün Naxçıvan ASSR Baş Soveti Naxçıvan ASSR Baş Soveti sədrini və onun əvəzlərini seçir.

**Madde 65.** Naxçıvan ASSR Baş Soveti Naxçıvan ASSR Hökumətini - Naxçıvan ASSR Xalq Qomissarları Sovetini təşkil edir.

**Madde 66.** Naxçıvan ASSR Baş Sovetinin qəbul etdiyi qanunlar, Naxçıvan ASSR Xalq Qomissarları Sovetinin qərar və binaguzarlıxları Azərbaycan və ermənı dillərində elan edilir.

## FƏSİL VI

## NAXÇIVAN AVTONOM SOVET SOSİALİST RESPUBLİQASININ DÖVLƏT İDARƏSİ ORQANLARI

**Madde 67.** Naxçıvan ASSR-in ali icraiyə və binaguzarlıx orqanı – Naxçıvan ASSR Xalq Qomissarları Sovetidir.

**Madde 68.** Naxçıvan ASSR Xalq Qomissarları Soveti Naxçıvan ASSR Baş Soveti qarşısında məsuldur və ona hesabat verir, Naxçıvan ASSR Baş Sovetinin sessıyaları arasındakı dövrdə isə, Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu qarşısında məsuldur və ona hesabat verir.

**Madde 69.** Naxçıvan ASSR Xalq Qomissarları Soveti SSRİ, Azərbaycan SSR və Naxçıvan ASSR qanunlarına, SSRİ və Azərbaycan SSR Xalq Qomissarları Sovetlərinin qərar və binaguzar-

lıxlarına əsasən və onların icrası üçün qərar və binagüzarlıxlar verir və onların icrasını yoxlayır.

**Maddə 70.** Naxçıvan ASSR Xalq Qomissarları Soveti Naxçıvan ASSR Xalq Qomissarlarının əmr və instruqsiyalarını, rayon və şəhər Əməkçi Deputatları Sovetləri icraiyə qomitetlərinin qərar və binagüzarlıxlarını ləğv etmək, habelə rayon və şəhər Əməkçi Deputatları Sovetlərinin qərar və binagüzarlıxlarını dayandırmaq hüququna malikdir.

**Maddə 71.** Naxçıvan ASSR Xalq Qomissarları Soveti Naxçıvan ASSR Baş Soveti tərəfindən bu heyətdə təşkil edilir:

Naxçıvan ASSR Xalq Qomissarları Soveti sədri;
Xalq Qomissarları Soveti sədrinin əvəzləri;
Dövlət Plan Qomissiyası sədri;
Xalq Yeyinti Sənayei Qomissarı;
Xalq Torpax Qomissarı;
Xalq Finans Qomissarı;
Xalq Daxili Ticarət Qomissarı;
Xalq Daxili İşlər Qomissarı;
Xalq Ədliyə Qomissarı;
Xalq Səhiyə Qomissarı
Xalq Maarif Qomissarı;
Xalq Yerli Sənaye Qomissarı;
Xalq Qommunal Təsərrüfat Qomissarı;
Xalq İctimai Təminat Qomissarı;
Yollar İdarəsi naçalnıqi;
Tədarük Qomiteti müvəkkili;
İncəsənət işləri İdarəsi naçalnıqi.

**Maddə 72.** Naxçıvan ASSR Xalq Qomissarları Azərbaycan SSR və Naxçıvan ASSR Qonstitusiyalarına görə, Naxçıvan ASSR-in qompetensiyasına daxil olan dövlət idarəsi sahələrinə rəhbərlik edirlər.

**Maddə 73.** Naxçıvan ASSR Xalq Qomissarları SSRİ, Azərbaycan SSR və Naxçıvan ASSR qanunlarına, SSRİ Xalq Qomissarları Sovetinin, Azərbaycan SSR Xalq Qomissarları Sovetinin, Naxçıvan ASSR Xalq Qomissarları Sovetinin qərar və binagüzarlıxlarına, Azərbaycan SSR Xalq Qomissarlarının əmr və instruqsiyalarına əsasən və onların icrası üçün müvafiq Xalq Qomissariatlarının qompetensiyaları daxilində əmrlər və instruqsiyalar verirlər.

**Maddə 74.** Naxçıvan ASSR Xalq Qomissariatları, həm Naxçıvan ASSR Xalq Qomissarları Sovetinə, həm də Azərbaycan SSR-in



müvafiq Xalq Qomissariatlarına tabe olaraq, dövlət idarəsinin onlara tapşırılmış sahələrinə rəhbərlik edirlər.

## FƏSİL VII
## DAĞLIX QARABAĞ AVTONOM OBLASTININ DÖVLƏT HAKİMİYƏTİ ORQANLARI

**Maddə 75.** Dağlıx Qarabağ Avtonom Oblastının dövlət hakimiyəti orqanı Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetidir.

**Maddə 76.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Soveti Dağlıx Qarabağ Avtonom Oblastı vətəndaşları tərəfindən 1500 əhalidən bir deputat norması ilə iki il müddətinə seçilir.

**Maddə 77.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Soveti öz territoriyasında qultura-səyasi və təsərrüfat quruluşuna rəhbərlik edir, oblast byudcetini və oblast xalq təsərrüfat quruluşuna rəhbərlik edir, oblast byudcetini və oblast xalq təsərrüfat planını təsdiq edir, özünə tabe olan idarə orqanlarının fəaliyətinə rəhbərlik edir, ölkənin müdafiə qabiliyətinin qüvvətlənməsinə yardım edir, qanunlarına rəayət edilməsini və vətəndaşlar hüququnun qorunmasını təmin edir.

**Maddə 78.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Soveti SSRİ və Azərbaycan SSR qanunları ilə ona verilmiş hüquq daxilində qərarlar qəbul edir və binagüzarlıxlar verir.

Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin qərar və binagüzarlıxları erməni və Azərbaycan dillərində elan edilir.

**Maddə 79.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin icraiyə və binagüzarlıx orqanı – sədrdən, sədrin iki əvəzindən, katibdən və 9 nəfər üzvdən ibarət Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Soveti tərəfindən seçilən Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin icraiyə qomitetidir.

**Maddə 80.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin icraiyə qomiteti dövlət idarəsinin ayrı-ayrı sahələrinə rəhbərlik etmək üçün aşağıdakı şöbələri təşkil edir:

torpax;
finans;
daxili ticarət;
səhiyə;
xalq maarifi;
yerli sənaye;

qommunal təsərrüfat;
meşə təsərrüfatı;
ictimai təminat, yollar; ümumi;
incəsənət işləri;
planı qomissiyası;
icraiyə qomiteti sədri yanında qadrlar seqtoru və bundan başqa, Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin icraiyə qomiteti yanında:
Xalq Daxili İşlər Qomissariatı İdarəsi,
Tədarük Qomiteti müvəkkili vardır.

**Maddə 81.** Dağlıx Qarabağ Avtonom Oblastı şöbə və idarələri öz fəaliyyətində həm Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinə və onun icraiyə qomitetinə, həm də Azərbaycan SSR-in müvafiq Xalq Qomissariatlarına tabedirlər.

**Maddə 82.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinin sessiyaları onun icraiyə qomiteti tərəfindən ildə 4 dəfədən az olmayaraq çağırılır.

**Maddə 83.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Soveti öz sessiyaları zamanı üçün sessiyanın iclaslarını aparmaqdan ötrü sədr və katib seçir.

**Maddə 84.** Dağlıx Qarabağ Avtonom Oblastında dövlət hakimiyyətinin rayon, şəhər və kənd orqanları həmin Qonstitusiyanın VIII fəslinin əsasları üzərində təşkil edilir.

**Maddə 85.** Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Soveti, Azərbaycan SSR Baş Sovetinin təsdiqi üçün Avtonom Oblastın milli xüsusiyyətlərini nəzərə alan «Dağlıx Qarabağ Avtonom Oblastına dayir Əsasnamə» təqdim edir.

## FƏSİL VIII
## DÖVLƏT HAKİMİYYƏTİNİN YERLİ ORQANLARI

**Maddə 86.** Dağlıx Qarabağ Avtonom Oblastında, rayonlarda, şəhərlərdə, posyolqalarda, kəndlərdə dövlət hakimiyyətinin orqanları - Əməkçi Deputatları Sovetləridir.

**Maddə 87.** Rayon, şəhər, böyük şəhərlərdə rayon, posyolqa və kənd
Əməkçi Deputatları Sovetləri müvafiq rayon, şəhər, kənd əməkçiləri tərəfindən iki il müddətinə seçilir.

**Maddə 88.** Əməkçi Deputatları Sovetləri (rayon, şəhər, kənd) öz territoriyalarında qultura-səyasi və təsərrüfat quruluşuna rəhbərlik



edirlər, yerli byudceti qərarlaşdırırlar, özlərinə tabe olan idarə orqanlarının fəaliyyətinə rəhbərlik edirlər, dövlət nizam-qaydasının qorunmasını təmin edirlər, ölkənin müdafiə qabiliyyətinin qüvvətlənməsinə yardım edirlər, qanunlara rəayət edilməsini və vətəndaşlar hüququnun qorunmasını təmin edirlər.

**Maddə 89.** Əməkçi Deputatları Sovetləri, SSRİ və Azərbaycan SSR qanunlarının, Naxçıvan ASSR-də isə – habelə Avtonom respubliqa qanunlarının, onlara verdiyi hüquq daxilində qərarlar qəbul edir və binagüzarlıxlar verirlər.

**Maddə 90.** Rayon, şəhər və kənd Əməkçi Deputatları Sovetlərinin icraiyə və binagüzarlıx orqanları – həmin Sovetlər tərəfindən seçilən sədr, onun əvəzləri, katib və üzvlərdən ibarət icraiyə qomitetləridir.

**Maddə 91.** Xırda kəndlərdə kənd Əməkçi Deputatları Sovetlərinin icraiyə və binagüzarlıx orqanı - həmin Sovetlər tərəfindən seçilən sədrdən, onun əvəzindən və katibdən ibarətdir.

**Maddə 92.** Əməkçi Deputatları Sovetlərinin (rayon, şəhər, posyolqa və kənd) icraiyə qomitetləri müvafiq əməkçi deputatları Sovetlərinin və yuxarıda duran dövlət orqanlarının qərarlarına əsasən, öz territoriyalarında qultura-səyası və təsərrüfat quruluşuna rəhbərlik edirlər.

**Maddə 93.** Rayon Əməkçi Deputatları Sovetlərinin sessiyaları onların icraiyə qomitetləri tərəfindən ildə 6 dəfədən az olmayaraq çağırılır.

**Maddə 94.** Şəhər və kənd Əməkçi Deputatları Sovetlərinin sessiyaları onların icraiyə orqanları tərəfindən ayda bir dəfədən az olmayaraq çağırılır.

**Maddə 95.** Rayon və şəhər Əməkçi Deputatları Sovetləri öz sessiyaları zamanı üçün, sessiya iclaslarını aparmaqdan ötrü sədr və katib seçirlər.

**Maddə 96.** Kənd Soveti sədri kənd Sovetini çağırır və onun iclaslarını aparır.

**Maddə 97.** Əməkçi Deputatları Sovetlərinin icraiyə orqanları həm onları seçmiş olan Əməkçi Deputatları Sovetinə, həm də yuxarıda duran Əməkçi Deputatları Sovetinin icraiyə orqanına bilavasitə hesabat verirlər.

**Maddə 98.** Yuxarıda duran Əməkçi Deputatları Sovetlərinin icraiyə qomitetləri arasında duran icraiyə qomitetlərinin qərar və binagüzarlıxlarını ləğv etmək və aşağıda duran Əməkçi Deputatları Sovetlərinin qərar və binagüzarlıxlarını dayandırmaq hüququna malikdirlər.

**Maddə 100.** Rayon Əməkçi Deputatları Sovetləri, icraiyə qomitətlərinin aşağıdakı şöbələrini təşkil edirlər:

torpax,
xalq maarifi,
finans,
daxili ticarət,
səhiyyə,
ictimai təminat;
ümumi;
yollar;
plan qomissiyası;
icraiyə qomiteti sədri yanında qadrlar seqtoru, və bundan başqa, rayonun təsərrüfatının xüsusiyyətlərinə müvafiq olaraq, Azərbaycan SSR Baş Soveti Prezidiumunun təsdiqi ilə, rayon Əməkçi Deputatları Sovetləri qommunal və yerli sənaye şöbələri təşkil edirlər.

**Maddə 101.** Rayonun şəraitinə müvafiq olaraq, SSRİ və Azərbaycan SSR qanunlarına əsasən, Azərbaycan SSR Baş Soveti Prezidiumunun təsdiqi ilə Xalq Daxili İşlər Qomissariatı rayon Əməkçi Deputatları Sovetləri yanında öz idarələrini təşkil edir.

**Maddə 102.** Rayon Əməkçi Deputatları Sovetlərinin şöbələri öz fəaliyyətində həm rayon Əməkçi Deputatları Sovetinə və onun icraiyə qomitetinə, həm də Azərbaycan SSR-in müvafiq Xalq Qomissariatına, Dağlıx Qarabağ Avtonom Oblastında isə – oblast Əməkçi Deputatları Sovetinin müvafiq şöbəsinə tabedirlər.

**Maddə 103.** Şəhər Əməkçi Deputatları Sovetləri, icraiyə qomitetlərinin aşağıdakı şöbələrini əmələ gətirirlər:

finans;
qommunal təsərrüfat;
daxili ticarət;
səhiyyə;
xalq maarifi;
ictimai təminat;
ümumi;
plan qomissiyası;
icraiyə qomiteti sədri yanında qadrlar seqtoru, və bundan başqa, şəhərin sənayeinin, onun şəhər və şəhəryanı təsərrüfatının xüsusiyyətlərinə müvafiq olaraq:
yerli sənaye;
torpax.



**Maddə 104.** Şəhər Əməkçi Deputatları Sovetlərinin şöbələri öz fəaliyyətində həm müvafiq şəhər Əməkçi Deputatları Sovetinə və onun icraiyə qomitetinə, həm də rayon Əməkçi Deputatları Sovetinin müvafiq şöbəsinə tabedirlər.

**Maddə 105.** Bakı Əməkçi Deputatlarının şəhər Sovetinin şöbələri öz fəaliyyətində həm Bakı Əməkçi Deputatları Sovetinə və onun icraiyə qomitetinə, həm də bilavasitə Azərbaycan SSR-in müvafiq Xalq Qomissariatına tabedirlər.

## FƏSİL IX
## AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ BYUDCETİ

**Maddə 106.** Azərbaycan SSR-in dövlət byudceti Azərbaycan SSR Xalq Qomissarları Soveti tərəfindən tərtib edilir və təsdiq üçün onun tərəfindən Azərbaycan SSR Baş Sovetinə təqdim edilir.

Azərbaycan SSR Baş Soveti tərəfindən təsdiq edilmiş Azərbaycan SSR dövlət byudceti hamının bilməsi üçün elan edilir.

**Maddə 107.** Azərbaycan SSR Baş Soveti Byudcet Qomissiyası seçir, həmin Byudcet Qomissiyası Azərbaycan SSR-in dövlət byudceti haqqında Baş Sovetə öz mülahizəsi haqqında məruzə edir.

**Maddə 108.** Azərbaycan SSR dövlət byudcetinin icrası haqqındakı hesabat Azərbaycan SSR Baş Soveti tərəfindən təsdiq edilir və hamının bilməsi üçün elan edilir.

**Maddə 109.** Naxçıvan ASSR byudcetinə və habelə Dağlıx Qarabağ Avtonom Oblastının, rayon, şəhər və kənd Sovetlərinin byudcetlərinə yerli təsərrüfat gəlirləri, onaların territoriyalarındakı dövlət gəlirlərindən ayrmalar və habelə SSRİ və Azərbaycan SSR qanunları ilə qərarlaşdırılan ölçülərdə yerli vergi və yığmalar varidatı daxil edilir.

## FƏSİL X

## MƏHKƏMƏ VƏ PROQURORLUX

**Maddə 110.** Azərbaycan SSR-də ədalət mühakiməsi Azərbaycan SSR Baş Məhkəməsi, Naxçıvan ASSR Baş Məhkəməsi, Dağlıx Qarabağ Avtonom Oblastının Oblast Məhkəməsi, SSRİ Baş Sovetinin

qərarı ilə yaradılan SSRİ-nin xüsusi məhkəmələri, və xalq məhkəmələri tərəfindən həyata keçirilir.

**Madde 111.** Bütün məhkəmələrdə işlərə, qanunda xüsusi surətdə göstərilən hallardan başqa, xalq iclasçılarının iştirakı ilə baxılır.

**Madde 112.** Azərbaycan SSR Baş Məhkəməsi Azərbaycan SSR-in ali məhkəmə orqanıdır. Azərbaycan SSR Baş Məhkəməsinə Azərbaycan SSR-in, Naxçıvan ASSR-in və Dağlıx Qarabağ Avtonom Oblastının bütün məhkəmə orqanları fəaliyyətinə nəzarət etmək tapşırılır.

**Madde 113.** Azərbaycan SSR Baş Məhkəməsi Azərbaycan SSR Baş Soveti tərəfindən beş il müddətinə seçilir.

**Madde 114.** Naxçıvan ASSR Baş Məhkəməsi Naxçıvan ASSR Baş Soveti tərəfindən beş il müddətinə seçilir.

**Madde 115.** Dağlıx Qarabağ Avtonom Oblastının Oblast Məhkəməsi Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Soveti tərəfindən beş il müddətinə seçilir.

**Madde 116.** Xalq məhkəmələri rayon vətəndaşları tərəfindən gizli səs verməklə, ümumi, müstəqim və barabar seçki hüququna əsasən üç il müddətinə seçilir.

**Maddə 117.** Azərbaycan SSR-də və Naxçıvan ASSR-də məhkəmə iclası Azərbaycan dilində və Dağlıx Qarabağ Avtonom Oblastında erməni dilində aparılır, əhalisinin çoxu erməni və ya rus və ya talış olan rayonlarda isə, müvafiq olaraq, erməni və ya rus və ya talış dilində aparılır, bu dilləri bilməyən şəxslər üçün iş materialları ilə tərcüməçı vasitəsilə tamam tanış olmaq və habelə məhkəmədə ana dilində çıxışda bulunmaq hüququ təmin edilir.

**Madde 118.** Azərbaycan SSR-in bütün məhkəmələrində, müttəhimə müdafiə hüququ təmin edilir və, qanunla istisna nəzərdə tutulmamışsa, işlərə açıq baxılır.

**Madde 119.** Hakimlər müstəqildirlər və yalnız qanuna tabedirlər.

**Madde 120.** Azərbaycan SSR territoriyasında bütün Xalq Qomıssariatları və onlara tabe olan idarələr və habelə ayrı-ayrı vəzifəli şəxslər və həmçinin vətəndaşlar tərəfindən qanunların dürüst yerinə yetirilməsinə ali nəzarət həm bilavasitə SSRİ Proquroru, həm də Azərbaycan SSR proquroru vasitəsilə həyata keçirilir.

**Madde 121.** Azərbaycan SSR proquroru SSRİ proquroru tərəfindən beş il müddətinə təyin edilir.

**Madde 122.** Naxçıvan ASSR və Dağlıx Qarabağ Avtonom Oblastı proqurorları SSRİ proquroru tərəfindən beş il müddətinə təyin edilir.



**Madde 123.** Rayon və şəhər proqurorları, SSRİ Proqurorunun təsdiqi ilə, Azərbaycan SSR Proquroru trəfindən beş il müddətinə təyin edilir.

**Madde 124.** Proqurorlux orqanları öz funqsiyalarını heç bir yerli orqanlardan asılı olmayaraq, həyata keçirirlər və yalnız SSRİ Proquroruna tabedirlər.

## FƏSİL XI

## VƏTƏNDAŞLARIN ƏSAS HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**Madde 125.** Azərbaycan SSR vətəndaşları əmək hüququna, yəni əməklərinin miqdarına və keyfiyyətinə müvafiq olaraq, haqqı verilməklə, qarantiyalı iş almaq hüququna malikdirlər.

Əmək hüququ xalq təsərrüfatının sosialistcəsinə təşkili ilə, sovet cəmiyyətinin məhsuldar qüvvələrinin durmadan artması ilə, təsərrüfat qrizisləri imkanının aradan qaldırılması ilə və ışsızliyın ləğv edilmış olması ilə təmin edilir.

**Madde 126.** Azərbaycan SSR vətəndaşları istirahət hüququna malikdirlər.

İstirahət hüququ, işçilərin böyük çoxluğu üçün iş gününün yeddi saata qədər azaldılması ilə, işçilərin və qulluxçuların əmək haqqı verilərək, hər il məzuniyyətə buraxılması ilə, əməkçilərə xidmət üçün geniş sanatoriyalar, istirahət evləri, qlublar şəbəkəsi verilməklə təmin edilir.

**Madde 127.** Azərbaycan SSR vətəndaşları qocaldıqda və habelə xəstələndikdə və əmək qabiliyyətini itirdikdə maddi təminat hüququna malikdirlər.

Bu hüquq, işçi və qulluxçuların ictimai sığortasının, dövlət hesabına olaraq, geniş inkişaf etdirilməsi ilə, əməkçilərə pulsuz tibbi yardımla, əməkçilərin istifadəsinə geniş qurortlar şəbəkəsi verilməklə təmin edilir.

**Madde 128.** Azərbaycan SSR vətəndaşları təhsil hüququna malikdirlər.

Bu hüquq ümumi məcburi ibtidai təhsillə, ali təhsil də daxil olmaqla, təhsilin pulsuz olması ilə, ali məktəbdə oxuyanların böyük çoxluğu üçün dövlət stipendiyaları sisteması ilə, məktəblərdə təhsilin ana dilində olması ilə, zavodlarda, sovxozlarda, maşın-traqtor stansiyalarında və qolxozlarda, pulsuz olaraq, əməkçilərin istehsal, texniki və aqronomik təhsilinin təşkili ilə təmin edilir.

**Madde 129.** Azərbaycan SSR-də bütün təsərrüfat, dövlət, qultur və ictimai-səyasi yaşayış sahələrində qadına кişi ilə barabar hüquq verilir.

Qadınların bu hüququnun həyata кeçirilməsi imкanı, əməк, əməк haqqı, istirahət, ictimai sığorta və təhsil üçün qadına кişi ilə barabar hüquq verilməкlə, ana və uşax intereslərinin dövlət tərəfindən qorunması ilə, qadına hamilə olduğu zaman, maaşı mühafizə ediləraк, məzuniyət verilməsi ilə, doğum evlərinin, uşax yasliləri və bağçalarının geniş şəbəкəsi ilə təmin edilir.

**Madde 130.** Bütün təsərrüfat, dövlət, qultur və ictimai-səyasi yaşayış sahələrində milliyət və irqlərindən asılı olmayaraq, Azərbaycan SSR vətəndaşlarının hüquqca barabarlığı sarsılmaz bir qanundur.

Vətəndaşların irq və milli mənsubiyətlərindən asılı olaraq, onların hüququnun açıxdan-açığa və ya dolayı yolla hər hansı bir şəкildə məhdud edilməsi və ya, biləкs, açıxdan-açığa və dolayı yolla onlara üstünlüк verilməsi, habelə irq və ya milli müstəsnalığın və ya nifrət və etinasızlığın hər hansı bir şəкildə tətbiq edilməsi – qanunla cəzalandırılır.

**Madde 131.** Vətəndaşlara vicdan azadlığını təmin etməк məqsədilə Azərbaycan SSR-də din dövlətdən və məктəb dindən ayrılmışdır. Bütün vətəndaşlar dini ayinləri icra etməкdə və din əleyhinə propaqanda aparmaqda azaddırlar.

**Madde 132.** Əməкçilərin intereslərinə müvafiq olaraq, və sosialist quruluşunu möhкəmləndirməк məqsədilə Azərbaycan SSR vətəndaşlarına:

a) söz azadlığı,
b) mətbuat azadlığı,
c) yığıncaxlar və mitinqlər azadlığı,
ç) кüçə yerişləri və nümayişlər azadlığı qarantiya edilir.

Vətəndaşların bu hüququ, əməкçilərə və onların təşкilatlarına mətbəə, кağız ehtiyatı, ictimai binalar, кüçələr, rabitə vasitələri və haman hüququ həyata кeçirməк üçün lazım olan başqa maddi şərayit verilməкlə təmin edilir.

**Madde 133.** Əməкçilərin intereslərinə müvafiq olaraq, və xalq кütlələrinin təşкilatca öz fəaliyətini və səyası aqtivliyini inкişaf etdirməк məqsədilə Azərbaycan SSR vətəndaşlarına ictimai təşкilatlarda: həmкarlar ittifaqlarında, qooperativ birləşmələrində, gənclər təşкilatlarında, sport və müdafiə təşкilatlarında, qultur, texniкi və elmi cəmiyətlərdə birləşməк hüququ təmin edilir, işçi sinfinin və əməкçilərin başqa təbəqələri sıralarından olan ən aqtiv və şyurlu



vətəndaşlar isə əməкçilərin, sosialist quruluşunu möhкəmləndirməк və inкişaf etdirməк uğrundaкı mübarizələrində onların qabaxcıl dəstəsi və əməкçilərin bütün, istər ictimai, istərsə dövlət təşкilatlarının rəhbər yadrosu olan Ümum İttifaq Qommunist (bolşeviqlər) Partiyasında birləşirlər.

**Madde 134.** Azərbaycan SSR vətəndaşlarına şəxsiyətin toxunulmazlığı təmin edilir. Məhкəmənin qərarı və ya proqurorun sanqsiyası olmadan heç кəs həbs edilə bilməz.

**Madde 135.** Vətəndaşların mənzilinin toxunulmazlığı və yazışma sirri qanunla qorunur.

**Madde 136.** Azərbaycan SSR, əməкçilərin intereslərini müdafiə etdiкlərinə görə, yaxud elmi fəaliyətlərinə görə, yaxud milli qurtuluş uğrunda mübarizələrinə görə təqib edilən əcnəbi vətəndaşlara sığınma hüququ verir.

**Madde 137.** Azərbaycan SSR-in hər bir vətəndaşı Azərbaycan SSR-in Qonstitusiyasına rəayət etməyə, qanunları yerinə yetirməyə, əməк dıssiplinasını gözətməyə, ictimai vəzifəyə namusla yanaşmağa, sosialist birgəyaşayış qaydalarına hörmət etməyə məcburdur.

**Madde 138.** Azərbaycan SSR-in hər bir vətəndaşı sovet quruluşunun müqəddəs və toxunulmaz əsası olan, vətənin sərvət və qüdrət mənbəi olan, bütün əməкçilərin varlı və qultur həyatının mənbəi olan ictimai, sosialist mülкiyəti qorumağa və möhкəmləndirməyə məcburdur.

İctimai, sosialist mülкiyətə qəsd edən şəxslər xalqın düşmənidirlər.

**Madde 139.** Ümumi əsкərliк vəzifəsi bir qanundur.

İşçi-Кəndli Qızıl Ordusunda əsкərliк xidməti Azərbaycan SSR vətəndaşlarının şərəfli vəzifəsidir.

**Madde 140.** Vətəni müdafiə etməк Azərbaycan SSR-in hər bir vətəndaşının müqəddəs borcudur. Vətənə xəyanət: andı pozmaq, düşmən tərəfinə кeçməк, dövlətin hərbi qüdrətinə zərər vurmaq, şpionlux etməк – ən ağır bir cinayət olaraq, qanunun bütün şiddəti ilə cəzalandırılır.

## FƏSİL XII

## SEÇKİ SİSTEMASI

**Maddə 141.** Bütün Əməkçi Deputatları Sovetlərinə: Azərbaycan SSR Baş Sovetinə, Naxçıvan ASSR Baş Sovetinə, Dağlıx Qarabağ Avtonom Oblastı Əməkçi Deputatları Sovetinə, rayon, şəhər, kənd Əməkçi Deputatları Sovetlərinə deputatlar – seçicilər tərəfindən gizli səs verməklə ümumi, barabar və müstəqim seçki hüququ əsası ilə seçilir.

**Maddə142.** Deputat seçkiləri ümumidir: ağıldan məhrum olan və məhkəmə tərəfindən məhkum edilib seçki hüququndan məhrum edilmiş şəxslərdən savayı, Azərbaycan SSR-in 18 yaşına çatmış bütün vətəndaşları, ırq və milliyət mənsubiyətindən, dilindən, təhsil dərəcəsindən, oturaxlığından, ictimai nəslindən, əmlak vəziyətindən və keçmiş fəaliyətindən asılı olmayaraq, deputat seçkilərində iştirak etmək və seçilmək hüququna malikdirlər.

**Maddə 143.** Deputat seçkiləri barabardır: hər bir vətəndaş bir səsə malikdir; bütün vətəndaşlar seçkilərdə barabar əsaslar üzrə iştirak edirlər.

**Maddə 144.** Qadınlar kişilərlə bir barabarda seçmək və seçilmək hüququna malikdirlər.

**Maddə 145.** Qızıl Ordu sıralarında olan vətəndaşlar, bütün vətəndaşlarla bir barabarda seçmək və seçilmək hüququna malikdirlər.

**Maddə 146.** Deputatların seçkiləri müstəqimdir: kənd və şəhər Əməkçi Deputatları Sovetindən tutmuş Azərbaycan SSR Baş Sovetinə varıncayadək bütün Əməkçi Deputatları Sovetlərinə seçkilər vətəndaşlar tərəfindən bilavasitə müstəqim seçki yolu ilə icra edilir.

**Maddə 147.** Deputat seçkilərində səsvermə gizlidir.

**Maddə 148.** Azərbaycan SSR Əməkçi Deputatları Sovetlərinə seçkilər seçki oqruqları üzrə aşağıdakı normalarla icra edilir:

Rayon Sovetinə, rayonun böyüklüyündən asılı olaraq, ən azı 300 və ən çoxu 1.000 nəfər əhalidən bir deputat;

Şəhər Sovetinə və şəhərlərdəki rayon Sovetlərinə, şəhərlərin və ya şəhər rayonlarının böyüklüyündən asılı olaraq, ən azı 100 və ən çoxu 750 nəfər əhalidən bir deputat;

Bakı Şəhər Sovetinə, 1.000 nəfər əhalidən bir deputat;

Kənd Sovetinə, kənd Sovetinin fəaliyət rayonunun böyüklüyündən asılı olaraq, ən azı 25 və ən çoxu 150 nəfər əhalidən bir deputat.



Hər bir rayon və şəhər Əməkçi Deputatları Soveti üçün və kənd Əməkçi Deputatları Sovetləri üçün seçki normaları, həmin maddədə göstərilmiş seçki normaları daxilində, «Azərbaycan SSR Əməkçi Deputatları Sovetlərinə seçkilərə dayir Əsasnamə» ilə qərarlaşdırılır.

Naxçıvan ASSR və Dağlıx Qarabağ Avtonom Oblastı kənd Əməkçi Deputatları Sovetlərinə seçki normaları, həmin maddədə göstərilmiş seçki normaları daxilində, müvafiq olaraq Naxçıvan ASSR Baş Soveti tərəfindən və Dağlıx Qarabağ Avtonom Oblastının oblast Əməkçi Deputatları Soveti tərəfindən qərarlaşdırılır.

**Maddə 149.** Seçkilərdə qandidatlar seçki oqruqları üzrə göstərilir.

Qandidat göstərmək hüququ ictimai təşkilatlara və əməkçi cəmiyətlərinə: qommunist partiyası təşkilatlarına, həmkarlar ittifaqlarına, qooperativlərə, gənclər təşkilatlarına, qultura cəmiyətlərinə təmin edilir.

**Maddə 150.** Hər bir deputat öz işi haqqında və Əməkçi Deputatları Sovetinin işi haqqında seçicilər qarşısında hesabat verməyə məcburdur və seçicilərin çoxluğunun qərarı ilə qanunla qərarlaşdırılmış qayda üzrə hər bir zaman geri çağırıla bilər.

## FƏSİL XIII
## GERB, FLAQ, PAYTAXT

**Maddə 151.** Azərbaycan Sovet Sosialist Respubliqasının dövlət gerbi, üzərində Azərbaycan və rus dillərində «Azərbaycan Sovet Sosialist Respubliqası» və «Bütün ölkələrin proletarları, birləşin!» sözləri yazılmış və doğmaqda olan günəş fonu üzərinə pambux və sünbül əklilindən ibarət haşıyə ilə çəkilmiş orax və çəkicdən və ön planda neft vışqasından ibarətdir. Gerbin yuxarısında beşbucaxlı ulduz vardır.

**Maddə 152.** Azərbaycan Sovet Sosialist Respubliqasının dövlət flaqı, sol bucağında, flaq ağacı yanında yuxarıda qızılla orax və çəkic çəkilmiş və üstündə Azərbaycan dilində «Az SSR» sözləri yazılmış qırmızı qumaşdan ibarətdir.

**Maddə 153.** Azərbaycan Sovet Sosialist Respubliqasının paytaxtı Bakı şəhəridir.

## FƏSİL XIV
## QONSTİTUSİYANI DƏYİŞDİRMƏK QAYDASI

**Maddə 154.** Azərbaycan SSR Qonstitusiyası ancax Azərbaycan SSR Baş Sovetinin, Azərbaycan SSR Baş Soveti üzvləri səslərinin üçdə iki hissəsindən az olmayan çoxluğu ilə qəbul edilmiş qərarı ilə dəyişdirilir.



# 1978-Cİ İLİN KONSTİTUSİYASI

## AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ KONSTİTUSİYASI (ƏSAS QANUNU)

V.İ.Lenin başda olmaqla Kommunist Partiyasının rəhbərliyi altında Rusiya fəhlələri və kəndliləri tərəfindən həyata keçirilmiş Böyük Oktyabr sosialist inqilabı bəşəriyyət tarixində yeni dövrün başlanğıcını qoymuş, çoxmillətli ölkəmizin xalqlarının müqəddəratında əsaslı dönüş yaratmışdır.

Böyük Oktyabr bayrağı altında Azərbaycanın fəhlə sinfi və əməkçi kəndliləri mülkədarlar və kapitalistlər hakimiyyətini devirmiş, zulm buxovlarını qırmış, proletariat diktaturası qurmuş və tarixdə ilk dəfə özlərinin Sovet dövlətini – Azərbaycan Sovet Sosialist Respublikasını yaratmışlar.

Azərbaycan SSR Azərbaycan xalqının iradəsini ifadə edərək digər bərabər hüquqlu sovet respublikaları ilə vahid ittifaq dövlətində – Sovet Sosialist Respublikaları İttifaqında birləşmişdir. SSRİ-nin təşkil edilməsi sosializm quruculuğunda ölkə xalqlarının qüvvələrini və imkanlarını artırmışdır.

Qardaş sovet respublikalarının möhkəm ittifaqında, sosialist ictimai quruluşunun böyük tarixi üstünlükləri, Sov İKP-nin Lenin milli siyasətinin ardıcıl həyata keçirilməsi sayəsində Azərbaycan SSR zəhmətkeşləri iqtisadi, siyasi və sosial-mədəni həyatın bütün sahələrində görkəmli müvəffəqiyyətlər qazanmışlar.

Kommunist Partiyasının rəhbərliyi altında sovet xalqının yaradıcı fəaliyyəti nəticəsində SSRİ-də inkişaf etmiş sosializm cəmiyyəti – əmək adamlarının əsil azadlığı cəmiyyəti qurulmuşdur, elə bir cəmiyyət ki, burada qüdrətli məhsuldar qüvvələr yaradılmışdır, yetkin sosialist ictimai münasibətləri bərqərar edilmişdir, xalqın rifahı və mədəniyyəti durmadan yüksəlir, fəhlə sinfinin, kolxozçu kəndlilərin və xalq ziyalılarının sarsılmaz ittifaqı möhkəmlənir.

Azərbaycan Sovet Sosialist Respublikası sovet xalqının dövlət birliyini təcəssüm etdirən, birlikdə kommunizm qurmaq üçün bütün

millətləri və xalqları sıx birləşdirən SSR İttifaqının tərkibində bərabər hüquqlu respublikadır

Azərbaycan Sovet Sosialist Respublikasının xalqı özünün sovet xalqının ayrılmaz hissəsi olduğunu dərk edərək, elmi kommunizm ideyalarını rəhbər tutaraq, öz inqilabi və beynəlmiləl ənənələrinə sadiq qalaraq, Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının, Azərbaycan SSR-in 1925-ci il Konstitusiyasının, Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının ideyalarının və prinsiplərinin varisliyini qoruyub saxlayaraq və SSRİ-nin ictimai quruluşunun və siyasətinin əsaslarını təsbit edən, vətəndaşların hüquqlarını, azadlıqlarını və vəzifələrini, sosialist ümumxalq dövlətinin təşkili prinsiplərini və məqsədlərini müəyyən edən SSR İttifaqı Konstitusiyasına (Əsas Qanuna) müvafiq olaraq bu Konstitusiyanı qəbul və elan edir.

## I. AZƏRBAYCAN SSR-İN İCTİMAİ QURULUŞUNUN VƏ SİYASƏTİNİN ƏSASLARI

## 1-Cİ FƏSİL

## SİYASİ SİSTEM

**Maddə 1.** Azərbaycan Sovet Sosialist Respublikası fəhlələrin, kəndlilərin və ziyalıların, respublikanın bütün millətlərdən olan zəhmətkeşlərinin iradə və mənafeyini ifadə edən sosialist ümumxalq dövlətidir

**Maddə 2.** Azərbaycan SSR-də bütün hakimiyyət xalqa məxsusdur

Xalq dövlət hakimiyyətini Azərbaycan SSR-in siyasi əsası olan xalq deputatları Sovetləri vasitəsilə həyata keçirir.

Bütün başqa dövlət orqanları xalq deputatları Sovetlərinin nəzarəti altındadır və onlara hesabat verirlər

**Maddə 3.** Sovet dövlətinin təşkili və fəaliyyəti demokratik mərkəziyyət prinsipinə aşağıdan yuxarıyadək bütün dövlət hakimiyyəti orqanlarının seçkili olması, onların xalqa hesabat verməsi, yuxarı orqanların qərarlarının aşağı orqanlar üçün məcburi olması prinsipinə uyğun surətdə qurulur Demokratik mərkəziyyət vahid rəhbərliyi yerlərdəki təşəbbüskarlıqla və yaradıcı fəallıqla, hər bir dövlət orqanının və vəzifəli şəxsin tapşırılan iş üçün məsuliyyəti ilə əlaqələndirir.

**Maddə 4.** Sovet dövləti, onun bütün orqanları sosialist qanunçuluğu əsasında fəaliyyət göstərir, hüquq qaydalarının, cəmiyyətin mənafeyinin, vətəndaşların hüquq və azadlıqlarının mühafizəsini təmin edirlər.

Dövlət təşkilatları və ictimai təşkilatlar, vəzifəli şəxslər SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına və sovet qanunlarına əməl etməyə borcludurlar

**Maddə 5.** Dövlət həyatının ən vacib məsələləri ümumxalq müzakirəsinə verilir, habelə ümumxalq səsverməsinə (referenduma) 96qoyulur.

**Maddə 6.** Sovet cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin, dövlət və ictimai təşkilatlarının özəyi Sovet ittifaqı Kommunist Partiyasıdır Sov İKP xalq üçün yaşayır və xalqa xidmət edir.

Marksizm-leninizm təlimi ilə silahlanmış Kommunist partiyası cəmiyyətin inkişafının baş perspektivini, SSRİ-nin daxili və xarici siyasət xəttini müəyyən edir, sovet xalqının böyük quruculuq fəaliyyətinə rəhbərlik edir, kommunizmin qələbəsi uğrunda onun mübarizəsinə planauyğun, elmi cəhətdən əsaslandırılmış xarakter verir

Bütün partiya təşkilatları SSRİ Konstitusiyası dairəsində fəaliyyət göstərirlər

**Maddə 7.** Həmkarlar ittifaqları, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı, kooperativ təşkilatları və başqa ictimai təşkilatlar öz nizamnamə vəzifələrinə uyğun olaraq dövlət işlərinin və ictimai işlərin idarə olunmasında, siyasi məsələlərin, təsərrüfat məsələlərinin və sosial-mədəni məsələlərin həllində iştirak edirlər

**Maddə 8.** Əmək kollektivləri dövlət işlərinin və ictimai işlərin müzakirəsində və həllində, istehsalın və sosial inkişafın planlaşdırılmasında, kadrların hazırlanmasında və yerləşdirilməsində, müəssisələri və idarələri idarə etmək, əmək və məişət şəraitini yaxşılaşdırmaq, istehsalın inkişafı üçün, habelə sosial-mədəni tədbirlər və maddi həvəsləndirmə üçün nəzərdə tutulan vəsaitdən istifadə etmək məsələlərinin müzakirəsində və həllində iştirak edirlər

Əmək kollektivləri sosializm yarışını inkişaf etdirir, qabaqcıl iş metodlarının yayılmasına, əmək intizamının möhkəmləndirilməsinə kömək edir, öz üzvlərini kommunist əxlaqı ruhunda tərbiyələndirir, onların siyasi şüurluluğunu, mədəniyyətini və peşə ixtisasını yüksəltmək qayğısına qalırlar

**Maddə 9.** Sovet cəmiyyətinin siyasi sisteminin inkişafında əsas istiqamət sosialist demokratiyasının daha da genişləndirilməsindən, dövlət və cəmiyyət işlərinin idarə olunmasında vətəndaşların getdikcə

daha geniş iştirak etməsindən, dövlət aparatının təkmilləşdirilməsindən, ictimai təşkilatların fəallığının artırılmasından, xalq nəzarətinin gücləndirilməsindən, dövlət həyatının və ictimai həyatın hüquqi əsasının möhkəmləndirilməsindən, aşkarlığın genişləndirilməsindən, ictimai rəyin daim nəzərə alınmasından ibarətdir.

## 2-Cİ FƏSİL

## İQTİSADİ SİSTEM

**Maddə 10.** Azərbaycan SSR-in iqtisadi sisteminin əsasını dövlət (ümumxalq) və kolxoz-kooperativ mülkiyyəti formasında istehsal vasitələri üzərində sosialist mülkiyyəti təşkil edir.

Həmkarlar ittifaqları təşkilatlarına və başqa ictimai təşkilatlara öz nizamnamə vəzifələrini yerinə yetirmək üçün lazım olan əmlak da sosialist mülkiyyətidir.

Dövlət sosialist mülkiyyətini mühafizə edir və onun artırılması üçün şərait yaradır.

Sosialist mülkiyyətindən şəxsi qazanc üçün və başqa tamah məqsədilə istifadə etməyə heç kimin haqqı yoxdur.

**Maddə 11.** Dövlət mülkiyyəti bütün sovet xalqının ümumi sərvətidir, sosialist mülkiyyətinin əsas formasıdır.

Torpaq və yerin təki, sular, meşələr dövlətin müstəsna mülkiyyətidir. Sənayedə, tikintidə və kənd təsərrüfatında əsas istehsal vasitələri, nəqliyyat və rabitə vasitələri, banklar, dövlət tərəfindən təşkil edilmiş ticarət və kommunal müəssisələrinin, başqa müəssisələrin əmlakı, şəhərlərin əsas mənzil fondu, habelə dövlətin vəzifələrinin həyata keçirilməsi üçün lazım olan başqa əmlak dövlətə məxsusdur.

**Maddə 12.** Kolxozların və başqa kooperativ təşkilatlarının, onların birliklərinin mülkiyyəti istehsal vasitələrindən və onlara öz nizamnamə vəzifələrini həyata keçirmək üçün lazım olan başqa əmlakdan ibarətdir.

Kolxozların ixtiyarında olan torpaq pulsuz və müddətsiz istifadə üçün onlara təhkim edilir.

Dövlət kolxoz-kooperativ mülkiyyətinin inkişafına və onun dövlət mülkiyyətinə yaxınlaşmasına kömək edir.

Kolxozlar, eləcə də torpaqdan istifadə edən başqaları torpaqdan səmərəli istifadə etməli, ona qayğı ilə yanaşmalı, onun münbitliyini artırmalıdırlar.

**Maddə 13.** Azərbaycan SSR vətəndaşlarının şəxsi mülkiyyətinin



əsasını əməklə qazanılmış gəlir təşkil edir. Şəxsi mülkiyyətdə məişət avadanlığı, şəxsi istehlak və rahatlıq şeyləri, yardımçı ev təsərrüfatı şeyləri, yaşayış evi və əməklə qazanılmış vəsait yığımı ola bilər. Vətəndaşların şəxsi mülkiyyəti və ona vərəsəlik hüququ dövlət tərəfindən mühafizə olunur.

Vətəndaşların istifadəsində yardımçı təsərrüfat üçün (o cümlədən, mal-qara və quş saxlamaq üçün), bağçılıq və bostançılıq, habelə fərdi mənzil tikintisi üçün qanunla müəyyən edilmiş qaydada verilən torpaq sahələri ola bilər. Vətəndaşlar onlara verilən torpaq sahələrindən səmərəli istifadə etməlidirlər. Dövlət və kolxozlar yardımçı təsərrüfatın idarə edilməsində vətəndaşlara yardım göstərirlər.

Vətəndaşların şəxsi mülkiyyətində və ya istifadəsində olan əmlak zəhmətsiz gəlir mənbəyi olmamalı, ondan cəmiyyətin mənafeyi zərərinə istifadə edilməməlidir.

**Maddə 14.** İctimai sərvəti artırmaq, xalqın və hər bir sovet adamının rifahını yüksəltmək mənbəyi sovet adamlarının istismardan azad əməyidir.

Dövlət sosializmin "Hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə" prinsipinə uyğun olaraq əmək və istehlak ölçüsünə nəzarət edir. Dövlət vergi tutulmalı olan gəlirdən verginin miqdarını müəyyən edir.

İctimai faydalı əmək və onun nəticələri cəmiyyətdə insanın mövqeyini müəyyən edir. Dövlət maddi və mənəvi stimulları əlaqələndirərək, yenilikçiliyə, işə yaradıcı münasibətə həvəs oyadaraq əməyin hər bir sovet adamı üçün birinci həyati tələbata çevrilməsinə kömək edir.

**Maddə 15.** Sosializmdə ictimai istehsalın ali məqsədi adamların getdikcə artan maddi və mənəvi tələbatını ən dolğun ödəməkdən ibarətdir.

Dövlət zəhmətkeşlərin yaradıcı fəallığına, sosializm yarışına, elmi-texniki tərəqqinin nailiyyətlərinə arxalanaraq, iqtisadiyyata rəhbərlik formalarını və metodlarını təkmilləşdirərək əmək məhsuldarlığının artmasını, istehsalın səmərəliliyinin və işin keyfiyyətinin yüksəlməsini, xalq təsərrüfatının dinamik, planauyğun və proporsional inkişafını təmin edir.

**Maddə 16.** Azərbaycan SSR iqtisadiyyatı SSRİ ərazisində ictimai istehsalın, bölgünün və mübadilənin bütün sahələrini əhatə edən vahid xalq təsərrüfatı kompleksinin tərkib hissəsidir.

İqtisadiyyata rəhbərlik dövlət iqtisadi və sosial inkişaf planları əsasında, sahə və ərzaq perspektivləri nəzərə alınmaqla, mərkəzləşdirilmiş qaydada idarəetməni müəssisələrin, birliklərin və başqa

təşkilatların təsərrüfat müstəqilliyi və təşəbbüskarlığı ilə əlaqələndirmək yolu ilə həyata keçirilir. Bu zaman təsərrüfat hesabından, mənfəətdən, maya dəyərindən, digər iqtisadi vasitələrdən və stimullardan fəal istifadə olunur.

**Maddə 17.** Azərbaycan SSR-də kustar sənətkar peşələri, kənd təsərrüfatı, əhaliyə məişət xidməti sahəsində fərdi əmək fəaliyyətinə, habelə yalnız vətəndaşların və onların ailə üzvlərinin şəxsi əməyinə əsaslanan başqa fəaliyyət növlərinə qanunla yol verilir. Dövlət fərdi əmək fəaliyyətini nizama salır, ondan cəmiyyətin xeyrinə istifadə olunmasını təmin edir.

**Maddə 18.** İndiki nəslin və gələcək nəsillərin xeyrinə olaraq Azərbaycan SSR-də torpağın, yerin təkinin, su ehtiyatlarının, bitkilər və heyvanlar aləminin mühafizəsi, bunlardan elmi cəhətdən əsaslandırılmış qaydada, səmərəli istifadə olunması, havanın və suyun təmizliyinin qorunması, təbii sərvətlərin bərpasının təmin edilməsi və insanı əhatə edən mühitin yaxşılaşdırılması üçün lazımi tədbirlər görülür.

## 3-CÜ FƏSİL

## SOSİAL İNKİŞAF VƏ MƏDƏNİYYƏT

**Maddə 19.** Azərbaycan SSR-in sosial əsasını fəhlələrin, kəndlilərin və ziyalıların sarsılmaz ittifaqı təşkil edir.

Dövlət cəmiyyətin sosial yekcinsliyinin güclənməsinə – sinfi fərqlərin, şəhərlə kəndin, əqli əməklə fiziki əmək arasında mühüm fərqlərin silinməsinə, SSRİ-nin bütün millətlərinin və xalqlarının hərtərəfli inkişaf etməsinə və bir-birinə yaxınlaşmasına kömək edir.

**Maddə 20.** Kommunizmin "Hər kəsin azad inkişafı, hamının azad inkişafı üçün şərtdir" idealına uyğun olaraq dövlət öz qarşısına vətəndaşların öz yaradıcı qüvvələrini, qabiliyyətlərini və istedadlarını tətbiq etmələri üçün, şəxsiyyətin hərtərəfli inkişafı üçün real imkanları genişləndirmək məqsədini qoyur.

**Maddə 21.** Dövlət əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsi, onun elmi təşkili, xalq təsərrüfatının bütün sahələrində istehsal proseslərini kompleks mexanikləşdirmək və avtomatlaşdırmaq əsasında ağır fiziki əməyin azaldılması, sonra isə tamamilə aradan qalldırılması qayğısına qalır.

**Maddə 22.** Azərbaycan SSR-də kənd təsərrüfatı əməyini sənaye əməyinin bir növünə çevirmək, kənd yerlərində xalq maarifi, mədəniyyət, səhiyyə, ticarət və ictimai iaşə, məişət xidməti və kommunal təsərrüfatı müəssisələri şəbəkəsini genişləndirmək, kəndləri abad qəsəbələrə çevirmək proqramı ardıcıl həyata keçirilir.



**Maddə 23.** Dövlət əmək məhsuldarlığının artması əsasında zəhmətkeşlərin əmək haqqı və real gəlir səviyyəsinin yüksəldilməsi xəttini dönmədən yeridir.

Sovet adamlarının tələbatını daha dolğun ödəmək məqsədilə ictimai istehlak fondları yaradılır. Dövlət ictimai təşkilatların və əmək kollektivlərinin geniş iştirakı ilə bu fondların artmasını və ədalətlə bölünməsini təmin edir.

**Maddə 24.** Azərbaycan SSR-də dövlət səhiyyə, sosial təminat, ticarət və ictimai iaşə, məişət xidməti və kommunal təsərrüfatı sistemləri fəaliyyət göstərir və inkişaf edir.

Dövlət əhaliyə xidmətin bütün sahələrində kooperativ təşkilatların və başqa ictimai təşkilatların fəaliyyətini həvəsləndirir. Dövlət kütləvi bədən tərbiyəsinin və idmanın inkişafına kömək edir.

**Maddə 25.** Azərbaycan SSR-də vətəndaşların ümumtəhsil və peşə hazırlığını təmin edən, gənclərin kommunist tərbiyəsinə, mənəvi və fiziki inkişafına xidmət edən, onları əməyə və ictimai fəaliyyətə hazırlayan vahid xalq maarifi sistemi mövcuddur və təkmilləşir.

**Maddə 26.** Cəmiyyətin tələbatına müvafiq olaraq dövlət elmin planauyğun inkişafını və elmi kadrlar hazırlanmasını təmin edir, elmi tədqiqat nəticələrinin xalq təsərrüfatında və həyatın başqa sahələrində tətbiq olunmasını təşkil edir.

**Maddə 27.** Dövlət mənəvi sərvətləri mühafizə etmək və artırmaq, bunlardan sovet adamlarının mənəvi və estetik tərbiyəsi üçün, onların mədəni səviyyəsinin yüksəldilməsi üçün geniş istifadə etmək qayğısına qalır.

Azərbaycan SSR-də peşəkar incəsənətin və xalq bədii yaradıcılığının inkişafı hər vasitə ilə həvəsləndirilir.

## 4-CÜ FƏSİL

## XARİCİ SİYASƏT FƏALİYYƏTİ VƏ SOSİALİST VƏTƏNİNİN MÜDAFİƏSİ

**Maddə 28.** Azərbaycan SSR öz xarici siyasət fəaliyyətində SSSRİ Konstitusiyası ilə müəyyən edilmiş xarici siyasət məqsədlərini, vəzifələrini və prinsiplərini rəhbər tutur.

Azərbaycan SSR-də müharibə təbliğatı qadağan edilir.

**Maddə 29.** SSRİ Konstitusiyasına uyğun olaraq sosialist Vətəninin müdafiəsi dövlətin ən mühüm funksiyalarından biridir və bütün xalqın işidir.

Sosialist nailiyyətlərini, sovet xalqının dinc əməyini, dövlətin suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək məqsədilə SSRİ Silahlı Qüvvələri yaradılmış və ümumi əsgər vəzifə müəyyən edilmişdir.

SSRİ Silahlı Qüvvələrinin xalq qarşısında borcu sosialist Vətənini etibarlı müdafiə etməkdən, hər hansı təcavüzkarın dərhal dəf olunmasını təmin etmək üçün döyüşə daim hazır olmaqdan ibarətdir.

**Maddə 30.** Azərbaycan SSR ölkənin təhlükəsizliyinin və müdafiə qabliyyətinin təmin edilməsində, SSRİ Silahlı Qüvvələrinin lazım olan hər şeylə təchiz olunmasında iştirak edir.

Ölkənin təhlükəsizliyini təmin etmək və müdafiə qabiliyyətini möhkəmlətmək sahəsində dövlət orqanlarının, ictimai təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların vəzifələri SSR İttifaqı qanunları ilə müəyyən olunur.

## II. DÖVLƏT VƏ ŞƏXSİYYƏT

### 5-Cİ FƏSİL

### AZƏRBAYCAN SSR VƏTƏNDAŞLIĞI, VƏTƏNDAŞLARIN HÜQUQ BƏRABƏRLİYİ

**Maddə 31.** SSRİ-də müəyyən edilmiş vahid ittifaq vətəndaşlığına müvafiq olaraq Azərbaycan SSR-in hər bir vətəndaşı SSRİ-nin vətəndaşıdır.

Sovet vətəndaşlığının əldə edilməsinin və itirilməsinin əsasları və qaydası SSRİ vətəndaşlığı haqqında qanunla müəyyən olunur.

Başqa müttəfiq respublikaların vətəndaşları Azərbaycan SSR ərazisində Azərbaycan SSR vətəndaşları ilə eyni hüquqlara malikdirlər.

Azərbaycan SSR vətəndaşları xaricdə Sovet dövlətinin müdafiəsindən və himayəsindən istifadə edirlər.

**Maddə 32.** Azərbaycan SSR vətəndaşları mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə mənsubiyyətindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər.



Azərbaycan SSR vətəndaşlarının hüquq bərabərliyi iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində təmin edilir.

**Maddə 33.** Azərbaycan SSR-də qadınla kişi bərabər hüquqlara malikdirlər.

Bu hüquqların həyata keçirilməsi təhsil almaqda və peşə hazırlığı keçməkdə, əməkdə, əmək haqqı almaqda və işdə irəli çəkilməkdə, ictimai-siyasi və mədəni fəaliyyətdə qadınlara kişilərlə bərabər imkanlar verilməklə, habelə qadınların əməyinin və sağlamlığının mühafizəsi sahəsində xüsusi tədbirlərlə, qadınlara əməyi analıq vəzifəsi ilə əlaqələndirmək imkanı verən şərait yaratmaqla, anaları və uşaqları hüquqi cəhətdən müdafiə etməklə, onlara maddi və mənəvi yardım göstərməklə, o cümlədən hamilə qadınlara və analara haqqı ödənilən məzuniyyət və digər güzəştlər verilməklə azyaşlı uşaqları olan qadınların iş vaxtını tədricən qısaltmaqla təmin edilir.

**Maddə 34.** Müxtəlif irq və millətlərdən olan Azərbaycan SSR vətəndaşları bərabər hüquqlara malikdirlər.

Bu hüquqların həyata keçirilməsi SSRİ-nin bütün millətlərini və xalqlarını hərtərəfli inkişaf etdirmək və bir-birinə yaxınlaşdırmaq siyasəti ilə, vətəndaşların sovet vətənpərvərliyi və sosialist beynəlmiləlçiliyi ruhunda tərbiyə olunması ilə, ana dilindən və SSRİ-nin başqa xalqlarının dillərindən istifadə etmək imkanı ilə təmin edilir.

Hüquqların bilavasitə və ya dolayısı ilə hər hansı şəkildə məhdudlaşdırılması, irqi və milli əlamətlərə görə vətəndaşlar üçün bilavasitə və ya dolayı üstünlüklər müəyyən edilməsi, eləcə də irqi və ya milli müstəsnalığın, ədavətin və ya etinasızlığın hər hansı şəkildə təbliğ olunması qanunla cəzalandırılır.

**Maddə 35.** Azərbaycan SSR-də əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə qanunla nəzərdə tutulmuş hüquqlar və azadlıqlar, o cümlədən onlara məxsus şəxsi hüquqların, əmlak, ailə hüquqlarının və başqa hüquqların müdafiəsi üçün məhkəməyə və digər dövlət orqanlarına müraciət etmək hüququ təmin olunur.

Azərbaycan SSR ərazisində olan əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına hörmət etməli və sovet qanunlarına əməl etməlidirlər.

**Maddə 36.** Azərbaycan SSR zəhmətkeşlərin mənafeyini və sülh işini müdafiə etmək üstündə inqilabi hərəkatda və milli azadlıq hərəkatında iştirak etmək üstündə, mütərəqqi ictimai-siyasi, elmi və ya digər yaradıcı fəaliyyət üstündə təqib olunan əcnəbilərə sığınacaq hüququ verir.

## 6-CI FƏSİL

## AZƏRBAYCAN SSR VƏTƏNDAŞLARININ ƏSAS HÜQUQLARI, AZADLIQLARI VƏ VƏZİFƏLƏRİ

**Maddə 37.** Azərbaycan SSR vətəndaşları SSRİ Konstitusiyasında, Azərbaycan SSR Konstitusiyasında və sovet qanunlarında elan edilən və təminat verilən sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlara bütünlüklə malikdirlər. Sosial-iqtisadi və mədəni inkişaf proqramları yerinə yetirildikcə sosializm quruluşu vətəndaşların hüquq və azadlıqlarının genişlənməsini, həyat şəraitinin daim yaxşılaşmasını təmin edir.

Vətəndaşların hüquq və azadlıqlardan istifadə etməsi cəmiyyətin və dövlətin mənafeyinə, digər vətəndaşların hüquqlarına zərər vurmamalıdır.

**Maddə 38.** Azərbaycan SSR vətəndaşları əmək hüququna, yəni əməyin kəmiyyət və keyfiyyətinə uyğun olaraq və dövlət tərəfindən müəyyən edilmiş minimum məbləğdən aşağı olmamaqla haqqı ödənilən təminatlı iş almaq hüququna, o cümlədən həvəsinə, qabiliyyətinə, peşə hazırlığına, təhsilinə münasib olaraq və ictimai tələbat nəzərə alınmaqla peşə, məşğuliyyət növü və iş seçmək hüququna malikdirlər.

Bu hüquq sosialist təsərrüfat sistemi, məhsuldar qüvvələrin durmadan artması, pulsuz peşə təlimi, əmək ixtisasının artırılması və yeni ixtisasların öyrədilməsi, peşə seçməkdə istiqamətləndirmə və işədüzəltmə sistemlərinin inkişaf etdirilməsi ilə təmin edilir.

**Maddə 39.** Azərbaycan SSR vətəndaşları istirahət hüququna malikdirlər.

Bu hüquq fəhlə və qulluqçular üçün 41 saatdan çox olmayan iş həftəsi müəyyən edilməsi ilə, bir sıra peşələr və istehsalatlar üçün qısaldılmış iş günü ilə, gecə vaxtı iş müddətinin qısaldılması ilə, hər ilə haqqı ödənilən məzuniyyət verilməsi, hər həftə istirahət günləri verilməsi, habelə mədəni-maarif və sağlamlıq müəssisələri şəbəkəsinin genişləndirilməsi, kütləvi idmanın, bədən tərbiyəsinin və turizmin inkişaf etdirilməsi ilə, yaşayış yerində istirahət üçün əlverişli imkanlar və asudə vaxtdan səmərəli istifadə üçün digər şərait yaradılması ilə təmin edilir.

Kolxozçuların iş vaxtı və istirahət müddəti kolxozlar tərəfindən nizama salanır.



**Maddə 40.** Azərbaycan SSR vətəndaşları sağlamlığın mühafizəsi hüququna malikdirlər.

Bu hüquqi dövlət səhiyyə müəssisələrinin göstərdikləri pulsuz ixtisaslı tibbi yardımla, vətəndaşları müalicə edən və onların sağlamlığını möhkəmləndirən müəssisələr şəbəkəsinin genişləndirilməsi ilə, təhlükəsizlik texnikasının və istehsalat sanitarsiyasının inkişaf etdirilməsi və təkmilləşdirilməsi ilə, geniş profilaktika tədbirləri görülməsi ilə, ətraf mühiti sağlamlaşdırmaq tədbirləri ilə, böyüməkdə olan nəslin sağlamlığı üçün xüsusi qayğı göstərilməsi, o cümlədən təlimlə və əmək tərbiyəsi ilə əlaqəsi olmayan uşaq əməyinin qadağan edilməsi ilə, xəstələnmə hallarının qarşısının alınmasına və azaldılmasına, vətəndaşların uzun illər fəal həyatının təmin edilməsnə yönəldilən elmi tədqiqatların genişləndirilməsi ilə təmin edilir.

**Maddə 41.** Azərbaycan SSR vətəndaşları qocaldıqda, xəstələndikdə, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə maddi təminat hüququna malikdirlər.

Bu huquq fəhlələrin, qulluqçuların və kolxozçuların sosial sığortası ilə əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinətlərlə, yaşa, əlilliyə və ailə başçısını itirməyə görə dövlət və kolxozlar hesabına pensiyalar verilməsi ilə, əmək qabiliyyətini qismən itirmiş vətəndaşların işə düzəlməsi ilə, qocalara və əlillərə qayğı göstərilməsi ilə, sosial təminatın başqa formaları ilə təmin edilir.

**Maddə 42.** Azərbaycan SSR vətəndaşları mənzil hüququna malikdirlər.

Bu hüquq dövlət və ictimai mənzil fondunun inkişafı və mühafizəsi, kooperativ və fərdi mənzil tikintisinə yardım göstərilməsi ilə, rahat mənzillər tikintisi proqramı həyata keçirildikcə verilən mənzil sahəsinin ictimai nəzarət altında ədalətli bölüşdürülməsi ilə, habelə mənzil haqqının və kommunal xidmətlər üçün haqqın yüksək olmaması ilə təmin edilir. Azərbaycan SSR vətəndaşları onlara verilən mənzilə qayğı ilə yanaşmalıdırlar.

**Maddə 43.** Azərbaycan SSR vətəndaşları təhsil hüququna malikdirlər.

Bu hüquq bütün təhsil növlərinin pulsuz olması, gənclərin hamılıqla icbari orta təhsilinin həyata keçirilməsi ilə, təlimin həyatla, istehsalatla əlaqəsi əsasında texniki peşə, orta ixtisas təhsilinin və ali təhsilin geniş inkişaf etdirilməsi ilə, qiyabi təhsilin və axşam təhsilinin inkişaf etdirilməsi ilə, şagirdlərə və tələbələrə dövlət təqaüdü verilməsi və güzəştlər edilməsi ilə, məktəb dərsliklərinin pulsuz verilməsi ilə məktəbdə ana dilində oxumaq imkanı ilə, müstəqil təhsil üçün şərait

yaradılması ilə təmin olunur.

**Maddə 44.** Azərbaycan SSR vətəndaşları mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququna malikdirlər.

Bu hüquq dövlət fondlarında və ictimai fondlarda olan ölkə və dünya mədəniyyəti sərvətlərinin hamıya müyəssər olması ilə, mədəni-maarif müəssisələrinin inkişaf etdirilməsi və respublika ərazisində bərabər yerləşdirilməsi ilə, televiziya və radionun, kitab nəşri işinin və dövri mətbuatın, pulsuz kitabxanalar şəbəkəsinin inkişaf etdirilməsi ilə, xarici dövlətlərlə mədəni mübadilənin genişləndirilməsi ilə təmin edilir.

**Maddə 45.** Kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq Azərbaycan SSR vətəndaşlarının elmi, texniki və bədii yaradıcılıq azadlığı təmin edilir. Bu azadlıq elmi tədqiqatların, ixtiraçılıq və səmərələşdiricilik fəaliyyətinin daha da genişləndirilməsi, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi ilə təmin olunur. Dövlət bundan ötrü lazımi maddi şərait yaradır, könüllü cəmiyyətlərə və yaradıcılıq ittifaqlarına yardım göstərir, ixtiraların və səmərəlşdirmə təkliflərinin xalq təsərrüfatında və həyatın başqa sahələrində tətbiqini təşkil edir.

Müəlliflərin, ixtiraçıların və səmərələşdiricilərin hüquqları dövlət tərəfindən mühafizə olunur.

**Maddə 46.** Azərbaycan SSR vətəndaşları dövlət işlərinin və ictimai işlərin idarə edilməsində, ümumdövlət və yerli əhəmiyyətli qanun və qərarların müzakirə və qəbul olunmasında iştirak etmək hüququna malikdirlər.

Bu hüquq xalq deputatları Sovetlərinə və başqa seçkili dövlət orqanlarına seçmək və seçilmək, ümumxalq müzakirəsində və səsvermələrində, xalq nəzarətində, dövlət orqanlarının, ictimai təşkilatların və ictimai özfəaliyyət orqanlarının işində, əmək kollektivlərinin yığıncaqlarında və yaşayış yerlərində keçirilən yığıncaqlarda iştirak etmək imkanı ilə təmin olunur.

**Maddə 47.** Azərbaycan SSR-in hər bir vətəndaşı dövlət orqanlarına və ictimai təşkilatlara onların fəaliyyətini yaxşılaşdırmaq barəsində təkliflər vermək, işdə olan nöqsanları tənqid etmək hüququna malikdir.

Vəzifəli şəxslər vətəndaşların təklif və ərizələrinə müəyyən edilmiş müddətlərdə baxmalı, bunlara cavab verməli və lazımi tədbirlər görməlidirlər.

Tənqid üçtündə təqib qadağan edilir. Tənqid üstündə təqib edən şəxslər məsuliyyətə cəlb olunurlar.

**Maddə 48.** Xalqın mənafeyinə uyğun olaraq və sosialzm quruluşunu möhkəmləndirmək və inkişaf etdirmək məqsədilə Azərbaycan



SSR vətəndaşlarına söz, mətbuat, yığıncaqlar, mitinqlər, küçə yürüşləri və nümayişlər azadlığı üçün təminat verilir.

Bu siyasi azadlıqların həyata keçirilməsi zəhmətkeşlərə və onların təşkilatlarına ictimai binalar, küçələr və meydanlar verilməsi, informasiyanın geniş yayılması ilə, mətbuatdan, televiziyadan və radiodan istifadə etmək imkanı ilə təmin edilir.

**Maddə 49.** Kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq Azərbaycan SSR vətəndaşları siyasi fəallığın və özfəaliyyətin inkişafına, onların çoxcəhətli marağının ödənilməsinə kömək edən ictimai təşkilatlarda birləşmək hüququna malikdirlər.

İctimai təşkilatlara öz nizamnamə vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmək üçün şərait təmin edilir.

**Maddə 50.** Azərbaycan SSR vətəndaşlarının vicdan azadlığı, yəni hər hansı dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dini ayinləri icra etmək və ya ateizm təbliğatı aparmaq hüququ təmin olunur. Dini etiqadla əlaqədar ədavət və nifrət oyatmaq qadağan olunur.

Azərbaycan SSR-də din dövlətdən və məktəb dindən ayrılmışdır.

**Maddə 51.** Ailə dövlət tərəfindən müdfiə olunur.

Nikah qadın və kişinin könüllü razılığına əsaslanır; ər və arvad ailə münasibətlərində hüquqca tamamilə bərabərdirlər.

Dövlət uşaq tərbiyə müəssisələrinin geniş şəbəkəsini yaratmaq və onu inkişaf etdirmək, məişət xidmətini və ictimai iaşəni təşkil etmək və təkmilləşdirmək, uşaq anadan olduqda müavinət vermək, çoxuşaqlı ailələrə müavinət vermək və güzəştlər etmək, habelə ailəyə başqa növ müavinət vermək və yardım göstərmək yolu ilə ailənin qayğısına qalır.

**Maddə 52.** Azərbaycan SSR vətəndaşlarının şəxsiyyət toxunulmazlığı üçün təmin verilir. Məhkəmənin qərarı və ya prokurorun sanksiyası olmadan heç kəs həbs edilə bilməz.

**Maddə 53.** Azərbaycan SSR vətəndaşlarına mənzil toxunulmazlığı üçün təminat verilir. Qanuni əsas olmadan heç kəsin mənzildə yaşayan şəxslərin iradəsi ziddinə mənzilə daxil olmaq ixtiyarı yoxdur.

**Maddə 54.** Vətəndaşların şəxsi həyatı, yazışmanın, telefon danışıqlarının və teleqraf rabitəsinin sirri qanunla mühafizə olunur.

**Maddə 55.** Vətəndaşların şəxsiyyətinə hörmət etmək, hüquq və azadlıqlarını mühafizə etmək bütün dövlət orqanlarının, ictimai təşkilatların və vəzifəli şəxslərin borcudur.

Azərbaycan SSR vətəndaşları onların şərəfinə və ləyaqətinə, həyatına və sağlamlığına, şəxsi azadlığına və əmlakına qəsdlərdən məhkəmə yolu ilə müdafiə olunmaq hüququna malikdirlər.

**Maddə 56.** Azərbaycan SSR vətəndaşları vəzifəli şəxslərin, dövlət orqanlarının və ictimai orqanların hərəkətlərindən şikayət etmək hüququna malikdirlər. Şikayətlərə qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxılmalıdır.

Vəzifəli şəxslər qanunu pozmaqla, səlahiyyətini aşmaqla vətəndaşların hüquqlarına toxunan hərəkətlər etdikdə, bu hərəkətlərdən qanunla müəyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Azərbaycan SSR vətəndaşları dövlət təşkilatlarının və ictimai təşkilatların, habelə xidmət vəzifələrini icra edərkən vəzifəli şəxslərin qanunsuz hərəkətləri ilə dəymiş zərərin əvəzini almaq hüququna malikdirlər.

**Maddə 57.** Hüquqların və azadlıqların həyata keçirilməsi vətəndaşın öz vəzifələrini icra etməsindən ayrıla bilməz.

Azərbaycan SSR vətəndaşı SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına və sovet qanunlarına əməl etməli, sosialist birgəyaşayış qaydalarına hörmət etməli, sovet vətəndaşı kimi yüksək adı layiqincə daşımalıdır.

**Maddə 58.** Seçmiş olduğu ictimai-faydalı fəaliyyət sahəsində vicdanla işləmək, əmək intizamına əməl etmək Azərbaycan SSR-in əmək qabiliyyətli hər bir vətəndaşının borcu və şərəf işidir. İctimai faydalı əməkdən boyun qaçırmaq sosializm cəmiyyəti prinsipləri ilə bir araya sığmır.

**Maddə 59.** Azərbaycan SSR vətəndaşı sosialist mülkiyyətini qorumalı və möhkəmləndirməlidir. Dövlət əmlakının və ictimai əmlakın oğurlanmasına və israf edilməsinə qarşı mübarizə aparmaq, xalq malına qayğı ilə yanaşmaq Azərbaycan SSR vətəndaşının borcudur.

Sosialist mülkiyyətinə qəsd edən şəxslər qanunla cəzalandırılır.

**Maddə 60.** Azərbaycan SSR vətəndaşı Sovet dövlətinin mənafeyini qorumalı, onun qüdrətinin və nüfuzunun möhkəmlənməsinə kömək etməlidir.

Sosialist Vətənini müdafiə etmək Azərbaycan SSR-in hər bir vətəndaşının müqəddəs borcudur.

Vətənə xəyanət xalq qarşısında ən ağır cinayətdir.

**Maddə 61.** SSRİ Silahlı Qüvvələri sıralarında əsgəri xidmət Azərbaycan SSR vətəndaşlarının şərəfli vəzifəsidir.

**Maddə 62.** Başqa vətəndaşların milli ləyaqətinə hörmət etmək, çoxmillətli Sovet dövlətinin millətləri və xalqları arasında dostluğu möhkəmlətmək Azərbaycan SSR-in hər bir vətəndaşının borcudur.

**Maddə 63.** Azərbaycan SSR vətəndaşı digər şəxslərin hüquqlarına və qanuni mənafeyinə hörmət etməli, cəmiyyətə zidd hərəkətlərə qarşı barışmaz olmalı, ictimai asayişin qorunmasına hər vasitə ilə kömək etməlidir.



**Maddə 64.** Azərbaycan SSR vətəndaşları uşaqların tərbiyəsinə qayğı göstərməli, onların ictimai faydalı əməyə hazırlanması, sosializm cəmiyyətinin layiqli üzvləri kimi yetişdirilməlidir. Övladlar valideynlərin qayğısına qalmalı və onlara yardım göstərməlidirlər.

**Maddə 65.** Azərbaycan SSR vətəndaşları təbiəti qorumalı, onun sərvətlərini mühfizə etməlidirlər.

**Maddə 66.** Tarixi abidələrin və digər mədəniyyət sərvətlərinin qorunması qayğısına qalmaq Azərbaycan SSR vətəndaşlarının borcu və vəzifəsidir.

**Maddə 67.** Başqa ölkələrin xalqları ilə dostluğun və əməkdaşlığın inkişafına, ümumi sülhün qorunmasına və möhkəmlənməsinə kömək etmək Azərbaycan SSR vətəndaşının beynəlmiləl borcudur.

## III. AZƏRBAYCAN SSR-İN MİLLİ-DÖVLƏT VƏ İNZİBATİ-ƏRAZİ QURULUŞU

### 7-Cİ FƏSİL

### AZƏRBAYCAN SSR SSRİ-NİN TƏRKİBİNDƏ MÜTTƏFİQ RESPUBLİKADIR

**Maddə 68.** Azərbaycan Sovet Sosialist Respublikası suveren sovet sosialist dövlətdir. Müvəffəqiyyətlə kommunizm cəmiyyəti qurmaq, ölkənin iqtisadi və siyasi birliyini möhkəmlətmək, təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Azərbaycan Sovet Sosialist Respublikası onun xalqının öz müqəddəratını azad surətdə təyin etməsi nəticəsində könüllülük və huquq bərabərliyi əsasında sovet sosialist respublikaları ilə

Rusiya Sovet Federativ Sosialist Respublikası,
Ukrayna Sovet Sosialist Respublikası,
Belarusiya Sovet Sosialist Respublikası,
Özbəkistan Sovet Sosialist Respublikası,
Qazaxıstan Sovet Sosialist Respublikası,
Gürcüstan Sovet Sosialist Respublikası,
Litva Sovet Sosialist Respublikası,
Moldaviya Sovet Sosialist Respublikası.

Latviya Sovet Sosialist Respublikası,
Qırğızıstan Sovet Sosialist Respublikası,
Tacikistan Sovet Sosialist Respublikası,
Ermənistan Sovet Sosialist Respublikası,
Türkmənistan Sovet Sosialist Respublikası,
Estoniya Sovet Sosialist Respublikası
ilə birlikdə çoxmillətli vahid ittifaq dövlətində - Sovet Sosialist Respublikaları İttifaqında birləşmişdir.

Buna əsasən, Azərbaycan SSR SSRİ Konstitusiyasının 73-cü maddəsində müəyyən edilmiş hüquqları SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarının simasında SSR İttifaqı üçün təmin edir.

SSRİ Konstitusiyasının 73-cü maddəsində göstərilmiş hüdudlardan kənarda Azərbaycan SSR öz ərazisində dövlət hakimiyyətini müstəqil həyata keçirir.

**Maddə 69.** Azərbaycan SSR SSR-dən azad surətdə çıxmaq hüququnu özündə saxlayır.

**Maddə 70.** Azərbaycan SSR-nin ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Azərbaycan SSR ilə digər müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikalarla qarşılıqlı saziş əsasında dəyişdirilə bilər və bu saziş SSR İttifaqı tərəfindən təsdiq edilməlidir.

**Maddə 71.** Azərbaycan SSR SSRİ Ali Sovetində, SSRİ Ali Sovetinin Rəyasət Heyətində, SSRİ hökumətində və SSR İttifaqın başqa orqanlarında SSR İttifaqının səlahiyyətinə aid məsələlərin həllində iştirak edir.

Azərbaycan SSR öz səlahiyyətinə aid olan məsələlərdə ittifaq tabeliyindəki müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətini əlaqələndirir və ona nəzarət edir.

**Maddə 72.** Azərbaycan Sovet Sosialist Respublikasının səlahiyyətinə onun ali dövlət hakimiyyəti və idarə orqanları simasında aşağıdakılar daxildir:

1) Azərbaycan SSR Konstitusiyasını qəbul etmək və ona dəyişikliklər keçirmək;

2) Azərbaycan SSR Konstitusiyasına əməl olunmasına nəzarət etmək, Naxçıvan MSSR Konstitusiyasının Azərbaycan SSR Konstitusiyasına uyğunluğunu təmin etmək;

3) Azərbaycan SSR tərkibində yeni muxtar respublikalar və muxtar vilayətlər təşkil edilməsini SSR Ali Sovetinin təsdiqinə vermək;

4) Azərbaycan SSR qanunvericiliyi;

5) dövlət asayişini, vətəndaşların hüquqlarını və azadlıqlarını mühafizə etmək;



6) respublika və yerli dövlət hakimiyyəti və idarə orqanlarının təşkili və fəaliyyəti qaydasını müəyyən etmək;

7) vahid sosial-iqtisadi siyasət yeritmək, Azərbaycan SSR iqtisadiyyatına rəhbərlik etmək; elmi-texniki tərəqqini təmin etmək, təbii ehtiyatlardan səmərəli istifadə olunması və onların mühafizəsi tədbirlərini həyata keçirmək;

8) Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planlarını, Azərbaycan SSR dövlət büdcəsini işləyib hazırlamaq və təsdiq etmək, onların yerinə yetirilməsinə dair hesabatları təsdiq etmək; Naxçıvan MSSR dövlət büdcəsinin, Dağlıq Qarabağ Muxtar Vilayəti büdcəsinin, respublika tabeliyində olan rayonların və şəhərlərin büdcələrinin yerinə yetirilməsinə rəhbərlik etmək;

9) Azərbaycan SSR dövlət büdcəsini təşkil etmək üçün daxil olan gəliri SSR İttifaqının qanunlarına uyğun olaraq müəyyən etmək;

10) ittifaq-respublika və respublika tabeliyində olan xalq təsərrüfat sahələrinə, respublika tabeliyində olan birliklərə və müəssisələrə rəhbərlik etmək;

11) torpaqdan, yerin təkindən, meşələrdən və sulardan istifadə qaydalarını müəyyən etmək, ətraf mühiti mühafizə etmək;

12) mənzil və kommunal təsərrüfatına, ticarətə və ictimai iaşəyə, əhaliyə məişət xidmətinə, mənzil tikintisinə, şəhərlərin və başqa yaşayış məntəqələrinin abadlaşdırılmasına, yol çəkilişinə və nəqliyyata rəhbərlik etmək;

13) xalq maarifinə, Azərbaycan SSR-in mədəniyyət və elm təşkilatlarına və idarələrinə, səhiyyəyə, bədən tərbiyəsinə və idmana, sosial təminata rəhbərlik etmək, tarix və mədəniyyət abidələrini qorumaq;

14) Azərbaycan SSR məhkəmələri tərfindən məhkum olunmuş vətəndaşlara amnistiya vermək və onları bağışlamaq;

15) beynəlxalq münasibətlərdə Azərbaycan SSR-i təmsil etmək;

16) respublika əhəmiyyətli digər məsələləri həll etmək.

**Maddə 73.** Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyət, maarif idarələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir.

Azərbaycan SSR-də rus dilinin, habelə əhalinin danışdığı başqa dillərin bütün bu orqanlarda və idarələrdə hüquq bərabərliyi əsasında azad surətdə işlədilməsi təmin edilir.

Bu və ya başqa dillərin işlədilməsində heç bir imtiyaza və ya məhdudiyyətə yol verilmir.

**Maddə 74.** Azərbaycan SSR xarici dövlətlərlə münasibətlərə girmək, onlarla müqavilələr bağlamaq, diplomatik nümayəndələr və konsulluq nümayəndələri göndərmək və qəbul etmək, beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək hüququna malikdir.

**Maddə 75.** SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir.

**Maddə 76.** Azərbaycan SSR-in suveren hüquqları SSRİ Konstitusiyasına uyğun olaraq SSR İttifaqı tərəfindən qorunur.

**Maddə 77.** Azərbaycan SSR öz rayon bölgüsünü müəyyən edir və inzibati-ərazi quruluşunun başqa məsələlərini həll edir.

**Maddə 78.** Azərbaycan Sovet Sosialist Respublikasının tərkibinə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti daxildirlər.

Azərbaycan SSR-də Abşeron, Ağdam, Ağdaş, Ağsu, Ağcabədi, Astara, Balakən, Bərdə, Vartaşen, Qazax, Qasım İsmayılov, Qax, Quba, Qubadlı, Qusar, Qutqaşen, Daşkəsən, Dəvəçi, Cdanov, Zaqatala, Zəngilan, Zərdab, İmişli, İsmayıllı, Yardımlı, Yevlax, Kəlbəcər, Kürdəmir, Gədəbəy, Göyçay, Laçın, Lerik, Lənkəran, Masallı, Mirbəşir, Neftçala, Puşkin, Saatlı, Sabirabad, Salyan, Tovuz, Ucar, Füzuli, Xanlar, Xaçmaz, Cəbrayıl, Cəlilabad, Şamaxı, Şamxor, Şaumyan (kənd), Şəki rayonları; respublika tabeliyində olan Bakı, Əli Bayramlı, Yevlax, Kirovabad, Lənkəran, Mingəçevir, Naftalan, Sumqayıt və Şəki şəhərləri vardır.

## 8-Cİ FƏSİL

## NAXÇIVAN MUXTAR SOVET SOSİALİST RESPUBLİKASI

**Maddə 79.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində sovet sosialist dövlətidir.

Naxçıvan MSSR SSR İttifaqının və Azərbaycan SSR-in hüquqlarından kənarda öz səlahiyyətinə aid olan məsələləri müstəqil həll edir.

Naxçıvan MSSR-in SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına müvafiq olan və Naxçıvan MSSR-in xüsusiyyətlərini nəzərə alan öz Konstitusiyası vardır.

**Maddə 80.** Naxçıvan MSSR Azərbaycan SSR-in və SSR İttifaqının səlahiyyətinə aid məsələlərin həllində müvafiq surətdə Azərbaycan SSR-in və SSR İttifaqının ali dövlət hakimiyyəti və idarə orqanları vasitəsilə iştirak edir.



Naxçıvan MSSR öz ərazisində kompleks, iqtisadi və sosial inkişafı təmin edir, bu ərazidə SSR İttifaqı və Azərbaycan SSR səlahiyyətlərinin həyata keçirilməsinə kömək edir, SSRİ və Azərbaycan SSR ali dövlət hakimiyyəti və idarə orqanlarının qərarlarını həyata keçirir.

Naxçıvan MSSR öz səlahiyyətinə aid məsələlərdə ittifaq və respublika (Azərbaycan SSR) tabeliyindəki müəssisə, idarə və təşkilatların fəaliyyətini əlaqələndirir və ona nəzarət edir.

**Maddə 81.** Naxçıvan MSSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz.

**Maddə 82.** Azərbaycan SSR qanunları Naxçıvan MSSR ərazisində məcburidir. Naxçıvan MSSR qanunu Azərbaycan SSR qanununa uyğun gəlmədikdə Azərbaycan SSR qanunu tətbiq edilir.

## 9-CU FƏSİL

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ

**Maddə 83.** Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan Sovet Sosialist Respublikasının tərkibindədir.

**Maddə 84.** Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin təqdimi ilə Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul edilir.

# IV. AZƏRBAYCAN SSR XALQ DEPUTATLARI SOVETLƏRİ VƏ ONLARIN SEÇİLMƏSİ QAYDASI

## 10-CU FƏSİL

## XALQ DEPUTATLARI SOVETLƏRİNİN SİSTEMİ VƏ FƏALİYYƏT PRİNSİPLƏRİ

**Maddə 85.** Xalq deputatları Sovetləri Azərbaycan SSR Ali Soveti, Naxçıvan MSSR Ali Soveti, Dağlıq Qarabağ Muxtar Vilayəti xalq deputatları Soveti, rayon, şəhər, şəhərlərdə rayon, qəsəbə və kənd xalq deputatları Sovetləri dövlət hakimiyyəti orqanlarının vahid sistemini təşkil edirlər.

**Maddə 86.** Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Sovetinin vəkalət müddəti beş ildir.

Yerli xalq deputatları Sovetlərinin vəkalət müddəti iki il yarımdır.

Xalq deputatları Sovetlərinə seçkilər müvafiq Sovetlərin vəkalət müddətinin qurtarmasına azı iki ay qalmış təyin edilir.

**Maddə 87.** Müvafiq xalq deputatları Sovetlərinin səlahiyyətinə aid edilən ən mühüm məsələlər onların sessiyalarında müzakirə olunur və həll edilir.

Xalq deputatları Sovetləri daimi komissiyalar seçir, icra və sərəncam orqanları, habelə Sovetlərə hesabat verməli olan başqa orqanlar yaradırlar.

**Maddə 88.** Xalq deputatları Sovetləri dövlət nəzarətini müəssisələrdə, kolxozlarda, idarələrdə və təşkilatlarda zəhmətkeşlərin ictimai nəzarəti ilə birləşdirən xalq nəzarəti orqanları təşkil edirlər.

Xalq nəzarəti orqanları dövlət planları və tapşırıqlarının yerinə yetirilməsinə nəzarət edir, dövlət intizamının pozulması hallarına, yerliçilik, işə yalnız öz idarəsinin mənafeyi baxımından yanaşmaq təzahürlərinə, təsərrüfata qayğısızlığa və israfçılığa, süründürməçiliyə və bürokratizmə qarşı mübarizə aparır; dövlət aparatı işinin təkmilləşməsinə kömək edirlər.

**Maddə 89.** Xalq deputatları Sovetləri bilavasitə və özlərinin yaratdıqları orqanlar vasitəsilə dövlət, təsərrüfat quruculuğunun və sosial-mədəni quruculuğun bütün sahələrinə rəhbərlik edir, qərarlar çıxarır, qərarların icrasını təmin edir və onların həyata keçirilməsinə nəzarət edirlər.

**Maddə 90.** Xalq deputatları Sovetlərinin fəaliyyəti məsələlərin kollektiv, azad, işgüzar müzakirəsi və həlli, aşkarlıq, icra və sərəncam orqanlarının, Sovetlər tərəfindən yaradılan başqa orqanların Sovetlər və əhali qarşısında müntəzəm hesabat verməsi, Sovetlərin işində iştirak etməyə vətəndaşların geniş cəlb olunması əsasında qurulur.

Xalq deputatları Sovetləri və onların yaratdıqları orqanlar öz işləri və qəbul etdikləri qərarlar haqqında əhaliyə müntəzəm məlumat verirlər.



## 11-Cİ FƏSİL

## SEÇKİ SİSTEMİ

**Maddə 91.** Bütün xalq deputatları Sovetlərinə deputat seçkiləri gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilir.

**Maddə 92.** Deputat seçkiləri ümumidir: qanunla müəyyən olunmuş qaydada ağıldan məhrum hesab edilən şəxslər istisna olmaqla, Azərbaycan SSR-in 18 yaşına çatmış bütün vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

**Maddə 93.** Deputat seçkiləri bərabərdir: hər seçicinin bir səsi vardır; bütün seçicilər seçkilərdə bərabər əsaslarla iştirak edirlər.

**Maddə 94.** Deputat seçkiləri birbaşadır: bütün xalq deputatları Sovetlərinin deputatları vətəndaşlar tərəfindən bilavasitə seçilirlər.

**Maddə 95.** Deputat seçkilərində səsvermə gizlidir: seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.

**Maddə 96.** Deputatlığa namizədləri irəli sürmək hüququ Sovet İttifaqı Kommunist Partiyasının, həmkarlar ittifaqlarının, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının təşkilatlarına, kooperativ təşkilatlarına və başqa ictimai təşkilatlara, əmək kollektivlərinə, habelə qoşun hissələrində hərbi qulluqçuların yığıncaqlarına məxsusdur.

Azərbaycan SSR vətəndaşlarının və ictimai təşkilatlarının deputatlığa namizədlərin siyasi, iş və şəxsi keyfiyyətlərini azad və hərtərəfli müzakirə etmələri üçün, habelə yığıncaqlarda, mətbuatda, televiziya, radio vasitəsilə təşviqat aparmaq hüququ üçün təminat verilir.

Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi ilə əlaqədar xərclər dövlət hesabına ödənilir.

**Maddə 97.** Xalq deputatları Sovetlərinə deputat seçkiləri seçki dairələri üzrə keçirilir.

Azərbaycan SSR vətəndaşı bir qayda olaraq ikidən artıq xalq deputatları Soveitnə seçilə bilməz.

Sovetlərə seçkilərin keçirilməsini ictimai təşkilatların, əmək kollektivlərinin və qoşun hissələrində hərbi qulluqçuların yığıncaqları nümayəndələrindən təşkil olunan seçki komissiyaları təmin edirlər.

Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi qaydası SSR İttifaqı, Azərbaycan SSR qanunları ilə, Naxçıvan MSSR-də isə həmçinin Naxçıvan MSSR qanunları ilə müəyyən edilir.

**Madde 98.** Seçicilər öz deputatlarına tapşırıqlar verirlər.

Müvafiq xalq deputatları Sovetləri seçicilərin tapşırıqlarını nəzərdən keçirir, iqtisadi və sosial inkişaf planlrını hazırlayarkən və büdcəni tərtib edərkən onları nəzərə alır, tapşırıqların yerinə yetirilməsini təşkil edir və onların həyata keçirilməsi haqqında vətəndaşlara məlumat verirlər.

## 12-Cİ FƏSİL

## XALQ DEPUTATLARI

**Madde 99.** Deputatlar xalq deputatları Sovetlərində xalqın səlahiyyətli nümayəndələridir.

Deputatlar Sovetlərin işində iştirak etməklə dövlət, təsərrüfat quruculuğu və sosial-mədəni quruculuq məsələlərini həll edir. Sovetlərin qərarlarının həyata keçirilməsini təşkil edir, dövlət orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların işinə nəzarət edirlər.

Deputat özünün fəaliyyətində ümumdövlət mənafeyini rəhbər tutur, seçki dairəsi əhalisinin tələblərini nəzərə alır, seçicilərin tapşırıqlarının həyata keçirilməsinə nail olur.

**Madde 100.** Deputat öz səlahiyyətini istehsalat və ya xidmət fəaliyyətini dayandırmadan həyata keçirir.

Sovetin sessiyaları zamanı, habelə qanunda nəzərdə tutulmuş başqa hallarda deputatlıq səlahiyyətinin həyata keçirilməsi üçün deputat daimi iş yerində orta əmək haqqı saxlanılmaqla istehsalat və ya xidmət vəzifələrini yerinə yetirməkdən azad edilir.

**Madde 101.** Deputatın müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə sorğu vermək hüququ vardır. Onlar həmin sorğuya Sovetin sessiyasında cavab verməlidirlər.

Deputatlıq fəaliyyəti ilə əlaqədar məsələlər barəsində deputatın bütün dövlət orqanlarına və ictimai orqanlara, müəssisələrə, idarələrə, təşkilatlara müraciət etmək və özünün irəli sürdüyü məsələlərin müzakirəsində iştirak etmək hüququ vardır. Müvafiq dövlət orqanlarının və ictimai orqanların, müəssisə, idarə və təşkilatların rəhbərləri deputatı təxirə salmadan qəbul etməli və onun təkliflərini müəyyən olunmuş müddətlərdə nəzərdən keçirməlidirlər.

**Madde 102.** Deputata öz hüquqlarını və vəzifələrini maneəsiz və səmərəli həyata keçirmək üçün şərait təmin edilir.

Deputatların toxunulmazlığı, habelə deputatlıq fəaliyyəti üçün digər təminatlar deputatların statusu haqqında qanunla və SSR İttifaqının digər qanunvericilik aktları ilə, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in qanunvericilik aktları ilə müəyyən olunur.



**Madde 103.** Deputat öz işi və Sovetin işi haqqında seçicilər qarşısında, habelə onun deputatlığa namizədliyini irəli sürmüş kollektivlər və ictimai təşkilatlar qarşısında hesabat verməlidir.

Seçicilərin etimadını doğrultmayan deputat qanunla müəyyən edilmiş qaydada seçicilərin əksəriyyətinin qərarı ilə hər vaxt geri çağırıla bilər

## V. AZƏRBAYCAN SSR-İN ALİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANLARI

## 13-CÜ FƏSİL

## AZƏRBAYCAN SSR ALİ SOVETİ

**Madde 104.** Azərbaycan SSR-in ali dövlət hakimiyyəti orqanı Azərbaycan SSR Ali Sovetidir.

Azərbaycan SSR Ali Soveti SSRİ Konstitusiyası ilə və bu Konstitusiya ilə Azərbaycan SSR-in səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malikdir

Azərbaycan SSR Konstitusiyasının qəbul olunması, onda dəyişikliklər edilməsi; Azərbaycan SSR tərkibində yeni muxtar respublikalar və muxtar vilayətlər təşkil edilməsinin SSRİ Ali Sovetinin təsdiqinə verilməsi; Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planlarının, Azərbaycan SSR dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq edilməsi, Azərbaycan SSR Ali Sovetinə hesabat verməli olan Azərbaycan SSR orqanlarının təşkili yalnız Azərbaycan SSR Ali Soveti tərəfindən həyata keçirilir.

Azərbaycan SSR qanunları Azərbaycan SSR Ali Soveti tərəfindən və ya Azərbaycan SSR Ali Sovetinin qərarı ilə keçirilən ümumxalq səsverməsi (referendum) ilə qəbul edilir.

Azərbaycan SSR qanunları Azərbaycan SSR-in bütün ərazisində məcburidir.

**Madde 105.** Azərbaycan SSR Ali Soveti əhalisinin sayı bərabər olan seçki dairələri üzrə seçilən 450 deputatdan ibarətdir

Azərbaycan SSR Ali Soveti seçdiyi mandat komissiyasının təqdimi ilə deputatların vəkalətini etibarlı hesab etmək haqqında, seçkilərə dair qanunlar pozulduqda isə ayrı-ayrı deputatların seçilməsini etibarsız hesab etmək haqqında qərar qəbul edir.

**Maddə 106.** Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR Ali Sovetinin sədrini və onun dörd müavinini seçir.

Azərbaycan SSR Ali Sovetinin sədri Azərbaycan SSSR Ali Sovetinin iclaslarına rəhbərlik edir və onun daxili iş qaydasını müəyyən edir.

**Maddə 107.** Azərbaycan SSR Ali Sovetinin sessiyaları ildə iki dəfə çağırılır.

Növbədənkənar sessiyalar Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən onun öz təşəbbüsü ilə və ya Azərbaycan SSR Ali Soveti deputatlarının azı üçdə bir hissəsinin təklifi ilə çağırılır.

Azərbaycan SSR Ali Sovetinin sessiyası onun iclaslarından, habelə bu iclaslar arasındakı dövrdə Azərbaycan SSR Ali Soveti daimi komissiyalarının və digər komissiyalarının keçirdikləri iclaslardan ibarətdir.

**Maddə 108.** Azərbaycan SSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququ Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə, Azərbaycan SSR Nazirlər Sovetinə, öz ali dövlət hakimiyyəti orqanları simasında Naxçıvan MSSR-ə, Azərbaycan SSR Ali Sovetinin daimi komissiyalarına və digər komissiyalarına, Azərbaycan SSR Ali Sovetinin deputatlarına, Azərbaycan SSR Ali Məhkəməsinə, Azərbaycan SSR Prokuroruna məxsusdur.

İctimai təşkilatlar da öz respublika orqanları simasında qanunvericilik təşəbbüsü hüququna malikdir.

**Maddə 109.** Azərbaycan SSR Ali Sovetinin müzakirəsinə verilən qanun layihələri və başqa məsələlər onun iclaslarında müzakirə edilir. Qanun layihəsi və ya müvafiq məsələ zəruri hallarda qabaqcadan, yaxud əlavə olaraq baxılmaq üçün bir və ya bir neçə komisiyaya verilə bilər.

Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Sovetinin qərarları və digər aktları Azərbaycan SSR Ali Sovetinin bütün deputatlarının əksəriyyəti tərəfindən qəbul olunur.

Azərbaycan SSR qanunlarının layihələri və respublikanın dövlət həyatının digər mühüm məsələləri Azərbaycan SSR Ali Sovetinin, yaxud Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə xalq müzakirəsinə verilə bilər.

**Maddə 110.** Azərbaycan SSR Ali Soveti deputatının Azərbaycan SSR Nazirlər Sovetinə, nazirlərə və Azərbaycan SSR Ali Soveti tərəfindən yaradılan digər orqanların rəhbərlərinə, habelə Azərbaycan SSR ərazisində yerləşən və İttifaq tabeliyində olan müəssisə, idarə və təşkilatların rəhbərlərinə Azərbaycan SSR-in səlahiyyətinə aid məsələlər barəsində sorğu ilə müraciət etmək hüququ vardır. Azərbaycan SSR Nazirlər Soveti və ya sorğu verilən vəzifəli şəxs Azərbaycan SSR Ali Sovetinin həmin sessiyasında şifahi və ya yazılı cavab verməlidir.



**Maddə 111.** Azərbaycan SSR Ali Sovetinin deputatı Azərbaycan SSR Ali Sovetinin, onun sessiyaları arasındakı dövrdə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilə bilməz, həbs oluna bilməz və ya onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri görülə bilməz.

**Maddə 112.** Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR Ali Sovetinin daimi orqanını – özünün bütün fəaliyyətində ona hesabat verən və onun sessiyaları arasındakı dövrdə Azərbaycan SSR ali dövlət hakimiyyəti orqanının funksiyalarını bu Konstitusiyanın nəzərdə tutduğu hüdudlar daxilində həyata keçirən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətini seçir.

**Maddə 113.** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti deputatlar içərisindən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədrindən, sədrin üç müavinindən, o cümlədən Naxçıvan MSSR-dən olan bir müavindən və Dağlıq Qarabağ Muxtar Vilayətindən olan bir müavindən, Ali Sovetin Rəyasət Heyətinin katibindən və Rəyasət Heyətinin on altı üzvündən ibarət tərkibdə seçilir.

**Maddə 114.** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti:

1) Azərbaycan SSR Ali Sovetinə və yerli xalq deputatları Sovetlərinə seçkilər təyin edir;

2) Azərbaycan SSR Ali Sovetinin sessiyalarını çağırır;

3) Azərbaycan SSR Ali Soveti daimi komissiyalarının fəaliyyətini əlaqələndirir;

4) Azərbaycan SSR Konstitusiyasına əməl olunmasına nəzarət edir; Naxçıvan MSSR Konstitusiyasının və qanunlarının Azərbaycan SSR Konstitusiyasına və qanunlarına uyğun olmasını təmin edir;

5) rayon (şəhər) xalq məhkəmələrinə seçkilər təyin edir;

6) Azərbaycan SSR qanunlarını şərh edir;

7) yerli xalq deputatları Sovetlərinin fəaliyyətinə rəhbərlik edir;

8) Azərbaycan SSR-in inzibati ərazi quruluşu məsələlərinin həlli qaydasını müəyyən edir; Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərini və rayon bölgüsünü müəyyən edir və dəyişdirir, rayonlar, şəhərlər, şəhərlərdə rayonlar və qəsəbələr təşkil edir; şəhərlərin tabeliyini müəyyən edir; rayonların, şəhərlərin və şəhərlərdə rayonların, qəsəbələrin və başqa yaşayış məntəqələrinin adlarını dəyişdirir;

9) Naxçıvan MSSR-də rayon bölgüsünü, şəhərlərin təşkil edilməsini, şəhərlərin tabeliyinin dəyişdirilməsini, rayonlara, şəhərlərə ad

verilməsini və onların adlarının dəyişdirilməsini, habelə digər yaşayış məntəqələrinin adlarının dəyişdirilməsini təsdiq edir,

10) Azərbaycan SSR Nazirlər Sovetinin, Naxçıvan MSSR Nazirlər Sovetinin qərarları və sərəncamları, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, rayon və şəhər (respublika tabeliyində olan rayonlarda və şəhərlərdə) xalq deputatları Sovetlərinin qərarları qanuna uyğun gəlmədikdə onları ləğv edir;

11) Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edir, Azərbaycan SSR fəxri adlarını müəyyən edir və verir;

12) Azərbaycan SSR vətəndaşlığına qəbul edir, sığınacaq vermək məsələsini həll edir;

13) amnistiya haqqında respublika aktlarını qəbul edir və Azərbaycan SSR məhkəmələri tərəfindən məhkum olunmuş vətəndaşları bağışlamaq hüququnu həyata keçirir;

14) Azərbaycan SSR-in beynəlxalq müqavilələrini təsdiq edir və ləğv edir;

15) Azərbaycan SSR-in xarici dövlətlərdə və beynəlxalq təşkilatlar nəzdində olan diplomatik nümayəndələrini təyin edir və geri çağırır;

16) öz nəzdində xarici dövlətlər tərəfindən vəkil edilmiş diplomatik nümayəndələrin etimadnamələrini və övdətnamələrini qəbul edir;

17) Azərbaycan SSR Konstitusiyasının və qanunlarının müəyyən etdiyi başqa səlahiyyəti həyata keçirir.

**Maddə 115.** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ali Sovetin sessiyaları arasındakı dövrdə sonradan növbəti sessiyada onun təsdiqinə verilməklə;

1) Azərbaycan SSR-in qüvvədə olan qanunvericilik aktlarında lazım gəldikdə dəyişikliklər edir;

2) Naxçıvan MSSR-in sərhəd dəyişikliklərini təsdiq edir, respublika tabeliyində olan rayonlar və şəhərlər təşkil edir;

3) Azərbaycan SSR Nazirlər Sovetinin təklifi ilə Azərbaycan SSR nazirliklərini və dövlət komitələrini yaradır və ləğv edir;

4) Azərbaycan SSR Nazirlər Sovetinin tərkibinə daxil olan ayrı-ayrı şəxsləri Azərbaycan SSR Nazirlər Soveti sədrinin təqdimi ilə vəzifədən azad edir və vəzifəyə təyin edir.

**Maddə 116.** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti fərmanlar verir və qərarlar qəbul edir.

**Maddə 117.** Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Sovetinin qərarları və digər aktları Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin və katibinin imzaları ilə azərbaycan, rus və erməni dillərində elan edilir.



**Maddə 118.** Azərbaycan SSR Ali Sovetinin vəkalət müddəti qurtardıqda, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti təzə seçilən Azərbaycan SSR Ali Soveti tərəfindən Ali Sovetin yeni Rəyasət Heyəti təşkil edilənədək öz səlahiyyətini saxlayır.

Yeni seçilən Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR Ali Sovetinin əvvəlki tərkibdə Rəyasət Heyəti tərfəindən seçkilərdən ən geci iki ay keçənədək çağırılır.

**Maddə 119.** Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR Ali Sovntinin səlahiyyətinə aid olan məsələləri qabaqcadan nəzərdən keçirib hazırlamaq üçün, habelə Azərbaycan SSR qanunlarının, Azərbaycan SS Ali Sovetinin və onun Rəyasət Heyətinin digər qərarlarının həyata keçirilməsinə kömək etmək, dövlət orqanları və təşkilatlarının fəaliyyətinə nəzarət etmək üçün deputatlardan daimi komissiyalar seçir.

Azərbaycan SSR Ali Soveti, lazım bildikdə, hər hansı məsələ üzrə istintaq, təftiş komissiyaları və digər komissiyalar yaradır.

Bütün dövlət orqanları və ictimai orqanlar, təşkilatlar və vəzifəli şəxslər Azərbaycan SSR Ali Soveti komissiyalarının tələblərini yerinə yetirməli, lazımi materialları və sənədləri onlara təqdim etməlidirlər.

Komissiyaların tövsiyələri dövlət orqanları və ictimai orqanlar, idarələr və təşkilatlar tərəfindən hökmən nəzərdən keçirilməlidir. Bunların nəzərdən keçirilməsi nəticələri və ya görülən tədbirlər haqqında komissiyalara müəyyən edilmiş müddətdə məlumat verilməlidir.

**Maddə 120.** Azərbaycan SSR Ali Soveti ona hesabat verən bütün dövlət orqanlarının fəaliyyətinə nəzarət edir.

Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR xalq nəzarəti orqanları sisteminə başçılıq edən Azərbaycan SSR Xalq nəzarəti Komitəsini təşkil edir.

**Maddə 121.** Azərbaycan SSR Ali Sovetinin və onun orqanlarının fəaliyyət qaydası Azərbaycan SSR Ali Sovetinin reqlamenti ilə və Azərbaycan SSR Konstitusiyası əsasında verilən Azərbaycan SSR-in başqa qanunları ilə müəyyən olunur.

## 14-CÜ FƏSİL

## AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİ

**Maddə 122.** Azərbaycan SSR Nazirlər Soveti – Azərbaycan SSR hökuməti Azərbaycan SSR dövlət hakimiyyətinin ali icra və sərəncam orqanıdır.

**Maddə 123.** Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Ali Soveti tərəfindən: Azərbaycan SSR Nazirlər Sovetinin sədrindən, sədrin birinci müavinindən və müavinlərindən, Azərbaycan SSR nazirlərindən, Azərbaycan SSR dövlət komitələrinin sədrlərindən ibarət tərkibdə edilir.

Azərbaycan SSR Nazirlər Sovetinin tərkibinə vəzifəyə görə Naxçıvan MSSR Nazirlər Sovetinin sədri daxildir.

Azərbaycan SSR Nazirlər Soveti sədrinin təqdimi ilə Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR hökumətinin tərkibinə Azərbaycan SSR-in digər orqanları və təşkilatlarının rəhbərlərini daxil edə bilər.

Azərbaycan SSR Nazirlər Soveti öz səlahiyyətini yeni seçilmiş Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında Ali Sovet qarşısında üzərindən götürür.

**Maddə 124.** Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Ali Soveti qarşısında məsuldur və ona hesabat verir, Azərbaycan SSR Ali Sovetinin sessiyaları arasındakı dövrdə isə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qarşısında məsuldur və ona hesabat verir.

Azərbaycan SSR Nazirlər Soveti öz işi barəsində Azərbaycan SSR Ali Soveti qarşısında müntəzəm hesabat verir.

**Maddə 125.** Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR-in səlahiyyətinə aid edilmiş və Konstitusiyaya əsasən Azərbaycan SSR Ali Sovetinin və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin səlahiyyətinə daxil olmayan bütün dövlət idarəetmə məsələlərini həll etmək hüququna malikdir.

Azərbaycan SSR Nazirlər Soveti öz səlahiyyəti daxilində:

1) xalq təsərrüfatına və sosial-mədəni quruculuğa rəhbərliyi təmin edir; xalqın rifah və mədəniyyətinin yüksəlməsini təmin etmək, elm və texnikanı inkişaf etdirmək, təbii ehtiyatlardan səmərəli istifadə etmək və onları qorumaq üçün tədbirlər hazırlayıb həyata keçiirr; pul və kredit sistemini möhkəmlətmək üçün, dövlət sığortasını, vahid uçot və statistika sistemini təşkil etmək üçün tədbirlər həyata keçirilməsinə kömək edir: vahid qiymət, əmək haqqı, sosial təminat siyasətinin yeridilməsində iştirak edir, sənaye, tikinti, kənd təsərrüfatı müəssisələri və birliklərinin, nəqliyyat və rabitə müəssisələrinin, habelə respublika tabeliyində və yerli tabelikdə olan digər təşkilatların və idarələrin idarə olunmasını təşkil edir;

2) Azərbaycan SSR-in cari və perspektiv dövlət iqtisadi və sosial inkişaf planlarını, Azərbaycan SSR dövlət büdcəsini hazırlayır və Azərbaycan SSR Ali Sovetinə təqdim edir; dövlət planlarının və büdcənin həyata keçirilməsi üçün, Azərbaycan SSR-in kompleks iqtisadi və sosial inkişafının təmin edilməsi üçün tədbirlər görür; İttifaq tabeliyində olan müəssisə və təşkilatların Azərbaycan SSR səlahiyyətinə aid məsələlərdə fəaliyyətini əlaqələndirir və ona nəzarət edir; planların yerinə yetirilməsi və büdcənin icrası haqqında Azərbaycan SSR Ali Sovetinə hesabatlar təqdim edir;

3) dövlətin mənafeyini müdafiə etmək, sosialist mülkiyyətini və ictimai asayişi qorumaq, vətəndaşların hüquq və azadlıqlarını təmin və müdafiə etmək üçün tədbirlər həyata keçirir;

4) ölkənin dövlət təhlükəsizliyini və müdafiə qabiliyyətini təmin etmək üçün SSRİ Konstitusiyasının müəyyən etdiyi hüdudlar daxilində tədbirlər görür;

5) SSR İttifaqının müəyyən etdiyi qaydada Azərbaycan SSR-in xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri sahəsində rəhbərliyi həyata keçirir;

6) Azərbaycan SSR Nazirlər Soveti yanında lazım gəldikdə təsərrüfat quruculuğu və sosial-mədəni quruculuq işləri üzrə komitələr, baş idarələr və digər idarələr təşkil edir.

7) Naxçıvan MSSR Nazirlər Sovetinin işini istiqamətləndirir və yoxlayır, Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti, rayon və şəhər (respublika tabeliyində olan rayonlarda və şəhərlərdə) xalq deputatları Sovetləri icraiyyə komitələrinin fəaliyyətinə rəhbərlik edir.

**Maddə 126.** Xalq təsərrüfatına rəhbərliyi təmin etməklə əlaqədar olan məsələləri və dövləti idarəetmənin digər məsələlərini həll etmək üçün Azərbaycan SSR Nazirlər Sovetinin daimi orqanı kimi, Azərbaycan SSR Nazirlər Sovetinin sədrindən, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavinindən və müavinlərindən, habelə Azərbaycan SSR Nazirlər Soveti haqqında qanuna müvafiq olaraq hökumətin başqa üzvlərindən ibarət Azərbaycan SSR Nazirlər Sovetinin rəyasət heyəti fəaliyyət göstərir.

**Maddə 127.** Azərbaycan SSR Nazirlər Soveti SSRİ-nin və Azərbaycan SSR-in qanunvericilik aktları, SSRİ Nazirlər Sovetinin qərarları, sərəncamları əsasında və bunların yerinə yetirilməsi üçün qərarlar çıxarır, sərəncamlar verir, onların icrasını təşkil edir və yoxlayır. Azərbaycan SSR Nazirlər Sovetinin qərarları və sərəncamları Azərbaycan SSR-in bütün ərazisində hökmən icra edilməlidir.

**Maddə 128.** Azərbaycan SSR Nazirlər Soveti öz səlahiyyəti daxilində Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamlarının icrasını dayandırmaq, habelə Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin, rayon və şəhər (respublika

tabeliyində olan rayonlarda və şəhərlərdə) xalq deputatları Sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malikdir.

Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR nazirliklərinin, dövlət komitələrinin, onun tabeliyində olan başqa orqanların aktlarını ləğv etmək hüququna malikdir.

**Maddə 129.** Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR İttifaq-respublika və respublika nazirliklərinin, Azərbaycan SSR dövlət komitələrinin, ona tabe olan digər orqanların işini birləşdirir və istiqamətləndirir.

Azərbaycan SSR İttifaq-respublika nazirlikləri və dövlət komitələri həm Azərbaycan SSR Nazirlər Sovetinə, həm də müvafiq İttifaq-respublika SSRİ nazirliyinə və ya SSRİ dövlət komitəsinə tabe olmaqla, onlara tapşırılan idarəetmə sahələərinə rəhbərlik edir və ya sahələrarası idarəetməni həyata keçirirlər.

Azərbaycan SSR respublika nazirlikləri və dövlət komitələri Azərbaycan SSR Nazirlər Sovetinə tabe olmaqla, onlara tapşırılan idarəetmə sahələrinə rəhbərlik edir və ya sahələrarası idarəetməni həyata keçirirlər.

Azərbaycan SSR nazirlikləri və dövlət komitələri onlara tapşırılan idarəetmə sahələrinin vəzyyəti və inkişafı üçün məsuliyyət daşıyırlar; öz səlahiyyəti daxilində SSRİ və Azərbaycan SSR qanunları, SSRİ Ali Sovetinin və onun Rəyasət Heyətinin, Azərbaycan SSR Ali Sovetinin və onun Rəyasət Heyətinin digər qərarları, SSRİ Nazirlər Sovetinin və Azərbaycan SSR Nazirlər Sovetinin qərarları və sərəncamları, SSRİ-nin müvafiq nazirliklərinin və dövlət komitələrinin aktları əsasında və bunların yerinə yetirilməsi üçün aktlar qəbul edir, onların icrasını təşkil edir və yoxlayırlar.

**Maddə 130.** Azərbaycan SSR Nazirlər Sovetinin və onun rəyasət heyətinin səlahiyyəti, onların fəaliyyət qaydası, Azərbaycan SSR Nazirlər Sovetinin digər dövlət orqanları ilə münasibətləri, habelə Azərbaycan SSR-in İttifaq-respublika və respublika nazirliklərinin və dövlət komitələrinin siyahısı Konstitusiya əsasında Azərbaycan SSR Nazirlər Soveti haqqında qanunla müəyyən edilir.



# VI. NAXÇIVAN MSSR-İN ALİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANLARI

## 15-Cİ FƏSİL

## NAXÇIVAN MSSR ALİ SOVETİ

**Maddə 131.** Naxçıvan MSSR dövlət hakimiyyətinin ali orqanı Naxçıvan MSSR Ali Sovetidir.

Naxçıvan MSSR Ali Soveti Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası və Naxçıvan MSSR Konstitusiyası ilə Naxçıvan MSSR-in səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malikdir.

Naxçıvan MSSR Konstitusiyasının qəbul edilməsi, onda dəyişikliklər edilməsi, Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planlarının, dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq olunması, Naxçıvan MSSR Ali Sovetinə hesabat verən orqanların təşkil edilməsi yalnız Naxçıvan MSSR Ali Soveti tərəfindən həyata keçirilir.

Naxçıvan MSSR qanunları Naxçıvan MSSR Ali Soveti tərəfindən qəbul edilir.

**Maddə 132.** Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR Ali Sovetinin daimi orqanını – özünün bütün fəaliyyətində ona hesabat verən və onun sessiyaları arasındakı dövrdə Naxçıvan MSSR ali dövlət hakimiyyəti orqanının funksiyalarını Konstitusiyanın nəzərdə tutduğu hüdudlar daxilində həyata keçirən Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətini seçir.

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin tərkibi və səlahiyyəti Naxçıvan MSSR Konstitusiyası ilə müəyyən edilir.

## 16-CI FƏSİL

## NAXÇIVAN MSSR NAZİRLƏR SOVETİ

**Maddə 133.** Naxçıvan MSSR dövlət hakimiyyətinin ali icra və sərəncam orqanı olan Naxçıvan MSSR Nazirlər Soveti – Naxçıvan MSSR hökuməti Naxçıvan MSSR Ali Soveti tərəfindən təşkil edilir.

Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti qarşısında məsuldur və ona hesabat verir. Naxçıvan MSSR Ali Sovetinin

sessiyaları arasındakı dövrdə isə Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti qarşısında məsuldur və ona hesabat verir.

**Maddə 134.** Naxçıvan MSSR Nazirlər Soveti SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR qanunvericilik aktları, SSRİ Nazirlər Sovetinin və Azərbaycan SSR Nazirlər Sovetinin qərarları və sərəncamları əsasında və bunları yerinə yetirmək üçün qərarlar çıxarır və sərəncamlar verir, onların icrasını təşkil edir və yoxlayır.

**Maddə 135.** Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyəti daxilində rayon və şəhər (respublika (MSSR) tabeliyində olan şəhərlərdə) xalq deputatları Sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malikdir.

Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR nazirliklərinin, dövlət komitələrinin, onun tabeliyindəki başqa orqanların aktlarını ləğv etmək hüququna malikdir.

**Maddə 136.** Naxçıvan MSSR Nazirlər Soveti nazirliklərin, dövlət komitələrinin və tabeliyində olan başqa orqanların işini birləşdirir və istiqamətləndirir.

Naxçıvan MSSR nazirlikləri və dövlət komitələri həm Naxçıvan MSSR Nazirlər Sovetinə, həm də Azərbaycan SSR-in müvafiq nazirliyinə və dövlət komitəsinə tabe olmaqla, onlara tapşırılan idarəetmə sahələrinə rəhbərlik edir və ya sahələrarası idarəetməni həyata keçirirlər.

## VII. AZƏRBAYCAN SSR-DƏ YERLİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANARI

### 17-Cİ FƏSİL

### YERLİ XALQ DEPUTATLARI SOVETLƏRİ

**Maddə 137.** Dağlıq Qarabağ Muxtar Vilayətində, rayonlarda, şəhərlərdə, şəhərlərdəki rayonlarda, qəsəbələrdə, kənd yaşayış məntəqələrində dövlət hakimiyyəti orqanları müvafiq xalq deputatları Sovetləridir.

**Maddə 138.** Yerli xalq deputatları Sovetləri ümumdövlət mənafeyini və Sovetin ərazisində yaşayan vətəndaşların mənafeyini əsas tutaraq, yerli əhəmiyyəti olan bütün məsələləri həll edir, yuxarı dövlət orqanlarının qərarlarını həyata keçirir, aşağı xalq deputatları Sovetlərinin fəaliyyətinə rəhbərlik edir, respublika və Ümumittifaq əhəmiyyətli məsələlərin müzakirəsində iştirak edir, bu məsələlər barəsində öz təkliflərini verirlər.



Yerli xalq deputatları Sovetləri öz ərazisində dövlət, təsərrüfat quruculuğuna və sosial-mədəni quruculuğa rəhbərlik edirlər; iqtisadi və sosial inkişaf planlarını, yerli büdcəni və onların yerinə yetirilməsi haqqında hesabatları təsdiq edirlər; onlara tabe olan dövlət orqanlarına, müəssisə, idarə və təşkilatlara rəhbərlik edirlər; qanunlara əməl olunmasını, dövlət qaydalarının və ictimai asayişin, vətəndaşların hüquqlarının qorunmasını təmin edirlər; ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə kömək edirlər.

**Maddə 139.** Yerli xalq deputatları Sovetləri özlərinin səlahiyyəti daxilində öz ərazilərində kompleks iqtisadi və sosial inkişafı təmin edirlər; bu ərazidə yerləşən və yuxarı orqanlara tabe olan müəssisə, idarə və təşkilatlar tərəfindən qanunlara əməl olunmasına nəzarət edirlər; torpaqdan istifadə, təbiətin mühafizəsi, tikinti, əmək ehtiyatlarından istifadə, xalq istehlakı malları istehsalı, əhaliyə sosial-mədəni xidmət, məişət xidməti və digər xidmət sahəsində onların fəaliyyətini əlaqələndirir və bu fəaliyyətə nəzarət edirlər.

**Maddə 140.** Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, rayon, şəhər, şəhərlərdə rayon xalq deputatları Sovetlərinin sessiyaları onların icraiyyə komitələri tərəfindən ildə azı dörd dəfə çağırılır.

Qəsəbə və kənd xalq deputatları Sovetləri SSR İttifaqının, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in qanunları ilə onların səlahiyyətinə aid edilmiş hər hansı məsələləri sessiyalarda nəzərdən keçirmək və həll etmək hüququna malikdirlər. Yalnız sessiyalarda həll edilməli olan məsələlərin siyahısı yerli xalq deputatları Sovetləri haqqında qanunlarla müəyyən edilir.

**Maddə 141.** Yerli xalq deputatları Sovetləri SSR İttifaqı, Azərbaycan SSR qanunları ilə, Naxçıvan MSSR-də isə həmçinin Naxçıvan MSSR qanunları ilə onlara verilmiş səlahiyyət daxilində qərarlar qəbul edirlər.

Yerli xalq deputatları Sovetlərinin qərarları Sovetin ərazisində yerləşən bütün müəssisə, idarə və təşkilatlar, habelə vəzifəli şəxslər və vətəndaşlar tərəfindən hökmən yerinə yetirilməlidir.

**Maddə 142.** Aşağı Sovetlərin fəaliyyətinə rəhbərlik edən yerli xalq deputatları Sovetləri aşağı Sovetlərin aktları qanunvericiliyə uyğun gəlmədikdə, bu aktları ləğv etmək hüququna malikdirlər.

**Maddə 143.** Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Soveti, rayon, şəhər, şəhərlərdə rayon, qəsəbə, kənd xalq deputatları Sovetləri yerli Sovetlərin səlahiyyətinə aid məsələləri qabaqcadan

nəzərdən keçirib hazırlamaq üçün, habelə Sovetlərin qərarlarının həyata keçirilməsinə kömək etmək, dövlət orqanlarının, müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət etmək üçün deputatlardan daimi komissiyalar seçirlər.

Yerli Sovetlərin daimi komissiyalarının tövsiyələri müvafiq dövlət orqanları və ictimai orqanlar, müəssisə, idarə və təşkilatlar tərəfindən hökmən nəzərdən keçirilməlidir. Bunların nəzərdən keçirilməsi nəticələri və ya görülən tədbirlər haqqında komissiyalara müəyyən edilmiş müddətdə məlumat verilməlidir.

**Maddə 144.** Yerli xalq deputatları Sovetləri özlərinin fəaliyyətini ictimai təşkilatlarla və əmək kollektivləri ilə sıx əlaqədə həyata keçirir, ən mühüm məsələləri vətəndaşların müzakirəsinə verir, onları daimi komissiyaların, icraiyyə komitələrinin və Sovetlərə hesabat verən başqa orqanların işinə cəlb edir, yerli könüllü cəmiyyətlərin işinə kömək göstərir və əhaliinn ictimai özfəaliyyətini inkişaf etdirirlər.

## 18-Cİ FƏSİL

## YERLİ XALQ DEPUTATLARI SOVETLƏRİNİN İCRAİYYƏ KOMİTƏLƏRİ

**Maddə 145.** Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, rayon, şəhər, şəhərlərdə rayon, qəsəbə və kənd xalq deputatları Sovetlərinin icra və sərəncam orqanları Sovetlərin sədrdən, sədr müavinlərindən, katibdən və üzvlərindən ibarət tərkibdə deputatlardan seçdikləri icraiyyə komitələridir.

İcraiyyə komitələri onları seçmiş Sovetlər qarşısında habelə əmək kollektivlərinin yığıncaqlarında və vətəndaşların yaşayış yerlərində ildə azı bir dəfə hesabat verirlər.

**Maddə 146.** Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri onları seçmiş Sovetlərin və yuxarı dövlət hakimiyyəti və idarə orqanlarının qərarlarına əsasən, müvafiq Sovetlərin ərazisində dövlət, təsərrüfat quruculuğuna və sosial-mədəni quruculuğa rəhbərlik edirlər.

Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri ancaq Sovetlərin sessiyalarında həll edilməli olan məsələlər istisna olmaqla, Sovetlərin səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malikdir.

İcraiyyə komitələri Sovetlərin sessiyalarını çağırır, Sovetlərin daxili komissiyalarının işini əlaqələndirirlər; deputatlann səlahiyyətinin



həyata keçirilməsində onlara kömək edirlər, Sovetlərin və yuxarı dövlət orqanlarının qərarlarının, habelə seçici tapşırıqlarının yerinə yetirilməsini təşkil edirlər, onların tabeliyindəki idarə orqanlarına rəhbərlik edirlər.

**Maddə 147.** Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri öz səlahiyyəti daxilində qərarlar qəbul edir və sərəncamlar verirlər.

**Maddə 148.** Xalq deputatları Sovetlərinin icraiyyə komitələri aşağı xalq deputatları Sovetlərinin icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malikdirlər.

**Maddə 149.** Yerli xalq deputatları Sovetlərinin səlahiyyət müddəti qurtardıqda, onların icraiyyə komitələri yeni çağırış xalq deputatları Sovetləri tərəfindən icraiyyə komitələri seçilənədək öz səlahiyyətini saxlayırlar.

**Maddə 150.** Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri həm onları seçmiş Sovetə, həm də yuxarı icra və sərəncam orqanına bilavasitə hesabat verirlər.

**Maddə 151.** İcraiyyə komitələrinin şöbələri və idarələri Dağlıq Qarabağ Muxtar Vlayətinin Xalq Deputatları Soveti, rayon, şəhər, şəhərlərdə rayon xalq deputatları Sovetləri tərəfindən təşkil edilir və özlərinin fəaliyyətində həm Sovetlərə və onların icraiyyə komitələrinə, həm də müvafiq yuxarı dövlət idarə orqanlarına tabedirlər.

Yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin şöbə və idarələrinin siyahısı və onların təşkili qaydası SSR İttifaqı, Azərbaycan SSR qanunvericiliyi ilə, Naxçıvan MSSR-ın yerli Sovetləri üçün isə həmçinin Naxçıvan MSSR qanunvericiliyi ilə müəyyən edilir.

## VIII. AZƏRBAYCAN SSR DÖVLƏT İQTİSADİ VƏ SOSİAL İNKİŞAF PLANI AZƏRBAYCAN SSR DÖVLƏT BÜDCƏSİ

## 19-CU FƏSİL

## AZƏRBAYCAN SSR DÖVLƏT İQTİSADİ VƏ SOSİAL İNKİŞAF PLANI

**Maddə 152.** Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planı SSRİ dövlət iqitsadi və sosial inkişaf planının tərkib hissəsidir.

Azərbaycan SSR cari və perspektiv dövlət iqtisadi və sosial inkişaf planlarında məqsəd SSRİ-nin iqtisadi və sosial inkişafının əsas vəzifələrinə və istiqamətlərinə müvafiq surətdə respublika ərazisində

kompleks iqtisadi və sosial inkişafı təmin etməkdir.

**Maddət 153.** Azərbaycan SSR dövlət iqtsadi və sosial inkişaf planları iqtisadiyyat və sosial-mədəni quruculuq sahəsində vəzifələri müəyyən edir. Azərbaycan SSR ərazisində xalq təsərrüfatı sahələrinin və iqtisadi rayonların məqsədli kompleks proqramlarını, inkişaf planlarını əhatə edir, bu planlara Naxçıvan MSSR-in, Dağlıq Qarabağ Muxtar Vilayətinin, respublika tabeliyində olan rayonların və şəhərlərin iqtisadi və sosial inkişaf planları daxildir.

**Maddə 154.** Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planı SSRİ dövlət iqtisadi və sosial inkişaf planı əsas götürülməklə, Azərbaycan SSR nazirliklərinin, dövlət komitələrinin və başqa dövlət idarə orqanlarının, Naxçıvan MSSR Nazirlər Sovetinin, yerli xalq deputatları Sovetlərinin planlarının layihələri əsasında Azərbaycan SSR Nazirlər Soveti tərəfindən işlənib hazırlanır.

Azərbaycan SSR dövlət iqtisadi və sosial inkşaf planına İttifaq tabeliyində olub Azərbaycan SSR ərazisində yerləşən müəssisə, idarə və təşkilatların planlarının əsas göstəriciləri daxildir.

İqtisadi və sosial inkişaf planları müəssisə, idarə və təşkilatların, habelə ictimai təşkilatların kollektivlərinin təklifləri nəzərə alınmaqla işlənib hazırlanır.

**Maddə 155.** Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planını Azərbaycan SSR Ali Sovetinin müzakirəsinə verir.

Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR Nazirlər Sovetinin məruzəsi və Azərbaycan SSR Ali Soveti plan büdcə komissiyasının və başqa daimi komissiyalrının rəyləri əsasında Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planını müzakirə və təsdiq edir.

**Maddə 156.** Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planının yerinə yetirilməsini təşkil edir və plan intizamını möhkəmlətmək üçün lazımi tədbirlər görür.

**Maddə 157.** Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planlarının yerinə yetirilməsi haqqında hesabatlar Azərbaycan SSR Ali Soveti tərəfindən müzakirə və təsdiq edilir. Planların yerinə yetirilməsinə dair ümumi göstəricilər hamının nəzərinə çatdırılmaq üçün elan olunur.

## 20-Cİ FƏSİL

## AZƏRBAYCAN SSR DÖVLƏT BÜDCƏSİ

**Maddə 158.** Azərbaycan SSR dövlət büdcəsi SSRİ-nin vahid



dövlət büdcəsinin tərkib hissəsidir.

**Maddə 159.** Azərbaycan SSR dövlət büdcəsi Azərbaycan SSR respublika büdcəsini, Naxçıvan MSSR dövlət büdcəsini və Dağlıq Qarabağ Muxtar Vilayətinin, respublika tabeliyindəki rayonların və şəhərlərin yerli büdcələrini birləşdirir.

**Maddə 160.** Azərbaycan SSR dövlət büdcəsi mədaxil və məxaricinin Azərbaycan SSR respublika büdcəsi, Naxçıvan MSSR dövlət büdcəsi, Dağlıq Qarabağ Muxtar Vilayətinin, respublika rayonlarının və şəhərlərinin yerli büdcələri arasında bölüşdürülməsi Azərbaycan SSR-in Naxçıvan MSSR-in və yerli xalq deputatları Sovetlərinin büdcə hüquqları haqqında Azərbaycan SSR qanunu ilə müəyyən edilir.

**Maddə 161.** Azərbaycan SSR dövlət büdcəsi SSRİ və Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planları, SSRİ dövlət büdcəsi əsasında Azərbaycan SSR Nazirlər Soveti tərəfindən işlənib hazırlanır. Azərbaycan SSR Nazirlər Sovetinin məruzəsi və Azərbaycan SSR Ali Soveti plan-büdcə komissiyası və başqa daimi komissiyalarının rəyləri əsasında Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilir.

**Maddə 162.** Azərbaycan SSR dövlət büdcəsinin icrası haqqında hesabat Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilir. Büdcənin icrasına dair ümumi göstəricilər hamının nəzərinə çatdırılmaq üçün elan olunur.

## IX. ƏDALƏT MÜHAKİMƏSİ, ARBİTRAJ VƏ PROKUROR NƏZARƏTİ

## 21-Cİ FƏSİL

## MƏHKƏMƏ VƏ ARBİTRAJ

**Maddə 163.** Azərbaycan SSR-də ədalət mühakiməsi yalnız məhkəmə tərəfindən həyata keçirilir.

Azərbaycan SSR məhkəmələri Azərbaycan SSR Ali Məhkəməsi, Naxçıvan MSSR Ali Məhkəməsi, Bakı Şəhər Məhkəməsi, Dağlıq Qarabağ Muxtar Vilayətinin Vilayət Məhkəməsi, rayon (şəhər) xalq məhkəmələridir.

Azərbaycan SSR məhkəmələrinin təşkili və fəaliyyət qaydası SSR İttifaqı və Azərbaycan SSR qanunları ilə müəyyən edilir.

**Maddə 164**. Azərbaycan SSR-in bütün məhkəmələri hakimlərin və xalq iclasçılarının seçilməsi əsasında təşkil edilir.

Rayon (şəhər) xalq məhkəmələrinin xalq hakimləri rayon (şəhər) vətəndaşları tərəfindən gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında beş il müddətinə seçilirlər. Rayon (şəhər) xalq məhkəmələrinin xalq iclasçıları vətəndaşların işlədikləri və ya yaşadıqları yerdə onların yığıncaqlarında açıq səsvermə yolu ilə iki il yarım müddətinə seçilirlər.

Yuxarı məhkəmələr müvafiq xalq deputatları Sovetləri tərəfindən beş il müddətinə seçilir.

Hakimlər və xalq iclasçıları seçicilər və ya onları seçən orqanlar qarşısında məsuldurlar, onların qarşısında hesabat verirlər və qanunla müəyyən edilmiş qaydada onlar tərəfindən geri çağırıla bilərlər.

**Maddə 165**. Azərbaycan SSR Ali Məhkəməsi Azərbaycan SSR-in ali məhkəmə orqanıdır və Azərbaycan SSR məhkəmələrinin məhkəmə fəaliyyətinə nəzarət edir.

Azərbaycan SSR Ali Məhkəməsi Azərbaycan SSR Ali Soveti tərəfindən sədrdən, onun müavinlərindən, üzvlərindən və xalq iclasçılarından ibarət tərkibdə seçilir. Azərbaycan SSSR Ali Məhkəməsinin tərkibinə vəzifəyə görə Naxçıvan MSSR Ali Məhkəməsinin və Dağlıq Qarabağ Muxtar Vilayətinin Vilayət məhkəməsinin sədrləri daxildirlər.

**Maddə 166**. Bütün məhkəmələrdə mülki işlərə və cinayət işlərinə kollegial surətdə, birinci instansiya məhkəməsində isə xalq iclasçılarının iştirakı ilə baxılır. Ədalət mühakiməsi həyata keçirilərkən xalq iclasçıları hakimə məxsus bütün hüquqlara malikdirlər.

**Maddə 167**. Hakimlər və xalq iclasçıları müstəqildirlər və ancaq qanuna tabedirlər.

**Maddə 168**. Azərbaycan SSR-də ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.

**Maddə 169**. Bütün məhkəmələrdə işlərə açıq baxılır. İşlərə məhkəmənin qapalı iclasında baxılmasına ancaq qanunla müəyyən edilmiş hallarda, həm də mühakimə icraatının bütün qaydalarına əməl olunmaqla yol verilir.

**Maddə 170**. Müqəssirin müdafiə hüququ təmin edilir.

**Maddə 171**. Azərbaycan SSR-də mühakimə icraatı Azərbaycan dilində və ya muxtar respublikanın, muxtar vilayətin dilində, yaxud müəyyən ərazidəki əhalinin əksəriyyətinin dilində aparılır. İşdə iştirak edən, mühakimə icraatının aparıldığı dili bilməyən şəxslərin işdəki materiallarla bütünlüklə tanış olmaq hüququ, məhkəmə prosesində tərcüməçi vasitəsilə iştirakı və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin olunur.



**Maddə 172**. Məhkəmənin hökmü olmadan və qanun əsas götürülmədən heç kəs cinayət etməkdə təqsirli sayıla bilməz, habelə cinayət cəzasına məhkum oluna bilməz.

**Maddə 173**. Vətəndaşlara və təşkilatlara hüquqi yardım üçün vəkillər kollegiyası fəaliyyət göstərir. Qanunla nəzərdə tutulan hallarda vətəndaşlara hüquqi yardım pulsuz göstərilir.

Vəkillərin təşkili və fəaliyyət qaydası SSR İttifaqı və Azərbaycan SSR qanunları ilə müəyyən edilir.

**Maddə 174**. Mülki işlər və cinayət işləri üzrə mühakimə icraatında ictimai təşkilatların və əmək kollektivlərinin nümayəndələrinin iştirakına yol verilir.

**Maddə 175**. Müəssisə, idarə və təşkilatlar arasındakı təsərrüfat mübahisələri, dövlət arbitrajı orqanları tərəfindən onların səlahiyyəti daxilində həll edilir.

## 22-Cİ FƏSİL

## PROKURORLUQ

**Maddə 176**. Azərbaycan SSR ərazisində bütün nazirliklər, dövlət komitələri və baş idarələr, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları Sovetlərinin icra və sərəncam orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarət həm SSRİ Baş prokuroru tərəfindən bilavasitə, həm də ona tabe olan Azərbaycan SSR prokuroru və aşağı prokurorlar vasitəsilə həyata keçirilir.

**Maddə 177**. Azərbaycan SSR prokuroru, Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti prokurorları SSRİ Baş prokuroru tərəfindən təyin edilirlər.

Rayon və şəhər prokurorları Azərbaycan SSR prokuroru tərəfindən təyin olunur və SSRİ Baş prokuroru tərəfindən təsdiq edilirlər.

**Maddə 178**. Azərbaycan SSR prokurorunun və bütün aşağı prokurorların səlahiyyət müddəti beş ildir.

**Maddə 179**. Prokurorluq orqanları yalnız SSRİ Baş prokuroruna

tabe olub, öz səlahiyyətini hər hansı yerli orqanlardan asılı olmadan həyata keçirirlər.

## X. AZƏRBAYCAN SSR-İN GERBİ, BAYRAĞI, HİMNİ VƏ PAYTAXTI

**Maddə 180.** Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət gerbi doğan günəş fonunda çəkilmiş, pambıq və sünbül çələngi ilə haşiyələnmiş oraq və çəkic, neft buruğu təsvirindən ibarətdir və üzərində Azərbaycan dilində "Azərbaycan Sovet Sosialist Respublikası", "Bütün ölkələrin proletarları, birləşin!" və rus dilində: "Azerbaydcanskaə Sovetskaə Soüialistiçeskaə Respublika", "Proletarii vsex stran, soedinəytesğ!" sözləri yazılmışdır. Gerbin yuxarısında beşguşəli ulduz vardır.

**Maddə 181.** Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət bayrağı iki rəngli üfüqi zolağı olan düzbucaqlı parçadan ibarətdir: qırmızı rəngli yuxarı zolaq bayrağın eninin dörddə üç hissəsini və göy rəngli aşağı zolaq dörddə bir hissəsini təşkil edir: qırmızı zolağın yuxarı sol küncündə, bayrağın ağacı haşiyə içərisində beşguşəli qırmızı ulduz təsviri vardır. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**Maddə 182.** Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Himni Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

**Maddə 183.** Azərbaycan Sovet Sosialist Respublikasının paytaxtı Bakı şəhəridir.

## XI. AZƏRBAYCAN SSR KONSTİTUSİYASININ QÜVVƏDƏ OLMASI VƏ ONU DƏYİŞDİRMƏK QAYDASI

**Maddə 184.** Azərbaycan SSR-in bütün qanunları və dövlət orqanlarının digər aktları Azərbaycan SSR Konstitusiyasına əsasən və ona uyğun olaraq verilir.

**Maddə 185.** Azərbaycan SSR Konstitusiyası Azərbaycan SSR Ali Sovetinin qərarı ilə dəyişdirilir; bu qərar Azərbaycan SSR Ali Sovetinin bütün deputatlarının azı üçdə iki hissəsindən ibarət çoxluğu tərəfindən qəbul edilir.



# 1995-Cİ İLİN KONSTİTUSİYASI

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadıq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi – referendum yolu ilə bu Konstitusiya qəbul edilir.

## BİRİNCİ BÖLMƏ

## ÜMUMİ MÜDDƏALAR

## I FƏSİL

## XALQ HAKİMİYYƏTİ

**Maddə 1. Hakimiyyətin mənbəyi**

I. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

II. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir.

**Maddə 2. Xalqın suverenliyi**

I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

**Maddə 3. Ümumxalq səsverməsi – referendum yolu ilə həll edilən məsələlər**

I. Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər.

II. Aşağıdakı məsələlər yalnız referendumla həll oluna bilər:

1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;

2) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi.

III. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:

1) vergilər və dövlət büdcəsi;

2) amnistiya və əfv etmə;

3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.



**Maddə 4. Xalqı təmsil etmək hüququ**

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

**Maddə 5. Xalqın vahidliyi**

I. Azərbaycan xalqı vahiddir.

II. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir.

**Maddə 6. Hakimiyyətin mənimsənilməsinə yol verilməməsi**

I. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

II. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

## II FƏSİL

## DÖVLƏTİN ƏSASLARI

**Maddə 7. Azərbaycan dövləti**

I. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

II. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

III. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

IV. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

**Maddə 8. Azərbaycan dövlətinin başçısı**

I. Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir.

II. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.

IV. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

**Maddə 9. Silahlı Qüvvələr**

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

II. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır.

**Maddə 10. Beynəlxalq münasibətlərin prinsipləri**

Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

**Maddə 11. Ərazi**

I. Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

II. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

III. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**Maddə 12. Dövlətin ali məqsədi**

I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.



II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

**Maddə 13. Mülkiyyət**

I. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

III. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.

**Maddə 14. Təbii ehtiyatlar**

Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

**Maddə 15. İqtisadi inkişaf və dövlət**

I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq, xalqın rifahının yüksəldilməsinə xidmət edir.

II. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

**Maddə 16. Sosial inkişaf və dövlət**

I. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

II. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

**Maddə 17. Ailə və dövlət**

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

**Maddə 18. Din və dövlət**

I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

**Maddə 19. Pul vahidi**

I. Azərbaycan Respublikasının pul vahidi manatdır.

II. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Azərbaycan Respublikasının Milli Bankı dövlətin müstəsna mülkiyyətindədir.

III. Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır.

**Maddə 20. Dövlətin borclarına qoyulan məhdudiyyətlər**

Azərbaycan dövlətinə qarşı qiyama və ya dövlət çevrilişinə kömək məqsədi ilə alınmış borclar Azərbaycan Respublikası tərəfindən öhdəlik kimi qəbul edilə və ödənilə bilməz.

**Maddə 21. Dövlət dili**

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

**Maddə 22. Paytaxt**

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

**Maddə 23. Azərbaycan dövlətinin rəmzləri**

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1 : 2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.



## İKİNCİ BÖLMƏ

## ƏSAS HÜQUQLAR, AZADLIQLAR VƏ VƏZİFƏLƏR

## III FƏSİL

## ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI VƏ AZADLIQLARI

**Maddə 24. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi**

I. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

II. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.

**Maddə 25. Bərabərlik hüququ**

I. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.

II. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

III. Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

**Maddə 26. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi**

I. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

II. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

**Maddə 27. Yaşamaq hüququ**

I. Hər kəsin yaşamaq hüququ vardır.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

III. Müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.

IV. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, insana qarşı silah işlədilməsinə yol verilmir.

**Maddə 28. Azadlıq hüququ**

I. Hər kəsin azadlıq hüququ vardır.

II. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

III. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

IV. Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır.

**Maddə 29. Mülkiyyət hüququ**

I. Hər kəsin mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

V. Dövlət vərəsəlik hüququna təminat verir.

**Maddə 30. Əqli mülkiyyət hüququ**

I. Hər kəsin əqli mülkiyyət hüququ vardır.

II. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

**Maddə 31. Təhlükəsiz yaşamaq hüququ**

I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.

II. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.



**Maddə 32. Şəxsi toxunulmazlıq hüququ**

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.

IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

**Maddə 33. Mənzil toxunulmazlığı hüququ**

I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.

II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

**Maddə 34. Nikah hüququ**

I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

II. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

IV. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

**Maddə 35. Əmək hüququ**

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

IV. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı

səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

VI. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

VII. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

**Maddə 36. Tətil hüququ**

I. Hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır.

II. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və digər silahlı birləşmələrdə xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər.

III. Fərdi və kollektiv əmək mübahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir.

**Maddə 37. İstirahət hüququ**

I. Hər kəsin istirahət hüququ vardır.

II. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

**Maddə 38. Sosial təminat hüququ**

I. Hər kəsin sosial təminat hüququ vardır.

II. Yardıma möhtac olanlara kömək etmək ilk növbədə onların ailə üzvlərinin borcudur.

III. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

IV. Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir.

V. Dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır.

**Maddə 39. Sağlam ətraf mühitdə yaşamaq hüququ**

I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.



II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

**Maddə 40. Mədəniyyət hüququ**

I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

**Maddə 41. Sağlamlığın qorunması hüququ**

I. Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

II. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

III. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

**Maddə 42. Təhsil hüququ**

I. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

II. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

III. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.

IV. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.

V. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

**Maddə 43. Mənzil hüququ**

I. Heç kəs yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz.

II. Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür.

**Maddə 44. Milli mənsubiyyət hüququ**

I. Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır.

II. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.

**Maddə 45. Ana dilindən istifadə hüququ**

I. Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır.

II. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

**Maddə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ**

I. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

II. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

III. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

**Maddə 47. Fikir və söz azadlığı**

I. Hər kəsin fikir və söz azadlığı vardır.

II. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

III. İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

**Maddə 48. Vicdan azadlığı**

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

III. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

IV. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

**Maddə 49. Sərbəst toplaşmaq azadlığı**

I. Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.

II. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.

**Maddə 50. Məlumat azadlığı**

I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

II. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

**Maddə 51. Yaradıcılıq azadlığı**

I. Hər kəsin yaradıcılıq azadlığı vardır.



II. Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

**Maddə 52. Vətəndaşlıq hüququ**

Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

**Maddə 53. Vətəndaşlıq hüququnun təminatı**

I. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz.

II. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

III. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

**Maddə 54. Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır.

II. Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək Azərbaycan Respublikasının hər bir vətəndaşının hüququdur.

**Maddə 55. Dövlətin idarə olunmasında iştirak etmək hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

II. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

**Maddə 56. Seçki hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

II. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

**Maddə 57. Müraciət etmək hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

II. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

**Maddə 58. Birləşmək hüququ**

I. Hər kəsin başqaları ilə birləşmək hüququ vardır.

II. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir.

III. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

IV. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

**Maddə 59. Azad sahibkarlıq hüququ**

Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

**Maddə 60. Hüquq və azadlıqların məhkəmə təminatı**

I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.



**Maddə 61. Hüquqi yardım almaq hüququ**

I. Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

II. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

III. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

**Maddə 62. Məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi**

Hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

**Maddə 63. Təqsirsizlik prezumpsiyası**

I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.

III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

V. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.

**Maddə 64. Bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi**

Heç kəs bir cinayətə görə təkrarən məhkum edilə bilməz.

**Maddə 65. Məhkəməyə təkrar müraciət hüququ**

Məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

**Maddə 66. Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi**

Heç kəs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

**Maddə 67. Tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları**

Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

**Maddə 68. Zərərin ödənilməsini tələb etmək hüququ**

I. Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

II. Hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

**Maddə 69. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları**

I. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

II. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

**Maddə 70. Siyasi sığınacaq hüququ**

I. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

II. Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir.



**Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı**

I. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

II. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

III. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

IV. Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz.

V. Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

VI. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

VII. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

VIII. Heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.

## IV FƏSİL

## VƏTƏNDAŞLARIN ƏSAS VƏZİFƏLƏRİ

**Maddə 72. Vətəndaşların vəzifələrinin əsası**

I. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır.

II. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

III. Qanunu bilməmək məsuliyyətdən azad etmir.

**Maddə 73. Vergilər və başqa dövlət ödənişləri**

I. Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

II. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz.

**Maddə 74. Vətənə sədaqət**

I. Vətənə sədaqət müqəddəsdir.

II. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər.

III. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən, Azərbaycan Respublikası Konstitusiyasına sadiq qalacağına and içmiş şəxs dövlətə qarşı cinayətdə, o cümlədən dövlətə qarşı qiyamda və ya dövlət çevrilişində ittiham edilibsə və bu ittiham əsasında məhkum olunubsa, həmin vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta bilməz.

**Maddə 75. Dövlət rəmzlərinə hörmət**

Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir.

**Maddə 76. Vətəni müdafiə**

I. Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

II. Vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir.

**Maddə 77. Tarix və mədəniyyət abidələrinin qorunması**

Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur.

**Maddə 78. Ətraf mühitin qorunması**

Ətraf mühitin qorunması hər bir şəxsin borcudur.

**Maddə 79. Qanuna zidd vəzifələrin icrasına yol verilməməsi**

Heç kəs Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz.

**Maddə 80. Məsuliyyət**

Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.



## ÜÇÜNCÜ BÖLMƏ

## DÖVLƏT HAKİMİYYƏTİ

## V FƏSİL

## QANUNVERİCİLİK HAKİMİYYƏTİ

**Maddə 81. Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi**

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

**Maddə 82. Azərbaycan Respublikası Milli Məclisinin say tərkibi**

Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

**Maddə 83. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin əsasları**

Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər.

**Maddə 84. Azərbaycan Respublikası Milli Məclisi çağırışının səlahiyyət müddəti**

I. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

II. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

III. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

IV. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

**Maddə 85. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığına namizədlərə aid tələblər**

I. Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.

II. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

**Maddə 86. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi**

Seçkilərin nəticələrinin düzgünlüyünü qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir.

**Maddə 87. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının səlahiyyətinin bitməsi**

I. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının səlahiyyətləri Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının ilk iclas günü bitir.

II. Azərbaycan Respublikası Milli Məclisi deputatlığından çıxanların yerinə seçkilər Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, keçirilmir.

III. Azərbaycan Respublikasının Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

**Maddə 88. Azərbaycan Respublikası Milli Məclisinin sessiyaları**

I. Azərbaycan Respublikasının Milli Məclisi hər il iki növbəti yaz və payız sessiyalarına yığılır.

Azərbaycan Respublikası Milli Məclisinin 83 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır.

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdən sonra martın 10-dək onun 83 deputatının səlahiyyətləri təsdiq edilməzsə, Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilmə vaxtını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müəyyən edir.

II. Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyalarını Azərbaycan Respublikası Milli Məclisinin sədri Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin 42 deputatının tələbi əsasında çağırır.



III. Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasının gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

**Maddə 89. Azərbaycan Respublikası Milli Məclisi deputatlığından məhrumetmə və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi**

I. Azərbaycan Respublikası Milli Məclisinin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:

1. seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;
2. Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;
3. cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;
4. dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla);
5. özü imtina etdikdə.

Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından məhrum etmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

**Maddə 90. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının toxunulmazlığı**

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Milli Məclisi deputatının şəxsiyyəti toxunulmazdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Azərbaycan Respublikası Milli Məclisinin deputatı cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda Azərbaycan Respublikası Milli Məclisinin deputatını tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə xitam verilə bilər.

**Maddə 91. Azərbaycan Respublikası Milli Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar**

Azərbaycan Respublikası Milli Məclisinin deputatları Azərbaycan Respublikası Milli Məclisindəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

**Maddə 92. Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili**

Azərbaycan Respublikasının Milli Məclisi öz iş qaydasını müəyyən edir və Milli Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, daimi və başqa komissiyalar təşkil edir, Hesablama Palatası yaradır.

**Maddə 93. Azərbaycan Respublikası Milli Məclisinin aktları**

I. Azərbaycan Respublikasının Milli Məclisi öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir.

II. Azərbaycan Respublikasının Milli Məclisində Konstitusiya qanunları, qanunlar və qərarlar bu Konstitusiya ilə nəzərdə tutulmuş qaydada qəbul edilir.

III. Azərbaycan Respublikası Milli Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər.

IV. Qanunlarda və Azərbaycan Respublikası Milli Məclisinin qərarlarında icra hakimiyyəti və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz.

**Maddə 94. Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar**

I. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

1. bu Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı;
2. Azərbaycan Respublikası Prezidentinin seçkiləri;
3. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu;
4. referendum;



5. məhkəmə quruluşu və hakimlərin statusu, prokurorluq, vəkillik və notariat;
6. məhkəmə icraatı, məhkəmə qərarlarının icrası;
7. bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu;
8. fövqəladə vəziyyət rejimi, hərbi vəziyyət rejimi;
9. dövlət təltifləri;
10. fiziki və hüquqi şəxslərin statusu;
11. mülki hüquq obyektləri;
12. əqdlər, mülki müqavilələr, nümayəndəlik və vərəsəlik;
13. mülkiyyət hüququ, o cümlədən dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ; digər əşya hüquqları; öhdəlik hüququ;
14. ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq;
15. maliyyə fəaliyyətinin əsasları, vergilər, rusumlar və ödənişlər;
16. əmək münasibətləri və sosial təminat;
17. cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi; onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi;
18. müdafiə və hərbi qulluq;
19. dövlət qulluğu;
20. təhlükəsizliyin əsasları;
21. ərazi quruluşu, dövlət sərhədi rejimi;
22. beynəlxalq müqavilələrin təsdiqi və ləğvi;
23. rabitə və nəqliyyat işi;
24. statistika, metrologiya və standartlar;
25. gömrük işi;
26. ticarət işi və birja fəaliyyəti;
27. bank işi, mühasibat, sığorta.

II. Bu maddənin 2, 3, 4-cü bəndlərində göstərilən məsələlərə dair qanunlar 83 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir.

III. Bu maddənin I hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.

**Maddə 95. Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlər**

I. Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

1. Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili;
2. Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi;

3. inzibati ərazi bölgüsü;
4. dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi;
5. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət;
6. Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi;
7. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi;
8. bu Konstitusiyada nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Prezidentinin fərmanlarının təsdiqi;
9. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi;
10. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası apellyasiya məhkəmələri hakimlərinin təyin edilməsi;
11. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;
12. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təqdimatına əsasən Azərbaycan Respublikası Prezidentinin impiçment qaydasında vəzifədən kənarlaşdırılması;
13. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən hakimlərin vəzifədən kənarlaşdırılması;
14. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi;
15. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;
16. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi;
17. Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi;
18. referendum təyin edilməsi;
19. amnistiya.



II. Bu maddənin 1-5-ci bəndlərində göstərilən məsələlərə dair 63 səs çoxluğu ilə qanunlar, qalan məsələlərə dair isə, bu Konstitusiyada başqa qayda nəzərdə tutulmayıbsa, eyni qaydada qərarlar qəbul edilir.

III. Bu Konstitusiyada Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aid edilən digər məsələlərə, Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili ilə əlaqədar məsələlərə, Azərbaycan Respublikası Milli Məclisinin münasibətinin bildirilməsi zəruri olan məsələlərə dair də qərarlar qəbul edilir.

IV. Bu maddənin I hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.

**Maddə 96. Qanunvericilik təşəbbüsü hüququ**

I. Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur.

II. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə verdiyi qanun və ya qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.

III. Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın razılığı ilə edilə bilər.

IV. Qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikası Milli Məclisinə təqdim etdiyi qanun və ya qərar layihələri iki ay ərzində səsə qoyulur.

V. Qanun və ya qərar layihəsini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Prokurorluğu və ya Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təcili elan edibsə, bu müddət 20 gün təşkil edir.

**Maddə 97. Qanunların imzalanmaq üçün təqdim olunması müddəti**

I. Qanunlar qəbul edildiyi gündən 14 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün təqdim edilir.

II. Təcili elan olunan qanun layihəsi Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün qəbul edildiyi gündən 24 saat ərzində təqdim edilir.

**Maddə 98. Azərbaycan Respublikası Milli Məclisinin aktlarının qüvvəyə minməsi**

Qanunun və Azərbaycan Respublikası Milli Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

## VI FƏSİL

## İCRA HAKİMİYYƏTİ

**Maddə 99. İcra hakimiyyətinin mənsubiyyəti**

Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.

**Maddə 100. Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər**

Yaşı otuz beşdən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

**Maddə 101. Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları**

I. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

II. Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

III. Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir.

IV. Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

V. Heç kəs iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Prezidenti seçilə bilməz.

VI. Bu maddənin tətbiqi qaydası qanunla müəyyən edilir.

**Maddə 102. Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları**

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi rəsmən elan edir.

**Maddə 103. Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin andı**

I. Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxs Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatın elan olunduğu gündən başlayaraq 3 gün ərzində Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə belə bir and içir: «Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm»

II. And içdiyi gündən Azərbaycan Respublikasının Prezidenti öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

**Maddə 104. Azərbaycan Respublikası Prezidentinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi**

I. Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə, bu Konstitusiya ilə nəzərdə tutulmuş hallarda və qaydada vəzifəsindən kənarlaşdırıldıqda vaxtından əvvəl vəzifədən getmiş sayılır.

II. Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə onun istefa ərizəsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunur. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi istefa ərizəsini Azərbaycan Respublikası Prezidentinin özünün verdiyinə əmin olduğu təqdirdə Azərbaycan Respublikası Prezidentinin istefasının qəbul olunması haqqında qərar qəbul edir. Həmin andan Azərbaycan Respublikasının Prezidenti istefa verdiyinə görə vəzifədən getmiş sayılır.

III. Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlu-

mat verildikdə Azərbaycan Respublikasının Milli Məclisi bu faktın aydınlaşdırılması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu barədə qərarı hakimlərin 6 səs çoxluğu ilə qəbul edir. Əgər Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu faktı təsdiq etməzsə, məsələ bununla bitmiş sayılır.

**Maddə 105. Azərbaycan Respublikasının Prezidenti vəzifədən getdikdə onun səlahiyyətlərinin icrası**

I. Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə üç ay ərzində növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikasının yeni Prezidenti seçilənədək Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.

II. Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikasının Baş naziri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir.

III. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisi sədrinin icra etməsi mümkün olmadıqda Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.

**Maddə 106. Azərbaycan Respublikası Prezidentinin toxunulmazlığı**

Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti qanunla qorunur.

**Maddə 107. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması**

I. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması təşəbbüsü Azərbaycan Respublikasının Prezidenti ağır cinayət törətdikdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin 30 gün müddətində verilən rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürülə bilər.



II. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 95 səs çoxluğu ilə qəbul olunmuş qərar əsasında Azərbaycan Respublikasının Prezidenti vəzifədən kənarlaşdırıla bilər. Bu qərarı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri imzalayır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi həmin qərarın imzalanmasına bir həftə ərzində tərəfdar çıxmazsa, qərar qüvvəyə minmir.

III. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikasının Milli Məclisinə müraciət etdiyi gündən başlayaraq 2 ay ərzində qəbul olunmalıdır. Bu müddətdə göstərilən qərar qəbul edilməsə, Azərbaycan Respublikasının Prezidentinə qarşı irəli sürülmüş ittiham rədd edilmiş sayılır.

**Maddə 108. Azərbaycan Respublikası Prezidentinin təminatı**

Azərbaycan Respublikasının Prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikası Prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.

**Maddə 109. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri**

Azərbaycan Respublikasının Prezidenti:

1. Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir;
2. Azərbaycan Respublikasının dövlət büdcəsini Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə təqdim edir;
3. dövlət iqtisadi və sosial proqramlarını təsdiq edir;
4. Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş nazirini vəzifədən azad edir;
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir; zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir;
6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;
7. Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır;
8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir;

9. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apellyasiya məhkəmələri hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimatlar verir; Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir;
10. Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;
11. Azərbaycan Respublikasının hərbi doktrinasını Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir;
12. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir;
13. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatını təşkil edir və onun rəhbərini təyin edir;
14. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;
15. Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır;
16. xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir;
17. dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir; təsdiqnamələri imzalayır;
18. referendum təyin edir;
19. qanunları imzalayır və dərc edir;
20. vətəndaşlıq məsələlərini həll edir;
21. siyasi sığınacaq verilməsi məsələlərini həll edir;
22. əfv edir;
23. dövlət təltifləri ilə təltif edir;
24. ali hərbi və ali xüsusi rütbələr verir;
25. ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir;



26. Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul edir;
27. Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır;
28. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;
29. fövqəladə və hərbi vəziyyət elan edir;
30. Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır;
31. Azərbaycan Respublikasının dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş xərclər çərçivəsində xüsusi mühafizə xidmətləri yaradır;
32. bu Konstitusiya ilə Azərbaycan Respublikası Milli Məclisinin və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir.

**Maddə 110. Qanunların imzalanması**

I. Azərbaycan Respublikasının Prezidenti qanunları ona təqdim olunmuş gündən başlayaraq 56 gün ərzində imzalayır. Qanun Azərbaycan Respublikası Prezidentinin etirazını doğurursa, o, qanunu imzalamayıb öz etirazları ilə birlikdə göstərilən müddət ərzində Azərbaycan Respublikasının Milli Məclisinə qaytara bilər.

II. Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmazsa, qüvvəyə minmir. Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə qəbul edilən qanunları 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunları isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, belə qanunlar təkrar səsvermədən sonra qüvvəyə minir.

**Maddə 111. Hərbi vəziyyət elan edilməsi**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktik işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə belə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

**Maddə 112. Fövqəladə vəziyyət tətbiq edilməsi**

Azərbaycan Respublikasının Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

**Maddə 113. Azərbaycan Respublikası Prezidentinin aktları**

I. Ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Prezidenti fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

II. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında başqa qayda nəzərdə tutulmayıbsa, onlar dərc edildiyi gündən qüvvəyə minir.

**Maddə 114. Azərbaycan Respublikası Nazirlər Kabinetinin statusu**

I. Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır.

II. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır.

III. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında cavabdehdir.

IV. Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyənləşdirir.

**Maddə 115. Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibi**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibinə Azərbaycan Respublikasının Baş naziri, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.



**Maddə 116. Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası**

Yeni seçilmiş Azərbaycan Respublikasının Prezidenti vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinə istefa verir.

**Maddə 117. Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasları**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına, bir qayda olaraq, Azərbaycan Respublikasının Baş naziri sədrlik edir.

**Maddə 118. Azərbaycan Respublikası Baş nazirinin təyin edilməsi qaydası**

I. Azərbaycan Respublikasının Baş nazirini Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

II. Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında təklifi Azərbaycan Respublikasının Prezidenti onun öz vəzifələrinin icrasına başladığı gündən bir ay və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefa verdiyi gündən iki həftə müddətindən gec olmayaraq Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edir.

III. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında qərarı həmin namizədliyin təqdim edildiyi gündən bir həftədən gec olmayaraq qəbul edir. Göstərilən qayda pozularsa və ya Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi namizədlərin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmasına üç dəfə razılıq verilməzsə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Baş nazirini Azərbaycan Respublikası Milli Məclisinin razılığı olmadan təyin edə bilər.

**Maddə 119. Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;
- Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir;
- maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir;
- dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;
- dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir;

- nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;

- Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

**Maddə 120. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları**

I. Ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

II. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarında başqa qayda nəzərdə tutulmayıbsa, onlar dərc edildiyi gündən qüvvəyə minir.

**Maddə 121. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə dair tələblər**

I. Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

II. Azərbaycan Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə yaşı 25-dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

**Maddə 122. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərinə aid tələblər**

Azərbaycan Respublikasının Baş naziri, onun müavinləri, nazirlər, digər mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

**Maddə 123. Azərbaycan Respublikası Baş nazirinin toxunulmazlığı**

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Baş nazirinin şəxsiyyəti toxunulmazdır.



II. Azərbaycan Respublikasının Baş naziri, cinayət başında yaxalanma hallarından başqa, tutula bilməz, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.

III. Azərbaycan Respublikasının Baş naziri cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

IV. Azərbaycan Respublikası Baş nazirinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər.

**Maddə 124. Yerlərdə icra hakimiyyəti**

I. Yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər.

II. İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

III. Yerli icra hakimiyyətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

## VII FƏSİL

## MƏHKƏMƏ HAKİMİYYƏTİ

**Maddə 125. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi**

I. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

II. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

III. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir.

IV. Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

VI. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır.

**Maddə 126. Hakimliyə namizədlərə aid tələblər**

I. Yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.

II. Hakimlər heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

**Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri**

I. Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər.

II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

III. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.

IV. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.

V. Bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.

VI. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

VII. Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir.

VIII. Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin olunur.

IX. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.

X. Azərbaycan Respublikasında məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq



təşkil edən hissəsinin dilində aparılır. İşin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.

**Maddə 128. Hakimlərin toxunulmazlığı**

I. Hakimlər toxunulmazdırlar.

II. Hakim cinayət məsuliyyətinə yalnız qanunda nəzərdə tutulan qaydada cəlb oluna bilər.

III. Hakimlərin səlahiyyətlərinə yalnız qanunda nəzərdə tutulmuş əsaslara və qaydalara müvafiq surətdə xitam verilə bilər.

IV. Hakimlərin vəzifədən kənarlaşdırılması təşəbbüsünü hakimlər cinayət törətdikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Ali Məhkəməsinin rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürə bilər. Müvafiq rəyi Azərbaycan Respublikasının Ali Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin sorğusundan sonra 30 gün müddətində təqdim etməlidir.

V. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apellyasiya məhkəmələri hakimlərinin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 83 səs çoxluğu ilə qəbul edilir, başqa hakimlərin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 63 səs çoxluğu ilə qəbul edilir.

**Maddə 129. Məhkəmə qərarları və onların icrası**

Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

**Maddə 130. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi**

I. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir.

II. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

III. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

1. Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu;

2. Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu;

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına uyğunluğu;

4. Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının qanunda nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

5. bələdiyyə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikası qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) uyğunluğu;

6. Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

7. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının və Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu; Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunluğu;

8. qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələr.

IV. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını şərh edir.



V. Hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər.

VI. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada məhkəmələr insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edə bilərlər.

VII. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verə bilər.

VIII. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu Konstitusiyada nəzərdə tutulmuş digər səlahiyyətləri də həyata keçirir.

IX. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir.

X. Qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür. Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir.

**Maddə 131. Azərbaycan Respublikasının Ali Məhkəməsi**

I. Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, kassasiya qaydasında

ədalət mühakiməsini həyata keçirir; məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir.

II. Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

**Maddə 132. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri**

I. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri qanunla onların səlahiyyətlərinə aid edilmiş işlər üzrə yuxarı instansiya məhkəmələridir.

II. Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

**Maddə 133. Azərbaycan Respublikasının Prokurorluğu**

I. Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

II. Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

III. Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

IV. Azərbaycan Respublikası Baş prokurorunun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlarına rəhbərlik edən prokurorları, Naxçıvan Muxtar Respublikasının prokurorunu Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

V. Ərazi və ixtisaslaşdırılmış prokurorları Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.



## VIII FƏSİL

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI

**Maddə 134. Naxçıvan Muxtar Respublikasının statusu**

I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.

II. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir.

III. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

IV. Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir.

V. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları müvafiq olaraq Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

VI. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilir və Konstitusiya qanunu ilə təsdiq edilir.

**Maddə 135. Naxçıvan Muxtar Respublikasında hakimiyyətlərin bölünməsi**

I. Naxçıvan Muxtar Respublikasının qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onların səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

**Maddə 136. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi**

Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

**Maddə 137. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 üzvdən ibarətdir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddəti 5 ildir.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrini və onun müavinlərini seçir, daimi və digər komissiyalar təşkil edir.

**Maddə 138. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakılara dair ümumi qaydalar müəyyən edir:

1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər;
2. vergilər;
3. Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətləri;
4. sosial təminat;
5. ətraf mühitin qorunması;
6. turizm;
7. səhiyyə, elm, mədəniyyət.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanunlar qəbul edir.

**Maddə 139. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələləri həll edir:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili;
2. Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi;
3. Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi;
4. Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;
5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərkibinin təsdiqi;
6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad.



II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərarlar qəbul edir.

**Maddə 140. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti**

I. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

II. Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

III. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti

- muxtar respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;
- muxtar respublikanın büdcəsini icra edir;
- muxtar respublikanın iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;
- muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin edir;
- Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

IV. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti qərar və sərəncamlar qəbul edir.

**Maddə 141. Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti**

Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətlərinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir.

## DÖRDÜNCÜ BÖLMƏ

## YERLİ ÖZÜNÜİDARƏETMƏ

## IX FƏSİL

## BƏLƏDİYYƏLƏR

**Maddə 142. Yerlərdə özünüidarənin təşkili**

I. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

II. Bələdiyyələr seçkilər əsasında yaradılır.

III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

**Maddə 143. Bələdiyyələrin işinin təşkili**

I. Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirir.

II. Bələdiyyənin iclaslarını bələdiyyənin sədri çağırır.

**Maddə 144. Bələdiyyələrin səlahiyyətləri**

I. Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir:

1. bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;
2. bələdiyyənin reqlamentinin təsdiq edilməsi;
3. bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;
4. yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;
5. yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;
6. bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;
7. yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;
8. yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;
9. yerli ekoloji proqramların qəbul və icra edilməsi.

II. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

**Maddə 145. Bələdiyyələrin qərarları**

I. Bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.

II. Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

III. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

**Maddə 146. Bələdiyyələrin müstəqilliyinin təminatı**

Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərinin ödənilməsinə təminat verilir.



# BEŞİNCİ BÖLMƏ

# HÜQUQ VƏ QANUN

## X FƏSİL

## QANUNVERİCİLİK SİSTEMİ

**Maddə 147. Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi**

I. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

**Maddə 148. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar**

I. Qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir:

1. Konstitusiya;
2. referendumla qəbul edilmiş aktlar;
3. qanunlar;
4. fərmanlar;
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;
6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

II. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

III. Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları hüquqi qüvvəyə malikdir.

IV. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmalıdır.

V. Öz səlahiyyətləri daxilində yerli icra hakimiyyəti orqanları qanunvericilik sisteminə daxil olan aktlara zidd gəlməyən normativ xarakterli aktlar qəbul edə bilərlər.

**Maddə 149. Normativ hüquqi aktlar**

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır.

II. Referendumla qəbul olunmuş aktlar yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

IV. Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olmamalıdır. Yalnız dərc edilmiş fərmanların tətbiqi və icrası bütün vətəndaşlar, icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və Azərbaycan Respublikası Prezidentinin fərmanlarına zidd olmamalıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

VI. Mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

VII. Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.

**Maddə 150. Bələdiyyə aktları**

I. Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

II. Bələdiyyənin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir.

**Maddə 151. Beynəlxalq aktların hüquqi qüvvəsi**

Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.



## XI FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DƏYİŞİKLİKLƏR

**Maddə 152. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklərin qəbul edilməsi qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər.

**Maddə 153. Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərin təklif edilməsi qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişiklikləri Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti təklif etdikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyi alınır.

**Maddə 154. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətlərinin məhdudlaşdırılması**

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi referendumla qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərə dair qərar qəbul edə bilməz.

**Maddə 155. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması**

Bu Konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər və ya onların ləğv edilməsi haqqında, III fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.

## XII FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA ƏLAVƏLƏR

**Maddə 156. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin qəbul edilməsi qaydası**

I. Azərbaycan Respublikası Konstitusiyasına əlavələr Azərbaycan Respublikasının Milli Məclisində 95 səs çoxluğu ilə Konstitusiya qanunları şəklində qəbul edilir.

II. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları Azərbaycan Respublikasının Milli Məclisində iki dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 6 ay sonra keçirilir.

III. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra bu Konstitusiyada qanunlar üçün nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Prezidentinə imzalanmaq üçün təqdim olunur.

IV. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən ikinci səsvermədən sonra imzalandıqda qüvvəyə minir.

V. Konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Azərbaycan Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

**Maddə 157. Azərbaycan Respublikası Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsü**

Azərbaycan Respublikasının Konstitusiyasına əlavələri Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikası Milli Məclisinin azı 63 deputatı təklif edə bilərlər.

**Maddə 158. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması**

Bu Konstitusiyanın birinci bölməsində əks etdirilmiş müddəalarla əlaqədar Azərbaycan Respublikası Konstitusiyasına əlavələr təklif edilə bilməz.



## KEÇİD MÜDDƏALARI

1. Azərbaycan Respublikasının Konstitusiyası referendumla qəbul edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşür.

2. Bu Konstitusiyanın qüvvəyə minməsinə qədər seçilmiş Azərbaycan Respublikasının Prezidenti bu Konstitusiya ilə Azərbaycan Respublikasının Prezidentinə aid edilmiş səlahiyyətləri həyata keçirir.

3. Bu Konstitusiyanın 101-ci maddəsinin V hissəsi bu Konstitusiya qəbul edildikdən sonra seçilən Azərbaycan Respublikası Prezidentinə şamil edilir.

4. Azərbaycan Respublikası xalq deputatlarının və Azərbaycan Respublikası Ali Sovetinin yaratdığı Milli Məclisin səlahiyyətləri yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclas günü başa çatır.

Yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası Azərbaycan Respublikası Milli Məclisinin azı 83 deputatının seçildiyi gündən bir həftə sonra keçirilir. Azərbaycan Respublikası Milli Məclisinin ilk sessiyası 1996-cı il mayın 31-dək davam edir.

1995-ci il avqustun 12-də qəbul edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci maddəsi bu Qanun əsasında seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin birinci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Konstitusiyanın qüvvəyə mindiyi gündən bu Konstitusiyada müəyyən edilən səlahiyyətləri həyata keçirir.

6. Bu Konstitusiya qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası yerli xalq deputatları sovetlərinin səlahiyyətlərinə xitam verilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə Azərbaycan Respublikasının yerli xalq deputatları sovetlərinə aid edilmiş səlahiyyətləri yerli icra hakimiyyəti orqanları həyata keçirir.

7. Bu Konstitusiya qüvvəyə mindikdən sonra iki il müddətində yerli özünüidarə haqqında qanun qəbul edilməli və bələdiyyələrə seçkilər keçirilməlidir.

8. Bu Konstitusiyanın qəbul edildiyi günədək Azərbaycan Respublikasının ərazisində qüvvədə olan qanunlar və başqa normativ hüquqi aktlar bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

9. Bu Konstitusiya qüvvəyə minənədək fəaliyyət göstərən Azərbaycan Respublikasının məhkəmələri ədalət mühakiməsini bu Konstitusiyada müəyyən edilən səlahiyyətlərə və prinsiplərə uyğun həyata keçirir.

10. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il ərzində hakimlərin statusu, məhkəmə quruluşu və məhkəmə islahatı ilə əlaqədar Azərbaycan Respublikasının bu Konstitusiyaya uyğun olan qanunvericiliyi qəbul edilməlidir və Azərbaycan Respublikası məhkəmələrinin hakimləri yenidən təyin edilməlidir.

Həmin qanunvericilik qəbul edilənədək hakimlərin vəzifəyə təyin və vəzifədən azad edilməsi bu Konstitusiya qüvvəyə minənədək qüvvədə olan qanunvericilik əsasında həyata keçirilir.

11. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il müddətində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilməli və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmalıdır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılanadək bu Konstitusiyada nəzərdə tutulmuş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətləri həyata keçirilmir. Bu Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 7-ci bəndində nəzərdə tutulmuş məsələni Azərbaycan Respublikasının Ali Məhkəməsi həll edir.

12. Azərbaycan Respublikasının Ali Arbitraj Məhkəməsi bu Konstitusiyanın qüvvəyə mindiyi gündən Azərbaycan Respublikasının İqtisad Məhkəməsi adlanır və qüvvədə olan qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri həyata keçirir.



# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ

# KONSTİTUSİYASI

Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək, Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır. 1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səs verməsində — referendumda qəbul edilən Konstitusiyası təşkil edir.

Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası Konstitusiyası ilə üzvi surətdə bağlı olan bu Konstitusiyası qəbul edilərkən təntənəli surətdə aşağıdakı niyyətlər bəyan edilir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəranını yaxşılaşdırmaq;
- Naxçıvan Muxtar Respublikasında Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq.

Yuxarıda göstərilən ülvi niyyətlərlə bu Konstitusiya qəbul edilir.

## I FƏSİL

## ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Naxçıvan Muxtar Respublikasının statusu**

I. Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır.

II. Naxçıvan Muxtar Respublikasının statusunu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri müəyyən edir.

**Maddə 2. Muxtariyyətin əsasları**

I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

II. Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı olan bütün digər məsələlər Naxçıvan Muxtar Respublikası tərəfindən həll edilir, o şərtlə ki, bu məsələlərin həlli Azərbaycan Respublikasının dövlət orqanlarının səlahiyyətlərinə aid edilməyib.

III. Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində o, Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır.

**Maddə 3. Hakimiyyətlərin bölünməsi**

I. Naxçıvan Muxtar Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir;
- icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;
- məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

II. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərirlər.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikası məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.



**Maddə 4. Dövlət hakimiyyətinin mənimsənilməsinə yol verilməməsi**

I. Naxçıvan Muxtar Respublikasında vətəndaşların heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

II. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

**Maddə 5. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi**

I. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

II. Bu Konstitusiya ilə müəyyən olunan hallarda və qaydada Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində aşağıdakı səlahiyyətləri həyata keçirir:

- Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkiləri təyin edir;
- Naxçıvan Muxtar Respublikası dövlət hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təmin edir;
- Naxçıvan Muxtar Respublikasının qanunlarını imzalayır və dərc edir;
- Naxçıvan Muxtar Respublikasının dövlət və ictimai-siyasi həyatının mühüm məsələləri barədə
- Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat verir;
- Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;
- Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi icra hakimiyyəti orqanlarını yaradır;
- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları arasındakı dövrdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin fəaliyyətini təmin edir;
- Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir;
- Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri ha-

kimlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair təkliflər verir;

- Naxçıvan Muxtar Respublikası prokurorunun, rayon, şəhər və ixtisaslaşdırılmış prokurorlarının vəzifəyə təyin və vəzifədən azad olunmasına dair təkliflər verir;
- Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının hərbi doktrinasını həyata keçirir, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşmiş birləşmələrinin komandan heyətləri haqqında təklif verir;
- vətəndaşlıq məsələlərinə dair təklif verir;
- əfv edilmə məsələlərinə dair təklif verir;
- Təhlükəsizlik Şurasını təsis edir və ona rəhbərlik edir;
- ümumi və qismən səfərbərliyin həyata keçirilməsini təmin edir;
- vətəndaşların müddətli hərbi xidmətə çağırılmasının və müddətli hərbi xidmətdən tərxis olunmuş hərbi qulluqçuların sosial müdafiəsinin təmin olunması tədbirlərinin həyata keçirilməsinə yardım edir;
- Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilmiş fövqəladə və hərbi vəziyyət rejiminin həyata keçirilməsinə yardım edir, Naxçıvan Muxtar Respublikasında fövqəladə və hərbi vəziyyət elan olunması məsələsinə dair təklif verir;
- fəxri adları təsis edir və fəxri adlarla təltif edir;

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin səlahiyyətlərinə aid edilmiş digər məsələləri icra qaydasında həll edir.

III. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil edir.

IV. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının dövlətçiliyinin varisliyini təmin edir.

V. Bu Konstitusiya ilə onun səlahiyyətinə aid edilən məsələlər üzrə Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.



**Maddə 6. Ərazi**

Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir.

**Maddə 7. Əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi**

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, gözlənilməsi və Azərbaycan Respublikası vətəndaşlarının vəzifələrinin icrasını təmin etmək Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının əsas vəzifəsidir.

**Maddə 8. Naxçıvan Muxtar Respublikasında vətəndaşların səsvermə hüququ**

Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

Məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur.

Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

**Maddə 9. Paytaxt**

Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəridir.

**Maddə 10. Naxçıvan muxtar dövlətinin rəmzləri**

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

## II FƏSİL

## QANUNVERİCİLİK HAKİMİYYƏTİ

**Maddə 11. Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi**

Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir.

**Maddə 12. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin say tərkibi**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 deputatdan ibarətdir.

**Maddə 13. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin əsasları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər.

**Maddə 14. Naxçıvan Muxtar Respublikası Ali Məclisi çağırışının səlahiyyət müddəti**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyət müddəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

**Maddə 15. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığına namizədlərə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan, yaşı 25-dən aşağı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilə bilər.

II. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçilə bilməzlər.

**Maddə 16. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi**

Seçkilərin nəticələrinin düzgünlüyü qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir.



**Maddə 17. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətinin bitməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeni çağırışının ilk iclas günü bitir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlığından çıxanların yerinə seçkilər keçirilmir.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

**Maddə 18. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il iki növbəti sessiyaya yığılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyaları Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 deputatının tələbi əsasında və ya öz təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən çağırılır.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

**Maddə 19. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:

- seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;
- Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;
- cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;
- özü imtina etdikdə.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Bu haqda müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

**Maddə 20. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının toxunulmazlığı**

I. Səlahiyyət müddəti ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının şəxsiyyəti Naxçıvan Muxtar Respublikasında toxunulmazdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatını tutan orqan bu barədə dərhal Naxçıvan Muxtar Respublikası prokuroruna xəbər verməlidir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatının toxunulmazlığına yalnız Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə xitam verilə bilər.

**Maddə 21. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Naxçıvan Muxtar Respublikası Ali Məclisindəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

**Maddə 22. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz iş qaydasını müəyyən edir və Ali Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, daimi və başqa komissiyaları təşkil edir.

**Maddə 23. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktları**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz səlahiyyətlərinə aid məsələlər üzrə qanunlar və qərarlar qəbul edir.



II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunlar və qərarlar Azərbaycan Respublikasının Konstitusiyası və bu Konstitusiya ilə müəyyən edilmiş qaydada qəbul edilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları səs vermə hüququnu şəxsən həyata keçirirlər.

IV. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

**Maddə 24. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

- Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər;
- Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusu;
- Azərbaycan Respublikasının iqtisadi və vergi siyasətinə uyğun olaraq vergilər;
- Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətləri;
- sosial təminat;
- ətraf mühitin qorunması;
- turizm;
- səhiyyə, elm və mədəniyyət;
- Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanunlar qəbul edir.

**Maddə 25. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələləri həll edir:

- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili;
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi;
- Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi;
- Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi;
- Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təsdiqi;
- Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə etimad;

- bu Konstitusiyada nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərmanlarının təsdiqi;
- Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərarlar qəbul edir.

**Maddə 26. Qanunvericilik təşəbbüsü hüququ**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə mənsubdur.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qanunvericilik təşəbbüsü qaydasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verdiyi qanun və qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.

III. Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın razılığı ilə edilə bilər.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının, Naxçıvan Muxtar Respublikası Baş nazirinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etdiyi qanun və qərar layihələri iki ay ərzində səsə qoyulur.

V. Qanun və qərar layihəsini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikasının Baş naziri, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi təcili elan edibsə, bu müddət 20 gün təşkil edir.

**Maddə 27. Qanunların və qərarların imzalanması**

I. Qanunlar və qərarlar qəbul edildiyi gündən 10 gün müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən imzalanır.

II. Təcili elan olunan qanun və qərar layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən qəbul edildiyi gündən 24 saat ərzində imzalanır.

**Maddə 28. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktlarının qüvvəyə minməsi**



Qanunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Maddə 29. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən seçilir, ona tabedir və ona hesabat verir. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən geri çağırıla bilər.

II. Yaşı otuzdan aşağı olmayan, Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilə bilər.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin seçkisi qaydasını Naxçıvan Muxtar Respublikasının Ali Məclisi müəyyən edir.

**Maddə 30. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini itirdikdə, müəyyən edilmiş müddətdə yeni sədr seçilənə qədər onun səlahiyyətlərinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini, o da olmadıqda müavini tərəfindən yerinə yetirilir.

**Maddə 31. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifədən kənarlaşdırılması**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifədən kənarlaşdırılması qaydası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

**Maddə 32. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin səlahiyyətləri**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri:

Ali Məclisin növbədənkənar sessiyalarını çağırır;

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarına sədrlik edir;

Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edir;

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı öz mandatından imtina etdikdə və qanunla müəyyən edilmiş digər hallarda onu deputat mandatından məhrum edir;

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar qərar qəbul edir;

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavinliyinə namizədlərin seçilməsi və Ali Məclisin sədr müavinlərinin vəzifədən azad edilməsi barədə Ali Məclisə təklif verir;

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aparatını təşkil edir və onun rəhbərliyini təyin edir;

bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən digər məsələləri həll edir.

**Maddə 33. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri qərarlar qəbul edir.

## III FƏSİL

## İCRA HAKİMİYYƏTİ

**Maddə 34. Naxçıvan Muxtar Respublikasında icra hakimiyyəti**

I. Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının yuxarı icra orqanıdır.

III. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabedir və onun qarşısında müntəzəm hesabat verir.

**Maddə 35. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin statusu**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.



**Maddə 36. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibi**

I. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə Naxçıvan Muxtar Respublikasının Baş naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının nazirləri və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

**Maddə 37. Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

**Maddə 38. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclasları**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclaslarına, bir qayda olaraq, Naxçıvan Muxtar Respublikasının Baş naziri sədrlik edir.

**Maddə 39. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri**

I. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti

- muxtar respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;
- muxtar respublikanın büdcəsini icra edir;
- muxtar respublikanın iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;
- muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin edir;
- nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;
- Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

II. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iqtisadi və mədəni sahələrdə Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının Nazirlər Kabinetində təmsil edir.

**Maddə 40. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları**

I. Ümumi qaydalar müəyyən etdikdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları, başqa qayda müəyyən edilməmişsə, dərc edildiyi gündən qüvvəyə minir.

**Maddə 41. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, ali təhsilli, seçkilərdə iştirak etmək hüququna malik, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə yaşı 25-dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

**Maddə 42. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlərinə aid tələblər**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

## IV FƏSİL

## MƏHKƏMƏ HAKİMİYYƏTİ

**Maddə 43. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi**

I. Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

II. Məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

III. Məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının Konstitusiyası, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulan digər vasitələr ilə həyata keçirilir.

IV. Ədalət mühakiməsinin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.



VI. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədi ilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır.

**Maddə 44. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ümumi məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır. O, qanunla müəyyən edilmiş prosessual qaydalarda ümumi məhkəmələrin işinə nəzarəti həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini təmin edir. O, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədrinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

- Naxçıvan Muxtar Respublikasının qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına uyğunluğu;
- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının qanunlarına uyğunluğu;
- Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarına uyğunluğu.

III. Hər kəs onun hüquq və azadlıqlarını pozan Naxçıvan Muxtar Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından bu maddənin II hissəsinin 1-3-cü bəndlərində göstərilən məsələlərin Naxçıvan Muxtar Respublikasının Ali

Məhkəməsi tərəfindən həll edilməsi üçün, habelə bələdiyyə və məhkəmə aktlarından Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə qanunla müəyyən edilmiş qaydada şikayət verə bilər.

IV. Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətinin həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə şikayət verilə bilər.

V. Naxçıvan Muxtar Respublikasının məhkəmələri insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Naxçıvan Muxtar Respublikası qanunlarının şərh edilməsi haqqında qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə müraciət edə bilər.

VI. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

**Maddə 45. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi**

I. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi iqtisadi mübahisələrə baxılması üzrə məhkəmə orqanıdır.

II. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

**Maddə 46. Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

I. Naxçıvan Muxtar Respublikası Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada qanunların eyni cür və dürüst icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

II. Naxçıvan Muxtar Respublikası Prokurorluğu ərazi prokurorlarının Naxçıvan Muxtar Respublikası prokuroruna və Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

III. Naxçıvan Muxtar Respublikası prokurorunu Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifi əsasında Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin edir.

IV. Ərazi və ixtisaslaşdırılmış prokurorları Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikası Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin razılığı ilə



Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.

## V FƏSİL

## QANUNVERİCİLİK SİSTEMİ

**Maddə 47. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının hüquqi qüvvəsi**

I. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının digər normativ hüquqi aktları arasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasıdır.

**Maddə 48. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi**

I. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir.

II. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikası qanunvericilik sisteminə uyğundur.

III. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Naxçıvan Muxtar Respublikasının aşağıdakı normativ hüquqi aktlarından ibarətdir:

- Naxçıvan Muxtar Respublikasının Konstitusiyası;
- Naxçıvan Muxtar Respublikasının qanunları;
- Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərmanları;
- Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları;
- Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

**Maddə 49. Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktları**

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır.

II. Naxçıvan Muxtar Respublikasının qanunları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına zidd olmamalıdır, yalnız dərc edilmiş qanunların tətbiqi və icrası Naxçıvan Muxtar Respublikasında bütün

vətəndaşlar, icra hakimiyyəti və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərmanları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına zidd olmamalıdır. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərmanları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

IV. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarına zidd olmamalıdır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və sərəncamlarına, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aktlarına zidd olmamalıdır.

## VI FƏSİL

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR

**Maddə 50. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin və əlavələrin qəbul edilmə qaydası**

I. Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 35 səs



çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında təklif Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra təklif qanunlar üçün nəzərdə tutulmuş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə imzalamaq üçün təqdim olunur.

IV. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

## KEÇİD MÜDDƏALARI

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul edildikdən və Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il mayın 30-da qəbul edilmiş Naxçıvan Muxtar Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşür.

Naxçıvan Muxtar Respublikasının xalq deputatlarının səlahiyyətləri yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclas günü başa çatır.

Yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin azı 31 deputatının seçildiyinin elan edildiyi gündən sonra bir ay ərzində keçirilir.

1995-ci il sentyabrın 12-də qəbul edilmiş «Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında» Naxçıvan Muxtar Respublikası Qanununun 79-cu maddəsi bu Qanun əsasında seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.

Bu Konstitusiyanın qəbul edildiyi günədək Naxçıvan Muxtar Respublikasının ərazisində qüvvədə olan Naxçıvan Muxtar Respublikasının qanunları və başqa normativ hüquqi aktları bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

# ƏDƏBİYYAT SİYAHISI


1 1921-ci il Konstitusiyası, Azərb. MİK-in nəşriyyatı, Bakı, 1926

2 1937-ci il Konstitusiyası, 1937 Azərb. MİK-in nəşriyytı

3 1978-ci il Konstitusiyası, 1978 Azərnəşr

4 1995-ci il Konstitusiyası, 1995, Azərnəşr.

5 Heydər Əliyev, «Müstəqilliyimiz əbədidir», 1-ci cild, Bakı-1997, Azərnəşr

6 Heydər Əliyev, «Müstəqilliyimiz əbədidir», 2-ci cild, Bakı-1997, Azərnəşr

7 Heydər Əliyev, «Müstəqilliyimiz əbədidir», 3-cü cild, Bakı-1997, Azərnəşr

8 Ramiz Mehdiyev, "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" 2008

9 Ramiz Mehdiyev, "Azərbaycan: Qloballaşma dövrünün tələbləri" 2005

10 Ramiz Mehdiyev, "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" 2001

11 Ramiz Mehdiyev, "Demokratiya yolunda: irs haqqında düşünərkən" 2007

12. Ramiz Mehdiyev, "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" 2003

13. Ramiz Mehdiyev, "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", 2006

14 Ramiz Mehdiyev, "2005-ci ilin parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr, proqnozlar)" 2005

15 Ramiz Mehdiyev, «Yeni siyasət: İnkişafa doğğru», I cild, 2008





16 Ramiz Mehdiyev, «Yeni siyasət: İnkişafa doğğru», II cild, 2008

17. «İnsan hüquqları», bülleten №1, 1998, «Azərbaycan» nəşriyyatı

18. «Kommunist» qəzeti, 20 aprel, 1978, №93 (16833)

19. «Kommunist» qəzeti, 23 aprel, 1978, №96 (16836)

20. «Azərbaycan» qəzeti, 2 noyabr, 1995, №210 (227)

21. «Azərbaycan» qəzeti, 4 noyabr, 1995

22. «Azərbaycan» qəzeti, 7 noyabr, 1995

23. «Azərbaycan» qəzeti, 8 noyabr,1995, №214 (1231)

24. «Azərbaycan» qəzeti, 13 noyabr, 1995

25. «Azərbaycan» qəzeti, 14 noyabr, 1995

26. «Azərbaycan» qəzeti, 22 noyabr, 2007

# HEYDƏR ƏLİYEV

# VƏ

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

Dərs vəsaiti

**Seyidov Ənvər Cümşüd oğlu,**

hüquq elmləri namizədi, dosent

Çapa imzalanmışdır: 25.01.2009. Kağız formatı 60/84.
Çap vərəqi 16. Sifariş 9.